ART VS XAOS



QARAQAN

Emin, heç olmasa, bunu oxu...

Mündəricat



BİRİNCİ HİSSƏ. ART

İntizar 11
"Art və Xaos" hosteli 22
"Art & Chaos" hostelinə xoş gəlmisiniz 34
Qəribə böyüklərin evi 49
Meqanla bir gecə 68
Xloe qarğıdalı lopalarını sevmir 75
Dialoqlar. Zakariya 84
Tüstü və qızardılmış kartofla ikiqat yuxusuzluq 91
Tobinin saxta faktları necə uydurması haqqında 101
Və 7-ci gün Allah qərara aldı ki,
weekend lazımdır 120
Post-dini sindrom 142
Jerar Monteskyö və onun gözəl xanımı
Nadinlə müsahibə 147
Seks baş verir 152
Ballı ay 160
Sodomun son günləri 168
Xaosun başlanğıcı 182
Xloesiz dörd gün 197
Xloe parçalar halında 207
Dünya həqiqətə sürüklənib 212
Üçqat vəfalı 220

Xloe parçalar halında.....228
Xloenin axtarışında və
metamorfozun başlanğıcı.....231
Zaman sahəsi.....235

İKİNCİ HİSSƏ. XAOS

Damaqda qalan dad.....243
Xloe parçalar halında.....262
Maylzın arzusu.....264
Xloe parçalar halında.....284
Səhnə arxasında.....293
Nyu-York boyda barama.....297
Lütfən, mənə "Animal Style" nəsrini verin.....304
Doğum günün mübarək, "Xloe" albomu.....316
Möcüzələr ölkəsində.....327
Unut, Eyden, unut.....337
Mərkəzi park bütün gözəlliyi ilə.....341
Qeyri-iradi sevgi.....355
Portlend, Men.....357
Dad.....367
Epiloq.....373

Bu böyük alma tezliklə mənim boğazımda qalacaq. Bunu hiss edirəm. Nəhayətsiz göydələnlər... Mən onları ilk dəfə görəndə anladım ki, Lavkraftın[1] "Ağılsızlıq sıra dağları" yazıçı düşüncəsinin bölüşə biləcəyi əsl həqiqət imiş. Adamın hər yerindən çıxaraq göyə ucalan nəhəng daş, metal və şüşə parçaları... Manhetten tamahkar kirpi kimidir – Allahın hərdənbir göydən tulladığı almaların hamısını belindəki beton iynələri ilə tutmaq istəyir. Birinci alma Adəmin, ikincisi Nyutonun, üçüncüsü Cobsun.[2]

Hərə öz almasını yalnız bircə dəfə dişləyə bilmiş, qalanı yüzmərtəbəli metal iynələri olan bu tamahkar kirpiyə qismət olmuşdu. Nyu-York hər şeydən çox insan talelərini yeməyi, üstündən də zibil qutusuna atılmış, tərdən duz bağlayıb xırçıldayan şəxsi məlumat vərəqələrini udmağı xoşlayır. Və sən 5-ci avenyudakı, üstündə "Hər insanın içində böyüklük ifadə edən

[1] XX əsr Amerika yazıçısı H.F.Lavkraft; dəhşət və fentezi janrlarında yazdığı əsərlərlə məşhurdur.

[2] Amerikalı sahibkar və ixtiraçı Stiv Cobs, məşhur "Apple" korporasiyasının yaradıcılarından biri

nəsə var" sözləri yazılmış reklam lövhələrini oxuyanda başa düşürsən ki, onlar ayfonu nəzərdə tuturlar.

Mən "Le Pain Quotidien"də oturmuşam. Bura adı fransızcadan tərcümədə "gündəlik çörək" mənasını verən bir restorandır. Bu restoran bir-birinə yad olan insanları birləşdirən, bununla da, bir növ, yarımçıq yaxınlıq aurası yaradan ümumi uzun masası ilə məşhurdur. Bu, Nyu-York metrosunun vaqonlarında hiss etdiyin yaxınlığa bənzəyir: bir-iki santimetr də yaxınlaşsan, yanındakı sarı geyimli qıza toxunacaqsan, amma aranızda saysız-hesabsız fikirlərdən və sükutdan ibarət böyük bir uçurum var. Bir vaxtlar çinlilər insanları və onların dünyalarını bir-birindən ayıran sədd tikirdilər, indi isə həmin işin öhdəsindən heç də pis gəlməyən qulaqlıqlar düzəldirlər.

Amma Nyu-Yorkla nə işimiz var...

Mən sizə tamamilə başqa bir hekayə danışmaq istəyirəm. İntizar və damaqda qalan dad haqqında hekayəni...

BİRİNCİ HİSSƏ



ART[1]

[1] İncəsənət

İntizar



Bir intizar içindəyəm. Oturub taxta masanın üstünə baxıram, sonra baxışlarım mətbəxin yuxarı rəflərində dolaşır. Onun saçlarına tamaşa edirəm. Sonra çiyinlərinin yarğanından "AppStore"[1] uçurumuna yuvarlanıram.

O qız mətbəxə girən kimi mənim beynimdə "liftin içi" rejimi işə düşdü. Liftin içində olanda bilmirsən hara baxasan, gözlərin hər hansı bir şey – hansısa bir yazı, ya bir düymə, ya hansısa bir vint axtarır ki, ona zillənsin və kənar adamların baxışları ilə qarşılaşmasın. Kənar adam isə o qız idi. Mən gözlərimin ipini yığmağa cəhd edənədək qulaqlarım şəkləndi və ən sürətli, ən əhəmiyyətsiz səsləri də eşitməyə başladı. O an, bitib-tükənmək bilməyən həmin an – onun cümə günü, səhər, qəfildən hostelin mətbəxinə girib öz boşqabına qarğıdalı lopaları tökdüyü an... Onlar böyük kəpəyə bənzəyən qəhvəyi-narıncı lopalar deyil. Yumru, tünd-qəhvəyi rəngli, şokoladlı lopalardır. Lopa qutusunun üstündəki hansısa cizgi filmindən olan şir düz gözümün içinə baxaraq gülümsəyir. Özümü yolunu azıb başqa səmtə qaçmış ceyranlar kimi hiss edirəm. "Google Chrome" əlavəsinə, sonra

[1] Mobil telefonlar, kompüterlər və s. üçün onlayn əlavə tətbiqlər mağazası

"Facebook"a, daha sonra "Instagram"a baxıram, səhifələri vərəqləyirəm, "iPhone" kalkulyatoruna göz gəzdirirəm. Bilmirəm, özümü məşğul kimi göstərmək üçün daha nəyə baxım.

Elə bu vaxt gözlərim nəzarətdən çıxır və onun gözlərinə dikilir. Bu "Eye Contact"[1] nə pis şeymiş! İlahi, bu nə dəhşətli bir şey imiş! Sanki şən və gonbul bir oğlan çox təmiz olan şüşə qapını görmür və saniyədə 4 metr sürətlə ona çırpılır. Hə, bu məhz intizar çəkmənin həmin anıdır – mənim Nyu-Yorkdakı dördüncü ayım, bu hosteldəki üçüncü gecəm və Xloe ilə rastlaşmağımın ikinci dəqiqəsi.

Lopalar boşqabın içinə yavaş-yavaş düşür – Kianu Rivzə doğru uçan güllələr kimi, Meksikanın bayağı porno filmlərinin hərəkəti ləngidilmiş kadrlarındakı duşdan tökülən damcılar kimi... Mənim duyğularım itiləşib, adrenalinin damarlarımda necə axdığını da eşidirəm. Bu şoğərib adrenalini lap bir kilometrdən tanıyıram. Biz uzun müddətdir ki, onunla yoldaşıq, çox tez-tez rastlaşırıq. Mən təyyarə ilə uçub "Yeni dünya"ya gələndə elə bilirdim ki, onu orada qoymuşam. Amma o hansı yollarlasa gəlib yanımda peyda olub. Biz insanlar hava limanlarındakı yoxlamaların bütün mərhələlərindən asanlıqla keçən ən böyük narkotik qutularıyıq. Bizim damarlarımızı və beynimizi dolduran dopamin, adrenalin, oksitosin, melatonin

[1] Göz təması

və başqa qadağan olunmuş vasitələr... İnsan bədəni ən böyük gizli narkotik fabrikidir.

Qarğıdalı lopası qutusunun üstündəki şir mənə baxıb gülümsəyir. Xloe öz qəlyanaltısına baxır, sanki qaşıqla tanış olmağa çalışır. Bir anlığa mənə elə gəlir ki, qaşıq indicə onun baxışının təsirindən əyiləcək. Amma yox, hələlik hər şey tamamilə gerçəkdir. Bu Xloe kimdir, onu kim fıkirləşib? Onu kim bu şəkildə layihələşdirib? Onda qeyri-adi nə var? Bu suallar mənə ömrüm boyu əzab verəcək. Lənət olsun, axı onda qeyri-adi nə var idi ki, mənim bütün düşüncələrimi alt-üst etmişdi?!

Mən Nyu-Yorka... Necə deyim... Sonu "-stan"la bitən bir ölkədən gəlmişəm. Həmin "Stan"lardan birindən. Nyu-Yorkda hansı ölkədən gəldiyini kiməsə demək istənilən şəhərin mərkəzində bahalı bir restorana girib administratora metronun hansı stansiyasından gəldiyini bildirmək kimi bir şeydir. Axı bu onun nəyinə lazımdır? Nyu-Yorkda sənin hansı ölkədən gəldiyin, bax belə mənasız səslənir. "Google Maps"ı açırsan, sənin "Stan"ının təxminən harada yerləşdiyini göstərməyə çalışırsan və bu zaman özün "əcaibstan"a çevrilirsən. Odur, bax orada, Rusiyadan aşağıda... Yox, ora İraqdır... Bura isə İran... Bir az yuxarı... Yox, ora Çeçenistandır. Bax, bax, buradır...

Ciddi sözündür? Sən Nyu-Yorkda yaşayan birinə izah etmək istəyirsən ki, İranla Rusiya, İraqla Çeçenistan

arasında yerləşən hansısa bir ölkədən gəlmisən? Axı sən bununla adamın həftəlik yoqasını tamamilə korlaya bilərsən. Axı bu adam bütün həftə boyunca özünə təlqin etməyə çalışıb ki, onu dəhşətli dərəcədə qorxudan şeylər haqqında fikirləşməyəcək. Bu ona bənzəyir ki, sən birinə qrip olduğunu deyəsən, sonra da ona tərəf asqırasan.

Savadlı avropalılar nyu-yorkluların coğrafiyanı yaxşı bilmədiyini söyləyəndə başa düşmürlər ki, nyu-yorklu üçün coğrafiya elmi dünyanın qalan hissəsinin Nyu-Yorka aparan yolu tapmaq cəhdindən ibarətdir. Coğrafiya, sadəcə, xəritə və atlaslardakı köhnə dəbli GPS – naviqasiya sistemidir. Nyu-yorklu üçün Nyu-York metrosunu tanımaq kifayətdir. Onun bütün coğrafiyası budur.

Beləliklə, mən Nyu-Yorka "xəritədəki həmin qırmızı nöqtə"dən gəlmişdim və bir neçə cəhddən sonra qərara aldım ki, daha bu mövzuda danışmaq lazım deyil. Bir müddətdən sonra isə anladım ki, deyəsən, haradan gəldiyimi məndən soruşan da yoxdur. Ona görə yox ki, mən öz vətənimi sevmirdim, yaxud utanırdım, yox, qətiyyən yox! Sadəcə, burada həmin mövzu artıq köhnəlmişdi. Bu o qədər də vacib deyildi. Dostlarımızın hansı qan qrupundan olduğu bizim üçün necə vacib deyildirsə, insanın haralı olduğu da burada o dərəcədə vacib deyil. Axı biz heç dostlarımızın qan qrupu haqqında fikirləşmirik.

Düşünürəm ki, bir-birimizi yaxından tanımağın vaxtıdır. Bəri başdan deyim ki, mən sizin xoşunuza gəlməyəcəyəm. Artıq başa düşdüyünüz kimi, mən "demək olar ki, Yaxın Şərq"dənəm. Amma mən Yaxın Şərq yazıçılarının əsərlərindəki ataları tərəfindən zorlanan, yaxud minaya düşüb ayağını itirən qəhrəmanlara bənzəmirəm. Təəssüf ki, mən o qədər də maraqlı deyiləm. Amma yox, əslində mən çox maraqlıyam. Adım Aydındır. Öz kiçik ölkəmin rok-ulduzuyam.

Indi bunun necə axmaq bir vəziyyət olduğunu başa düşürsünüz? Mən Nyu-Yorka gələndən iki həftə sonra bunu anladım. Biri ilə ünsiyyətdə olanda Amerikaya qaçmazdan əvvəl zirzəmidə yaşadığını və bu səbəbdən də səndə revmatizm olduğunu demək daha asandır, nəinki sabitliyin mövcud olmadığı həmin bölgənin həmin nöqtəsində, 3 milyon insanın yaşadığı sabit bir şəhərin olduğunu izah etmək. Üstəlik, orada qəhvəxanalar, gecə klubları, parklar, bir neçə göydələn, televiziya və əlbəttə, rok-qruplar da var. Hətta onlardan bəziləri keyfiyyətli musiqilər də yazır, məşhurlaşır, kliplər çəkdirirlər. Onların da öz pərəstişkarları, həqiqətən, gözəl tərtib olunmuş divar posterləri var və onlardan da müsahibə alırlar...

Bunun necə mənasız səsləndiyini başa düşürsünüz? Hərçənd "mənasız" sözü bura uyğun gəlmir, "təbii, zövqlü, dəbli səslənmir" demək daha doğru olar. Bu rok-ulduz oğlanın İranla Rusiya arasındakı hansısa bir ərazidə peyda olması isə heç uyğun gəlmir.

Ümumi təsəvvürə görə, orada yalnız güllələr, bombalar və Islam olmalı idi. Bu, yaponun, yaxud çinlinin alman operası oxuması kimi bir şeydir. Zahirən heç bir fərq yoxdur. Səs var, musiqi gözəldir, uzun saçlı, üzü təmiz qırxılmış çinlinin özü də birinci cərgədə oturmuş qonaqların üzünə gülümsəyir. Hər şey əladır, amma yenə də nəsə yerində deyil.

Ev iquanası – olar, ev qurbağası - uyğun gəlmir; suşi – mümkündür, amma qəlyanaltı kimi yox; baş rollarda Bred Pitt – çox yaxşı, Kolin Farrell – o qədər də yox. Bu nə üçün belədir? Heç kim bilmir. Bu nəsə bir mistikadır. Mən özüm də təbii deyiləm – Suriya və İranın arasındakı hansısa bir yerdən olan məşhur rok-ulduz. Sən rok-ulduz deyilsən, həbsxanada vecsiz bir kitabxanaçısan. Kim bilir, haradan gəlmiş hansısa məşhur! Sən əvvəl İran, sonra isə "rok-star" sözlərini dediyin zaman bu mürəkkəb söz birləşməsi dərhal iki sadə sözə bölünür. "Rok" nə deməkdir, qaya? Bəs "star" nədir, ulduz? Təxminən belə bir mənzərə alınır – sən qayanın üstündə oturmusan, göydə ulduzlar var, yaxınlıqda isə xoşbəxt bir qoyun o yan-bu yana qaçır... Vəssalam. Sən üçqat xoşagəlməz olursan! Birincisi, kim bilir, haradan gəlmisən. İkincisi, sən kasıb deyilsən. Üçüncüsü, sadəcə, xoşagələn deyilsən, vəssalam! Maaşa işləyən Kurt Kobainsən![1]

[1] Amerikalı müğənni, məşhur "Nirvana" rok-qrupunun üzvü

Bəs mən özümə qarşı xüsusi diqqət istəyirdimmi? Əksinə, mən elə bundan qaçmışdım. Burada heç bir pərəstişkarım yox idi. Mənimlə şəkil çəkdirmək, yaxud məndən avtoqraf almaq istəyən bircə nəfər də pərəstişkara rast gəlmədən, rahat şəkildə Nyu-York metrosunda "Canal Station"dan "Union Square"[1] stansiyasınadək hərəkət edə bilərdim. Öz ölkəmdə isə günəş eynəyi olmadan şəhərə çıxmağım mümkün deyildi. Daim hamıdan gizlənməli, yalnız kiçik və məşhur olmayan kafe və restoranlarda oturmalı, heç bir ictimai nəqliyyatdan istifadə etməməli, öz maşınımda yol getməli idim. Gənclərin xoşladığı hər şey – parklar, ticarət mərkəzləri, mağazalar mənim üçün maneə idi.

Şübhəsiz ki, bəzi üstünlüklər də vardı. Məsələn, hava limanından məni tez keçirirdilər, gecə klublarının bütün VIP divanlarında mənim üçün boş yer olurdu. Hə, bir də mən işləmirdim. Mənə, sadəcə, mahnı oxuduğuma görə pul verirdilər. Lakin 25 yaşım tamam olanda, elə bil yuxudan ayıldım. Başa düşdüm ki, mənim həyatım iştirak etmək istəmədiyim hansısa bir realiti-şouya çevrilməkdədir. O zaman yeni musiqi albomu yazdırmaq bəhanəsi ilə Nyu-Yorka getmək qərarına gəldim. Amma əslində, sadəcə, dincəlmək, fasilə vermək, öz həyatıma kənardan baxmaq, dünyanı qavrama reseptorlarımı təzələmək istəyirdim.

[1] Birlik meydanı

Mən burada tamamilə sərbəst idim. Küçədə çirkli pilləkənlərin üstündə otura, küçədə hazırlanan yeməkləri yeyə, ev paltarında həyətə düşüb koka-kola ala bilirdim. Burada istədiyin vaxt aşağı düşüb kola almaq mümkün idi. Sifariş vermək, başqasından xahiş etmək lazım deyildi, bunu özün, ev ayaqqabılarında aşağı düşüb edə bilərdin. Bəs mən uzun müddət qurduğum bir şeyi nə üçün dəyişdirmək istəyirdim? Özüm seçdiyim bir şeydən nə üçün imtina etmək istəyirdim? Cavabı çox sadə idi. Axı mən onu seçəndə həddi-büluğa çatmamışdım. Hətta pasportum da yox idi, hələ uşaq idim.

Mən ilk hitimi yazanda cəmi 18 yaşım vardı, bir aydan sonra isə ilk demomu[1] internetə qoymuşdum. Bu, adi bir demo idi. Mənim mikrofonla ilk təcrübəm... Növbəti gecə məclisimiz vardı. Dostlarımızın hansısa bir dostunun boş səsyazma studiyasında idik. Bizim hamımızı indi adını unutduğum bir qız tanış etmişdi.

"Gəlsənə bir mahnı yazaq?! Elə-belə, əyləncə üçün. – Yazaq. Bəs kim oxuyacaq? – Hmm, mən özümü sınaya bilərəm. Bəs sözləri haradan tapaq? – Gəlin Genius saytından çırpışdıraq..."

Beləcə əyləncə xatirinə, mən özümün birinci mahnımı lentə yazdım.

Ertəsi gün isə həmin "dostlarımızın dostu" mənə zəng vurur və deyir ki, bu, əməlli-başlı hitdir, tutacaq,

[1] Hər hansı bir məhsulun ilkin, sınaq versiyası

bunu buraxmaq lazımdır. Fikirləşirəm ki, o mənə nəsə satmaq, ya mahnıları birləşdirmək, ya hansısa effektlər artırmaq istəyir. Ona deyirəm ki, dostum, bu mənə lazım deyil, nə istəyirsən elə. Sonra nələr baş verdiyindən xəbərim olmur. Amma bir gün küçədə öz səsimi eşitməyə başlayıram. Oxuduğum mahnı səs sürəti ilə yayılır. Hərçənd mahnı məhz elə səs sürəti ilə yayıla bilərdi. Nəticədə, çox qısa bir vaxt ərzində əsl hitə çevrilir. Mən bunu yanımdan keçən maşından öz səsimi eşidəndə anlayıram.

Beləcə 20, heç olmasa, 21 yaşda başlanmalı olan bir şey mənim həyatımda 18 yaşda başlayır. Amerika qanunlarına görə, sən 21 yaşınadək mağazadan heç pivə də ala bilməzsən. Çünki bu zəhrimar sənin bədəninin kimyəvi tərkibinə təsir göstərir, başını dumanlandırır. Bəs indiyədək niyə heç kimin ağlına gəlməyib ki, birdən-birə ölkənin ən gənc məşhur müğənnisinə çevrilən adamın bədəninin kimyəvi tərkibinin nə dərəcədə dəyişdiyini yoxlasın? 1 layk nikotindir, 100 layk şərab, 1 milyon "YouTube" izlənməsi, lənət olsun, artıq heroin, kokain... Beləcə layk ardınca layk gəlir və mənim bütün həyatım dəyişir.

Sonra konsertlər, posterlər, müsahibələr... Mənə həyatın mənası haqqında suallar ünvanlayırlar, mən də onlara kəskin, bayağı cavablar verir, ağlıma gələni deyirəm, təki iddialı səslənsin. Öz müsahibələrimə qulaq asmaqdan zəhləm gedir. Siz nə vaxtsa özünüzün iki il əvvəl çəkilmiş videonuza baxmısınızmı? Xoşagəlməz

mənzərədir. Gülməli saç düzümünüz, nazik səsiniz, qəribə geyiminiz var. Gənclik ifratçılığı, nihilizmi, idiotizmi, seksizmi, Kurt Kobeinizmi – bütün bunlar mənim içində bişdiyim bulyona çevrilir.

Beləcə düz beş il keçir və bir gün bütün bunların səni necə təngə gətirdiyini anlayırsan. Mən çoxlarının belə bir şeyin arzusunda olduğunu bilirəm. Artistlərin çoxu illərlə çalışır ki, nəzərə çarpan, dəyərli bir şey yazsın. Amma bilirsinizmi, erkən məşhurluğun ən dəhşətli cəhəti nədir? Bunun narkotiklər, seks, yaxud təkəbbür olduğunu düşünürsünüz? Yox. Bunlar boş şeylərdir. Ən dəhşətlisi budur ki, sən kim olmaq istəyirdinsə, artıq ona çevrilmisən. Sən nəyinsə arzusunda idin və artıq buna nail olmusan. Amma istəyinə hələ 18 yaşında ikən çatmaq dəhşətli bir şeydir. Bu ona bənzəyir ki, 9 yaşında ikən bədəninə şəkil döydürəsən. Siz təsəvvürünüzə gətirə bilirsiniz ki, 9 yaşınızda bədəninizə hansı şəkli döydürərdiniz? "Spider Man", yoxsa "Sponge Bob" tatularını? Bəlkə, "Bu, əla tatudur" sözlərini? Bax erkən populyarlıq sənin başına bu cür oyunlar açır. Sən hələ qadınla yatmamısan, Lars von Trierin[1] filmlərinə baxmamısan, Dostoyevskini oxumamısan, dostluğa şübhə etməyə başlamamısan. Lakin artıq şəxsiyyətsən, danışmağa haqqın çatır. Sən pul qazanırsan və kütləni özünə heyran edə bilirsən. Sən çox məşhursan, hamı sənin kim olduğunu bilir. Sənin özündən başqa hamı...

[1] Danimarka kinorejissoru və ssenaristi

Təxminən 24 yaşımda, çoxlu konsertlərdən, fotosessiyalardan, ən reytinqli verilişlər üçün müsahibələrdən və studiyada yazılmış dörd musiqi albomundan sonra başa düşürəm ki, mən əslində introvert[1] insanam. Insanlar məni yükləyirlər. İnsanlar yox, insan kütlələri. Xüsusilə də, hamısı mənə baxdığı zaman. Bu mənim üçün kabusa çevrilib. Üstəlik, onlar istəyir ki, mən mikrofonu əlimə alıb onlara nəsə deyim. Onlar bunu, sadəcə, istəmirlər, onlar bunun üçün pul veriblər və oturub mənim mikrofonu nə vaxt əlimə götürəcəyimi gözləyirlər.

Bəzi hallarda mən başqa bir adama çevrilirəm. Elə səhnədə olduğum vaxt məndə metamorfoz baş verir. Mən pop nəqəratlı ritmik mahnıların müəllifiyəm, konsertin içində birdən prodüserdən xahiş edirəm ki, növbəti mahnı səslənəndə səhnəyə stul qoyulsun. Səhnəyə çıxıb öz həyat tarixçəmdən, uşaqlığımla bağlı hansısa sarsıntılardan danışıram. Sanki konsertdə deyil, anonim alkoqoliklər klubundayam. Mənim ağlım artır, böyüyür və bir rokerin arıq çiyinlərinə ağırlıq edir.

[1] Qapalı; tənhalıq və rahatlıq sevən

"Art və Xaos" hosteli



Əslində mənim əhvalatım məhz Xloenin qarğıdalı lopalarını boşqaba səpələdiyi andan başlanır. Mənim sizinlə bölüşmək istədiyim və bölüşməli olduğum hər şey yalnız onunla bağlıdır. Xloe və hostel haqqındakı bu əhvalatda mən yalnız epizodik roldayam. Deyəcəksiniz ki, hostelin bura nə dəxli var. Məsələ burasındadır ki, bura, sadəcə, hostel deyil. Bura qeyri-adi hosteldir. Onun adı da qəribədir – "Art və Xaos". Bunu "arthaus"la[1] qarışdırmayın.

Onun adının nə üçün belə olduğunu yalnız hostelə daxil olduqdan sonra öyrənirəm. Daha doğrusu, ondan – Xloedən sonra... Bu isə belə baş verib.

Mən beşinci ay idi ki, Nyu-Yorka gəlmişdim və özümü tamamilə azad hiss edirdim. Nyu-York dünyanın ən yaxşı şəhəridir – bununla razılaşmamaq çətindir. Sən bunu "Times Square" meydanında anlamırsan, şəhərdən ucuz hind xörəyi ilə bahalı qadın ətiri olan "Hermes"in qarışıq qoxusu gələndə anlayırsan... Sən bunu Brodveydə yeridiyin zaman anlamırsan, sadəcə, yüzlərlə başqa insanla birlikdə qırmızı işıqda yolu keçdiyin zaman anlayırsan və birdən görürsən ki, lənət şeytana, bu ki fləşmobdur... Sən bunu

[1] İncəsənət evi

ağlardan aşağıda, çinlilərdən yuxarıda dayandığına, dərinin sarışınlardan tünd, afroamerikalılardan açıq olduğuna fikir verəndə anlayırsan. Anlayırsan ki, sən qızıl ortasan...

Nyu-York əhalisinin 40 faizi öz evində ingilis dilində danışmır. Burada çoxlu qanunsuz miqrant var. Pasportu cırıb azad olmaq poetik romantizmin deyil, meksikalı olmağın əlamətidir. "Nə vaxtsa təyyarəyə oturub Çinə uçacağam, axı Çin başqa bir planetdir" fikri Nyu-Yorkda keçmir. Çünki burada Çin başqa planet deyil, metronun digər stansiyasıdır, daha doğrusu, Bruklində "Avenue 8" stansiyasıdır. Salt Bae[1] Manhettenin mərkəzində öz steyklərini qızartdığı bir vaxtda, ondan cəmi 15 dəqiqəlik məsafədə çinlilər qurbağa və hisə verilmiş toyuq başları satır.

Nyu-York şəhər deyil, sanki Yer planetinin kiçik variantıdır. Mən bu Yer planetində, Uilyamsburqda özüm üçün ev tutmuşdum. Bura Bruklinin bir rayonudur, Manhettendən cəmi üç dayanacaq aralıda yerləşir. Orada, Manhettenin göydələnləri arasında özünü balaca bir böcək kimi hiss edirsən, harada olduğunu görmür və anlamırsan. Uilyamsburqdan isə Manhettenə çox gözəl bir mənzərə açılır. Sürətli katerlərin hərəkətindən su möhkəm dalğalanaraq öz axınını dəyişir. Bir növ, süni burulğan əmələ gəlir. Sanki nəhəng bir uşaq öz şəkərli kakaosunu qarışdırır.

[1] Məşhur türk qəssab və aşpaz Nüsret Gökçe

Adanın digər tərəfində, Hudzonda da eyni hal yaranır. Orada da katerlər və su taksiləri körfəzin suyunu süni burulğanın içinə çəkərək dünyanın ən böyük cakuzisini yaradırlar. Dövlətli kirpi Manhetten öz qızlarını – sarışın Bruklini və mulat Kvinsi qucaqlayaraq həmin cakuzinin içində uzanıb.

Uilyamsburq Nyu-Yorkun aktyor və yazıçılarının, musiqiçi və rəssamlarının evidir. Bura şəhərin ən hipster[1] ruhlu rayonudur, burada uzun saqqallı, çəhrayı şalvarlı oğlanlar cəmləşib. Uilyamsburq gecələr yatmır, səhər tezdən isə yoqa ilə məşğul olur. Rayon əhalisinin 90 faizi fərqli, qəribə, istedadlı və pullu gənclərdir. Uilyamsburqun özü də sakinləri kimi tamamilə tatulara bürünüb. Onun divarları qraffiti ilə doludur, həm də bunlar adi qraffiti deyil, onların arasında Benksi[2] rəsmləri də var. Burada yazıçılarla görüşlər keçirilir, həm də adi yazıçılarla yox, Çak Palanik kimi yazıçılarla. Hər adamın bu rayonda yaşamaq imkanı yoxdur. Amma hər halda, Manhettenin olduqca yüksək qiymətləri ilə müqayisədə bu rayonda yaşamaq daha əlverişlidir. Mən də elə orada məskunlaşmışdım.

Mən, sadəcə, gəzib-dolaşır və əylənirdim. Tədricən bekarçılıq məni bezdirməyə başladı. Yavaş-yavaş

[1] Xüsusi geyim tərzi olan, alternativ musiqiyə və müasir incəsənətə üstünlük verən gənclər

[2] "Banksy" (ing.) – küçə rəsmləri və heykəlləri ilə bütün dünyada məşhur olan, adını gizli saxlayan rəssam, rejissor və siyasi aktivistin təxəllüsüdür.

"Amazon"dan mənzilimə qutular gəlməyə başladı. Gah mikrofon, gah "Scarlett" səs xəritəsi, gah "Casio"dan MIDI klavişlər. Mən uşaq otağında özüm üçün "Home Studio" qurmağa başladım – ilk övladım burada doğulacaqdı. Mənim çox mühüm bir dinləyici üçün – özüm üçün nəzərdə tutduğum ilk albomum. Bu, vaxtilə razılaşdığım bütün kommersiya layihələrinə görə bir təsəllim idi.

Gözlərimi yumub yeni musiqi alətlərinin və "Amazon"dan gəlmiş penoplastın qarışıq qoxusunu içimə çəkirəm və barmaqlarımı yüngülcə klavişlərin üstünə endirirəm. İlk akkord səslənir, tritonu eşidirəm və elə həmin anda küçədə bir səs "God damn"[1] deyə kimisə lənətləyir. Diksinirəm. Lənətə gəlmiş triton! Musiqiçilər tritonu həm də "iblis akkordu" adlandırır. Hətta orta əsrlərdə bu akkord şeytani bir şey kimi kilsə tərəfindən qadağan olunubmuş. Başa düşürəm ki, bu heç də yaxşı bir başlanğıc deyil. Ya da pis bir şeyin başlanğıcıdır.

Elə bu vaxt qonşum qapını döyür. Küçədə çığıran da qonşum imiş. O öz evinin açarını axşam birlikdə olduğu qıza veribmiş, səhər işdən qayıdanda isə qapıya bir kağız yapışdırıldığını görür: "Alçaq, sənə nifrət edirəm. Good Bye, Forever!"[2] və dodaq boyası ilə qoyulmuş öpüş.

Mən qapını açıram və qonşum deyir:

[1] Təxminən "Allahın lənətlədiyi" mənasını verir.
[2] Əlvida

– Bax belə bir zibilə düşmüşəm, dostum. Ağılsız ləçər! Evin qapısını da bağlayıb, çıxıb gedib. Amma qapı, adətən, arxa həyətdən açıq olur. İcazə versəydin, sənin pəncərəndən həyətə keçərdim.

Əlbəttə, qonşuya kömək etməkdən yalnız şad olaram, amma mənzilimin arxa həyətə baxan pəncərəsi uşaq otağında yerləşir. Bütün introvert təbiətimlə hiss edirəm ki, mənim ev studiyam onun diqqətindən yayınmayacaq. Mənim afroamerikalı qonşum Maylz yüz faiz buna bənzər sözlər deyəcək: "Damn, mother fucker, you got a dope studio, dude! Hip Hop shit?[1] Bu bir ay ərzində nə üçün musiqiçi olduğunu deməmisən?" Sonra da, şübhəsiz ki, arxa cibindən köhnə bir CD çıxaracaq və deyəcək: "Bir buna qulaq as". Sonra da onun musiqisinə qulaq asacağıq. Əminəm ki, o məni bütün albomu dinləməyə məcbur edəcək.

– Bir bunu da qoy, dostum. Bir mənaya fikir ver. Mən bu zibili "kayf" altında yazmışam.

Budur, biz oturub onun albomuna – çoxlu təcavüz, faciə, seks, narkotik, ana haqqında sətirlərin olduğu tipik hip-hop albomuna qulaq asırıq. Albomun sonunda isə o belə bir nəticəyə gəlir: bütün qızlar fahişədir, bütün dostlar çuğuldur, bütün normal kişilər isə həbsxanada yatırlar. Maylz iri gözlərini mənə zilləyərək fikir bildirməyimi gözləyir. Mən sözləri

[1] Lənət olsun, sənin dopinq studiyan varmış, dostum! Hip-hop zibili...

əzbərləyibmişəm kimi üyüdüb tökürəm: "Dostum, bu ki əla şeydir, bomba kimi partlayacaq!"

Bu sözlərdən sonra Maylz daha da açılışır. Mənə öz işi haqda danışmağa başlayır. Belə məlum olur ki, o, "Bank of America"nın əməkdaşıdır, hətta deyəsən, ali təhsili də var. Nyu-Yorkda yaşayan insanların bu cür çoxcəhətliliyi xoşuma gəlir. Deyək ki, mən əynimdə şort və mayka ilə girirəm "Bank of America"ya və öz-özümə fikirləşirəm ki, görəsən, əynində kostyum olan bu menecer – Maylz Adams mənim barəmdə nə fikirləşir. Yəqin, fikirləşir ki, mən hansısa bir reperəm. Amma bu kostyumlu menecer elə həmin, arxa cibindəki demo albomu ilə hər yeri gəzən Maylzdır.

– Hə, necədir? Albomla bağlı vəziyyət nə yerdədir? İrəliləyiş varmı? – mən soruşuram.

O, başını bulayıb deyir:

– Dostum, mən onu hər yerə göndərmişəm. "Interscope", "Sony Music"... Kanye Uestin saç ustasına dürtüşdürmüşəm. Lil Ueynin konsertində paylamışam, yeri gəlmişkən, buna görə məni zaldan çıxarıblar. Mənə cavab verən yalnız Uiz Xalifa oldu. Mən ona dayanmadan zəng vururdum. O mənim nömrəmi yandırdı, onda dostlarımın telefonundan zəng etməyə başladım. Artıq məni səsimdən tanıyırdı. O qədər əziyyətdən sonra bir gün dedi: "Ok, niger, sən məni təngə gətirdin. Sənin albomuna qulaq asacağam". Qulaq asandan sonra mənə nə desə yaxşıdır?!

Söhbəti davam etdirmək üçün soruşuram:

– Nə?

– Belə dedi: "Mən sənin albomuna qulaq asdım və deyim ki, bu, nəcisdən başqa bir şey deyil! Bəs nəcisin yeri haradır?" Mən cavab verdim: "Arxada?" Uiz Xalifa dedi: "Məhz orada! Dostum, bu albomu öz dalına soxsan yaxşıdır!"

Araya xoşagəlməz bir sükut çökür. Maylz mənalı baxışlarla məni süzür, asta, bir qədər məyus səslə davam edir:

– Mən də elə ona görə albomu arxa cibimdə gəzdirirəm... Yanbızımda.

Nə deyəcəyimi bilməyib susuram. Maylz gülməyə başlayır. Sonra çiynimi şappıldadır:

– Ha-ha-ha!! Bax belə, dostum, bizdə qaydalar belədir. Bankir Maylz mənim maskamdır. Daxildən isə mən "99 maylz"am, dostum, yəni sonsuzadək. "You know what I mean? 99 Miles".[1] Bəs sən nə yazırsan?

– Belə də. Soft-rok kimi bir şey.

Haradan gəldiyimi, kim olduğumu və bura necə düşdüyümü Maylza izah etməyə həvəsim yoxdur. O isə başını bulayır:

– Bu ki nadir zibildir. Yumurtasız rok kimi bir şeydir. Soft-rok sənin nəyinə lazımdır? Yaxşısı budur, trip-hop elə. Bu, bir növ, rok elementi olan hip-hopdur. İndi bu, yaxşı gedir.

---

[1] Nədən danışdığımı anladınmı? 99 mil.

Mən trip-hopun nə olduğunu yaxşı bilirəm, həm də dəqiq bilirəm ki, bu, rok qarışıq hip-hop deyil. Həm də əminəm ki, indi bu heç yerə gedib eləmir. Amma özümü təəccüblənmiş kimi göstərirəm, guya bunu ilk dəfə eşidirəm. Bu, həmişə işə yarayır. Özünü axmaq yerinə qoyursan və insanlar dərhal əsəblərini cilovlayır, özlərini sənin yanında ağıllı kimi hiss edir və sakitləşirlər. Sonra onlar səni sevməyə başlayır, səndə öz pərəstişkarlarını görürlər. Pərəstişkarının olmasını isə hamı istəyir. Mən bunu yaxşı bilirəm.

– Deməli, belə, – Maylz ayağının birini mənim pəncərəmdən aşırır ki, oradan öz həyətinə keçsin. – Mən sənə bir-iki əlaqə nömrəsi verərəm, sən onlarla danışarsan. Onlar bizim klubumuzdan olan koreyalılardır, sənin üçün havayı klip çəkərlər.

Mən ona "çox sağ ol" deyirəm, o mənə "görüşərik". Mən onun dalınca "aha, yxşslmkrqal..." Nə isə anlaşılmaz, amma xoş bir şey deyirəm. Heç kimin eşitməyəcəyi, öz bildiyi kimi düşünəcəyi bir şey... Birdən döşəmənin üstündə, yəqin ki, Maylzın cibindən düşmüş bir vizit kartı görürəm. Onun dalınca çığırıram:

– Maylz, dostum, burada sənin...

Bu vaxt qonşumun öz pəncərəsini örtdüyünü eşidirəm. Orada, onun otağında bir qız qəhqəhə çəkir, Maylz isə ona deyir: "Ay səni, balaca yalançı. Elə bildim ki, sən getmisən və məni..."

Hər şey aydındır, indi onların qapısını döyməsəm yaxşıdır...

Maylzın vizit kartı mənim diqqətimi çəkir. Orada heç bir ünvan yoxdur, düzbucaqlı qara kağız parçasının ortasında bircə sual var: "Sən öz adını bilirsənmi?" Kağızın arxasında isə sayt adı yazılıb: mynameis.com. Çox fikirləşmədən saytı axtarışa verirəm. Qəribədir, saytın özü də boşdur, burada da bircə sual var: "Sən öz adını bilirsənmi?"

Aşağıda isə doldurmaq üçün forma. Mən qeyri-ixtiyari olaraq suala cavab verirəm: Eyden. Dərhal ikinci sual görünür: "Sən nə ilə məşğul olduğunu bilirsənmi?" Yazıram – musiqiçiyəm, məşhur olmayan ölkənin məşhur musiqiçisi. Növbəti sual görünür: "Sən harada yaşadığını bilirsənmi?" Mən tərəddüd edirəm: görəsən, ünvanımı yazmağa dəyərmi? Sonra fikirləşirəm ki, niyə də yox?! Axı nə baş verə bilər? Öz ünvanımı yazıram və sayt bağlanır. Bu nə deməkdir? – fikirləşirəm və pianinonun arxasına qayıdıram. Deməli, harada qalmışdıq? Hə, iblis akkordunda...

İki həftədən sonra mənzilimin qapısı döyülür. Bəlkə də, "Amazon"dan növbəti bağlama gəlib. Bəs niyə belə gec vaxtda? Məgər onlar bağlamaları saat 9-dan sonra da çatdırırlar? Qapını açıram, kandarda uzun və arıq bir adamın dayandığını görürəm. Onun 50 yaşı olar, bəlkə də, çox. Üzü Vampir Nosferatu kimi solğundur. Başında qəribə furajka, əynində yarımsmokinq var və mənə sınıq-salxaq ingilis dilində müraciət edir:

– Salam, musiqiçi Eyden.

O mənim adımı və kim olduğumu haradan bilir? Bu zaman onun həyətdə dayanan, üstündə "Hostel Art & Chaos" sözləri yazılmış maşınını görürəm. Nosferatu deyir:

– Getmək vaxtıdır. Siz hazırsınız?

Nə qəribə məxluqdur, fikirləşirəm. Yüz faiz narkomandır. Qərara alıram ki, onunla bir az məzələnim.

– Elə bu dəqiqə? Bəs hara gedirik?

– Hə, ya indi, ya da heç vaxt.

Məni möhkəm gülmək tutur, özümü birtəhər saxlayıram.

– Axı mən yığışmalıyam... Həm də mənim axşam görüşüm var. Hər halda, siz xəbərsiz gəlmisiniz, həm də...

– Ya indi, ya da heç vaxt, – Nosferatu təslim olmur.

Mən gülümsəyib deyirəm:

– Ser, sizin marketinq yanaşmanız heyrətamizdir, amma mənə indi, həqiqətən...

Elə bu vaxt Maylzın qapısı açılır. Qonşum əvvəl mənə, sonra uzun hərifə, sonra "Hostel Art & Chaos" yazılı maşına baxır, sonra yenə baxışlarını mənə yönəldir. Bir-iki saniyədən sonra məsələnin məğzi ona çatır.

– Əcəb şeydir! Eyden, səndə nələr varmış! Ay səni... Bu ki lap əladır.

Lusiferin, daha doğrusu, Nosferatunun üzü əvvəlkindən də solğun və sərtdir. Bu vaxt Maylz həmin hərifə deyir:

– Ser, siz doğrudan da onun dalınca gəlmisiniz? Aparın onu! – sonra mənə baxır: – Eyden, alçaq, kastinqdən keçdiyini mənə niyə deməmisən?

Heç nə anlamıram. Kastinq? Hansı kastinq? Mən köhnə dəbli maşını, qapının ağzındakı adamı, Maylzın sarı çəkələklərini, həmin anda yanımızdan keçən velosipedi bir də gözdən keçirirəm. Elə bu vaxt Maylz mənim tumanlarımı, maykalarımı, corablarımı çantanın içinə dürtməyə başlayır. Mən nə baş verdiyini və bu tələskənliyin səbəbini hələ də anlamıram. Maylz deyir:

– Eyden, yoxsa nəsə çəkmisən, başın dumanlanıb? Axı sən hostelə gedirsən. Tez ol, şeylərini topla.

– Mən?

– Tez ol, fürsəti əldən vermə. Məni də orada yaddan çıxarma! 99 maylz, bankirlik maskadır, xatırlayırsan?

Mən artıq maşındayam. Portfeli, noutu, mini klavişləri və telefonumu götürməyə güclə macal tapmışam. Nosferatuya oxşayan həriflə birlikdə harasa gedirəm. Başımdan bu cür fikirlər keçir: "Bütün bunlar Maylzın işləridir, yəqin, nəsə bir oyundur..."

Təxminən bir saat yol gedirik. Mən hansısa kastinqdən keçmişəm və indi hansısa hostelə gedirəm. "Quqllamaq" və həmin hostel haqqında nəsə tapmaq istəyirəm. Yalnız bir sayt və "Craigslist"də bir neçə elan tapıram. Vəssalam. Görünür, bu nəsə bir realiti-şoudur, hansısa layihədir, hər nə isə, bir şey anlamaq mümkün

deyil. Məgər mənim də istədiyim elə bu deyildimi? İstəmirdimmi, kimsə məni öz rahatlıq zonamdan dartıb çıxartsın?

– Ser, bəs biz hansı tərəfə gedirik? Heç olmasa, bunu öyrənə bilərəmmi?

Ağlıma bir fikir gəlir: axı nə üçün, sadəcə, "Google Maps"a girib baxmıram? Nosferatu gözünün ucu ilə mənə baxıb deyir:

– Biz Babilə gedirik.

Soruşuram:

– Bəs zarafatı bir kənara qoysaq?

– Biz Lonq Aylenddəki Babilə gedirik.

Telefonda harada olduğumuzu yoxlayıram. Aha, qoca düz deyirmiş. Bura, həqiqətən, Babylon – Babil imiş.

"Art & Chaos" hostelinə xoş gəlmisiniz



Biz Nyu-Yorkdan iki saatlıq məsafədə, Atlantik okeanının sahilində yerləşən Babil şəhərciyinə daxil olduq. Bura Silent Hill silsiləsindən olan kiçik bir şəhər idi. Sən belə bir yerə təsadüfən düşmüsən və oradan çıxa bilmirsən. Yolayrıcılarında hansısa burger evləri, yarıməskunlaşmış üçmərtəbəli evlər, "Chase Bank", "Seven Eleven"[1], mədəniyyətə dair standart işarələr... Amma yenə də burada həyat əlaməti görünmürdü.

"Tripadvisor"a daxil olur və bu balaca şəhər haqqında hər hansı bir məlumat tapmağa çalışıram. Yaxşı, olsun Babil, axı burada maraqlı nə var?! Katolik kilsəsi, bar və suyun üstündə yerləşən xeyli restoran. "Kapitan Ceyms" restoranı, gəminin içində "Roys" restoranı... Küçədə cavanları görürəm, içimdə hələ də bir qorxu var, amma özümü əvvəlki kimi pis hiss etmirəm. "Wikipedia"nı vərəqləməyə davam edirəm. Əhalinin sayı 200 000-ə yaxındır. Hə, burada adam azdır. Əsasən, ağlardır, bir az da hindular. Yaxınlıqda Amitivill şəhərciyi yerləşir. Lap triller adına bənzədi. Yoxsa mən bunu özümə təlqin edirəm? Şəhərcik Nyu-Yorkdan cəmi 25 millik məsafədədir, amma belə zəhmlidir.

[1] Həftənin 7 günü 11 saat

Mən "Google"da Babil şəhərciyini və "Art & Chaos" hostelini axtarınca maşın sürətini azaldır, yavaş-yavaş darvazalara yaxınlaşır, daha çox "moll"a – ticarət mərkəzinə bənzəyən böyük bir evin qabağında dayanır. Əslində o, "moll"dan kiçikdir, amma adi evdən böyük. Bina tamamilə ağ rəngdədir və elə bil kvadratşəkillidir. Müasir incəsənət muzeyini xatırladır. Maşın dayanana qədər evə tamaşa edirəm, amma bu daşınmaz əmlak üçün uyğun bir termin tapa bilmirəm. Hərçənd, kim bilir, o, bəlkə də, hərəkət edir və daşınar əmlakdır. Mən onu necə adlandıracağımı bilmirəm, amma hostel adlandırmağım da mümkün deyil.

Hostel nədir? Kasıbların gecələmə yeri. Biz hosteli "xoş birlik duyğusu", "səsli-küylü kollektiv şam yeməkləri", "müxtəlif ölkələrdən gələn insanların təsadüfi tanışlıqları", "multikulturalizm məskəni" kimi sözlərlə nə qədər bəzəməyə çalışsaq da, bu, əslində kasıb turistlər üçün nəzərdə tutulmuş, 10 çarpayılı otaqları, ümumi vannası olan büdcə mənzilidir. Hostellərin qiymətini qaldırın, onda hamı "Sheraton"lara, "Marriott"lara, "Hilton"lara qaçacaq. Hərçənd hostellər şəxsən mənim çox xoşuma gəlirdi. Onlar canlıdır, onlarda bir rəngarənglik, daim maraqlı insanlarla tanış olmaq imkanı var. Hotellər isə birdəfəlik şampunları olan və plastik pəncərələri şəhərin gecə mənzərəsinə açılan mərmər qutulardır. Həmin pəncərələr gözəllik üçün deyil, nəhəng, soyuq nömrələrdəki tənhalığı nəzərə çarpdırmaq üçündür...

– Mister Eyden, biz gəlib çatmışıq.

– A, ok, indi gəlirəm...

Fikirlər yenə başımda dolaşır... Mənim fikirlərim labrador cinsli itlərin balaca küçükləri kimi qaynaşır, bir an da sakit dayanmırlar. Qaçır, tullanır, hərdən də dişləyirlər.

Biz bu memarlıq möcüzəsinin qapılarına tərəf gedirik. Yaxınlaşanda başa düşürəm ki, bina altıbucaqlı şəklindədir. Təxminən Pentaqon kimi. Amma bu, qəşəng Pentaqondur, son rokoko üslubunda gözəl naxışları var. İncə şüşə zolaqları və əridilmiş ağacla işlənmiş ağ binadır. Bəli, ağac da əriyə bilir. O çox güclü təzyiq və yüksək temperatur altında əriyir və duru hala gəlir – dondurma kimi olur. Sonra isə bircə saniyənin içində bərkiyir. Bu, yeni texnikadır, görünür, bu binanın memarı da hər cür yeniliyin həvəskarıdır.

Nosferatu giriş qapısını açır, mən içəri keçirəm. Binanın daxilində də divarlar ağdır, amma loft[1] və qəhvə evləri üslubundadır. Burada cürbəcür heykəlciklər, şəkillər, köhnə dəbli fotoaparatlar var. Girişdə çoxlu müxtəlif ayaqqabılar görünür. Bir də, resepşn masası var, orada dredli[2] oğlan əlindəki breloku açarlara keçirtmək istəyir.

---

[1] Sənaye müəssisələrinin üst mərtəbəsinin yaşayış mənzili, emalatxana və s. üçün yenidən qurulmasına əsaslanan memarlıq üslubu

[2] Çoxlu buruqlar şəklində saç düzümü

Mən ona adımı deyirəm, o da siyahıda axtarır, hətta məndən ID məlumatımı da istəmir. Mən hələ də anlamıram ki, burada nə işim var. Amma Nyu-Yorka elə bunun üçün gəlməmişdimmi? Öz həyatımı dəyişdirmək istəmirdimmi? Budur, o öz-özünə dəyişir. Mənə isə yalnız müşahidə etmək və heyrətlənmək qalır.

Nosferatu yoxa çıxıb. Dredli oğlan ayağa qalxır və soruşur:

– Deməli, biz səni necə çağıracağıq?

- Eyden...

Nə qəribə adamdır, elə indicə məndən adımı soruşmamışdı?!

– Okey, Eyden deyirsən, Eyden olsun. Maraqlı yanaşmadır. Gedək, mən sənə hər şeyi göstərim. Gördüyün kimi, hostelimiz təzədir. Ona görə də çirkləndirmək, divarlara şəkil çəkmək, hansısa şüarlar, yapışan fotolar vurmaq olmaz... – o, sözünə bır qədər ara verir və barmaqları ilə dəhlizin divarını döyəcləyir. – Amma bura hosteldir, ona görə də Jerar istəyir ki, hər şey azad və təbii olsun. Bütün gün yatmaq istəyirsənsə, vat, çarpayını başqa yerə keçirtmək istəyirsən, işində ol, marixuana çəkirsənsə, dostlarınla bölüş. He-he... – oğlan gülümsəyir və əli ilə marixuana çəkmək üçün çubuğa işarə edir. – Həqiqət aləminə xoş gəlmisən, dostum. Heç bilmirəm, nədən başlayım. Bax bura zaldır...

Yüksək tavanı və çox alçaq jurnal masaları, divanları və yumşaq kətilləri olan böyük bir otağa giririk, sanki bura "Google"nin yaradıcı şöbəsinin hansısa ofisidir.

Çoxlu bitkilər, kaktuslar var, hər şey kifayət qədər rahat və geniş görünür. Ortada böyük bir telek, divarlarda üstünə cürbəcür stolüstü oyunlar, kitablar qoyulmuş rəflər var. Bir növ, IKEA[1] qarışıq "Starbucks"dır[2].

– Bura mətbəxdir... – biz sola dönüb böyük mətbəxə giririk. – Bu, mikrodalğalı soba, bu, qaz, burada aşpazların işlətdiyi cürbəcür şeylər. Mənim bunlardan başım çıxmır... Burada qab-qacaq da var, bu da soyuducu... Aha, bax bunlardan başım çıxır! – o, əlini üstündə "Budweiser" bankaları olan rəfə uzadır. – Pivə istəyirsən?

– Yox, indi istəmirəm, sonra içərəm.

Mətbəx rahat və işıqlıdır, uzun şnurlu lampaları var. Bura üç ədəd taxta masa, onların ətrafına isə taxta skamyalar qoyulub, böyük pəncərələr və arxa həyətə çıxan şəbəkəli ağ qapı var. Həyətdə hovuz, çimərlik taxtları, bir cüt trenajor, kiçik bağça və skamyalar görünür.

– Dostum, çıxanda qapını bərk çırpma, həm də bax gör hovuzda adam varmı, yoxsa bağça tərəfdən qapını açmaq olmur.

– Aha, ok.

– Dostum, ciddi deyirəm. Bu qapıya nəsə olub. Bağlandısa, gərək oturub kiminsə onu içəridən açmasını gözləyəsən. You got it?[3]

---

[1] Məşhur mebel markası

[2] Amerikanın bütün dünyada fəaliyyət göstərən qəhvə satışı şirkəti və qəhvəxanalar şəbəkəsi

[3] Anladın?

– Sure, I got it![1]

Dredli oğlan mətbəxdən çıxır, mən də onun ardınca gedirəm. O məni birinci mərtəbədəki otaqlardan birinə aparır. Bura o biri otaq kimi böyük olmasa da, genişdir. Oğlan izah edir ki, hələlik burada yalnız mebel var, amma bu otaqdan hansı məqsəd üçün istifadə edəcəklərini hələ fikirləşməyiblər.

Biz ikinci mərtəbəyə qalxırıq. Bura daha gözəldir. Tavanlar hündürdür, hər şey ağappaq və hamardır. İşıq güclü olduğuna görə hər şey parıltılı görünür. Lap parlaq jurnallardakı dizayn edilmiş evlər kimi. Mən bəzəkli dolama pilləkənə baxıb deyirəm:

– Gecə burada gəzsən, yıxıla bilərsən. Qəşəngdir, amma narahatdır.

Oğlan əvvəl gülür, sonra ciddiləşib xəbər alır:

– Ümid edirəm ki, sən gecələr gəzmirsən.

– Gecələr gəzmək? Onu kim dedi?

– Elə indicə özün dedin.

– Yox, mən demədim ki, gecələr gəzirəm. Mən dedim ki, əgər gecə gəzsən, yəqin ki, narahat olar.

Mən ingilis dilində sərbəst danışıram, amma əlbəttə, "present perfect", "past perfect" və bu kimi zamanları qarışdıra bilərəm.

– Əgər gəzirsənsə, bax a, – o, üzünə ciddi ifadə verir, – burada, yuxarıda gəz, oldumu? Əllərini qabağa uzadıb aşağı düşməyəsən. Yoxsa mən belə şeylərə

[1] Əlbəttə, anladım!

o dəqiqə cavab verirəm. Elə ilişdirərəm ki, bunu necə etdiyimi özüm də anlamaram. Mən belə şeylərdən qorxuram, başa düşürsən? Ciddi deyirəm, əgər lunatiksənsə, ikinci mərtəbədə gəz, birinci mərtəbəyə ayağını da qoyma.

– Dostum, sakit ol, mən lunatik deyiləm.

O, deyəsən, sakitləşir və məni dəhlizlə irəli aparır.

– Gedək... Burada istirahət etmək, düşünmək, fəlsəfi fikirlərə dalmaq üçün bir dənə də otaq var. Ümumiyyətlə, hər şey üçün. Ad günü keçirtmək də olar, orgiya təşkil etmək də. Orada isə, sol və sağ tərəfdə yataq otaqları yerləşir. İkinəfərlik də var, dördnəfərlik də, o tərəfdəki isə 10-20 nəfərlik bedrumdur[1]. Bir sözlə, hər kəsin zövqünə görə. Hər şeyə yarayan ümumi – uniseks[2] otaqlar da var. Oradakı otaqlar isə qızlar üçündür. Hərçənd öz işinizdir. Hamı gəlib yerləşəndən sonra özünüz həll edərsiniz... Orada, qarşı tərəfdə vanna otaqları və ayaqyolular yerləşir. Aşağıda da ayaqyolular var, yuxarıda da. Təmizliyə riayət etmək lazımdır, amma xüsusi olaraq təmizləməyə ehtiyac yoxdur. Burada xidmətçilər var, onlar hər şeyə nəzarət edəcək və iki-üç gündən bir hər yeri yığışdıracaqlar.

– Onda belə çıxır ki, bura hostel deyil, hoteldir. Bəs nə üçün hostel deyirsiniz?

Oğlan cavab verir:

---

[1] Yataq otağı

[2] Cinsə görə fərqlənməyən

– Bilmirəm, dostum. Bunların hamısı Jerarın fikirləridir. O bu layihəni məhz bu cür görür.

– Bu Jerar kimdir? Onun adı belədir?

O, başını bulayır və pıçıltı ilə danışmağa başlayır:

– Bu adam dahidir. Dostum, onun bütün dünyada çox böyük layihələri var. Bu adam sanki bəşəriyyətə bir hədiyyədir.

Mən heç nə anlamıram. Başa düşdüyüm yalnız budur ki, ağıllı və zəngin bir kişi var, bura onun hostelidir, nədənsə, mən də hətta iştirak etdiyimi də bilmədiyim bir kastinqdən keçərək bura düşmüşəm.

Biz üçüncü mərtəbəyə qalxırıq. Üçüncü mərtəbələrdən həmişə xoşum gəlib. Orada nə ilə üzləşəcəyini heç vaxt əvvəlcədən bilmirsən. Dostlarının evində qonaq olanda hər şey məlumdur: birinci mərtəbədə qonaq otağıdır, ikincidə yataq otaqları, üçüncü mərtəbədə isə... Üçüncü mərtəbəni sənə yalnız özün xahiş edəndə göstərirlər. Hansısa dahi yeni texnologiyalara və dizayna əsaslanan belə bir hostel tikirsə, onun ən parlaq uğuru, ən maraqlı yeri üçüncü mərtəbədə olmalıdır. Mən orada qeyri-adi bir şey görəcəyimə, sadəcə olaraq, əminəm.

Biz pillələri çıxırıq və mən soruşuram:

– Bəs buranın dizaynını kim fikirləşib? Yəqin, hansısa məşhur dizaynerdir.

Oğlan başını bulayıb cavab verir:

– Məşhur dizaynerlər olmur. Məşhur milyonerlər olur, onlar məşhur olmayan dizaynerləri satın alırlar.

Soruşuram:

– Necə yəni?

– Sən bir müasir incəsənətə bax. Onun əlamətləri nədir? Bax mən öz dredlərimi kəsib çərçivənin içinə salaram, üstünə pivə səpərəm, adını da qoyaram Amazonka sahilləri. Bu da sənincün müasir incəsənət – "contemporary art". Bəs belə axmaq bir şey nə üçün o qədər bahadır? Bax dilemma bundadır.

Bu dredli oğlan lap bloklarda gecələyən bomjlar kimi danışır. Daha doğrusu, fikrini bomjlar kimi ifadə edir. Əslində çox maraqlı sözlər deyir, amma öz xüsusi üslubu ilə. Ümumiyyətlə, bu mənim Amerikada fikir verdiyim daha bir fərqli cəhətdir. Bizdə, "Köhnə dünya"da sən həqiqəti yalnız yüksək mədəniyyətə sahib olan ziyalı adamların dilindən eşidə bilərsən. Burada isə həqiqəti çox tez-tez eşidirsən – o hər yerdədir. Müasir Amerika gəncliyi mənə Hindistandan olan quruları xatırladır – onlar cır-cındır içində gəzirlər, saçları uzun və çirklidir, amma şeylərin mahiyyətini çoxdan dərk ediblər və özləri ilə barışmağı bacarırlar.

– Ey, dostum, sən mənə qulaq asırsan?

– Hə, əlbəttə. Deyirsən, həmin o artla qaydasında olmayan nədir?

– Heç nə qaydasında deyil, dostum, heç nə! Bax, məsələn, narkomanlar oturub qarajda, heç biri də normal bir rəsm çəkməyi bacarmır. Bekarçılıqdan başlayırlar nəsə çəkməyə, həmin qarajın içindəki cürbəcür

zir-zibili bir-birinin üstünə qoymağa, bir-birinə yapışdırmağa. Hansısa konserv bankalarını, çipsi qablarını. Sonra da cinsiyyət üzvünə oxşayan həmin ikimetrlik zibil muzeydə, projektorların işığında, mühafizə altında nümayiş olunur, həm də altıraqəmli qiymətlə. Axı bu necə olur, hə? Deyəcəksən ki, bu da Cokonda kimi, Rafaelin, Mikelancelonun əsərləri kimi bir şeydir? Yox, qətiyyən! O qaqaşlar öz zamanlarında, demək olar ki, möcüzə yaradıblar. Orta əsrlərdə kəndlilər, deyək ki, cəhənnəmin, yaxud cənnətin necə olduğunu təsəvvür edə bilmirdilər, bunun üçün təxəyyülləri çatmırdı. Həmin qaqaşlar da çəkib göstərirdilər ki, baxın, İblis bu cürdür, İsa isə belə görünürdü. O dövr üçün həmin rəsmlər, bir növ, "Imax", 3D, "Google Glass" əvəzi idilər, başa düşürsən? Bu da yüksək texnologiyadır, amma ilahi səviyyədə. Mənimçün elə bir otaq yaradın ki, ora girəndə qara dəliyin vücudumu içinə çəkdiyini, ya da Marsda gəzişdiyimi hiss edim. Bax bu olar "contemporary art". Nəcis bankası isə elə nəcis bankasıdır.

Biz son pillələri çıxırıq.

– Bilirsənmi, Eyden, axı mən özüm də Parsonsu bitirmişəm, üç il müxtəlif muzeylərdə işləmişəm. Bu "contemporary art" oyununu yaxşıca öyrənmişəm. Bu, bax belə baş verir. Ağıllı bir biznesmen oturub fikirləşir: klassik incəsənət insanları bezdirməyə başlayıb, hər 5 nəfərdən biri rəsm çəkir, hər 7 nəfərdən biri heykəl düzəldir. Görəsən, dəlisov rəssamların məskən

saldığı zirzəmilərə baş çəksəm, necə olar? Belə yerlər olur: məktəblərin istifadəsiz qalmış idman zalları, yaxud köhnə zavod binaları. Görürsən, 10 rəssam pul qoyur, orada özləri üçün emalatxana düzəldirlər. Saqqallı, sərxoş, bircə alt tumanında gəzən rəssamlar. Bax bizim ağıllı biznesmen də onların yuvasını tapır və başlayır əl işlərinə baxmağa. Ümumi emalatxanada hansı işlər ola bilər? Əlbəttə, əsərlərin hamısı bir-birinə bənzəyir. Ümumi yaradıcılıq ayaqyolusu kimi bir şey. Bütün ifrazat kətanın üstünə tökülüb, anlayırsan? Və biznesmen başlayır bu zibil yığınında özü üçün qoyun axtarmağa. O ən qapalı, ən sakit, ən problemsiz rəssamı axtarır. Budur o! Gəncdir, təkəbbürlü deyil, az mübahisə edəcək və əlbəttə ki, pula ehtiyacı var. Biznesmen onu bahalı restorana şam yeməyinə dəvət edir. Ertəsi gün bizim biznesmen, həmin dəyyusun yaradıcılığına heyran qalan bu incəsənət nökəri onun işlərini ilk dəfə görəndə ağlına necə maraqlı fikirlər gəldiyini söyləməyə başlayır.

Oğlan mənim hövsələmin daraldığını, üçüncü mərtəbəyə çıxmağa tələsdiyimi görüb sürətini artırır.

– Bir sözlə, biznesmen ona 100 000 dollarlıq müqavilə təklif edir və bütün əsərlərini alır. 100 əsərin hamısını. Bizim artist özünü çox xoşbəxt hiss edir, biznesmen ondan da xoşbəxtdir. Bir ildən sonra biznesmen yenə 300 000 dollar xərc çəkir, qalereya icarəyə götürür, yüksək moda və sənət biliciləri üçün pulsuz furşet və bar təşkil edir, məşhur

jurnalların bir-iki səhifəsini satın alır, NBC-də[1] müsahibə getməsi haqqında razılığa gəlir, vəssalam! Bir ildən sonra bizim rəssam artıq tanınmış dahidir, onun 100 əsərinin hamısı şedevrə çevrilir, hər birinin 300 000-dən 1 milyon dollaradək qiyməti var. Rəssamın müsahibələr verdiyi və modellərlə yatdığı müddət ərzində bizim ağıllı biznesmen onun rəsmlərini satır. Bir gün rəssam başa düşəcək ki, şənliklərin, kokainin və qızların ucbatından rəsm çəkməyə vaxtı qalmır, onda hər şeyi atıb işləməyə başlayacaq. Lakin o vaxt bizim rəssam artıq dəbdən düşmüş olacaq. Biznesmen həmin rəssamın bütün əsərlərini oliqarxlara və müasir Antuanettalara[2] satdıqdan sonra o daha heç kim üçün maraqlı deyil. Bizim biznesmen isə qızıl yumurta yumurtlayan başqa bir toyuq tapmaq üçün yenə həmin üfunətli zirzəmiyə, keçmiş məktəbin idman zalındakı emalatxanaya qayıdacaq. Beləliklə, müasir rəssamlar biznesmenlərin sonradan daha baha qiymətə satmaq üçün ucuz qiymətə satın aldıqları adamlardır. Vəssalam. Əsl incəsənəti isə mən indi sənə göstərəcəyəm.

O, böyük şüşə qapıları açır və biz çox böyük bir salona daxil oluruq. Bütün bina kimi, bura da altıbucaqlı şəklindədir. İdeyanın böyüklüyü yalnız bu mərtəbədə – divar və sütunlar olmayan yerdə hiss

[1] Amerikanın kommersiya televiziya şirkəti və ona məxsus televiziya şəbəkəsi

[2] XVIII əsr Fransa kraliçası Mariya-Antuanetta

olunur. 360 dərəcəlik görünüş sahəsi bizim, demək olar ki, meşənin ortasında olduğumuzu göstərir.

Projektorların işıqlandırdığı ağaclar şüşələrin rəngi ilə birləşir və pəncərələr zümrüd rəngi alır. Bu mənzərəli salonun döşəməsinə çoxlu xalçalar salınıb, yumşaq kətillər, müxtəlif balışlar qoyulub. Bura yoqa zallarını, yaxud Şərq üslubunda tərtib olunmuş qəhvəxanaları xatırladır. Tavan hansısa qəribə bir materialdandır. Elə bil ki, boz rəngli jalüzlərdir. Diqqətlə baxanda başa düşürəm ki, bu, əslində arxasında günəş batareyaları quraşdırılmış örtükdür. Allahın da unutduğu bu xaraba yerdə enerjinin haradan alındığı aydın olur. Ev öz-özünü enerji ilə təmin edir.

Oğlan divara yaxınlaşıb deyir:

– Uzan, bu hələ hamısı deyil.

Mən görünüşü xoşuma gələn bir xalça seçib arxası üstə uzanır, gözümü tavana zilləyirəm. Oğlan hansısa pultu götürüb mənə tərəf gəlir. Yanımdakı xalçanın üstündə yerini rahatlayaraq marixuana çəkməyə başlayır. Mən artıq bu qoxuya alışmışam. Bişmiş şüyüdü xatırladan kəskin bir qoxudur. Oğlan mənə də çəkməyi təklif edir, mən istəmirəm. O, arxası üstə uzanıb pultun düyməsini basır. Başımızın üstündəki örtük sürüşür və aralanır – "Jumeirah" hotelinin məsafədən idarə olunan pərdələri, yaxud kabrioletin üstü kimi. Təbəqələr daraqlanan oyun kartları kimi bir-birinin içinə girir və şüşə tavan görünür. Mən bütün bu aylar ərzində ilk dəfədir ki, ulduzlu səmanı görürəm.

Bədənim ürpəşir. Məni tam bir xoşbəxtlik duyğusu bürüyüb. Bilmirəm, oğlanın çəkdiyi siqaretin tüstüsünün təsiridir, yoxsa məni bu gözəllik cəzb edir.

Bütün üçüncü mərtəbə nəhəng bir şüşə parçasıdır. Ətrafda yalnız meşə, üfüq və ulduzlu səma var. Oğlan pultun üstündəki başqa bir düyməni basır və birdən şüşənin üstü ilə işıq dalğası hərəkət etməyə başlayır, sanki interaktivləşir. Elə bil başımızın üstündəki 300 kvadratmetrlik nəhəng bir planşetin ekranıdır və göy üzündəki bütün ulduzları bu ekranda skan etmək mümkündür. Bizim gördüklərimiz elə həmin ulduzlardır, amma indi onların arasından ulduzları bürclərdə birləşdirən interaktiv xətlər keçir. Mən böyük bir ulduz görürəm, onun yanında ağ hərflərlə "Venera" yazılıb, odur, ondan solda isə "Böyük ayı bürcü"dür. Bu, ağlasığmaz bir şeydir. Deməyə söz tapmıram.

– Dostum, təsəvvür edirsənmi, belə bir tavanı fikirləşib tapmaq üçün hansı narkotikdən çəkmək lazımdır? Bütün göyün xəritəsi buradadır. Ora bax, sol tərəfə, rəqəmlər tez-tez dəyişir, görürsən?

Mən tavanın sol küncünə baxıram. Orada rəqəmlər, "Union Square"nin elektron saatında olduğu kimi, ağlasığmaz sürətlə dəyişir.

– O nədir? – soruşuram.

– O bizim hazırda hansı sürətlə hərəkət etdiyimizi göstərir. Yəni sənlə mənim, bizim planetimizin və ümumiyyətlə, bütün Günəş sisteminin. Mən bu eşməni çəkənə qədər biz 30 000 kilometr yol keçmişik.

– Əcəbdir!

Artıq onun kimi danışmağa başlamışam. Mən olduqca gözəl olan göyə baxır və yanımdakı oğlanın adını xatırlamağa çalışıram. Axı dəqiq bilirəm ki, resepşn piştaxtasına yaxınlaşdığım zaman o mənə öz adını demişdi. Daren, Devid, Deyl... Xatırlamıram...

Qəribə böyüklərin evi

"Həyat – sən onu necə adlandırırsansa adlandır, boş konserv bankasıdır".
Forrest Qamp



Mən oyananda öz yatağımda olmadığımı gördüm. Yalnız bir-iki saniyədən sonra ağlım işləməyə başladı, harada olduğumu, adımı və bura necə gəldiyimi xatırladım. Bura dünən seçdiyim otaq idi. Otaq birnəfərlik idi, şahanə çarpayısı, ayrıca hamamxanası vardı. Əgər sənin ayrıca otaqla tanımadığın adamlarla qalacağın 6-8 nəfərlik ümumi otaq arasında seçim etmək imkanın varsa, birincini götürməmək axmaqlıq olar. Hər halda, kastinqi birinci keçməyin öz üstünlükləri var imiş. Hərçənd hansı məziyyətlərimə görə seçildiyimi və bütün bunların nə demək olduğunu hələ də başa düşmürdüm.

Mən yarıyuxulu halda duşun altına girirəm, gözlərim qeyri-ixtiyari olaraq videokamera axtarır. Bəlkə, bu hansısa realiti-şoudur və hər yerdə gizli kameralar qoyulub? Bu instinkt məndə son beş ildə formalaşıb. Məşhur bir cavan oğlansansa, hər yerdə kameraların obyektivi sənə tərəf yönəlir. "Four Seasons" hotelində nömrə, yaxud konsert zalının qrim otağı – fərqi yoxdur. Hər yerdə səni çəkməyə çalışan cəsur bir pərəstişkar, yaxud pranker[1] tapılacaq.

[1] Telefon dələduzu

Mənim ölkəmdə isə, təhlükəsizlik haqqında sovet düşüncəsinə görə, DTK[1] da bununla məşğul olurdu. Axı məşhur adam xalqa, böyük insan kütlələrinə təsir edən şəxsiyyətdir. Əgər, Allah göstərməsin, həmin adamlar yollarını azsaydılar, onları ləkələmək üçün əldə hazır material olmalı idi.

Bəs gənc bir musiqiçi öz karyerası boyunca nə edə bilərdi? Adam öldürməyib, rüşvət almayıb, axı bu adam, hər halda, siyasətçi deyil. Lakin istənilən məşhur şəxsiyyət potensial təhlükədir. Sovet tarixini bilirsinizsə, sizə yaxşı məlum olmalıdır ki, orada uzun müddət xalqda seksə qarşı nifrət tərbiyə edirdilər. DTK da məhz bu amildən məşhur adamların əleyhinə istifadə edirdi. Axı onlar şou-biznes adamı olduqları üçün sekslə başqalarından beş dəfə artıq məşğul olurlar və bundan onların əleyhinə istifadə etmək olardı, elə deyilmi?

Qəribə olsa da, bu, işə yarayır və xalqın çox sərt etirazına səbəb olur. Bu onlar üçün eynilə dinlərini təhqir etmək, uşağın üzünə tüpürmək, yaxud bir kirpini yandırıb sonra gülmək kimi bir təhqirdir. Səbəbini bilmirəm, ancaq özləri də sekslə məşğul olan insan kütlələri, sadəcə, əlaqələri gizli kamera ilə çəkilib deyə eynilə onların özü kimi sekslə məşğul olan hansısa bir cütlüyə nifrət edirlər. Bunu bilən hər bir vətəndaş, xüsusilə də məşhur adam qorxur və belə bir

[1] Keçmiş SSRI Dövlət Təhlükəsizlik Komitəsi, daha çox rus dilindəki adı ilə "KQB" deyilirdi.

fikirdən dəhşətə gəlir ki, onu seks zamanı çəkə, sonra internetə qoya və telekanallarda göstərə bilərlər.

Amma mənim hətta bu cür ləyaqətsiz alçaltma vasitəsinə qarşı da variantım hazır idi. Təsəvvür edirdim ki, əgər birdən lüt yanbızımın bütün kanallarda nümayiş olunduğunu görsəm, öz iştirakımla erotik roliklərin çəkilişinə başlayacağam. Öz videolarımda ən effektli modellərlə sekslə məşğul olacaq və məni gözdən salmağa çalışanları yerində oturdacaqdım. Mən peşəkar rejissorla və yüksək avadanlıqlarla silsilə seks-roliklər çəkdirəcəkdim və açıq şəkildə deyəcəkdim: "Bəli, mən də sizin hamınız kimi qadınla yatıram! Amma mənim yatdığım qızlar daha gözəldir, vəssalam!"

Fikir axını məni Amerikaya qaytarır. Vanna otağına girib bizim DTK-nın gizli kamerasını axtarıram. Mənə elə gəlir ki, hər şey təmizdir. Hə, vanna otağında hər şey təmizdir – məndən başqa. Suyu açıb duşun altına girirəm.

Duşdan sonra məndən mentol iyi və təraş köpüyünün kəskin təravətləndirici qoxusu gəlir. Hər halda, axı mənim burada nə işim var? Divarın o üzündən danışıq səsləri eşidilir. Kiminsə gülüşü, hansısa "Ey", "Hey", "Really?" səsləri... Çamadanların pillələrə dəyib gurultu salması... Məncə, artıq başqa iştirakçılar da gəlməyə başlayıb. "Şounun iştirakçıları" demək istədim, amma hansı şounun? Sadəcə, başqa iştirakçılar. Bu... Bu hostelin iştirakçıları. Sakinlər. Qonşular. Dünənki heç kimlər, bugünkü tanış olmayanlar, sabahkı dostlar.

Sizdə belə bir hal olubmu – klaviaturanı götürüb "Google"da nəsə yazmağa başlamısınız, amma hələ nə yazacağınızı bilmirsiniz? Təxminən, "Harada..." kimi bir söz yazıb dayanmısınız və "Google" sizə fasiləsiz olaraq milyonlarla variant verir – ""Times Square" harada yerləşir"; "İtlərdə erogen zona harada yerləşir"; "Ən yaxın aptek harada yerləşir"; "Allah harada..."

Hər dəfə bu hostel haqqında düşündüyüm zaman mənim beynim də eynilə bu şəkildə milyonlarla mümkün variant və ipucu verir. Baxmayaraq ki, bu mənə o qədər də lazım deyil.

Qara idman köynəyimi, boz rəngli "Uniglo" şortumu, "Vans" kedlərimi geyinib otaqdan çıxıram. Bu mənim üçün həmişə ən çətin andır – adamların arasına çıxmaq. Bu xoşagəlməz hal bir neçə saniyə çəkəcək, sonra mən özümü sakit və xoşbəxt hiss edəcəyəm. Təklikdən çoxlu insanın olduğu yerə çıxmaq mənim üçün sərin okeana girmək kimi bir şeydir. Yalnız ilk saniyələrdə soyuqdur, sonra hər şey yaxşı olacaq. Hər dəfə də bundan keçmək lazımdır.

Mən ümumi otağa girirəm və orada hər şeydən çox qorxduğum bir şeylə qarşılaşıram – çoxlu gülümsəyən, qəşəng geyinmiş gənc adamlar. Əllərində çamadan olan 20-30 yaşlı qızlar və oğlanlar dəstə-dəstə dayanıb otaqları bölüşdürməyə çalışırlar. Ümid edirəm ki, onlar mənim şahanə çarpayısı və xüsusi hamamxanası olan ayrıca otaqda yerləşdiyimi heç vaxt

bilməyəcəklər. Axı mən onları əvvəldən tanısaydım, heç vaxt ən yaxşı otağı özümə götürməzdim. Mənim təbiətimdə olan adam bu cür hallarda belə deyərdi: "Siz bölüşdürün, mən isə hələlik qəhvə içim, axıra nə qalsa, onu götürərəm".

"Düşmən qoşunu"nun arasından keçib mətbəxə getmək istəyirəm və elə bu vaxt ilk güllə düz çiynimdən dəyir. Qara maykamı deşib keçir, sol kürək sümüyümü sındırır və kürəyimin arxasından çıxır. Qanım palçıq vulkanı kimi fışqırır. Bu, Deyl, Devid, Darrendir, əli ilə çiynimə vurur.

– Bu da bizim Eyden. O, kastinqdən keçən ilk iştirakçıdır.

İlahi, bircə bunu deməyəydi! "Düşmən ordusu"nun bütün əsgərləri öz baxışları ilə məni hədəfə alır və xüsusi partlayış təhlükəli təbəssümləri ilə atəş açırlar. Bəs belə vəziyyətlərdə nə etmək lazımdır? "Hi", "Hello", yoxsa "Good Morning"[1] demək yaxşıdır? Dilxoşluq etməkdən zəhləm gedir. Mənim lüğət ehtiyatımda tanış olmayan insanların bir-birinə yağdırdığı "Hey, what's up?"[2], yaxud "Have a great weekend!"[3] kimi sözlər yoxdur. Mən "YouTube"da "reklamı burax" düyməsini basmaq istəyirəm.

– Hə, necədir, şahanə nömrədə ilk gecə necə keçdi? – Deyl, Devid, Darren soruşur.

[1] "Salam. Salam. Sabahınız xeyir"
[2] "Ey, nə olub?"
[3] "Gözəl həftəsonu arzulayıram!"

Görüm onu lənətə gəlsin, ikimərtəbəli çarpayıları öz aralarında bölüşdürməyə çalışan bu qədər insana mənim necə bir nömrəni tutduğumu söyləmək nəyə lazım idi?

– Hmm...

İstəyirəm deyəm ki, çox pis yatmışam, çarpayı sərtdir, otaqdan çox pis qoxu gəlir, pəncərəsi yoxdur, ayaqyolu da işləmir... Amma belə deyirəm:

– Hər şey əladır... – Sonra da əlavə edirəm: – Salam, uşaqlar!

Hansı "uşaqlar"? Nə üçün, sadəcə, "salam" yox, həm də "uşaqlar"?

– Salam, Eyden, – kütlənin içindən kimsə deyir və ardınca hamısı təkrarlayır.

Fikirləşirəm ki, mən indi qəhvə içmək üçün mətbəxə keçə bilərəmmi, yoxsa burada bir-iki saniyə də dayanmaq lazımdır. O ilahi "indi münasibdir" vəziyyəti nə vaxt yaranacaq? Ortaya sükut çökür və bir qədər uzanır. Yəqin ki, mən "xoş gəlmisiniz"ə bənzər nəsə deməli idim. Amma bu vaxt kütlə vahid bir orqanizm kimi öz aralarında söhbət edən kiçik hissələrə bölünməyə başlayır.

– Ey, Devid, harada çəkmək olar? – kütlənin içindən bir səs soruşur.

Mən dredli oğlanın adını öyrənirəm. Devid, Devid, dred – məni çaşdıran bu olub. Onun adı ilə "dred" sözü oxşardır, oğlan özünü təqdim edəndə mən onun saçlarına fikir vermişəm, ona görə də başımda

iki assosiasiya yaranıb – dred və Devid. Lənət şeytana, mən təcili olaraq tünd bir qəhvə içməliyəm.

Üstündə "Regular brewed coffee"[1] yazılmış böyük ağ düyməni basıram. "Large"[2] ölçüsünü və "Add Milk"[3] növünü seçirəm. Qəhvə dənələri tökülür, qəhvəüyüdən fırlanır, buxar vurur və qara qızıl mənim fincanıma süzülür. Mən təxminən beş il bundan əvvəl qəhvə xəstəsinə çevrilmişəm. İndi o mənim səhərimin ən vacib atributudur. Qəhvəsiz səhər soya sousu olmayan suşi kimidir – solğun, quru və çiy.

Uğultu sakitləşir, başa düşürəm ki, uşaqlar otaqlara dağılışmağa başlayıblar. Soyuducunu açıb səhər yeməyi üçün bir şey axtarıram. Burada nə var? "Subway"[4] üslubunda soyuq sendviçlər, plastmas butulkalarda çalınmış yumurtalar. Yeri gəlmişkən, bu mənim Nyu-Yorkda gördüyüm yeniliklərdən biridir. Amerikalılar yumurtanı çalıb qablaşdırıblar ki, onların çalınmasına vaxt itirməsinlər. Sən, sadəcə, butulkanı qızdırılmış tavanın üstündə tutub içindəkini boşaldırsan. Vəssalam, omlet hazırdır. Belə butulkanın içində, adətən, 10-15 çalınmış yumurta olur. Həm də baha deyil, təxminən adi yumurtanın qiyməti kimidir. Soyuducuda bir həftə saxlamaq olar. Mən artıq xəyalən öz ölkəmizdə bu biznesi qururam. Fikirləşirəm ki, onu tez reklam

[1] Müntəzəm olaraq dəmlənən qəhvə
[2] Böyük
[3] Südlü
[4] Sürətli xidmət göstərən restoran şəbəkəsi

etmək üçün nə edə bilərəm, hansı qablaşdırmadan istifadə etsəm yaxşıdır. Ora şüyüd, kiçik kolbasa tikələri və bolqar bibəri də əlavə etmək olar. Mən qayğanaq haqqında fikirləşdiyim halda soyuq sendviçi yeməyə başlayıram. Dadı üstünə mayonez çəkilmiş penoplast kimidir. Qızardılmış kolbasa və bekon tikələri ilə birlikdə bişirilmiş omlet haqqında fikirləşərək səhər yeməyimin üstündən qəhvə içirəm. İndi yox, amma gələn dəfə özüm üçün omlet bişirəcəyəm. İndi burada adam çoxdur. Mənim omletimin qoxusu bütün mətbəxə, hətta, bəlkə, bütün evə yayılacaq. Yox, indi olmaz. Yaxşısı budur, sendviçimi yeyib bitirim.

Elə bu vaxt o, mətbəxə girir. Mən onun üzünü görmürəm. Yalnız cins şortunu, ağ maykasını və açıq rəngli uzun saçlarını görürəm. O, mətbəxin içindən keçib arxa həyətdəki bağçaya çıxır. Yox, bu hələ Xloe deyil. Zahirən meksikalıya bənzəyən bir oğlan həmin qızın dalınca qaçır.

– Ey, incimək lazım deyil, mən, sadəcə, istəyirdim ki...

Budur, başlanır. Əgər indiyədək hostel, bütün bu yeni üslublu dizayn, mistika mənim xoşuma gəlirdisə, adamların peyda olması ilə hər şey adiləşməyə başlayır. Adi adamlardır, hər kəs kimi adi. Adətən, belə adamlardan qaçmaq istəyirsən, onlar kimi olmağı arzulamırsan...

Qız sərt səslə nəsə deməyə başlayır. Bu mənim xoşuma gəlmir. Əlbəttə, mən xilaskar Cek deyiləm,

amma, hər halda, əlimdəki qəhvəni yerə qoymadan bağçaya çıxa bilərəm. Bu, vəziyyəti bir qədər yumşalda bilər. Yerimdən qalxıb həyətə çıxıram və qapıya söykənib dayanıram. Üzündə Cimmi Fellon təbəssümü olan qırmızısifət oğlan hormon və özünə hörmətsizlik qoxuyur. Qız olduqca seksualdır, hirsli olsa da, qəşəngdir. Baxışları mənasız, amma xeyirxahdır. Oğlanın baxışları isə özü kimi boş və mənasızdır.

Onlar mənim gəldiyimi görürlər. Mən heç bir sual verməsəm də, gözlərimi onlara zilləyib baxıram, bu o deməkdir ki, diqqətimi toplamışam. Oğlan axmaq-axmaq gülümsəyib başını tərpədir, burnunun altında donquldanır və mətbəxin qapısını çırparaq tələsik çıxıb gedir. Qız mənə baxaraq rahat nəfəs alır.

– Biz təzəcə tanış olmuşuq, amma o, indidən məni təngə gətirib. Nə isə, normal adama oxşamır... Çox sağ ol!

– Dəyməz, – deyirəm və dərhal da əlavə edirəm: – Zəhrimar...

Qız soruşur:

– Nə oldu?

Mən qapıya tərəf baxıb başımı tərpədirəm:

– Qapı. Oğlan qapını çırpdı. İndi açılmayacaq. Onu yalnız içəridən açmaq olar.

– Hə, təəssüf... – qız gülümsəyir. – Mənim adım Meqandır.

– Eyden. Tanışlığımıza şadam.

– Bilirəm, sən səhər... Sən şahanə nömrədən olan oğlansan.

Gülümsəyirəm:

– Ümumiyyətlə, mən belə çox adamın olacağını bilmirdim. Sadəcə olaraq, mənə seçmək imkanı verdilər, mən də seçdim.

– Hə, əlbəttə. Kim oranı seçməzdi? – o mənə ürək-dirək verir. – Mənə isə o gicbəsərlə eyni otaq qismət olub. Bir nəfər də botanik var. Botan daim susur, amma bu biri... Bu biri heç cür əl çəkmir.

– Aydındır.

Mən susuram və qaqaşın gecə onu necə bezdirəcəyini təsəvvürümdə canlandırıram. Meqana mənim otağımda gecələməyi təklif edə bilərdim, amma o bunu yanlış anlayacaqdı. Ona görə də bu qərara gəlirəm ki, lazım deyil.

– Hə, kastinqdən birinci keçmək çox yaxşı şeydir.

– Mən heç bilmirəm ki, seçim hansı meyarlara görədir, – deyirəm.

– Bunu heç kim bilmir, – Meqan cavab verir.

O, pillələrin üstündə oturur. Yuxarıdan gözlərimi qızın sinəsinə dikməmək üçün mən də onun yanında otururam:

– Bəs sən bura necə düşmüsən? Ümumiyyətlə, bilirsənmi, bu nə hosteldir belə? Mən bura təsadüfən, sayt vasitəsilə düşmüşəm, bu yer haqqında, demək olar ki, heç nə bilmirəm.

Meqan mənə tərəf çevrilib deyir:

– Hmm... Sən, həqiqətən, heç nə bilmirsən? – onun üzündə təbəssüm peyda olur, sanki mən nəsə qəribə bir söz demişəm. – A... Mən onu "Craigslist"dən tapmışdım. Mən rəqs akademiyasını bitirmişəm, təcrübə keçmək üçün yer axtarırdım, həmin kastinqə rast gəldim. Elanda "Art & Chaos"u gördüm, fikirləşdim ki, bəlkə, hansısa bir realiti-şoudur. Bu gün burada özümü göstərsəm, sabah "America's Got Talent" yarışmasına da gedə bilərəm. Mən rəqslə məşğul oluram, bilirsənmi, biz gərək özümüzə yol açaq. Burada rəqabət və başqa şeylər var. Ona görə də kamera qarşısında görünmək mənə lazımdır.

Mən öz qəhvəmi bitirib mətbəxin şüşə qapısından içəri baxıram:

– Burada hər şey ola bilər, amma kamera yoxdur.

Meqan ətrafa boylanır və deyir:

– Necə yəni yoxdur? Yüz faiz var! Sadəcə olaraq, onları yaxşıca gizlədiblər. Mən bilirəm. Hətta düşünürəm ki, bizi real olaraq yayımlayırlar. Bəlkə, hətta NBO[1] ilə, kim bilir... Bəs, sənin fikrincə, bizim mobil telefonlarımızı nəyə görə alıblar? Alıblar ki, internetə girib vaxtından əvvəl məşhur olduğumuzu öyrənməyək.

Onun sözlərində nəsə uzaq bir məna var, amma hər şeyi qavrayıb cavab vermək üçün mənə vaxt lazımdır. Mən qapını döyməyə başlayıram və deyirəm:

[1] Amerikada televiziya verilişləri şəbəkəsi

– Elanda dəqiq yazılmışdı ki, bu, realiti-şoudur? Meqan elanın mətnini xatırlamağa çalışır. Ya da özünü elə göstərir. Onun bütün davranışlarında bir sünilik hiss olunur.

– Demək, orada hostel, gənclik, kastinq haqqında nələrsə yazılmışdı... "Art & Chaos" hamını dəvət edir qeyri-adi nəyəsə...

– Hostel və kastinq hələ realiti-şou demək deyil, – Meqana cavab verir və qapını daha bərk döyürəm.

İçəridən mətbəxin qapısına eynəkli və arıq bir oğlan yaxınlaşır. Biz nə istədiyimizi haradasa yarım dəqiqə ona başa salmağa çalışırıq. Nəhayət, o, qapını açıb bizi içəri buraxır.

– Hamı sizi axtarır, – botan mızıldanır. – Orada ic-cclas var.

– Nə iclas?

– Bbbiz qərara aldıq ki, ha-amımız bbir-bbirrimizlə tanışşş olsssaq yaxşşıdır.

Mən elə bilirdim ki, tanımadığım adamlarla söhbətim çətin alınır. Onda bəs bu yazıq pəltək nə etsin?

Böyük otaqda işıqlar yanır, hamı əyləşir, sonra susur və kimisə dinləyirlər. Meqan mənə lap yaxınlaşır və qulağıma pıçıldayır:

– Mən dedim axı, bu, realiti-şoudur. Onsuz da əvvəl-axır hamı bir-biri ilə tanış olacaq. O halda, indi adamları bir-biri ilə tanış etmək nəyə lazımdır? Bu, realiti-şoudur!

Ya Meqan mənə çox yaxınlaşmışdı, ya da bu dəfə fikir mənə məntiqli göründü – hər halda, ona inandım.

Biz otağa daxil olduq, yan tərəfdəki yerlərdə oturduq və dərhal bir neçə nəfərin maraq dolu baxışını üzərimizdə hiss etdik.

– Bu da bizim ilk cütlüyümüz! – Devid gülə-gülə deyir. – Yaxşı, deyəsən, artıq hamı gəlib. Gəlin başlayaq. Bu, sehrli almadır, – o, əlindəki qırmızı almanı barmaqlarının arasında fırladır. – Mən onu sizə tərəf atacağam, kim almanı tutsa, öz adını deyəcək və özü haqda nəsə danışacaq. Sonra isə almanı başqa adama ata bilər. Hə, başlayaqmı?

Bir dəstə gənc, azad, nikbin amerikalı... Bir vaxtlar mən də bu adamların arasında olmağı arzu edirdim. Biz Hollivud filmləri ilə böyümüşdük, bizi Amerika tərbiyə etmişdi. Biz öz qohumlarımızın evindən çox "McDonald's"a gedirdik, valideynlərimizdən çox Eminemə qulaq asırdıq. Sonra isə məni tərbiyə edən Amerika məndən viza istədi, o zaman özümü onun arzuolunmaz qeyri-qanuni oğlu kimi hiss etdim. Mənə Amerikanın başqa ölkələrə kömək etdiyini, kreditlər verdiyini, inkişafına tərəfdar olduğunu dedikləri zaman cavab verirəm ki, Amerika kömək etmir, aliment verir. Bizi Amerika yaradıb, indi də qayğımıza qalmalıdır...

Devid almanı atır, onu qara paltarlı arıq bir qız tutur.

– Mənim adım Selindir. 22 yaşım var, hmm... – o bir anlığa duruxur, sonra davam edir: – Mən bloggerəm. Faydalı qida haqqında bloq aparıram, düzgün

qidalanmağın və formada qalmağın yolları haqda məsləhətlər verirəm. Bax belə, bu qədər.

Qız danışıb qurtaran kimi onu gülmək tutur, o, qəfildən və kəsik-kəsik gülür, sanki gülüşü köhnə səsboğucudan çıxır. Natamamlıq kompleksini ifadə edən qəribə bir "pxaaa"... Selinin hərəkətlərində bir qəribəlik var. Əllərini gah yuxarı qaldırır, gah aşağı salır, əyninə böyük olan sviterdə oturduğu yerdə qurdalanır. O, incə və qamətlidir, amma elə bil ki öz daxilində narahatdır.

Alma otağın bir başından o biri başına uçur, onu uzun saçları boynunun arxasında yığılmış dolu bədənli bir oğlan tutur.

– Hamıya salam. Adım Coşuadır. Bas-gitaraçıyam, həm də di-cey. Gündüz ofis siçanıyam, gecələr isə Kazanova[1].

O bu sözləri dedikdən sonra gözlərini hərisliklə ətrafda dolandırır, elə bil kimsə var gücü ilə pinq-ponq topuna zərbə endirib, bu da onu gözdən itirib və indi tapmağa çalışır. Coşua özü haqda sürətlə və monoton şəkildə danışır, sanki ev tapşırığını oxuyur. Elə bil Devid ona əvvəlcədən hansı oyunu oynayacağımızı deyib, o da öz dahiyanə mətnini yazıb hazır qoyub. Coşua haqqındakı ilk təəssürat onun pijon olduğunu deyir. Qəlbən bakir olan, zahirdə rol oynayan kompleksli axmaq... Bu cür tiplər tez-tez cinsi

[1] Cakomo Kazanova; XVIII əsrdə yaşamış, sevgi macəraları və fırıldaqçılığı ilə məşhur olan italiyalı yazıçı və səyyah

əlaqədə olsalar da, heç vaxt bunu arzuladıqları qadınla edə bilmirlər. O, cismən, bəlkə də, Kazanovadır, amma qəlbində bakir oğlan olduğu dəqiqdir.

Birlikdə çalışdığım bütün bas-gitaraçıları xatırlayıram. Onlar sənin üzünə gülümsəyəcək, istənilən aranjirovka əlavəsi ilə razılaşacaqlar. Lap Allahın fağır bəndələridir. Onların mahnıya aid heç bir etirazları olmayacaq, təbilçi ilə pianoçu mübahisə etdiyi zaman sakitcə bir kənarda dayanacaqlar. Amma bu, basçıların fağırlığından irəli gəlmir. Sadəcə, onlar konsert vaxtı həyasızlıqla "mikser"ə yaxınlaşıb bas-gitaranın səsini qaldıracaqlar. Əslində nə çaldıqları onların vecinə də deyil, əsas məsələ budur ki, onların ifası digərlərindən güclü səslənsin. Məhz bu səbəbdən, rok konsertləri çox səs-küylü olur. Basçılar öz ifalarının səsini artırırlar, diqqətdən kənarda qalmaq istəməyən elektrogitaraçılar da öz səslərini qaldırırlar, vokalçı da onların hamısını üstələməyə çalışır. Rok konsertləri əyləncə deyil, yaşamaq üçün mübarizədir. Coşuadan, sadəcə, bas-gitaraçı olduğuna görə xoşum gəlmirdi. Heç kim də mənim fikrimi dəyişdirə bilməzdi.

Alma uzun saqqallı bir qaqaşa tərəf uçur. Üzündə saqqal, başında isə qəribə papaq olsa da, üz cizgiləri qəşəng və xoşdur.

– Mən Zakam, Zakariya. Hmm... Mənim 27 yaşım var. Mobil telefonlar üçün əlavə tətbiqlər hazırlayıram. Itləri sevirəm. Bir də bura mənim xoşuma gəlir.

Zak almanı Meqana tərəf atır.

– Ayy... – Meqan almanı çətinliklə tutur, az qalır ki, əlindən salsın. Tez də üzr istəyir. – Oyy, bağışlayın, uşaqlar... Mən Meqanam. 23 yaşım var. Rəqs etməyi sevirəm. Mənim üçün rəqs, sadəcə, hərəkət etmək deyil, daha yüksək bir şeydir. Rəqs dildir, mən onun vasitəsilə kosmosla danışıram.

Meqan təsəvvüründə canlandırdığı kameralar üçün rol oynayır. Afərin, Meqan, öz SMS xallarını qazan. Elə bu vaxt o, almanı mənə tərəf uzadır, sonra yavaşca düz ovcumun içinə qoyur. Meqan gülümsəyir. Zaldakıların da üzündən təbəssüm dalğası keçir. O, qəsdən mənimlə məzələnir.

– Mənim adım Eydendir və mənim şahanə bir nömrəm var.

Almanı kütlənin içinə atıram, amma o yenə mənə tərəf qayıdır.

– Belə düz olmur, Eyden. Bunu artıq bilirik. Elə bir şey danış ki, biz onu eşitməmiş olaq.

– Hə, dostum, danış, – Devid də onlara şərik çıxır. – Hərçənd mən özüm də əlavə edə bilərəm. Eyden gecələr gəzir.

Mən almanı ikinci dəfə tuturam və hamı maraqla mənə tərəf baxır. Artıq adını unutduğum kök basçı diqqəti özünə yönəltmək istəyir və soruşur:

– Doğrudanmı, dostum? Sən gecələr gəzirsən?

– Yox, yalnız ayaqyoluna gedirəm və geri qayıdıram.

Hamı gülür.

– Yaxşı. Daha nə deyim. Mən musiqi ilə məşğul oluram. Hərdən... – bəli, 7 illik peşəkar karyera üçün "hərdən" demək olar. – Bir də çalışıram ki...

Meqan özünü saxlaya bilmir:

– Nəyə çalışırsan?

– Insanlardan gizlənməyə çalışıram. Mən uzun müddət məşhur olmuşam, bu məni bezdirib. Mən başa düşürəm ki, heç kim belə bir şeydən imtina etmək istəməz, amma mən imtina etdim.

Sükut yaranır, hamı mənim indicə dediklərimi anlamağa çalışır. Zənnimcə, mənim sözlərim belə əyləncəli bir oyun üçün həddən artıq ciddi səslənmişdi. Mənə elə gəlirdi ki, qeyri-adi bir söz deməmişəm, amma deyəsən, onlara qəribə görünmüşdü, elə bil indicə şəkər xəstəsi olduğumu etiraf etmişdim.

Bu dəfə almanı Meqanla mənim üçün qapını açan "botan" tutur.

– Mməəniim aadım Cce-cerremidir. Ceremi.

Sən bir vəziyyətin ironikliyinə bax, belə pəltək bir adamın üstəlik adı da bu cür mürəkkəbdir. O, dərindən nəfəs alır, sakitləşir, sanki ciyərlərinə bol oksigen ehtiyatı yığır və birnəfəsə deyir:

– Mənim 22 yaşım var, "Instagram"da işləyirəm.

Bircə saniyənin içində pəltəyə münasibət tamamilə dəyişir, elə bil o özünü Məsih elan edib.

– Vayy! Bu ki əladır, qaqaş! – kütlənin içindən səslər eşidilir.

– Mməən üüç ay-ddır, hələ təəccrrübbəəçiyəm.

O, dərhal hamı üçün əvvəlki yerinə qayıdır. "Instagram"da təcrübəçi? Bu ki Qrinpisdə[1] volontyor olmaq kimi bir şeydir. Çox qeyri-ciddi zibildir.

– Bəs sən "Instagram"da nə ilə məşğul olursan? – uşaqlardan biri soruşur.

– Mmədn qəşşəəng qqızzlar, mmoddellər ttaappıram və onlara insta-seks ttəəklif eeddirəm. Bbu, "Instagram"-da yeni ffunkssiyaadır. Oo ggəələn iil çıxxaacaq. Iisstəyirsinizz, bbunun necə ıışlədiyini ssizzə danışım?

Hamı susur. Mərc gələrəm ki, insta-seksin nə olduğu hamı üçün maraqlıdır. Amma o öz söhbətinə bu sürətlə davam etsə, biz sıxıntıdan ölə bilərik.

– Yaxşı olar ki, bunu gələn dəfəyə saxlayaq, – Daren, Deyl, Devid onun sözünü kəsir.

Deyəsən, mən onun adını yenə unutmuşam. Ümumiyyətlə, mən onların adlarını yadda saxlamıram. Bu mənim tərəfimdən xudbinlikdir.

Alma yenə otağın bir tərəfindən o biri tərəfinə uçur və onu üzünü yaxşı görə bilmədiyim bir qız tutur.

– Mənim adım Xloedir. 23 yaşım var. Mənim almadan xoşum gəlir.

O bunu deyib almanı dişləyir. Sonra onu növbəti adama tərəf atır. Qəribədir, fikirləşirəm: o bunu nə üçün etdi? Onunla mənim aramda bir neçə nəfər oturub, bu tərəfdən onun üzü görünmür, amma onu görmək mənim üçün maraqlı olardı.

---

[1] "Green pease" ("Yaşıl sülh"); müstəqil beynəlxalq ekoloji təşkilat

– Mənim adım Malikdir. 30 yaşım var. Mən geyəm və stilistəm. Öz janrımı axtarıram.

O mənə baxıb gülümsəyir, mən də cavabında gərgin tolerant təbəssüm nümayiş etdirməli oluram. Maraqlıdır, o hansı janrı axtarır? Bir stilist kimi axtarır, yoxsa bir gey kimi?

Alma yenə Meqana düşür. O, almanı əlinin içində tutub diqqətlə mənim üzümə baxır.

– Mən artıq dedim ki, adım Meqandır. Amma maraqlıdır, görəsən, şahanə nömrədə mənim üçün balaca bir yer tapılarmı?

Budur, başlandı. Alma məndədir. Fikirləşmədən cavab verirəm:

– Hə, əlbəttə. Niyə də olmasın?!

Hamı gülməyə və fit çalmağa başlayır. Meqan başını arxaya verərək ürəkdən gülümsəyir. Onun fikrinə görə, kameralar məhz həmin otaqda gizlədilib. Meqan həyatdan nə istədiyini yaxşı bilən dişi pələngdir. Mən isə taca marağını itirən aslan...

Meqanla bir gecə

"Rəqs kosmosla əlaqədir".
Meqan



Son illər ərzində normal seksin necə olduğunu unutmuşam. Pərəstişkarın olmayan bir qadınla seks... Qız sənin-lə, sadəcə, sekslə məşğul olursa, titrəmirsə, ağlamırsa, sənin yatağında ağlını itirmirsə, o nə duyğudur! Bu hissləri sözlə ifadə etmək çətindir, bu haqda film çəkməyəcək, kitab yazmayacaqlar. Axı bu, çoxlarının yaşadığı adi bir şey deyil. Bu çox nadir hadisədir. Yer əhalisinin cəmi 0,2 faizi özünü məşhur şəxs adlandıra bilər. Onların da yalnız yarısının əsl pərəstişkarları var. "Ulduz"un həmin anda yaşadığı duyğu antik tanrıların Yer qızları ilə əlaqəyə girməsi kimi bir şeydir.

Kişilərin seksdə nəyi xoşladığını bilirsinizmi? Onların ən çox sevdiyi iki şeydir. Birincisi, kişi daim yeni bir şey dadmağı xoşlayır. Qadının güclü orqazm hiss etməsi üçün bir müddət kişinin bədəninə alışması lazımdırsa, kişi, əksinə, daim nəsə yeni bir şey hiss etmək istəyir. Kişi öz dad reseptorlarını qidalandırmalıdır. Yeni qızın əvvəlkindən gözəl, yaxud çirkin, qaraşın, yaxud sarışın, incə, yaxud bir-iki kiloqram daha ağır olması vacib deyil. Əsas odur ki, sinəsi sənin artıq alışdığın kimi, vurduğu

ətir həmin ətirdən, saçları həmin uzunluqda, həmin rəngdə olmasın. Kişilərin seksdə xoşladığı ikinci şey sevgidir. Kişi əmin olmalıdır ki, onu sevirlər, daha dəqiq desək, ilahiləşdirirlər. Kişi arxayın olmalıdır ki, qadın məhz onsuz yaşaya bilmədiyi üçün indi onunla bir yataqdadır.

Bu duyğu bizə lazımdır. Məhz bu səbəbdən kişilərin əksəriyyəti ucuz fahişələrlə sekslə məşğul olmağı sevmir, onların saxta iniltilərini, qondarma ehtiraslarını tutmaq çox asandır. Kişi əmin olmalıdır ki, altında uzanmış qadın onu ideal hesab edir, həyatında ondan qiymətli heç nə yoxdur. Bəs onlar hansı qadınlardır? Onlar kişilərin həyat yoldaşlarıdır. Mehriban, doğma arvadlarıdır, onlar daim ərlərini sevəcək və pərəstiş edəcəklər. Onlar məşuqələr, uzunmüddətli seksual partnyorlardır.

Amma burada bir tələ var. Əlbəttə, arvadlarınız sizi həmişə sevəcək, amma duyğular köhnəlir, solur. Təsadüfi əlaqələr isə həmişə təzədir, dadlıdır, yeni bir lətifə, Nolanın yeni filmi, "Taxt oyunları"nın yeni sezonu kimidir. Lakin burada pərəstiş çatmır. Yeni qız üçün sən özün də təzəsən. Heç bir sevgi hissi yoxdur, yalnız şübhəli, bir-birini qarşılıqlı şəkildə qiymətləndirən seks var. Bu iki obraz yalnız bir halda birləşir. Bu sənin pərəstişkarın olan qızla cinsi əlaqədir. Bax bu, tamamilə yeni bir hissiyyatdır. O, yad adamdır, amma o adam səni tanıyır və səndə olan hər şeyə heyrandır. Onun nəzərində sənin öpüşün dünyanın ən yaxşı öpüşüdür.

Sən onun dərisinə toxunursan, o isə sənin hər toxunuşundan titrəyir. Hətta sultan hərəmxanaları da qız pərəstişkarlarla aftepartidən[1] geri qalardı.

Meqan təkcə alt paltarında yanımda uzanıb və mənə qısılır. Sonra məni öpməyə başlayır. O heç də pərəstişkar deyil, onun dodaqlarında həmin atəş, həmin sonsuz sevgi yoxdur. Mən Meqanın biznes-planıyam. Mən onun tramplini, nərdivanı, eskalatoruyam. Onun əslində nə istədiyi isə hələ məlum deyil. Çünki Meqan rəqs məşqləri və müxtəlif klublardakı çıxışlardan macal tapmır ki, əslində nə istədiyi haqda fikirləşsin.

Mən onu dayandırıb soruşuram:

– Dayan, Meqan. Bu sənin nəyinə lazımdır?

O gülümsəyir və mənə təəccüblə cavab verir. Hətta onun baxışlarında zəif bir inciklik də hiss edirəm.

– Hansı mənada soruşursan? Nə nəyimə lazımdır? Bu? Sən mənim xoşuma gəlirsən, səni istəyirəm. Belə cavab səni qane edir?

Xətrinə dəyməmək üçün onu öpürəm. Hər halda, onu öpüb-öpməməyin mənim üçün xüsusi bir fərqi yoxdur. Məni onun cavabı daha çox maraqlandırır.

– Mən o barədə soruşmuram. Məşhur olmaq sənin nəyinə lazımdır? Bu sənə nə verəcək?

– Eyden, sən bunu başa düşmək üçün səhnədə olmalısan. Bu elə bir duyğudur ki...

---

[1] "After party"; hər hansı bir tədbirdən sonra keçirilən şənlik

Mən səhnədə olduğum bütün çıxışlarımı xatırlayıram – onların hamısında hər şeyin nə vaxt qurtaracağını bilmək üçün saata baxırdım. Bütün müsahibələrdə verilən eyni sualı da xatırlayıram: "Məşhur olmaq necə bir hissdir?"

– Tutaq ki, məşhur oldun. Bəs ondan sonra nə edəcəksən?

O mənim səmimi soruşduğumu, yoxsa hiylə işlətdiyimi başa düşmür. Mən isə səmimi soruşuram.

– Birincisi, yaxşı rəqqasə olduğumu bütün dünyaya sübut edəcəyəm.

Mən 7 yaşım olanda basketbol topunu bir barmağımın üstündə fırlatmağı öyrəndiyimi xatırlayıram. Bu bacarığımı mümkün olan hər yerdə – evdə, qonaq getdiyimiz yerdə, həyətdə, məktəbdə göstərirdim. Nəhayət, hamı mənim bunu bacardığımı biləndə marağım itdi və daha təkrarlamadım.

Meqan davam edir:

– İkincisi, rəqs kosmosla əlaqə, kainatla ünsiyyətdir.

Görəsən, o bu sözləri haradan oxuyub? Zənnimcə, bu onun şüarıdır, axı o, vaxtını səmərəsiz keçirməsini yalnız bu cür anlaşılmaz sözlərlə izah edə bilər.

– Üçüncüsü, bu, böyük pul deməkdir. Əgər uğur qazansam və məşhurlaşsam, pulumun böyük bir hissəsini xeyriyyəçiliyə verəcəyəm.

"Xeyriyyəçilik" haqqında bu qədər asanlıqla danışan, amma bunu məhz hansı sahədə etmək istədiklərini dəqiq deyə bilməyən insanlardan xoşum gəlir.

Yəni pulumu pandalara, afrikalı uşaqlara, Yaxın Şərq qaçqınlarına, kor qocalara, leykemiya xəstələrinə... kömək üçün verəcəyəm yox, sadəcə, "xeyriyyəçiliyə" verəcəyəm deyirlər. Mən əminəm ki, Meqanı bu xeyriyyəçilikdə maraqlandıran şeylər yalnız masaların üstündəki kanapelər, bu cür mühüm bir tədbir üçün geyinəcəyi ziyafət paltarı və gizli kameraların diqqətidir.

– Hə, Meqan, afərin sənə, düz fikirləşirsən, – nəticə çıxarıram.

Düşünürəm ki, bu cür haşiyədən sonra seksə başlamaq olar. Gələcək üçün heç bir planı olmayan, hissiz, adi bir seksə... Sadəcə, mexaniki sürtünmə prosesi. Riyazi orqazm. Bir qız, iki döş, "N" saylı sarışın... O inildəyir, çiyinlərimi qucaqlayır, boynumdan öpür, hansısa anlaşılmaz sözlər deyir, mən isə uzanıb fikirləşirəm ki, biz nə üçün öz fikrimizcə mənasız bir işlə məşğul olan adamları belə sərt tənqid edirik. Kim deyib ki, kibernetika rəqsdən daha əhəmiyyətlidir, yaxud Bethoven Bob Marlidən yaxşıdır? Standartları kim müəyyən edir? Allah? İnsanlar? Elə bizim kimi insanlar?

Bu fikir burnumun deşiklərindən girib şüurumu doldurur. Bəlkə, elə bizim hamımız hansısa yad planetin laboratoriyasında 8-ci sinif şagirdi olan bir məktəbli tərəfindən yaradılmışıq? Ona belə bir tapşırıq veriblər ki, qızıla həris bioloji növ yaratsın. Deyək ki, bu onların müxtəlif metallara meyilli bioloji növlər yetişdirdikləri kimya dərsi olub. Bütün bəşəriyyət

qızıla aludə olmadığından, həmin üçgözlü oğlan dərsindən cəmi 65 bal alacaq. Bizim bütün mövcudluğumuz yalnız onun dəftərindəki bir-iki qeyddən ibarətdir. Bizim planetimiz növbəti kimya dərsinədək fırlanmağa davam edəcək, həmin dərsdə isə, çox güman ki, başqa bir dünya yaratmaq üçün bizim hamımızı məhv edəcəklər. Amma bu dəfə tapşırıq alüminiumdan qorxan heyvanlar yaratmaq olacaq. Belə çıxır ki, bəşəriyyət heç bir əhəmiyyəti olmayan cəfəngiyyatdır? Əgər ümumdünya səviyyəsində biz sadəcə təsadüf, yaxud yan təsir yerindəyiksə, onda Stiv Cobs, Bethoven, yaxud Nyuton nə üçündür? Onlar da eyni şəkildə cəfəngiyyat olmayacaqlarmı? Onda, bəlkə, elə Tereza ana ilə Meqan eyni dərəcədə əhəmiyyətli, daha doğrusu, eyni dərəcədə əhəmiyyətsiz adamlardır?

Başımda bir qız səsi eşidilir: "Əvvəllər bizim dəyərlər Bibliyaya əsaslanırdı, indi isə humanizmə əsaslanır. Bəs birdən humanizmin elə həmin Bibliya olduğu ortaya çıxarsa, onda necə? Elə o cür, yalnız imana söykənən bir din olduğu ortaya çıxarsa?"

Meqanın iniltiləri mənə onu dinləməyə mane olur. Bu səs haradan gəlir? O mənim başımın içindədir, ya divarın o üzündə? Mən yalnız bir neçə aydan sonra başa düşəcəyəm ki, o, Xloenin səsi imiş.

Meqan məni öpür və çiyinlərimi bərk sıxır ki, dayanmayım. O, möhkəm həvəsə gəlib, bir azdan orqazma çatacaq. Yox, onu həvəsə gətirən mən deyildim.

Onu həvəsə gətirən bunu milyonlarla tamaşaçının gözü qarşısında etməsi idi. Onu həvəsə gətirən 15 yaşlı məktəblilərin baxışları idi, gözlərini gizli kameralardan bizə zilləyən və masanın altında öz cinsiyyət üzvlərini sıxan məktəblilərin. Onu həvəsə gətirən iniltilərini bütün Nyu-Yorkun eşitməsi idi. Axı bu, realiti-şoudur, çılpaq və gözəl Meqan indi bütün meqapolisin gözü qarşısında cinsi əlaqəyə girir. O, sadəcə, birbaşa efirdə qurtardığını fikirləşdiyinə görə orqazma çatır. Bu videonu montaj edəcək montajçı haqqında fikirləşdiyinə, porno saytlarda "Celebrity" bölməsinə düşəcəyini fikirləşdiyinə, təxəyyülündə canlandırdığı gizli kameraları fikirləşdiyinə görə çatır...

Xloe qarğıdalı lopalarını sevmir



Mən Xloeni ertəsi gün səhər gördüm.

Tez oyanmışdım, saat 8 idi. Adətən, əlimdə telefon yatıram. Telefonla yuxuya getmək orqazmdan sonra qızla yanaşı yatmaqdan daha maraqlıdır. Ancaq hostelə gələndə bizim telefonlarımızı alıblar, indi Devid onları kilid altında saxlayır. Ona görə də Meqanla seksdən sonra mən dərhal yuxuya getmiş, lap körpə kimi rahat yatmışdım. Səhər isə oyanan kimi mətbəxə yollanmışdım. Meqanı oyatmaq istəmirdim, ona görə də duş altına girmədim, öz kofein dozamı qəbul etmək üçün tez mətbəxə düşdüm. Böyük amerikano, mənim əziz dostum. Həmişə lazım olduğu yerdədir, öz simasını itirmir. Latte, mokko, frappuçino nə vaxtsa dəbdən düşəcək. Amerikano isə əvəzolunmaz olaraq qalacaq. Amerikano – sabit qəhvədir.

Mən qəhvəmi içir və şüşə qapıdan bağçaya baxıram. Yaşıl qazon, ağaclar, yarpaqların üstündə oynaşan günəş şüası... Bütün hostel hələ yatır. Hamıdan tez yuxudan durmaq, birdən-birə izdihamın içinə düşməmək necə də xoşdur. Amma mənim tənha rahatlığım çox çəkmir.

Arxamda qapı açılır və mən addım səsləri eşidirəm. Sonra o daxil olur – Xloe. Onun beysbol ağacı

rəngində açıq-şabalıdı saçları var. Amma təzə, laklı yox, köhnə, qəhvəyi qənd rəngində ağac... Qeyri-bərabər ölçüdə kəsilmiş şabalıdı saçların açıq xurmayı rəngli çəngələrlə qarışığı... Bir də, hippilərdə olduğu kimi, arxada nazik bir hörük və gözlərinin üstünə tökülən tel...

Onun saç düzümündə heç bir simmetriya yoxdur. Saçlarının bir qismi uzundur, digər qismi qısa, bir hissəsi dalğalıdır, digər hissəsi düz. Amerikanın birləşmiş ştatları kimi. Onun saçları da ştatlar kimi ayrı-ayrılıqda öz həyatını yaşayır, amma hansısa ümumi qanuna tabedir.

Qızın əynində krem rəngli, çiyinləri açıq kofta var. O, incədir, amma çox arıq deyil. Qaşları saçlarından tünddür, gözləri isə açıqdır – açıq bozumtul-yaşıl rəngdə. Amma yaşıldan daha çox bozumtuldur. Göz bəbəkləri elə parıldayır ki, elə bil indicə ağlayıb. Bu parıltı həmişə bu cür qalacaqdı, bizi qarşıda gözləyən bütün vəziyyətlərdə.

Qızın çiyinlərinə çoxlu xırda xallar səpələnib. Bəziləri lap kiçikdir, bəziləri böyük və açıq-qəhvəyi rəngdə. Amma mən onu ilk dəfə görəndə buna fikir verməmişdim. Tanımadığım adamlara göz qoymaqdan xoşum gəlmir. Həyasız görünmək istəmirəm. Bunu mədəniyyətsizlik hesab edirəm. Lap səmimi desəm, bu daha çox mənim sosiopatiyamla əlaqəlidir. Kənar adamlar mənə baxanda, mənimlə hava, yaxud siyasət haqqında söhbət etməyə çalışanda özümü

çox narahat hiss edirəm. Ona görə də fikirləşirəm ki, yəqin, bütün insanlar, kimsə onlara diqqətlə baxanda özlərini narahat hiss edirlər. Bəlkə də, həmişə belə olmur. Daha doğrusu, əksər hallarda belə olmur. Bütün insanlar təsadüfi ünsiyyətlərə normal yanaşır, bu, gündəlik həyatın bir hissəsidir. Bu, sadə və aydın bir şeydir və qətiyyən qorxulu deyil.

Amma insanları mənim sosioloji bunkerimdən daha çox laqeyd baxışlarım itələyir. Elə bil baxışlarım onlara deyir ki, mən öz "amerikano"mla çox məşğulam və diqqətimi yayındırmağa hazırlaşmıram. Əslində isə mənim bütün diqqətim həmin naməlum adama yönəlib: o nə edəcək, hansı tərəfə baxacaq, necə oturacaq, nə yeyəcək. Mən ət görəndə ağzının suyu axan sosiopat-vegetarian kimiyəm.

Xloe lopaları öz boşqabına tökür, üstünə süd əlavə edir, qaşıq götürür və mənim qarşımda əyləşir. Mətbəx masası düzbucaqlı olsa da, çox enlidir, ona görə də aramızda kifayət qədər məsafə qalır.

Onun üzü mənim xoşuma gəlir. Onun geyimi mənim xoşuma gəlir. Məhz nəyin xoşuma gəldiyini izah edə bilmərəm. Bəlkə də, xoşuma gələn "background" – fonunda onu gördüyüm mənzərədir. Onun saçlarının rəngi arxasındakı divarın çiçək rəflərinin fonunda çox gözəl görünür, gözləri arxa həyətin sol tərəfdən görünən qazonu ilə həmahəngdir. Mənim xoşuma gələn Xloenin də daxil olduğu ümumi mənzərədir. Dünya Xloenin fonu kimi mənim xoşuma gəlir.

O, qarğıdalı lopalarına baxır, mən ona, cizgi filmi aslanı isə mənə. Xloe ətrafa laqeydlik flüidləri sıçradaraq lopaları qarışdırır. Zəngin oliqarxlar Afrikanın acından ölən uşaqlarına necə baxırlarsa, Xloe də lopalara elə baxır. Sadəcə, onların boşqabın içində üzməsinə tamaşa edir. Bu gün bizim ilk dialoqumuz doğulacaq. Nə üçün məhz "doğulacaq"? Çünki mən onunla hər dialoqu körpə kimi içimdə başlayirəm. Əvvəl fikirləşirəm, sonra beynimdə götür-qoy edirəm, sonra özümdə cəsarət toplayıram, nikbinlik və ümidlə yüklənirəm. Amma ilk sözlər ağzımdan çıxdığı zaman qəlbim əzab çəkir. Mənə çox çətindir. Mən özümü eyni zamanda həm tanıyıram, həm də yox. Şir mənə baxıb gülümsəyir. O, əynində cins gödəkcə olan yarışir-yarıinsandır. Mənim gələcək uşaqlarımın qəhrəmanı, hansısa ortabab dizaynerin təxəyyülünün məhsulu... Qəribə və xeyirxah şir...

– Heç vaxt qarğıdalı lopasını xoşlamamışam!

"Heç vaxt" Xloenin mənə dediyi ilk sözdür. Hər şey bu sözdən başlanır. Nə üçün məhz "heç vaxt"? Qədim druid rəvayətlərinə inansaq, tanış olmadığın adamın ilk sözü həmişə faldır və gələcəkdən xəbər verir. Amma nəyin xəbərini?

O mənim susqunluğuma anlayışla yanaşır və sözünə davam edir:

– Monoton yeməkləri xoşlamıram.

Soruşuram:

– Necə yəni monoton?

"Necə". Əgər yenə druidlərə qayıtsaq, onda mənim "necə"m Xloe üçün faldır. Məndə "heç vaxt", onda "necə", məndə nida, onda sual işarəsi, məndə müəyyənlik və labüdlük, onda tam qeyri-müəyyənlik... Mən "heç vaxt" onunla birlikdə olmayacağam, o isə bunun "necə" olduğunu anlamayacaq.

Xloe deyir:

– Monoton qidalar var, bir də, deyək ki, bekonlu və qara çörəkli qayğanaq var. Orada çoxlu fərqli inqrediyentlər bir-birinə qarışır.

Mən onu bir rahibə yanına gəlmiş Məryəm ananı dinləyən kimi dinləyirəm.

– Çəngəllə yumurtanın ağını ayırmaq və əvvəldə yemək olar. Sonra bir tikə bekonu götürüb yumurtanın sarısına batırırsan və çörəklə yeyirsən. Hətta dağılmış sarını çörək vasitəsilə bir yerə yığmağa cəhd etmək də olar. Ağının qızarmış qıraqlarını xırçıldatmaq, yaxud bekonu çörəyin üstünə qoyub xırda-xırda dişləmək də olar. Monoton yemək deyil, başa düşürsən? Amma lopalar... – o, sözünə ara verir, həm də sadəcə ara vermir, lopaların gözləri varmış kimi, düz onların gözünün içinə baxır. – Lopa monoton yeməkdir. Düz 10 dəqiqə eyni hərəkətlər, eyni dad reseptorlarının aktivləşdirilməsi, axırıncı qaşığadək eyni şey... Lopa-süd, süd-lopa...

Onun hər sözündən sonra içimdə nəsə qəribə bir şey baş verirdi. O bu sözləri məni təəccübləndirmək, yaxud xoşagəlməz səssizliyi doldurmaq üçün demirdi.

Bu onun tərəfindən nə diqqət göstərmək idi, nə də diqqətsizlik. Bu bütün ətrafda olanlara qarşı bir laqeydlik idi, səsli fikirləşmək idi. O bu sözləri əvvəlcədən fikirləşməmişdi, sadəcə, nəticəsini düşünmədən danışırdı.

– Monotonluq sabitlikdir.

Bunu deyirəm və elə həmin anda mənim axmaqlıqlar üzrə daxili idarəm başını bulayıb daha bir quş qoyur. Lənət şeytana, monotonluq sabitlikdir? Bu nə axmaq fikirdir? Mən nəyə görə belə dedim? Burada maraqlı və dəyərli nə var? Budur, o oturub və sabit şəkildə öz qarğıdalı lopalarını yeyir. Axı burada yaxşı nə var?

– Sabitliyin nəyi yaxşıdır?

Hamısı diqqətlə mənə baxır. Xloe, cizgi filmi aslanı və axmaqlıqlar üzrə idarənin işçiləri. Çoxlu adamın gözünü zilləyib mənə baxmasına dözə bilmirəm. Insanlar onlara kimsə baxanda danışa bilmirlər, mən isə hətta nəfəs almaqda da çətinlik çəkirəm.

– Bilmirəm. Mən bunu nə üçün dediyimi bilmirəm.

İçimdəki Müqəddəs ata razılıqla başını tərpədir və bunu səmimilik adlandırır, içimdəki alfa-erkək isə məni qoyun adlandırır.

– Olan şeydir, – Xloe deyir və boş qabı çanağın içinə qoyur. – Bunlar, adətən, ən çox dediyimiz sözlərdir... Sənin adın nədir?

Bu sual məni sevindirir. Bu, laqeydlikdən artıq bir şeydir. Mən onun parıldayan gözlərinə baxıram,

o qayıdıb masanın arxasında oturur. İndi onun qabağında nə yemək var, nə qəhvə, üstü aslanlı qutunu da gizlədib. İndi biz tamamilə təklikdəyik.

– Eyden.

– Hə, Eyden. Mənim adım isə Xloedir.

– Tanışlığımıza çox şadam.

– Biz hələ tanış deyilik.

– Onda tanış olmadığımıza çox şadam.

Xloe gülümsəyir. Mən onun gözlərində bir kədər görürəm. Mətbəxin aurasında nəsə ağır bir şey var. Bu səhər həddən artıq işıqlıdır, elə bil filmə çəkilirik və bizi hər tərəfdən projektorlar əhatə edib.

– Deyəsən, yerli deyilsən, yəni nyu-yorklu deyilsən.

– Hə, mən burada təzəyəm.

– Nyu-Yorkun özü də təzədir. Yeni York.

– Hə, elədir. Adama elə gəlir ki, burada hər şey təzədir. Hətta ən köhnələr də təzədir.

– Bəs sən nə üçün başqa yerdə yox, məhz buradasan? Ümumiyyətlə, insanlar bura nə üçün gəlir?

– İnsanların bura nə üçün gəldiyi aydındır: pul, göydələnlər, imkanlar... Amma mən bura onun üçün gəlməmişəm. Mən "heç kim" olmaq üçün buradayam.

Xloe mənə təəccüblə baxır, sonra yerindən qalxıb özü üçün qəhvə süzür. Dinməz-söyləməz əlini mənim fincanıma uzadır. Mən də bir söz demədən öz fincanımı ona verirəm və Xloenin ora necə qəhvə süzdüyünə baxıram. Xəyalımda minlərlə gələcək səhərlər

canlanır və müxtəlif qəhvəbişirənləri və fincanları olan müxtəlif mətbəxlərdə Xloe hər dəfə mənimçün qəhvə süzür.

– Heç kim olmaq üçün? Maraqlıdır, niyə?

– Özümü formatlaşdırmaq üçün. İndi mən kim olmalıyamsa, o adam deyiləm. Mən artıq varam, harada olsam da, özüm olacağam. Amma burada yox. Bu şəhər daxili aləmi öldürür, səndən yeni bir insan düzəldir. Bax ona görə.

– Narkomansan?

– Nə?

– Sən keçmiş həyatında narkoman olmusan? – o, "keçmiş" deyəndə əli ilə dırnaq işarəsi göstərir.

– Yox, ondan da pis. Mən məşhur musiqiçiyəm. Hətta məşhurdan da artıq. Mən buralarda o qədər də məşhur olmayan bir ölkənin həddən artıq məşhur musiqiçisiyəm. Narkoman üçün başqalaşmaq daha asandır. Məni isə hər yerdə tanıyırlar. Mən brendəm və bunu daşımaqdan bezmişəm.

– Sənin tatun yoxdur?

Bir saniyə fikrə gedib cavab verirəm:

– Hə, yoxdur.

– Heç cür seçə bilmirsən?

– Hə. Çoxdan döydürmək istəyirəm, amma birinci dəfə seçmək çətindir.

– Məndə də tatu yoxdur. Mən də döydürmək istəyirəm, amma bilmirəm ki, hansı şəkil bütün ömrüm boyu mənimlə qala bilər və ondan bezmərəm.

– Sən, yəqin ki, üz qabığı qəşəng olan bloknotlar alırsan, amma onların içində heç vaxt heç nə yazmırsan.

– Vay, sən bunu necə bildin? Mənim çoxlu dəftərlərim, gündəliklərim var, dəri, ya da toxunma üzlüklü, əlvan rəngli, yaxud birrəngli. Hamısı da boşdur.

Xloe mənə baxır, mən ona baxıram. Biz diqqətlə bir-birimizin gözünün içinə baxırıq. Nəsə baş verir. Həm də məsələ tatularda, qəhvədə, yaxud qarğıdalı lopalarında deyil. Hətta bütün bunlar olmasaydı belə, bu yenə də baş verəcəkdi. Bu bütün mövcud labirintlərin yeganə mümkün çıxışı kimi bir şeydir. Hər nə olursa olsun, axırı Xloedə bitir.

Elə bu vaxt Meqan mətbəxə girir və məni dodaqlarımdan öpür. Sonra soyuducunu açıb nəsə axtarır. Mən susuram. Ürəyim sürətlə döyünür. İçimdə bir hücum, kosmosa uçuş, at yarışları hiss edirəm. Xloe düz gözümün içinə baxır. Kaş mənim sehrli papağım olaydı, onu Meqanın başına yapışdıraydım. Həm də super yapışqanla...

Xloe ilə mənim aramda baş verənləri nə sevgi adlandırmaq olardı, nə də əyləncə. Buna hətta həvəs də demək olmazdı. Bu daha çox uşaq heyrətinə, heyranlığa, nəyisə ilk dəfə sınamağa bənzəyirdi. İlk qar kimi, ilk dəfə okean sahilində, yaxud kukla teatrında olmaq kimi... Sən nəsə yeni bir şey görürsən və hələ anlaya bilmirsən ki, o sənin xoşuna gəlir, ya yox; sən onu sevəcəksən, ya sevməyəcəksən.

Həmin gün mətbəxdə baş verənləri mən yalnız bir sözlə ifadə edə bilərəm – kəşf. Xloenin kəşfi. Mən Xloenin sahillərini Hindistan hesab etmiş və ora yan almışdım.

Xloe mətbəxdən çıxıb öz otağına getdi və bir-ikı gün oradan çıxmadı. Mən özümü balaca uşaq kimi hiss edirdim, sanki mənə fokus göstərmiş, amma onun necə edildiyini izah etməmişdilər. Özümdə deyildim. Hostel adamla dolu idi, mən sakitcə Xloenin otağına girə, yaxud onu çağıra bilərdim. Amma buna cürət etmirdim. Sanki içimdəki bir tabu, bir səs mənə "olmaz" deyirdi. Onun özü istəyəndə qayıdacaqdı.

Mən özümü onun yarısı kimi hiss edirdim. Mən özümü onun kəsib bir-iki günlüyə bir kənara atdığı sağ əli kimi hiss edirdim. Budur, mən zəncirli mişarla kəsilmiş, qan içində olan ələm və buzlu qutunun

içindəyəm. Mənim şüurum haradadır? Nə haqdasa düşünürəmmi? Əgər kəsilmiş əli içində buz olan qabda saxlasan, həkim onu yerinə tikənə qədər bir neçə gün qala bilər. Bu, hamıya məlum olan tibbi faktdır. Amma fəlsəfi nöqteyi-nəzərdən naməlumdur. Əl bu zaman nə edir? Axı onda milyonlarla hüceyrə var, onlar maddələr mübadiləsini və öz mikromövcudluqlarını davam etdirirlər. Bəs onlar kimə xidmət edirlər? Həmin hüceyrələr bədəndən ayrıldıqlarını qavrayırlarmı? Onlar maddələr mübadiləsinin mahiyyət etibarilə, sadəcə, zülal və oksigen axını və karbohidrat partlayışları olduğunu anlayırlarmı? Onlar öz fəaliyyətlərini dayandırırlarmı, yoxsa lap sonadək işləyirlər?

Mənim başımda apokaliptik blokbasterdən[1] bir kadr dolaşırdı, orada Yer hissələrə ayrılmışdı və onun parçaları kosmosun dərinliklərinə uçurdu. Həmin parçaların hamısında həyat davam edirdi, adamlar işə gedir, mühasiblər vergiləri hesablayır, "Chanel" yeni kolleksiyadan olan məhsulunu buraxırdı.

Yenə də başımda, ya da divarın arxasında Xloenin səsi eşidildi.

– Bəs əgər bizim kainat kəsilmiş və məhvə məhkum olan əldirsə? O, ulduz-ulduz, foton-foton sönürsə, böyük partlayış isə elə zəncirli mişarın nəhəng insanın qoluna dəyən həmin kəskin zərbəsidirsə?

[1] Geniş auditoriya üçün nəzərdə tutulmuş bahalı bədii film

Bilmirəm, mənim qulağım səsə düşmüşdü, yoxsa onun özü mənim başımda məskunlaşmışdı. Amma mənimlə nəsə baş verdiyi dəqiq idi.

Zakariya çiynimi şappıldadır və yanımda oturur. Biz birinci mərtəbədə oturmuşuq, əlimdə şüyüdlü və pendirli "Pringles" çipsi var. Axşam düşüb, haradansa yüngül caz musiqisi eşidilir, otaqlarda cavan qanların coşqun uğultusu gülüş səslərində və dağınıq "hə" və "yox" sözlərində əks-səda verir.

Zakariya yumşaq divanda mənim yanımda oturur, masanın üstündən sendviç götürür və özü üçün zero kolası süzür.

– Sən Eydensən? Mən Zakam, proqramçı.

– Çox şadam, Zak.

– Sən musiqiçisən, eləmi?

– Hə, musiqiçiyəm.

– Biz çox fərqli sahələrdənik. Mən proqramçıyam, bu, dəqiq elmdir. Səndə isə yaradıcılıq, spontanlıq. Yəqin ki, mən öz işimdən danışsam, sənin üçün maraqsız olacaq. Ona görə də, yaxşı olar ki, sən danışasan.

– Nə üçün maraqsız olsun? Mən səninlə razı deyiləm. Bizim sahələrimiz o qədər də fərqli deyil.

Zak boynunu qaşıyıb deyir:

– Hə, Eyden, deyəsən, haqlısan, proqramlaşdırma da yaradıcı işdir.

Əslində mən bunun əksini düşünürdüm. Mən musiqinin də proqramlaşdırma olduğunu nəzərdə

tuturdum, elə o şəkildə dəqiq və darıxdırıcı bir elm olduğunu. Bir-iki düjün hitdən sonra bu zəhrimarın necə işlədiyini anlayırsan. Dəqiq bilirsən ki, hansı nəqərat yerinə oturur, hansı yox və hansı "panç layn"[1] yerinə elə oturur ki, bir də oradan çıxmır. Amma Zak gülümsəyirdi, mənim onu kreativ, maraqlı və spontan hesab etməyim xoşuna gəlirdi. Ona görə də dedim:

– Hə, Zak, mən də elə bunu demək istəyirdim.

Zak sakitləşdi, söhbətin uzun olacağını hiss edərək yerini rahatladı.

– Hə, mən proqramlaşdırma ilə məşğul oluram, müxtəlif əlavə tətbiqlər yaradıram. İdeyanı fikirləşib tapıram, sonra prototip hazırlayıram və investorlara satıram.

– Yaxşı, iş necə gedir?

– Pis deyil. Hərdən müxtəlif şirkətlərdə freelanser[2] kimi işləyirəm. Məsələn, sən nə vaxtsa "Ubisoft" oynamısan?

– Hmm... Bilmirəm, əmin deyiləm, bəlkə də, oynamışam.

– Assasin Krid yadındadır? Mən həmin oyunu mobil cihazlar üçün optimallaşdırmışdım. Məni bir neçə aylığa həmin layihəyə cəlb etmişdilər. Orada təxminən 50 nəfər vardı, hər biri ayrı-ayrı hissələrin üzərində işləyirdi. Çox yaxşı təcrübə idi.

---

[1] Repdə gözlənilməz məna, söz oyunu, yaxud zarafatın ifadə olunduğu sətir

[2] Müstəqil çalışan işçi

– Bəs bura necə düşmüsən?

– Bura necə düşmüşəm? – Zakariya xeyli fikirləşir, elə bil sualımın cavabını götür-qoy edir. – Hamı necə düşübsə, mən də elə. Təsadüfən düşmüşəm. Internet, iştirak ərizəsi, uzun qoca...

– Bəs nə fikirləşirsən? Bütün bunlar nə deməkdir? Biz nə üçün buradayıq?

Zakariya yuxarı baxır:

– Zənnimcə, biz hostelin siqnal versiyasıyıq.

Soruşuram:

– Necə yəni siqnal versiyası?

Zak izah etməyə çalışır:

– Bax, tutaq ki, yeni bir restoran açılır. Əgər onun sahibi tənqidlərdən ehtiyat edirsə, onda əvvəlcə restorana öz tanışlarını dəvət edir. Firma yeməyinin dadına baxmaq üçün onu əvvəlcə öz anasına, yaxud həyat yoldaşına verir. Elə mən özüm də proqram əlavəsi hazırlayanda onu oynamaq üçün kiçik qardaşıma verirəm. Onun 15 yaşı var və potensial alıcıdır. Qardaşım mənə oyunun onun üçün maraqlı olub-olmadığını deyir.

– Sən fikirləşirsən ki, bizi bu hosteli yoxlamaq üçün bura yığıblar?

– Mən buna əminəm! Amma belə bir yoxlama üçün həyat yoldaşı, yaxud ana əl vermir. Bura cavanlar lazımdır. Onlar, sadəcə, hosteldə gəzməli deyillər, bütün bu təcrübə prosesini yaşamalıdırlar.

– Axı nə olsun? Necə bilirsən, belə bir hosteli saxlamağın nə mənası var? Buranı kirayə verib pul qazanmaq daha yaxşı olmazdımı?

– Düşünürəm ki, bütün bunları fikirləşən kişi çox varlıdır və pula ehtiyacı yoxdur. Mənə elə gəlir ki, hostel onun üçün biznes deyil, daha çox onun arzusu, yaxud eksperimentidir. O, daim mənasız şəkildə pul yığmaqdan yorulub, nəsə qeyri-adi bir iş görmək istəyir. Məsələn, Cobs kimi. Axı müəyyən mərhələdə ona daha pul lazım deyildi. Bax elə bu Jerara, yaxud hər kimdirsə, ona da pul lazım deyil. Ona nəyisə özü üçün sübut etməsi lazımdır.

– Biz də onun üçün təcrübə siçovullarıyıq?

– Hə. Amma siçovullardan heç kim heç nə soruşmur, bizdən isə soruşublar. Deməli, biz səs hüququ olan siçovullarıq. Biz volontyor siçovullarıq.

Bu yerdə mənim ağlıma qəribə bir fikir gəlir və bu fikirdən bədənim ürpəşir.

– Zak, bəs əgər bizim elə bir hüququmuz yoxdursa?

Zakariya diqqətlə mənim üzümə baxır və üzünün ifadəsi dəyişməyə başlayır.

– Nə mənada?

Mən bir qədər susub sonra, demək olar ki, pıçıltı ilə deyirəm:

– Əgər biz volontyor deyiliksə? Əgər bizim buradan çıxmaq hüququmuz yoxdursa? Əgər biz buradan çıxıb gedə bilməyəcəyiksə, onda necə olsun?

Başqa bir qızla birlikdə içəri girən Meqan bizim söhbətimizi yarıda qoyur:

– Salam, salam. Demək, burada imişsiniz. Biz köhnə ağ-qara filmlərə baxmaq istəyirik. Hamı yuxarıdadır. Gəlirsiniz?

O hələ də mənim otağımda qalır. Düzdür, Xloedən sonra mən ona toxunmamışam, o da bunu başa düşüb. Hərçənd hələlik başqa yerə getməyə də hazırlaşmır. Beləcə bir çox gənc ailələr kimi, ixtiyarsız olaraq bir yerdə yaşayırıq.

Tüstü və qızardılmış kartofla ikiqat yuxusuzluq

"Qızardılmış kartofdan çox xoşum gəlir".
Mahatma Qandi



Cansıxıcı filmdən sonra yuxum qaçıb. Meqan isə qış yuxusuna gedən qunduz kimi yatır. Deyirlər, qunduz anabioz vəziyyətdə olanda, yəni öz yuvasında tam yuxuya getdiyi zaman, demək olar ki, nəfəs almır. Çünki belə vəziyyətdə qışı başa vurmaq daha asandır. Az nəfəs alırsansa, deməli, az enerji sərf edirsən. Hətta tülkü qunduzu yuxuda olduğu vaxt qazıb çıxartsa və ayaqlarından yeməyə başlasa, o yenə də oyanmayacaq.

Mən yanımda yatmış Meqana baxır və fikirləşirdim. Yanlışlıq nədə oldu? Nə üçün təkamül bizi təkcə birini sevən insana çevirir? Nə üçün elə bir an gəlir ki, biz "kiminlə gəldi" və "harada gəldi" ola bilmirik? Nə üçün daha ağıllı insanın özünə yar tapması daha çətindir? Nə üçün məqsədi öz spermasını və genlərini ötürmək olan bir kişi qadınla seksdən daha artıq bir şey düşünməlidir? Nə üçün mən elə indicə Meqandan istifadə etməyim və onda özümdən bir parça saxlamayım? O, hamilə qalar və bir körpə doğar. Əvvəlcə Meqan, ardınca başqa Meqanlar... Beləcə mən bu planetdə özümdən sonra sayı mindən artıq olan bir nəsil qoyub gedə və rahat ölə bilərəm.

Son vaxtlarda bu cür fikirlər mənim beynimi virus kimi doldururdu. Sadəcə, gəlib qəlbimi zibilləyirdilər. Murdar fikirlər kişilərin menstruasiyasıdır. Mənasız aybaşılardır, bu məsələdə sizə heç bir gigiyenik paket kömək edə bilməz.

Başa düşürəm ki, Meqana da, yuxuya da bütün marağımı itirmişəm. Elə həmin anda burnum evdə bişmiş yeməkdən gələn, anamı xatırladan hansısa çox doğma qoxunu hiss etdi. İlahi, bu ki kartof qızartmasıdır! Lap yəqin ki, gonbullardan biridir. Biz oturub ağ-qara fransız filminə, kinematoqrafiyanın şah əsərinə baxdığımız, sonra isə aktyorların oyununu müzakirə etdiyimiz vaxtda bu gonbul yalnız bir kadra fikir verib – kartofun qızardılmasına. Biz filmin sonunu kimin necə başa düşdüyünü qızğın şəkildə müzakirə etdiyimiz və rejissorun finalı tamaşaçıların mühakiməsinə buraxmasına, onlara özlərinin nəticə çıxarmaları üçün imkan verməsinə heyranlığımızı bildirdiyimiz zaman bu gonbul da özü üçün nəticə çıxarıb. Fikirləşib ki, hamı yatanda geyinib sakitcə mətbəxə düşə və filmdə gördüyü kartofdan qızardar. Kartof qızartması isə elə bir şeydir ki, hətta yatmış qunduzu da yuxudan oyada bilər. Onda qızartmanın çox dolğun, xoş qoxusu var.

Tez geyindim, ondan da sürətlə aşağı düşdüm. Özümü qonşunun pişiyi kimi hiss edirəm. Mənə kartof qızartması lazımdır.

Onun əynində ağ şort və qara mayka vardı. Bu, Xloe idi. O, barmaqlarının ucuna qalxaraq əlini uzatdı və yuxarı rəfdən duz götürdü. Ətrafa baxdım. Mətbəxdə başqa adam yox idi. Qaranlıq mətbəxi yalnız şkafla qaz pilətəsinin arasındakı iki lampa işıqlandırırdı. Xloenin qaranlıq səltənəti...

– He-ey...

O, səsini uzada-uzada astadan söylədi və cəld kartoflara baxdı. Cəmi yarım saniyə, bəlkə də, daha az. Elə bil fikrində kartofları aramızda yarıya bölürdü, sonra fikirləşirdi ki, oğlan olduğuma görə mən tez və çox yeyəcəyəm. Belə çıxırdı ki, ona bu kartofların yalnız üçdə biri çatacaq. Halbuki onu təkcə özü üçün qızartmışdı.

– Qonaq ol...

– Hmm... Yox, sağ ol, bir-ikisini götürərəm...

Xloe gülümsəyir. Əlləri yaş olduğundan üzünə tökülən tellərini dirsəyi ilə yana verməyə çalışır.

– Yuxun qaçıb?

– Adam o cür filmdən sonra yatmaq yox, ölmək istəyir.

Xloe astadan pıqqıldayır:

– Hə, elədir. Gəlsənə həyətə çıxaq? Yoxsa hamını oyadarıq.

Mən razılaşıram və içində kartof qızartması olan boşqabı götürürəm. O da öz siqaretlərini götürür və biz həyətə çıxırıq. Mən çəkələyimin bir tayını qapının arasına qoyuram ki, çırpılmasın. Amma düzünü

desəm, mən çox istərdim ki, indi qapı çırpılsın. Mən belə bir adamam. Dəhşətli dərəcədə dürüstəm. Xloeni aldatmamaq üçün bu fürsəti əldən verirəm.

Dürüst olmaqdan zəhləm gedir, bilmirəm, bu cəhət məndə haradandır.

Biz pilləkənin üstündə otururuq. Həyət içəridən istidir. Göy tərtəmizdir. Sisəklər vızıldaşır. Belə axşamları xoşlayıram. Yanımda oturmuş qızdan çox xoşum gəlir. Qəribədir, axı onda qeyri-adi heç nə yoxdur. Mən Xloeyə yaxından baxmağa və onu öyrənməyə çalışıram. Amma bunu hiss etdirmirəm ki, onu utandırmayım.

Saçlar. Yəqin ki, mənim ağlımı alan Xloenin saçlarıdır. Bəlkə, onun geyimi? Bəlkə, Xloe elə təbii geyinir ki, mənim onun geyimindən xoşum gəlir? Bəlkə, dərisinin rəngi? Onun latte kimi açıq krem rəngli dərisi var. Gözləri içində yaşıl büllurlar oynaşan boz rəngdədir, elə bil kimsə boz-yaşıl kaleydoskopu bərk silkələyib.

– Hə, Eyden, danış görək.

– Nə danışım? Bəlkə, əvvəl sən danışasan?

O, siqaret çıxarıb çəkməyə başlayır.

– Bəs mən nə danışım?

– Məsələn, danış görək, çəkməyə nə vaxt başlamısan.

O mənə baxıb gülümsəyir, sonra başını bulayıb gözlərini qıyır:

– Mən heç başlamamışam. Bu, siqaret deyil.

– Hə, deməli, "ot"dur?

– Yox, "ot" da deyil. Bu, sadəcə, xoş qoxulu müxtəlif otların qarışığıdır. Burada nə nikotin var, nə də narkotik. Bunun hətta faydası da var. Sadəcə, nanə və bir neçə başqa ədviyyatdır.

Gülümsəyirəm.

– Hmm... Maraqlıdır. Bəs bunda nə məna var?

– Tüstüsü xoşuma gəlir. Sadəcə, tüstünü xoşlayıram. Onun çıxmasını və göyə ucalmasını. Bu tüstü ilə birlikdə mənim xırdaca parçalarım da kosmosa uçur. Hətta mikroskopik molekullar boyda olsalar da, mənim hansısa parçam uçub ulduzlara qovuşur və bunu bilmək mənə xoşdur.

– Hə... Atmosferin sərhədinə qədər, – deyirəm. Xloe təəccüblə mənə baxır. İzah etməli oluram: – Atmosferin sərhədinə qədər. Sonra Yerin cazibə qüvvəsi onları geri çəkir və sənin parçaların qayıdırlar. Ən yaxşı halda, haradasa, stratosfer səviyyəsində uçurlar, amma ondan yüksəkdə yox.

Xloe kədərlənir:

– Saf xəyalların dağıdıcısı Eyden! Mən elə bilirdim ki, onlar sonsuz qalaktikada uçurlar.

O, tüstünü içinə çəkib buraxır. Tüstü burum-burum yuxarı qalxır.

– Bəs indi? Onlar, sadəcə, haradasa ilişib qalır...

– Yaxşı. Bağışla. Xətrinə dəymək istəmədim, – deyib gülümsəyirəm.

Xloe ciddi halda başını bulayır.

– Heç bir bağışlanma olmayacaq, – deyir və içində kartof qızartması olan nimçəni əlimdən alır. – İndi sən mənə borclusan.

– Borclu?

– Hə. İndi sən mənə hansısa gözəl bir əfsanə danışmalısan, elə bir əfsanə ki, mən ona inanım.

Mən düşünüb bir şey tapmağa çalışıram, amma sisəklərin vızıltısı fikrimi yayındırır.

– Sən bilirsən ki, vızıldayan sisəklər deyil? – mən bunu deyəndə Xloe gülümsəyib üzünü mənə tərəf çevirir. – Hə, onlar heç də sisək deyil. Gecələr qarışqalar futbol oynayır. İnsanlar şirin yuxuda olduqları zaman onlar yarış təşkil edirlər. Sən bilirsən də, qarışqaların altı ayağı var. Onlar bir-birinin ayaqlarına zərbələr vururlar, hakimlər də daim fit çalır və onlara sarı vərəqələr göstərir. Bütün bu vızıltılar da...

– Maraqsıızzdır, Eyden! Mən buna inanmıram. Mənim tüstümün göyə qalxması və kosmosa uçması haqqında gözəl bir əfsanəm vardı. Sənin danışdığın isə əfsanə deyil, sayıqlamadır. İstəyirəm ki, sən mənə əfsanə bağışlayasan.

Xloe diqqətlə gözlərimin içinə baxır. Elə bil balaca pişik balasıdır, məndən ləzzətli bir şey istəyir. Mən də onun gözlərinə baxıram və qorxuram ki, bircə saniyə də yubansam, daha oradan çıxa bilmərəm. Xloenin gözlərində bir boşluq var. Amma bu, təcrübəsizlikdən, yaxud ağlın dayazlığından irəli gələn boşluq deyil. Bu, tamamilə başqa bir boşluqdur. Siz yenicə

tikilmiş evləri görmüsünüz? O evlər də boşdur, onlardan təzə vurulmuş boyanın, taxta yonqarlarının qoxusu gəlir. Hər şey təmiz və səliqəlidir, ağ vərəq kimi boşdur. Adətən, sadəlövh və bakirə qızların gözlərində belə bir boşluq olur. Ilkin boşluq. Ola bilər ki, siz boşalmış, içindən bütün mebeli çıxarılmış evləri də görmüsünüz. Köhnə sənət evləri, rəssamların evləri, yaxud ailə mülkləri kimi. Onlar da boşdur, onların da dəhlizlərindən boşluq əsir. Amma bu boşluqdan həm də ev xörəyinin qoxusu gəlir, bu boşluq yöndəmsiz mebel daşıyanlar tərəfindən cızılıb. Solmuş divar kağızlarının üstündə nə vaxtsa oraya söykənən qab-qacaq şkafının yeri aydın görünür. Çirkli pəncərə altlıqları... Vanna otaqlarının çatlamış kaşıları... Əlbəttə, həm də əvvəllər rəsm əsərlərinin və fotoşəkillərin asıldığı mıxların divarlarda qalan deşikləri... Divar plakatlarından qalma qurumuş yapışqan...

Xloenin boş yox, boşalmış gözləri var idi, cızıqlarla və keçmişin izləri ilə dolu olan boşalmış gözləri... Xloenin gözləri icarəyə verilir... Xloenin gözləri münasib qiymətə satılır...

Mənim gözlərimdə isə zir-zibil vardı. Milyonlarla lazımsız şey vardı. Mənim gözlərim Xloenin gözlərinin mebel daşıyanlardan əvvəlki halı kimi idi. Mən öz gözlərimi yığışdırıb səliqəyə salmalı idim.

Pauza uzanırdı. Amma mənim deməyə sözüm yox idi. Ona görə də Xloe danışmağa başladı:

– Eyden, bilirsənmi, mən katolik idim.

Bu mənə maraqlı göründü:

– Nə mənada?

– Həqiqi mənada. Mən katolik idim, kilsəyə gedirdim, dua edirdim... – o, siqaretini çəkib tüstünü havaya buraxır və fikrə gedir. – Amma bunların hamısı keçmişdə qalıb.

Mən onun incə və gözəl barmaqlarına baxıram. Siqareti ehtiyatla tutub, elə bil barmaqlarının arasındakı canlı məxluqdur.

– Bəs indi?

– İndi mənim Manhettendə fotostudiyam var.

– Deməli, sən fotoqrafsan?

– Yox. Mən studiyamı fotoqraflara icarəyə verirəm. Onlar çoxdur, öz müştərilərini gətirirlər. Mən saata 120 dollar alıram, 50 dollar da əlavə olaraq qrim otağı üçün verirlər. Mən indi biznes-lediyəm. Bax belə. İlahi qığılcımı "Canon" fotoaparatının işığı əvəz edib.

– Necədir? Bu sənin xoşuna gəlirmi?

O mənə baxıb gülümsəyir.

– Hmm, katolik qızdan biznes-lediyə. Bu... – o bir anlığa fikrə gedir. – Bu ona bənzəyir ki, qu quşunun qanadlarını qoparıb atasan toyuq hininə. Amma "West Elm" şirkətindən mebeli olan VIP toyuq hininə.

O mənə ürəyinin sirlərini açır, amma mən onun nəyi nəzərdə tutduğunu tam anlamıram. Həm də bütün bunları yad adama danışmaq nəyə lazımdır? Amma kobud görünmək istəmirəm və soruşuram:

– Deməli, katolik olanda sənin üçün yaxşı keçirdi?

– Portlenddən olan katolik qız, həm də katoliklər ailəsinin üzvü... Mənim ulu babam da katolik olub. Mən icmaya aid idim, katolik məktəbinə gedirdim, dostlarım katolik idi, ümumiyyətlə, ətrafımda olan hər kəs katolik idi. Biz Mel Gibsonun "İsanın əzabları" filminə baxanda ailəlikcə hönkürürdük. Kilsə həmin filmi qadağan etdikdən sonra isə DVD-ləri eyni çılğınlıqla zibil qutusuna atmışdıq. Mən 20 yaşımadək bakirə olmuşam. Daim Bibliyanı oxuyurdum. Hətta onun bir hissəsini əzbərləmişdim. Yəqin ki, o hissəni indi də yadıma sala bilərəm, amma bu, cansıxıcı əhvalatdır, elə deyilmi?

Mən nə deyəcəyimi bilmirdim:

– Yox, qətiyyən cansıxıcı deyil. Hətta maraqlıdır.

– Bax sən musiqiçisən. Məşhur musiqiçi... Çoxlu maraqlı, rəngarəng illəri arxada qoymusan. Mənim həyatımda isə yalnız zəbur surələri və kilsə nəğmələri olub... – o, yenə siqaret çəkir. – Amma bütün bunlar keçmişdə qalıb. O vaxtdan 7 il keçib. Amma and içirəm ki, kilsə çörəyinin dadı və əriyən mumların qoxusu hələ də yadımdadır. Orada, bizim kilsədə necə oturduğumu da xatırlayıram.

– Bilirsənmi, bizim hüceyrələrimiz... Yəni bədənimizin hüceyrələri hər gün ölür və onların yerinə yeniləri doğulur.

Xloe sakitcə mənə baxır:

– Hə...

– Deməli, 7 il ərzində həmin dövrə tamamlanır və biz bütünlüklə yenilənirik. Sənin bədənində bircə dənə də katolik hüceyrəsi qalmayıb. Nə vaxtsa kilsə nəğmələri oxuyan bircə dənə də səs teli qalmayıb. Bu 7 il ərzində onların hamısı ölüb və yeniləri doğulub.

– Lənət olsun, Eyden... Bu... Bu, çox pisdir... Yoxsa sən mənim həyatımdakı bütün gözəllikləri öldürmək istəyirsən?

Xloenin gözləri yaşarır, amma ağlamaq əvəzinə gülməyə başlayır. O öz siqaretini çəkir və gülür.

– Bağışla, bilmədim. Mən, sadəcə...

O, gözünün yaşını silir və yenə gülür.

– Eyden, sən... Axı bu, kobudluqdur. Ümumiyyətlə, sən bu cür soyuq, monolit həqiqətin içində necə yaşayırsan? Kilsədə məhz bu ayaqlarımla olduğumu fikirləşmək mənim xoşuma gəlir, tamamilə buxarlanıb yox olan, yerinə təzəsinin əmələ gəldiyi ayaqlarımla yox. Eyden, sən qəribə adamsan. Bu qədər həqiqəti öz çiyinlərində necə daşıyırsan?

O qalxıb öz otağına gedir. Mən oturduğum yerdə qalıram. Sözlərimin onu nə üçün bu qədər kədərləndirdiyini hələ uzun müddət anlaya bilməyəcəkdim. Bunu yalnız Xloe ilə yaxınlaşdıqdan, o mənə valideynlərini necə itirməsi, Allahın ölümü və özünün "post-dini sindrom"u haqqında danışdıqdan sonra öyrənəcəkdim.

Tobinin saxta faktları necə uydurması haqqında

"Siqaret tüstüsü ilə birlikdə bizim zərrəciklərimiz də uzaq kosmosa uçur".
Xloe



Bir vaxtlar mənim də əfsanələrim vardı. Özümün şəxsi əfsanələrim... Onların sayı çox deyildi, amma mənim dünyanı dərk etməyimin əhəmiyyətli hissəsini təşkil edirdi.

Məsələn, lap balaca olanda, nədənsə, fikirləşirdim ki, bütün itlər erkək, bütün pişiklər dişidir. Mən bu fikrə o qədər alışmışdım ki, valideynlərim bütün başqa heyvanlar kimi itlərin də dişi və erkək cinsdən ola bildiyini mənə izah etməyə çalışanda obyektiv gerçəkliyə qarşı müharibə elan etməyə hazır idim. Axı bu necə ola bilər? Axı itlər erkəkdir, onlar kişiyə oxşayır, bədənləri böyük, burunları uzundur, onlarda alçaq tembrli, bəm kişi səsi var. Pişiklərin isə hamısı balacadır, gözəl rəngləri, incə pəncələri, zərif burunları və nazik səsləri var. Onların hamısı qızdır. Dişidir. İtlərin ikicinsli olması mümkün deyil. O halda, onları necə ayırmaq olar? Onların döşləri, uzun saçları yoxdur. O vaxt mən hələ cinsiyyət orqanlarının mənasını bilmirdim. Həmin orqanlar mənim üçün yalnız bir məna daşıyırdı, o da işəmək idi. Mənim aləmimdə

cinsiyyət üzvü də burun deşiyi, yaxud göbək kimi neytral, "ziyansız" bir orqan idi.

Hər dəfə xəyallarım alt-üst olub dağılanda özümü necə pis hiss etdiyim dəqiq yadımdadır. Elə bil gözəgörünməz qüvvələr mənim ideallarıma zərbələr vurur və görünməyən buldozerləri ilə onları darmadağın edirlər. Fikrimin divarları dağılıb yox olurdu. Mən ölümün nə olduğunu bilirdim, bilirdim ki, ölkəmiz qonşu ölkə ilə müharibə edir, mən dünyada çoxlu kasıb və ac insanların olduğunu qəbul edirdim. Amma bu "Sarı hiyləgər"in dünyada tək olmadığını bilmək məni çox qorxudurdu.

Mənim oyuncaqlarımdan biri sarı, iyrənc, plastmas tülkü idi. Mənə elə gəlirdi ki, o, qocadır, elə bil onun 70-dən artıq yaşı vardı. Mən oyuncaqlarımla oynadığım zaman "Sarı hiyləgər" həmişə barışmaz düşmən, mənfi obraz, antaqonist tip yerində olardı. O, daim dovşan balalarını qorxudar, şahzadə qızı oğurlayar, tənbəl robotun evini dağıdardı. Bir sözlə, həmişə pis işlər görərdi. Amma hər necə olsa da, "Sarı hiyləgər" qeyri-adi, xarizmatik idi və ən başlıca mənfi qəhrəmanlardan biri idi. Onu mənim üçün anam almışdı, yay axşamlarının birində öz çantasında evə gətirmişdi. Elə o gündən oyuncaqlar səltənətində xoşagəlməz hallar və məkrli hadisələr baş verməyə başladı.

Amma bir neçə aydan sonra, atamın iş yoldaşının uşaqları ilə oynadığımız zaman şoka düşdüm. Gördüm ki, atamın dostunun zəhlətökən qızı mənim

"Sarı hiyləgər"imi götürüb oyuncaq evin içinə aparır və deyir ki, indi bu, Barbinin itidir. Mən kainat tərəfindən mənəvi cəhətdən öldürülmüş və aldadılmış halda çaşıb qalıram. O kütbeyin qıza başa salmağa çalışıram ki, bu, "Sarı hiyləgər"dir, sənin Barbinin ev iti olmağa yaramaz, onu yeyə bilər. Mən öz subyektiv gerçəkliyimi var gücümlə müdafiə edərək "Sarı hiyləgər"in necə məkrli ola biləcəyini əməli şəkildə göstərməyə çalışır və Barbini yeməyə başlayıram. Əlbəttə, tülkünün köməyi ilə. Təxmin etdiyiniz kimi, qız ağlamağa başlayır, mən isə cəzalandırılıram. Mənim cəzam isə otağın küncü, yaxud bir neçə gün topumdan ayrı qalmaq deyil. Yox. Atam məni rəflərində onlarla cansız və hərəkətsiz "Sarı hiyləgər"in oturduğu oyuncaq mağazasına aparır və deyir:

– Oğlum, bax, onlar, sadəcə, oyuncaqdır, canlı deyil. Bax, görürsənmi?

Beləcə mənim uşaqlıq xəyallarım dağıldı. Xloenin ölü əfsanələr və ölü ümidlərlə dolu olan göz yaşları kimi.

Lakin həmişəki kimi, köhnə əfsanələr yeniləri ilə əvəz olunur. Mənim üçün belə əfsanələrdən sonuncusu bu hostel oldu. Haqqında heç kimin dəqiq bir şey bilmədiyi bu sirli yer. Amma ertəsi gün mən təsadüfən ikitərəfli yapışqanı olan girdə bir əşya gördüm. O, mətbəx masasına yapışdırılmışdı. Diqqətlə baxdıqdan sonra onun mikrofon, dinləmə cihazı olduğunu anladım. Aydın idi ki, burada bizə qulaq asırlar,

amma bunun kimə və nə üçün lazım olduğu yenə də məlum deyildi. Mən bu tapıntım haqqında heç kimə heç nə demədim. Lakin artıq başa düşürdüm ki, hər halda, burada nəsə baş verir. Nəsə qəribə bir şey. Həm də bütün varlığımla hiss edirdim ki, bu mənim üçün heç də yaxşı qurtarmayacaq.

Mən diqqət çəkmək istəmədim və mikrofonu qaytarıb yerinə yapışdırdım. Bir halda ki onu gizlətmişdilər, deməli, kiminsə onu tapmasını istəmirdilər. Bəlkə, bu, həqiqətən, realiti-şoudur? Bu cür müxtəlif, unikal gənclər – heç biri digərinə bənzəmir. Bəlkə, hosteli bu qədər canlı və qeyri-adi edən də elə bu idi. O, vahid bir orqanizm kimi idi, öz həyatını yaşayır, dəyişir, başqa şəklə düşürdü.

Mən ikinci mərtəbədən gələn gülüş səslərini eşidirəm. Kimsə tavanı döyəcləyir, tullanır, dəlilik edirdi.

Bu cavanlardan tamamilə fərqli olduğumu deyə bilmərəm. Axı bizim hamımız eyni ideallarla böyümüşdük. Ola bilsin ki, əvvəllər Amerika ilə postsovet ölkələri arasında böyük bir uçurum var imiş, amma MTV, Hollivud və "McDonald's"dan sonra hər şey dəyişib. Biz nə qədər fərqli olsaq da, hamımız eyni musiqini dinləyir, eyni filmlərə baxır, "Friends" serialından olan eyni zarafatlara gülürük. Bizim hamımız eyni fast-fud-lardan yeyir, hətta eyni cür geyinirik. Yaxşı yadımdadır, "Backstreet Boys" qrupundan sonra hamımız saçlarımızı uzatmağa başlamışdıq, hərəmiz "Spice Girls" qrupundakı qızlardan birini sevirdik, hamımız bilirdik

ki, "I'll be back" Terminatordur, "Agent 007" isə Bond. Sonra sosial şəbəkələr və internet meydana çıxdı. Onlar əcnəbiliyin bütün qalan şirəsini də sıxıb çıxardılar. İndi biz vahid bir kütlə, ümumi dünya mədəniyyətinin kiçik parçaları idik...

Kimsə mənə tərəf gəlir, addım səslərini eşidirəm. Lənət olsun, indi öz-özümlə danışdığım bu dəqiqələrdə kimisə görmək istəmirəm. Axı mən özümü çox yaxşı hiss edirdim. Lənət olsun.

– Heeey, dude, what's up!

Tərcümə edirəm: "Heeey", sadəcə, uzadılmış "Ey"dir; "dude" kökü olmayan sözdür, "dost" mənasında işlənir; "What's up" hərfi mənada "Nə baş verir?" kimi tərcümə olunur. Prinsipcə, normal sözlərdir, amma mənim nəzərimdə onlar təxminən bu cür səslənir: "Sən məni tanımırsan, mən də səni tanımıram, mən sənin divanda oturduğunu gördüm və qərara aldım ki, sənin təkliyinə son qoymaq və yanında oturmaq lazımdır. Axı bizim üçün bugünkü havadan, prezidentlərin dünənki debatından danışmaq və əlbəttə ki, bir-birimizə "Google"da cavabını asanlıqla tapa biləcəyimiz adi suallar vermək olduqca əhəmiyyətlidir. Məsələn: "Sənin ölkənin əhalisi nə cürdür?", yaxud "Sizin paytaxtınız necə adlanır?""

– Heey.

O mənə yaxınlaşıb yanımda oturur. Həmin gonbul oğlandır. Hərçənd ona gonbul yox, yekə demək daha doğru olar. Onda hər şey iridir: çiyinləri, üzü,

qaşlarının arasındakı məsafə, barmaqları, burnu. Böyük ölçülü krossovkaları. Məntiqə görə, həm də böyük cinsiyyət üzvü. Əlbəttə, bunu əminliklə demək olmaz, amma prinsipcə elə olmalıdır. Yaxşı ki, biz paltarlı məxluqlarıq və cinsiyyət üzvlərimizi daim müqayisə etməli olmuruq. Amma bütün qalan şeylərdə məhz elə bununla məşğuluq.

– Oturub kədərlənirik?

Hmm... O mənim kədərli olduğumu fikirləşir. Kədərin zahiri əlaməti kədərli smaylik şəklində küncləri aşağıya doğru əyilmiş dodaqlardır. Amma bilməlisiniz ki, bu, iki halda baş verir. Birincisi, sən, həqiqətən, kədərləndiyin zaman, ikincisi, tam rahatlandığın vaxtda dodaqların aşağı əyiləndə. Sən özünü çox yaxşı hiss edirsən və sadəcə, dincəlirsən.

– Yox.

Bu zaman sifət əzələlərinin milyon hüceyrəsinə güc verməli olursan: "Oyanın, it uşaqları, ayağa qalxın! Qalxın, lənətə gələsiniz, iş başına!"

Maraqlıdır, görəsən, biz məcburi təbəssümə nə qədər enerji sərf edirik? Yox, mən kədərlənmirəm, bax görürsənmi, itoğlu, gülümsəyirəm. Bax gör mənim necə xoşbəxt bir sifətim var.

– Aaa... Mən elə bildim ki, dostumuz Eyden artıq evə, öz musiqisinin yanına qayıtmaq istəyir.

– Yox, mənimçün hələlik burada da pis keçmir.

– Mən Tobiyəm... By the way[1]...

– Çox şadam, Tobi. Nədənsə, mən səni çox az görürəm.

– Hə, mən çox görünməyi xoşlamıram. Eləcə, ətrafda gəzirəm. Amma səni birinci gün görmüşdüm. Bura necədir, xoşuna gəlir?

– Normal. Yaxşıdır. Yeməkləri dadlıdır.

– Ha-ha! Amma mənim ürəyim artıq "Shake Shack"[2] istəyir. Bu dəqiqə iki pay burger sifariş verərdim.

– Hmm, onların burgerləri dadlıdır, amma növbə çox olur. Axırıncı dəfə düz yarım saat gözləməli olmuşdum. Bunun harası "fast food"[3] oldu?

– Hə, onlar öz qiymətlərini bilirlər. Mən eşitmişəm ki, hətta pulla növbədə dayanıb yoldan keçənləri cəlb edən xüsusi adamlar var. Yaxından keçən insanlar restoranın qabağında növbə olduğunu görür, nəcisin üstünə milçək daraşan kimi, ora daraşırlar.

– Əcəbdir. Bunu birinci dəfə səndən eşidirəm.

– Ona görə ki, mən bunu elə indicə uydurdum! – o, ucadan gülür. – Dostum, mən həmişə bu cür şeylər uydururam. Kimdir gedib yoxlayan? Əvəzində bu məni qeyri-adi birinə çevirir, başa düşdün?

– Qəribə adamsan, Tobi, amma, doğrudan da, maraqlısan. Yaxşı, yenə bir şey danış.

Tobi fikirləşir.

---

[1] Yeri gəlmişkən

[2] Burgerləri ilə məşhur olan restoranlar şəbəkəsi

[3] "Sürətli qida"

– Hmm, yox, belə alınmaz. Gərək biz elə-belə nə barədəsə danışaq, mən də söhbət arasında hansısa maraqlı bir gop fikirləşim. Bilirsən, mən axı qostrayter[1] işləyirəm.

– Qostrayter? Maraqlıdır. Bəs bu sənin xoşuna gəlirmi?

– Sən inanmayacaqsan, amma kitab yazmaq istəyən adamlar həddən artıq çoxdur. Lakin təbii ki, buna hər kəsin gücü çatmır. Yanlarını kresloya qoyurlar ki, yazsınlar, beş dəqiqə keçməmiş əldən düşürlər, amma yenə də mütləq kitab müəllifi olmaq istəyirlər. Bax onda mənim yanıma gəlirlər.

– Dayan, indi tapacağam. Top-menecerlər, siyasətçilər?

– Yox, tapmadın. Ən çox sifariş verənlər evdar qadınlardır, onların əlindən televizorun qabağında oturmaqdan və dondurulmuş lazanya[2] almaqdan başqa heç nə gəlmir. Əlbəttə, kitab yazmağa vaxt tapmayan, amma nüfuz naminə bunu etməyə məcbur olan biznes adamları da var. Deyək ki, hansısa bir şirkətin təsisçisi özü üçün "Sem Barrenin avto-ambisiyaqrafiyası"nı istəyir. Amma daha çox işi-gücü olmayan qoca, gonbul arvadlardır. Onlar mənim ofisimə zəng vurub, ortayaşlı qadının adından məhəbbət mövzusunda

[1] "Ghostwriter" (kabus-yazıçı); pul qarşılığında məşhur adamların əvəzinə mətn yazan müəllif

[2] İtaliya mətbəxinin xəmir və içlik qatlarından ibarət ənənəvi yeməyi

kitab yazmağı sifariş verirlər, 200-300 səhifəlik olsun, adı da "Xoşbəxtliyin 30 həftəsi".

– Bəs buna görə nə qədər pul verirlər?

– 1000 dollar. Bilirəm, az görünür. Amma mən belə kitabdan ayda üçünü yazıram axı.

– Əcəbdir! Bəs bunu necə çatdırırsan?

Tobi başını bulayır.

– Heç də çətin deyil, dostum. Yazırsan, yazırsan, sonra yenə bir az yazırsan. Sonra süjetləri təkrarlayırsan, təkcə adları və coğrafiyanı dəyişdirirsən. Bəzən bir kitabın lap 50 səhifəsini köçürürəm o biri kitaba. Həmin evdar qadınların bir-birinin kitabını oxuması ehtimalı sıfırdan da aşağıdır. Belə kitablar cəmi 100 nüsxə tirajla çıxır – dost-tanış üçün. Onlara isə həmin kitab heç lazım da deyil.

– Hmm... Əyləncəli işin var, Tobi.

– Mən insanlara illüziya bəxş edirəm. Onlara özünəhörmət duyğusunu satıram. Vəssalam. "Qostrayter" hərfi tərcümədə yazıçı-kabus deməkdir. Mənim düşünmək və səmimi danışmaq kimi bir üstünlüyüm var...

– Həmişə kitab yazmaq arzusunda olmuşam, amma nədənsə... Mənə elə gəlir ki, bu sahədə istedadım yoxdur. Məndə musiqi alınır, amma yazıçılıq... Axı əsəri, necə deyərlər, yazmaq yox, yaşamaq lazımdır. Kitab yazmaq üçün əzab çəkmək lazımdır. Mən nə vaxt əzab çəkmişəm? Qastrollar, konsertlər, vallar... Mən yoxsulların yaşayışını görməmişəm, kriminal aləmlə də tanışlığım yoxdur.

Tobi deyir:

– Sən də öz musiqiçi həyatından yazmağı sına. Axı bu, hamıya maraqlıdır. 7 milyard adam həyatın çətinlikləri haqqında danışa bilər. Amma səhnə arxasındakı həyat haqqında, fanatlar, avtoqraflar və buna bənzər şeylər haqqında hər adam yaza bilməz axı. Həm də hər adam həqiqəti danışmaq istəməz.

– Hə, sən haqlısan. Amma məndən yazıçı çıxmaz. Mən heç yaxşı oxucu da deyiləm. Oxumağa başlayan kimi, elə bil qaçış zolağına yapışqan tökürlər.

– What?[1]

– Bunu necə izah edim... Mənim başımda vaxt çox sürətlə gedir. Elə bil ki, ekspress qatarı harasa şütüyür. Həm də, sadəcə, şütümür, onu qaçırıblar. Başa düşürsən? You know what I mean?[2]

– Hə, dostum, anlayıram.

– Burada isə bütöv bir kitabdan söhbət gedir. Axı kitabı yarım saata oxumaq mümkün deyil, "YouTube"dakı kimi x2 ilə sürətləndirə də bilməzsən. Bəzən isə elə zir-zibil yazırlar ki... Uzun, mənasız, məzmunsuz dialoqlar...

Selin bizə yaxınlaşır. Bu, müxtəlif bloqlar yazan qızdır. Yəqin ki, o bir neçə dəfə "book"[3] sözünü eşidib və kitab iyinə gəlib. Kitabların iyi isə çox xoş olur.

---

[1] Nə?

[2] "Mənim nədən danışdığımı anlayırsan?"

[3] Kitab

– Hi guys[1], nə barədə filosofluq edirik?

Tobi yoğun barmaqları ilə öz iri başını qaşıyır. Onun dırnaqları çox qısa olduğu üçün heç nəyə yaramır, ona görə də başını barmaqları ilə qaşımalı olur. Onun üçün çox çətin olduğunu fikirləşirəm. Mən öz dırnaqlarımı borc verə bilərdim, amma...

Tobi deyir:

– Mən Eydenə deyirdim ki, kitab oxumaq lazımdır. O isə cavab verir ki, yox, dostum, ekspress qatarı qaçırmaq və zamana yetişmək lazımdır.

Ağıllı sifəti olan Selin sözü göydə tutur və gülümsəyir:

– Bütün paradoks da elə bundadır! Sürətlə yaşayanlar elə sürətlə də yox olurlar. Bəs kim qalır? Məhz zamanın arxasınca qaçmayanlar. Dahilər, yazıçılar, rəssamlar... Onlar bir saniyəni, bir anı tutmağa çalışır və onu əbədiyyətə çevirirlər. Bu marafonun faydası ondan imtina etməkdədir.

Mən əlavə edirəm:

– Hmm... Şahmatda ən yaxşı gediş taxtanın üstündən fiqurları götürüb qapağı bağlamaqdır.

Selin uzun, qara saçları, incə bədəni olan asiyalı qızdır. Mən özümü Selinlə Tobi arasında qızıl orta kimi hiss edirəm.

Fikir verirəm ki, dicey Kazanova yavaş-yavaş bizə yaxınlaşır. Onun adı necə idi? Hələ ilk günün axşamı

[1] Salam, uşaqlar

fərqlənən xoşagəlməz tip. Ona görə yavaş-yavaş yaxınlaşır ki, bu onun mövzusu deyil. Həddən çox metafor var, eyhamlar azdır, cümlələr çox uzundur. O bu cümlələri qısa "skretç"lərə – cızıqlara çevirmək üçün əldən gedir.

– What's going on Folks?[1]

O, Selinin yanında oturur. Mən daha qızıl orta deyiləm. Amma bir az əvvəl qızıl orta idim və bunu xatırlayacağam.

Selin cavab verir:

– Heç nə, elə-belə, oturmuşuq.

Sonra yerindən qalxıb mətbəxə gedir və özü üçün yaşıl çay dəmləyir. Bir-iki dəqiqədən sonra bir fincan çayla geri qayıdır.

– Hə, biz nədən danışırdıq? Niyə mən gedən kimi hamınız susdunuz?

Dicey:

– Sənə qulaq asmaq istəyirdik. Deyirsən, sənin bloqun nə haqdadır?

Selin:

– Bu, tam bloq deyil... Həyat tərzi, dəb haqqındadır...

Tobi:

– Oh, nice![2]

Amerikalılar bir-birilərini elə tez-tez tərifləyirlər ki, mən özümü qiymətləndirmə sistemimi tamamilə

Camaat, nə baş verir?

Oo, nə gözəl!

itirirəm. Onlar bir-birinin üzünə gülümsəyir, xoş sözlər deyirlər. Məsələn, salfetin üstünə balaca bir fil şəkli çəksən, onu elə tərifləyəcəklər ki, sən həmin salfeti eksponat kimi MoMA-ya[1] göndərmək fikrinə düşəcəksən.

– Mən modada yeni təmayüllər haqqında yazıram və...

Mən Selinin sonra dediklərindən, demək olar ki, heç nə başa düşmədim. Bəzi yerlərdə brend, "new conception"[2], "style", Milan, "fashion week"[3], labutenlər, "simple white"[4] kimi tanış sözlər eşidirdim.

Tobi yenə deyir:

– Oh, nice!

Mən də eynilə bu cür "Oh, nice!" deyə bilərdim. Lakin bizim ölkələrimizdə bir sözlə canını qurtara bilməzsən. Sən mövzuya daxil olmalısan. Şərq temperamenti bircə cümlədə özünü göstərir: "İt oğlu, mənə "oh, nice"dan daha artıq bir söz de!" Amerikalı qadınlar seks zamanı da çox söz demirlər. "It was great!"[5] Sizcə, bu, cavabdır? Axı mən dəqiq bilməliyəm ki, "what was great"[6], harada və lənət şeytana, neçə dəfə həqiqətən "great" "was"?

Tezliklə başqa uşaqlar da bizə qoşulur. İndi 8 nəfərik. Bu mənim introvert həddimdir. Adamların

---

[1] Nyu-York Müasir İncəsənət Muzeyi
[2] Yeni konsepsiya
[3] Moda həftəsi
[4] Sadə ağ
[5] "Çox yaxşı idi!"
[6] "Yaxşı olan nə idi?"

sayı 9 nəfərə çatarsa, mən özümü asmaq istəyəcəyəm. Bilirsinizmi, necə? Harasa qaçıb getmək və orada asmaq yox. Sadəcə, söhbət vaxtı divandakı yerimdən qalxmaq, Zakın yanındakı o kətili götürüb lüstrün altına qoymaq, Selin "Fashion"a aid hansısa sözləri deyincə kətilin üstünə çıxmaq, ipi götürüb boynuma dolamaq, Selin danışıb qurtaranda isə birnəfəsə "Oh, nice!" deyib özümü asmaq istəyəcəkdim.

İntrovertlik, yaxud izdihamlı yerlərdən qorxmaq – bu heç də qorxu deyil, oksigen çatışmazlığı kimi bir şeydir. Ümumiyyətlə, görəsən, mən böyük salonlarda necə konsert vermişəm?

– Mən Eydenə deyirəm ki, bu barədə kitab yazsın.

Ilahi, doğrudanmı, yekəpər Tobi bunu ucadan demişdi?

Meqan gülümsəyir:

– Hə, Eyden, mən də belə fikirləşirəm ki, sən kitab yazmalısan. Axı burada, Amerikada sənin ölkən haqda heç kim heç nə bilmir. Bu barədə oxumaq çox maraqlı olardı.

– Mən, sadəcə, dedim ki, belə bir şeyi istəyərdim. Amma mən hələ buna hazır deyiləm. Zənnimcə, 25 yaşında ikən tərcümeyi-hal yazmaq lovğalıqdır.

Selin deyir:

– Kim deyir ki, mütləq öz adından yazmaq lazımdır? Sən kitabın üçün bir qəhrəman fikirləşə bilərsən. Deyək ki, onun adı Eyden yox, Eylkan ola bilər. Qoy o sənin prototipin olsun. Prototip olanda daha asandır.

Bütün həqiqəti yazmaq vacib deyil, o bəzi yerlərdə yazılsa, kifayətdir.

Selin brend geyimlər reklam edərək pul qazanır. Ona "Instagram"da bir posta görə 2000 dollar ödəyirlər. Onun izləyicilərinin sayı 30 000-dən çox deyil, amma bu, kifayətdir. Selin deyir ki, "Instagram"da qızların çoxu bu işlə məşğul olur. Əvvəl brendlərə pulsuz istinad edirlər, sonra tədricən reklama görə pul almağa başlayırlar. Bunlar onların geyimləri, yaxud profilləri deyil, işləridir. Ən yaxşı reklam o zaman olur ki, nəyinsə sənə reklam edildiyini bilmirsən.

Zak:

– Düzdür. Ən yaxşı reklam sən onun reklam olduğunu bilmədiyin zaman alınır. Axı kimsə nəyisə bizə satmağa çalışanda bunu xoşlamırıq. Ona görə də bizim beynimiz reklamı aşkar edən kimi "adblock"[1]u işə salır. Mən bunu sizə bir proqramçı kimi deyirəm. Reklam artıq keçmişdə qalıb.

Tobi sükanı ələ keçirir:

– Mən indi sizə bir tanışımın başına gələn əhvalatı danışacağam. – O, bir-iki saniyə fasilə verib hamının üzünə baxır, sonra sözünə davam edir: – Mənim tanışım çox varlı oğlandır. Gənc olsa da, çox fərasətli biznesmendir. Marketinq bilicisidir. O, Çikaqoda klub tikib və demək lazımdır ki, bütün bacarığını ortaya qoyub. Deməli, klub artıq tam gücü ilə fəaliyyət

[1] Bloklama proqramı

göstərdiyi bir vaxtda düz qarşı tərəfdə daha yaxşı bir klub tikilir. Mənim tanışım belə fikirləşir: "Mən zibilin içindəyəm, təcili olaraq bu zibilin içindən çıxmaq lazımdır" Amma rəqib çox güclüdür. Bir neçə milyon xərc çəkib. Orada texnika da daha yaxşıdır, bar da böyükdür. Bir sözlə, "my dude"[1] bütün kriteriyalar üzrə geridə qalır. Özünü öldürsə də, həmin təzə klubu ötüb-keçə bilməz. O, çox yüksəkdədir. Ötüb-keçmək istəyirsənsə, bir neçə milyonundan keçməlisən. Qiyməti azaltmaq sərf eləmir. Ucuz klublardan heç kimin xoşu gəlmir, elə deyilmi? Axı bu, Meksika takosu[2] deyil, klubdur. Adamlar bura bir-biri ilə tanış olmaq üçün gəlirlər. Ucuz klubda isə yalnız vecsiz adamlarla tanış olmaq mümkündür. Belə bir vaxtda dostum bir tanışının köhnə vizit kartını tapır. O, filmlər üçün aktyor seçən kastinq qrupunun direktorudur. Deməli, belə...

Hamı diqqətlə qulaq asır. Xloe otağa girir, Tobiyə baxır, sonra isə divana. Mənim yanımda boş yer var. Bir boş yer də Zakın yanındadır. O çox fikirləşmədən Zakın yanında oturur. Hə, Zak məndən yaraşıqlıdır. Amma maraqlıdır, görəsən, Xloe ona yaxın olmaq üçün orada oturdu, yoxsa mənimlə üzbəüz olmaq üçün?

Tobi Xloenin diqqəti onun əhvalatından yayındırdığını görüb səsini qaldırır və sözünə davam edir:

---

[1] Mənim dostum

[2] Tako (takos) – Meksika mətbəxinin ənənəvi yeməyi

– Deməli, belə. Dostum öz kiçik klubunu böyük yırtıcıdan xilas etməlidir. O, vizit kartındakı nömrəni yığır və deyir: "Salam, Coş, mən zombilər haqqında film çəkirəm. Mənə sənin ən çirkin aktyor və aktrisaların lazımdır. Ən qorxulu olanlar, xoşagəlməz sifətlər, başa düşürsən?" Beləliklə, Coş öz aktyor bazasını, gonbul, çəpgöz, çirkin aktyorların fotoşəkillərini onun e-mailinə atır. Dünyada tayı-bərabəri olmayan eybəcərləri. Gözəl aktyorları tapmaq çətindir, çirkinlər isə kefin istəyən qədərdir. Bir sözlə, o, 50-yə yaxın adam yığır, hərəsinə 2000 dollar pul verir və deyir: "Uşaqlar, mən filan klubda film çəkirəm. Hər yerdə kamera gizlədilib. Sizdən tələb olunan yalnız budur ki, hər gün gəlib orada bir neçə saat vaxt keçirəsiniz. Rəqs edin, için, adamlarla ünsiyyətdə olun, heç bir çılğınlıq, xoşagəlməz bir şey olmasın. Sadəcə, orada olun. Çəkilişlər mənim şəxsi layihəm üçündür və gizlidir". Belə şeydən kim imtina edər? Sənə 2000 dollar pul verirlər, istədikləri də yalnız budur ki, gedib klubda əylənəsən. Əlbəttə, hamı razılaşır. Aktyorlar yaxşı geyinirlər, hər şey dress-kod üzrə, lazım olduğu kimidir. Gonbul arvadlar, arıq, dombagöz, əyriburun cavanlar, yekədodaq, daz kişilər... Lap elə bil eybəcərlər sirkidir. Onlar bu şəkildə rəqibin milyonluq klubunda görünməyə başlayırlar. Beləcə birinci, ikinci, üçüncü həftə keçir. Təzə klubun sahibi sevinc içindədir, klub yenicə açılıb, amma hər gün adamla dolu olur. Onu düşündürən yeganə şey budur ki, Çikaqoda

nə üçün hamı belə eybəcərdir? Ha-ha! Bir ay keçir. Aktyorlar öz pullarını alıb gedirlər. Mənim tanışımın klubu artıq gözəllərlə, normal insanlarla dolub. Qonşu klub isə boşalır. Orada daha bircə nəfər də normal qız, varlı kişi görünmür, onlar ziyafət paltarları geyinmiş piyli arvadları görəndən sonra həmin kluba getmirlər. Bu da sizə gizli antireklam – hər şey qanunauyğundur, hər şey, necə deyərlər, təmizdir. Amma insanlarda artıq həmin kluba qarşı mənfi rəy yaranıb. Elə görünür ki, hər şey yaxşıdır, amma kontingent əvvəlki deyil. Xarab olmuş telefon öz işini görüb. Mənim dostum həmin klubun səviyyəsinə çatmaq üçün 1 milyon dollar xərc çəkməli olacaqdı. Bu şəkildə isə cəmi 100 000 dollar xərci çıxdı və məsələ həll olundu.

– Oh, wow! Amazing![1]

Əhvalat hamının xoşuna gəlmişdi.

Tobi gülümsəyir və şübhəli-şübhəli mənə baxır. Əvvəl onun hiyləgər baxışlarının mənasını anlamıram. Amma bir-iki saniyədən sonra mənə çatır ki, bu onun mövcud olmayan "fakt"larından biridir. Tobi bu əhvalatı elə indicə, mənə nümayiş etdirmək üçün uydurmuşdu. İndi o özünü tam xoşbəxt hiss edir. Onun baxışları deyir: "Hə, Eyden, necədir?"

Tobinin dahiliyi ondadır ki, bu elə həmin "Shake Shack" və yalançı növbə əhvalatı idi. Sadəcə, o bu dəfə adları dəyişmiş, həcmi genişləndirmiş, saxta

[1] *Vay! Çox təəccüblüdür!*

reklamçıları eybəcərlərin sirki ilə, reklamı antireklamla əvəzləmişdi. Görəsən, bütün yalançılar belə edir? Yəqin ki, onun ev arsenalı, istənilən mövzuya uyğun gələn hazır "fışka"ları var. Bəs Tobi bununla nə üçün məşğul olur? Bu yerdə ağlıma gəlir ki, bəlkə, o heç qostrayter də deyil. Bəlkə, bu da onun uydurmasıdır? Bəlkə, bu əclaf Tobi elə hostelə gəldiyi ilk andan yalan danışır? Görəsən, bu xəstəliyin adı nədir? Nə isə, mənim nədən danışdığımı anladınız.

Və 7-ci gün Allah qərara aldı ki, weekend[1] lazımdır

"Bütün paradoks da elə bundadır! Sürətlə yaşayanlar elə sürətlə də yox olurlar. Bu marafonun faydası ondan imtina etməkdədir".
Selin



Nə deyə bilərəm?! Hostel məni bir az dəyişdirirdi. Amma bu yalnız başlanğıc idi. Mənimlə Xloe haqqındakı qeyri-adi əhvalatın başlanğıcı.

Mən sadiq bir köpək kimi Xloenin siqaretinin qoxusunu duydum. Onun özü kimi ziyansız siqaretinin. Xloe siqareti ilə birlikdə havadan da təmiz idi, hətta faydalı idi. Onda nəsə qüsursuz bir saflıq vardı. Saflıq və kədər. Amma zəiflik yox idi. Mən onu yaxından tanımalı idim. Siqaret qoxusu onun otağından gəlirdi. Onunla eyni otaqda bir qız da qalırdı, amma onu xatırlamırdım.

Çox gözəl bir yaz günü idi. Uşaqların bir qismi həyətdə, bir qismi birinci mərtəbədəki qonaq otağında oturmuşdu. Adətən, amerikalılar istinin ilk əlamətlərini hiss edən kimi çölə çıxırlar. Bədənlərinə qoruyucu krem çəkmiş bikinili qızlar otluqda uzanmışdılar. Oğlanlar müxtəlif detal və vintlər vasitəsilə barbekü üçün avadanlıq yığmağa çalışırdılar. Havadan

[1] Həftəsonu

Xloenin qoxusu gəlirdi. Axı onun nəzəriyyəsinə görə, hava onun atom və molekulları ilə dolu idi. Xloenin atomları onun otağından mənim otağımadək uzaq bir məsafə qət etmişdilər ki, mən onları içimə çəkim.

Heç vaxt özümü həmin anda olduğu kimi ağılsız hiss etməmişdim.

Yerimdən qalxıb onun yanına gedirəm. Qapını döyürəm.

– Come in,[1] – Xloe incə səslə deyir.

Qapını açıram. Xloe arxa həyətə açılan pəncərənin böyük və enli altlığında oturub. Oturub və öz "herbal tea"sini[2] çəkir. Məni görəndə üzünün ifadəsi dəyişir. Gözləri təbəssüm, sevinc və uşaqlara xas saf təəccüb hissi ilə doludur. Hə, mən bu ilk addımı atdım. Sadəcə, aciz halda onun qapısını döydüm, sonra nə olursa olsun.

– Eyden, sənsən?! Gözəl havadır, hə?

Bu, amerikalı riyakarlığıdır, yəni "mən sənin flirtinə fikir vermirəm, amma davam edə bilərsən".

O, gözlərini qaldırıb səmaya baxır və gülümsəyir. Mən onun dişlərini və yanaqlarının batdığını görürəm. Hündür ağacların yaşıl budaqları ikinci mərtəbəyə çatır. Onun əynində əlvan zolaqları olan uzun don var. Don krem rəngindədir, mənim şifon kimi tanıdığım parçadan tikilib, amma, bəlkə də, şifon deyil. Hərçənd mən nə vaxtsa şifon parça

[1] Gəlin
[2] Bitki çayı

gördüyümə də əmin deyiləm. Xloe alnına açıq-sarı və al-qırmızı rəngləri olan lent bağlayıb. Adətən, hippi qızlar belə geyinirlər.

– Hə, çox gözəl havadır. Mən açıq pəncərədən sənin atomlarını udurdum. Orada, öz otağımda.

– Onda mənim dadım necədir? – Xloe gülür.

– Bu "herbal tea" onu bilməyə imkan vermir.

Qarşılıqlı flirtin seksdən yaxşı olduğu məqam.

– Qapının ağzında niyə dayanmısan, gəl bura, – o, pəncərə altlığının boş qalan hissəsini göstərir. – Gəl birlikdə çəkək.

Amerikalı qız... Saysız-hesabsız pərəstişkarlar, axırda isə məni qətiyyən tanımayan bir amerikalı qız... Mən onun otağına girirəm. Sanki azacıq ümid payı verdiyim bütün qızların meyitlərinin üstü ilə addımlayıram. Lənət şeytana, bu nədir mənim başıma gəlir?!

– Yaxşı. Çalışaram yıxılmayım...

Mən Atlantik okeanını üzüb keçdim, bu pəncərə altlığı isə Manhettendir. Xloe oturub, siqaret tutduğu əlini yuxarı qaldırıb. O, Azadlıq heykəlini xatırladır.

– Gəl... Çıx bura.

Mən enli pəncərə altlığının üstünə çıxıram və onunla qarşı-qarşıya otururam.

– Hə, çıxdım.

Aramızdakı məsafə bir metrdən çox deyil. Hələ ona bu qədər yaxın oturduğum olmayıb. Bir ayağımı

aşağı sallasam yaxşıdır, yoxsa dizlərimi qucaqlayıb otursam?

Xloe öz siqaretini mənə uzadır.

– Al, dadına bax.

Siqareti alıb gülümsəyirəm:

– Orada, həqiqətən, heç bir..? – soruşuram.

– Həqiqətən. Olsaydı, sənlə bölüşməzdim, – deyir və gülür. – Eey... Eyden, siqareti iyləmə, çək.

Mən tüstünü içimə çəkib buraxıram. Mentollu saqqızı xatırladan bir şeydir, lakin daha istidir.

– Oh, Wow. It's really Nice.[1]

– As I said. It's just Herbs. You like it, ha?[2]

– Definitely. It feels just like a green tea.[3]

– Yeah, I also have with chocolate, vanilla and strawberry. But I like this one.[4]

Belə yazıram ki, bu hiss olduğu kimi anlaşılsın. İngilis dilində danışdığım zaman mən özüm də bir qədər dəyişirəm.

– Bilirsən, mən ingilis dilində danışanda başqalaşıram.

– Eləmi?.. Nə üçün?

– Mən bir az başqa cür oluram. Dil, sadəcə, söz yığınıdır, bu, ilk növbədə, mind-set – düşüncədir.

---

[1] Vay, bu, doğrudan da, yaxşıdır.

[2] Dediyim kimi. Yalnız otlardır. Sənin, həqiqətən, xoşuna gəldi?

[3] Həqiqətən. Bu, yaşıl çay kimidir.

[4] Hə, məndə şokoladlı, vanilli, çiyələkli də var. Amma mənim xoşuma bu gəlir.

– Bəs ingilis dili səni necə dəyişdirir?

– Hmm... Bilmirəm. Ola bilsin ki, daha azad və daha xoşbəxt edir.

– Yoxsa sən amerikalı olmaq istəyirsən?

– Yox, məsələ onda deyil, hətta məndə də deyil. Mənim yaşadığım yerdə insanların hamısı belədir.

– Necə?

– Amerikalısayağı xoşbəxtdirlər.

– What? I don't get it[1], – Xloe gülümsəyir.

– Mənim ana dilimdə "yaxşıdır", yaxud "əladır" mənasını ifadə edən sözlər çoxdur. Amma kimsə çox sevinirsə, deyək ki, sevimli komandası qalib gəlibsə, işdə vəzifəsi artıbsa, yaxud lotereyada udubsa, "Yeess", ya da "Superrr" çığırmağa başlayır. Qəribədir. Bizim həyatımızda yaxşı bir hadisə baş verəndə bunu ingiliscə ifadə edirik. Amma narazı olanda, adətən, ya öz dilimizdə söyürük, ya da rusca "blyad" sözünü işlədirik.

Xloe təkrarlayır:

– Blat!

Onun incə, qıdıqlayıcı aksenti var.

– Bu sizdə "Fuck"[2] demək kimi bir şeydir.

– Fuck!

Söyüş söymək onun xoşuna gəlir, yəqin ki, keçmişdə katolik olan qızların hamısı belədir. Bu, necə deyərlər, ötürülmüş vaxtın əvəzini çıxmaqdır.

---

[1] Necə? Mən bunu anlamadım.

[2] Fahişə

– Amma əslində "blyad" söyüş deyil. Bu "bludnitsa" sözünün qısaldılmış variantıdır. "Bludnitsa" təxminən sizdəki "slut" kimidir. Amma bu da dəqiq məna deyil. Axı "bludnitsa" gəzən, dolaşan insandır.

Xloe mənim ardımca təkrarlayır:

– Bludnica!

– Deməli, o adam "blujdayet", yəni dolaşır ki, hara gedəcəyini bilmir, başqa sözlə desək, azıb, yolu itirib. Rus dilində eyni mənanı verən "zablyudilsya" sözü var. Bunu "zablyadilsya" şəklində də demək olar, yəni adam axtardığı kafeni tapana qədər "blyad" olub. Ümumiyyətlə, "blyad" Bibliyadan gələn sözdür. Allahın doğru yolunu itirən.

Xloe gülüb başını tərpədir.

– Eyden, o halda, mən əsl blyadam!

– Hə, "blyad" sözünün əsl mənasını götürsək, Bibliyaya görə, bizim hamımız "blyad"ıq. Allahın doğru yolunu itirməyən çox az insan var.

Xloe öz "herbal tea"sini mənə verir.

– Deməli, sən postsovet ölkəsindənsən?

– Daha dəqiq desək, postsovetin İrana tərəf olan hissəsindən. Yəni mən, üstəlik, müsəlmanam.

– Vau, sən müsəlmansan?

– Hə.

– Sizin dininiz mənim üçün həmişə maraqlı olub.

– Doğrudan? Nə üçün?

– Biz bazar günlərində İsa yolunda nəğmələr oxumaq istəyirik, siz isə Allah yolunda məktəblilərin

avtobusunu partlatmağa hazırsınız. Mənim fikrimcə, İslam olduqca güclü və təhlükəli bir dindir.

Mən susur və nə deyəcəyimi bilmirəm. Çünki dindar deyiləm. Amma deyəsən, o öz sözləri ilə məni təhqir etdiyini fikirləşir. Sükutun uzanmasına imkan verməmək üçün mövzunu dəyişməyə çalışır:

– Hə, sən bayaq deyirdin ki, siz ingilis dilində sevinir və rus dilində söyürsünüz.

Amma istəyirdim ki, o mənim "open-minded" – açıqfikirli olduğumu bilsin, ona görə də qəsdən din mövzusuna qayıtdım.

– Hə, elədir. Qorxumuzu və kədərimizi isə ərəb dilində bildiririk. Biz pis yuxu görəndə, yaxud nədənsə qorxanda "bismillah" deyirik. Ölənlər üçün duanı da ərəb dilində oxuyuruq. Bizdə Amerika uğur və xoşbəxtliklə, Rusiya qəzəblə, ərəb dünyası isə qorxu və dərdlə assosiasiya olunur. Qəribədir, hə?

– Bəs ora hansı ölkədir?

– Balaca ölkədir, Xloe. Bəs sən haradansan? Sənin ailən Amerikaya nə vaxt gəlib?

Xloe aşağıya – bağçaya baxır. Oradan uşaqların səsi gəlir, deyəsən, manqalın ayağını sındırıblar.

– Deyəsən, biz həmişə burada yaşamışıq. Bilirəm ki, mənim nəslimdə Skandinaviya kökləri və ingilis qanı var. Ancaq bilirsənmi, Eyden, bizim ailəmiz üçün bu, vacib deyildi. Biz bilirdik ki, cənnətdən gəlmişik və Adəmin övladlarıyıq. Bu bizim üçün kifayət idi. Hətta Skandinaviya haqqında da mən bu yaxınlarda,

təsadüfən öyrənmişəm. Yeri gəlmişkən, sən bayaq dedin ki, ərəb dilində qorxursunuz, – o bir qədər susur, – biz də indi ərəb dilində qorxuruq. Biri elə "Allahu-əkbər". Çox qorxunc səslənir.

– Hmm. Bu elə məni də qorxudur.

– Hə... Onlar bunu nə üçün edirlər? Axı günahsız adamları partlatmaq... Bu ki... Bu ki...

– Hə, bu çox dəhşətli bir şeydir, – siqareti ondan alıb bir qullab vururam. – Amma bilirsənmi, o fanatiklərin başında nələr olduğunu başa düşmək üçün İslamı anlamaq lazımdır. Onların necə düşündüyünü bilmək lazımdır. Siz, Qərb dünyası, hər şeyi öz süzgəcinizdən keçirirsiniz. Insan haqları, uşaqlar, demokratiya, xoşbəxtlik... Lakin islamçılar bu cür düşünmür, – onu maraqlandırdığımı görürəm, axı mən müsəlmanam, məsələni, bir növ, "insider", yəni öz daxilindən bilirəm. – Xloe, fanatizmin ən böyük təhlükəsi ondadır ki, çantasında bomba daşıyan şəxs əslində çox xeyirxah bir insan da ola bilər. O, Əfqanıstan dağlarında öz keçilərinə qulluq edən, yemək bişirməyi xoşlayan sadə bir gənc də ola bilər. O, ana söyüşü söymür, içki içmir, öz dostlarına kömək edir. Bütün bunlardan əlavə, o, İslam ənənələrinə əsasən tərbiyə olunub. Həmin gənc yüz faiz əmindir ki, Quranda yazılan hər şey Allah tərəfindən göndərilmiş əsl həqiqətdir. O həm də öz müəllimlərinə inanır. Bəs müəllimlər nə deyir? Onlar deyir ki, bu həyat, bu dünya qısa bir yuxu kimidir, ondan sonra biz ya cənnətə, ya da cəhənnəmə düşürük. Həyat bir

dəhlizdir. Ilon Maks inanır ki, bizim yaşadığımız aləm simulyasiyadır[1], bir növ, kompüter oyunudur. Quranda da təxminən buna bənzər fikirlər var. Bizim dünyəvi həyatımız oyunun yalnız birinci raundudur. Ikinci raund isə öldükdən sonra bizimlə baş verənlərdir. Cənnət, deyək ki, İsveçrə kimi bir yerdir. Xəstəliklərin və əzab-əziyyətin olmadığı gözəl və nağılvarı dünyadır. İslam cənnətində insanlar hətta nəcis də ifraz etmirlər.

– Ha-ha-ha, – Xloe gülür.

Sözlərimin ona həm gülməli göründüyünü, həm də qorxulu təsir bağışladığını hiss edirəm.

– Hə, yaman fikirləşiblər. Əlbəttə ki, cənnətin tam əksi cəhənnəmdir. Dantenin cəhənnəminin 10 dairəsi kimi. Amma ora Yaradana inanmayan ən pis adamlar düşür. Fərqi yoxdur, Allaha, yaxud hər hansı başqa ilaha, deyək ki, xaçpərəstlərin, yaxud yəhudilərin tanrısına. İslam belə hesab edir ki, vahid uca Allaha inamın istənilən təzahürü, hətta Quranı heç vaxt oxumasa belə, insanın ruhunu xilas edə bilər. Yəni xristianlar üçün də müəyyən bonuslar var.

– Hmm... Mən bunu bilmirdim.

– Deməli, belə. Müəllimləri bizim kamikadzenin yanına gəlirlər və deyirlər: "Oğlum, şeytani qüvvələr İslamı məhv etmək istəyir, Allaha sənin köməyin lazımdır. Qərbin orduları çox güclüdür, onlar bizi məhv edə bilərlər. Biz Allah naminə, Quran naminə onları

[1] Yalançı təəssürat yaratmaq; riyakarlıq

dəf etməliyik. Biz açıq döyüşdə onlara qalib gələ bilmərik, amma ayrı-ayrılıqda onların şəhərlərinə, uşaqlarına hücum edə bilərik, o halda, bizi rahat buraxarlar"... – bunu deyib onun üzünə baxıram: – Xloe, sən çalış buna Qərb nöqteyi-nəzərindən yanaşmayasan. Axı Qərb adamı üçün uşaqları öldürmək elə onları öldürmək, həyatdan məhrum etməkdir. Amma həmin fanatik mücahid üçün bu, kiçik məxluqları gözəl cənnətə göndərməkdir, onları orada Allah və mələklər qarşılayacaq. Ona görə də yaxşı olar ki, mən, yaxşı mücahid, xeyirxah oğlan, şəhərin mərkəzinə gedim, avtobusa minim və onu partladım. Mən bu yolla çox xeyirxah bir iş görmüş olaram, uşaqlar isə onları Allahın yanına bu cür təmiz apardığım üçün mənə "sağ ol" deyərlər.

– Yəni sən demək istəyirsən ki, həmin bombalı ərəb, həqiqətən də, hamıya yaxşılıq etdiyini fikirləşir?

– Hə, Qərb yanaşmasının ən pis tərəfi də elə bundadır – vəziyyətə "axı onlar uşaqdır", "hər kəsə xeyirxahlıq göstərmək lazımdır" və sair kimi sözlərlə təsir göstərməkdə. Çünki həmin başdanxarab mücahid üçün "xeyir" müxtəlif mənaları olan anlayışdır. Simulyasiya aləmində, Allahın kompüter oyununda uşaqları partlatmaq yalnız interneti kəsməkdir.

– Yeah, damn. It's so hard to change their mind right?[1]

[1] Lənət olsun. Onların fikrini dəyişdirmək çox çətindir?

– Yeah, it's hard to change their mind especially when there is no mind[1]. Axı bunu təkcə İslam etmir, bütün ideologiyalar bu şəkildə işləyir. Məsələn, Qərbin hakimləri Afrikaya gəlib uşaqlara QİÇS və vərəmə qarşı peyvənd etmək istəyəndə afrikalılar onlara müqavimət göstərdilər. Onlar fikirləşirdilər ki, ağ adamlar onların uşaqlarını incidir. Afrikalıların fikrincə, uşaqları nazik və iti bıçaqlarla deşmək insanlıqdan kənar idi. Bu ağxalatlı ağ adamlar balaca uşaqlara niyə belə əziyyət verirdilər? Onlar belə fikirləşirdi. Bu adamları dayandırmaq, bunu etmələrinə mane olmaq lazımdır! Ağ vəhşilər!

– Vau, Eyden. Mən heç bu barədə fikirləşməmişəm. Yəni bu nöqteyi-nəzərdən.

– Məktəblilərin avtobusundakı partlayış həkim iynəsidir. Bu mücərrəd şəfa tədbiri uşaqları təkcə müalicə etmir, həm də onlara xoşbəxtlik və sevinclə dolu olan əbədi bir həyat verir. Nə qədər ki Qərb kamikadzelərin başında hansı fikirlərin kök saldığını anlamır, onları dayandıra bilməyəcək. Buşmenin ağlayan uşağı həkimə mane ola bilmədiyi kimi, Qərb də terrorun qarşısını ala bilməyəcək.

– Yəni İslam insanları öldürməyi, hüquqlarını əllərindən almağı, öz iradəsini qadınlara zorla qəbul etdirməyi təbliğ edən din deyil?

– Bu yenə də Qərb düşüncəsidir. Virtual gerçəkliyə qayıdırıq, həyatın yalnız dəhliz olması fikrinə.

[1] Hə, fikri dəyişdirmək çox çətindir, xüsusilə də ağıl olmadığı zaman.

Yanğınsöndürənlər qadınları yanan binanın içindən çıxaranda onların üstünə böyük, alışmayan parça atırlar. Nə vaxtsa belə bir şey görmüsən?

– Hə, görmüşəm.

– Müsəlmanlar da belə fikirləşirlər ki, öz qadın və qızlarını örtük altında saxlamaqla onların ruhunu cəhənnəm odundan xilas edirlər. Onları, sadəcə, həmin yanmaqda olan qısa həyat dəhlizindən keçirirlər. Xilas isə ölümdədir.

Bu fikirlər Xloe üçün təzə, qəribə və anlaşılmaz idi.

– Bəs əgər... – o, siqaretin qalığını çəkir. – Əgər o və onun müəllimləri haqlı deyildilərsə? Əgər Allah bunu istəmirdisə? Əgər onlar yanılırdısa və Quranı yanlış anlamışdılarsa? Mən bununla razı deyiləm. Dəqiq bilməlisən ki, nə edirsən. Əgər bilmirsənsə və aydınlaşdırmamısansa, bu sənin günahındır və bunda təmiz və işıqlı bir şey yoxdur. Sənin axmaqlığın səni məsuliyyətdən azad etmir və səni yaxşı adama çevirmir.

Mən bir anlığa susub cavab verirəm:

– Afrika, naməlum xəstəliklərdən ölən uşaqlar...

– Yəni nə?

– Qırmızı Xaç Cəmiyyətinin və digər xeyriyyə təşkilatlarının xeyirxah volontyorları onların köməyinə gəlir. Bu adamlar kimdir? Gənc altruistlər, yaxşı insanlar, elə deyilmi? Onlar Amerikadakı, Avropadakı gözəl, rahat evlərini qoyub Afrikaya gedirlər ki, orada saatlarla qızmar günəşin altında dayanıb xəstə

uşaqlara iynə vursunlar. Onlar, həqiqətən, həmin uşaqlara kömək etmək istəyirlər.

– Hə, elədir.

– Bəs sən bilirsən ki, bütün bu kütləvi xəstəliklərə və aclığa baxmayaraq, Afrika əhalisi ən böyük sürətlə çoxalan materikdir? Hər afrikalı ailəsinə orta hesabla altı uşaq düşür. Əhalinin sayı hər iki-üç ildən bir iki dəfə artır və ölüm sayını üstələyərək ağlasığmaz sürətlə çoxalır.

Xloenin hər şeyi unutduran gözləri mənim davam etməyimi istədiyini deyir.

– Afrika ölmək üzrə deyil. O, əhalinin ikiqat çoxalması yolundadır. Ölməkdə olan Avropadır. Onda Qərbin kostyumlu hərifləri fikirləşirlər ki, bu nizamsız artım onların özünü udmamışdan əvvəl onu hər hansı bir yolla dayandırmaq lazımdır. Bəs bunu necə etmək olar ki, hər şey təbii görünsün və eyni zamanda, çoxlu sayda insanı əhatə etmək mümkün olsun? Bizim xeyirxah volontyorların köməyi ilə! Axı onsuz da, onlar qızlara QİÇS əleyhinə iynələr vururlar, nə üçün də qızları sonsuz etmək üçün ora qonadotropin və daha hansısa kimyəvi zibil qarışdırmayasan, başqa sözlə, axtalanan itlər kimi dölsüzləşdirməyəsən? Beləcə QİÇS və HİV-ə qarşı peyvəndlərə afrikalıların axtalanması ilə nəticələnən kimyəvi maddələr əlavə edirlər. Onlar xəstələnmir, ölmür, amma sonsuz olurlar.

– Ah, yox...

– Hə, belə bir sensasiya olmuşdu. Peyvəndin sonsuzluğa gətirib çıxardığı haqda şayiə yaranmışdı. Amma bu heç də şayiə deyildi, Afrikanın tarixinə aid əsl tarixi fakt idi. Bu, hiyləgər bir plan idi, sadəcə, siyasət idi. Əlbəttə, bunda nə xristianlar günahkar idi, nə də həmin iynələri vuran və nə etdiklərini dərk etməyən volontyorlar. Indi necə fikirləşirsən, Xloe, Afrikada qadınları dölsüzləşdirən xeyirxah, amma "kor" xaçpərəst qızla uşaqları cənnətə göndərdiyini fikirləşən "kor" mücahid arasında hər hansı bir fərq varmı?

Mən öz uzun monoloqumu belə bitirdim. Məndə belə bir təəssürat yarandı ki, danışdıqlarım, həqiqətən, ona təsir edib. Xloe buradakı başqa gənclərə bənzəmirdi.

– Deməli, sən uşaqların partladılmasının tərəfdarısan?

- Yox. Mən heç vaxt dinləri xoşlamamışam. Mən bütün dini kitabları gecə vaxtı xəlvətcə yandırmağın tərəfdarıyam. Səhər isə, part, durub görək ki, heç bir din yoxdur. Amma biz bunu etməyə macal tapmadıq, lənətə gəlmiş internetdə artıq hər şey var.

Həyətdəki uşaqlar artıq manqalı düzəltmişdilər və ət qızartmağa hazırlaşırdılar. Bu, qara rəngli, böyük və dərin qaba oxşayan dəyirmi manqal idi, eyni şəkildə dəyirmi qapağı da vardı. Amerika manqalları, kənardan baxanda, uçan ayaqlı boşqablara oxşayır. Adətən, onlarda burger və steyk bişirirlər.

Konservləşdirilmiş hazır steykləri birbaşa mağazalardan almaq mümkündür...

Xloe uzun sürən sükutdan sonra deyir:

– Eyden, bilirsən, mən də müəyyən dərəcədə məhz həmin fanatik kimi olmuşam.

İndi mən ona böyük maraqla baxıram və onun həyat tarixçəsini eşitməyə hazıram. Axı keçən dəfə Xloe heç nə deməyib getmişdi. O, baxışlarını tez-tez yayındırır. Yox, bu mənə baxmağa çətinlik çəkdiyindən irəli gəlmir. O, elə bil mənim görə bilmədiyim keçmişində hansısa detalları axtarır.

– Məni katolik ənənələri əsasında tərbiyə etmişdilər. Biz hansısa sektanın üzvləri, yaxud radikal din fanatikləri deyildik. Bizim ailəmizi aqressiv dindarlar ailəsi adlandırmazdım. Əksinə, bizim evimiz həmişə sevgi ilə dolu olub. Evimizin qapısında gözəl naxışları olan, kənarları qızılı rəngli ağ xaçlar asılmışdı. Bir də, belə bir yazı vardı: "Believe in Love"[1]. Divarlardan ikonalar asılmışdı, kəskin buxur qoxusu gəlirdi. Biz şam yeməyindən əvvəl ibadət edər, "Ey atamız" duasını oxuyardıq. Qonşuluqda da eynilə bu cür insanlar yaşayırdı. Xeyirxah, şən, dindar insanlar... Bu sevgi enerjisi bizim hamımızı yaxınlaşdırır və birləşdirirdi. Evlərin qapıları, demək olar ki, bağlanmırdı. Yalnız kimsə şəhərdən uzun müddətə gedəndə bağlayardı. Yaşadığımız rayon çox sakit bir yer idi, demək olar ki,

[1] Sevgiyə inan

hər küçənin axırında kilsə vardı. Mən kilsə zənglərinin səsini, kilsə xorunu xoşlayırdım. Biz evsiz-eşiksiz insanlar üçün paltar toplayır, hər şeydə bir-birimizə kömək edirdik. Mənim hətta gələcəkdə ailə qurmağa hazırlaşdığım sevgilim də vardı. Onun adı Don idi. Həddən artıq dürüst oğlan idi. İdmanla məşğul olur, Qırmızı Xaça qan verirdi, siqaret çəkmirdi. Ucaboylu, mavigözlü, qarasaçlı oğlan idi... – Xloe onu xatırlayıb gülümsəyir. – Don tibb üzrə təhsil alırdı, cərrah olmaq, insanlara kömək etmək istəyirdi. Başa düşürsən də, necə oğlan idi. Deyim ki, cansıxıcı adam idi, yox, elə deyildi. Çox şən, maraqlı, həm də mərd, təmkinli idi, İsaya inanırdı. Deyim ki, Men ucqar bir yer idi, cansıxıcı adamların yaşadığı maraqsız yer idi, yox, elə deyildi. Ora çox gözəl təbiəti, yaşıllıqların qucağında itib-batmış şəhərləri olan əla ştatdır. Ailəmlə birlikdə bütün Amerikanı gəzib-dolaşmışdım. Donla Atlantik okeanının sahillərində vaxt keçirməyi xoşlayırdıq. Şəhərin mərkəzindən Portlendə kiçik balıqçı gəmiləri üzür. Mənim ad günümdə Donla belə gəmilərdən birini icarəyə götürdük. Yadımdadır, artıq neçə saat idi ki, üzürdük. Mənə çox maraqlı idi ki, biz hara gedirik və o mənə nə göstərmək istəyir. Bir müddətdən sonra gördüm ki, üfüqdə, bizdən bir az aralıda başqa qayıqlar da toplaşır. Hamı nəyisə gözləyir... – Xloe başını bulayır, xatırladıqca gülür. – Mən soruşuram: "Don, bu nədir belə?" O cavab verir: "Gözlə, bir azdan möcüzə görəcəyik". O, yalan demirdi. Bir neçə

dəqiqədən sonra biz əsl möcüzə gördük. Balinaların miqrasiyasını! Ilin məhz həmin vaxtında balinalar şimaldan cənuba köç edirlər. Nəhəng, mavi balinalar və onların bizim qayığımız boyda olan kiçik balaları. Bu, möhtəşəm bir mənzərə idi! – Xloe bir qədər susub davam edir. – Bizim ailəmiz qabaqcıl fikirli idi. Sadəcə olaraq, inanırdıq, başa düşürsən? Biz İsaya inanırdıq, bilirdik ki, o məhz bütün insanlığın günahlarını bağışlatmaq üçün çarmıxda ölüb. Biz bunu bilirdik və özümüzü tamamilə xoşbəxt hiss edirdik.

– Bəs sən nə üçün çıxıb getdin?

– Mən... Sadəcə, elə bir vaxt gəldi ki, şübhələnməyə başladım. Dərhal yox. Saytları, kitabları oxuduqca. Riçard Dokinz, Lourens Krauss, Deniel Dennet... Və bir gün mən yuxudan dinsiz kimi oyandım. Ona görə yox ki, mən hansısa şəhvani duyğular arzulayırdım, yaxud hansısa buxovlardan azad olmaq istəyirdim. Yox, əksinə, mən özümü atılmış, unudulmuş, yetim qalmış kimi hiss edirdim. Allah ölmüşdü. Mən də ölmüşdüm. Mən həmin kitabları götürüb atamın yanına gedirdim, Dondan o barədə soruşurdum. Hər günüm belə keçirdi. Onda atam dedi ki, bununla belə çox maraqlanırsansa, bəlkə, dinşünaslıq üzrə təhsil alasan. Beləcə ilahiyyat fakültəsinə daxil oldum. Orada isə mənim inamımın son işartıları da söndü. Axı sən dünya dinlərini öyrəndikcə onların təkamül prosesini, dinlərin bir-birindən necə köçürdüyünü, nəsə əlavə etdiyini, qədim dövrlərin elmlərinin dinlərə

necə təsir göstərdiyini də görürsən. Din mənim üçün əsrlərlə davam edən adi mədəniyyətə çevrildi. Mən İsanın cizgilərini Buddada, Buddanın əlamətlərini Zərdüştdə görürdüm. Tanrılar qat-qat bir-birinin üstünə geydirilən rus matryoşkalarına çevrilmişdi. O zaman qaçdım, hər şeyi atıb qaçdım və qərara gəldim ki, daha evə qayıtmayım. Bir müddət Bostonda yaşadım. Sonra Kaliforniyaya, Berkliyə köçdüm.

– Mən oralarda olmuşam. Ora 70-ci illərin inqilabçıları olan hippilərin vətənidir.

– Hə, təxminən elədir. Berklidə planetin ən azad insanları yaşayır. Free drugs, free sex, rock'n'roll[1]. Mən iki il orada yaşadım. Çox adamla tanış oldum. Musiqiçilər, aktyorlar, yoqa müəllimləri... Valideynlərim getməyimə etiraz etmədilər. Anam yazırdı ki, Allahı dərk etməkdə hər kəsin öz yolu var. Bir də, yazırdı ki, mənimçün dua edəcəklər. O vaxt 21 yaşım vardı. Mənim 23 yaşım olanda valideynlərim avtomobil qəzasında həlak oldular. Yük maşını onları arxadan vurmuşdu. Həkimlər dedilər ki, dərhal ölüblər. Part... Və onlar daha yoxdur. Bilirsənmi, – Xloe diqqətlə gözümün içinə baxır, – mən hətta ağlamadım da. Ona görə yox ki, mənim ürəyim daşdan idi, ya da valideynlərimi sevmirdim. Yox, səbəb bu deyildi. Mən, sadəcə olaraq, uyğun duyğuları tapa bilmirdim. Mən nə baş verdiyini anlaya bilmirdim.

[1] Pulsuz dərmanlar, azad seks, rok-n-rol

Bilmirdim ki, buna necə yanaşım. Ölümün öz mahiyyətini anlamırdım. Onlar əziyyət çəkməmişdilər. Bəlkə, heç həmin yük maşınını da görməmişdilər. Artıq gecə imiş. Valideynlərim kilsədə keçirilən Şükranlıq günü bayramından qayıdırmışlar. Orada hindtoyuğu yeyibmişlər, kefləri kök imiş, özlərini xoşbəxt hiss edirmişlər. Sadəcə, evə gedirmişlər. Elə o vaxt, part! Hansısa bir saniyə, bir an. Onlar ağrı hiss etməyiblər, Eyden. Onlar heç nə hiss etməyiblər. Mən ertəsi gün, elə əynimdəki paltarla Portlendə getdim. Dörd il öz evimizdə olmamışdım. Bilirsən, əgər öz keçmiş həyatından hansısa bir dostunla, yaxud tanışınla birlikdə çıxıb gedirsənsə, sən yenə də özün olaraq qalırsan. Amma tək, tamamilə tək gedirsənsə, keçmişlə bütün əlaqələri kəsib yeni həyata başlayırsansa, cəmi bir ildən sonra sənlə elə bir metamorfoz baş verir ki, özün də özünü tanıya bilmirsən... Don dəfn mərasimində idi. Dəfndən sonra biz "Subway"ə getdik. Hər şeyi danışıb aydınlaşdırmalı idik. "Subway" ayrılıq üçün ideal yerdir. Soyuq münasibətlər, soyuq sendviçlər, soyuq plastmas oturacaqlar...

Uşaqlar aşağıdan burgerin dadına baxmaq üçün bizi çağırırlar. Amma biz indi hosteldə deyilik, hansısa paralel gerçəklikdəyik.

Xloe davam edir:

– Elə bilirdim ki, Dona, necə deyim, yazığım gələcək, ya nəsə buna bənzər bir şey... Amma yazıq vəziyyətdə olan mən idim. Mənim nəzərimdə valideynlərim

çürüməkdə olan ətə çevrilmişdilər, Donun düşüncəsinə görə isə onlar göylərdə, Allahla və onun oğlu ilə birlikdə idilər. Onlar İsa ilə birlikdə gəzir, gülümsəyir və mələklər kimi, buludlardan buludlara uçurdular. Mənim gerçəkliyimə görə, onların bədənini qurdlar yeyirdi. Donla xeyli oturub susduq. Əvvəl bu, bir matəm sükutu idi, sonra danışmaq üçün söz tapmamağa keçdi. Biz dinib-danışmadan soyuq sendviçlərimizi yedik, sonra vidalaşdıq. Bizim münasibətimiz bu şəkildə bitdi... Dondan ayrıldıqdan sonra mən tamamilə tək qaldım. Valideynlərimin ölümündən sonra babamın 10 akr torpağı və bizim Cənubi Portlenddəki gözəl evimiz mənə miras qaldı. İlahi olan hər şey mənim həyatımdan çıxmış, onun yerini dünyəvi olanlar tutmuşdu. Bank hesabında 100 000-dən artıq pul, ev, torpaq...

– Bəs necə oldu ki, Nyu-Yorka gəldin?

– Bürokratiya. Torpaq sahəsini mənim adıma keçirmək lazım idi. Onun bir hissəsi atamın Nyu-Yorkdan olan yaxın dostuna məxsus idi. Mən sənədlərin rəsmiləşdirilməsi işlərini həll etmək üçün bir neçə aylığa bura gəlməli oldum. Məlum oldu ki, torpaq sahəsinə görə hər ay böyük məbləğdə vergi ödəmək lazımdır. Torpaq çox idi, mən ondan nə cür istifadə edəcəyimi də bilmirdim. Mənim vəkilim onu satmağı təklif etdi. Onun tanış investorları var idi, onlar belə bir torpaq sahəsinə sərmayə qoymağa hazır idilər. Sonra vəkil hansısa faizlərdən, satış işlərindən danışmağa başladı.

Çoxlu müxtəlif sənədlər vardı. Mən bilirdim ki, o mənim sayəmdə pul qazanmağa çalışmır. Vəkil ailə dostumuz idi, ona inanmaq olardı. Axırda o mənə təklif etdi ki, Portlenddəki torpaq sahəsini Manhettendəki bir mənzilə dəyişim. Belə bir barter alınırdı, hər iki tərəf razı qalırdı, satışa görə vergi ödəmək də lazım gəlmirdi. Atamın dostu sənədləri hazırladı, anamın kilsədə işləyən rəfiqəsi isə mənə köçməyə kömək etdi. Mənim valideynlərim hətta öləndən sonra da mənə kömək edirdilər. Beləliklə, Nyu-Yorka yerləşdim.

– Deməli, indi həmin mənzil sənin fotostudiyandır?

– Hə, elədir. Altı ildir ki, buradayam, artıq kök salmışam. Amma mən Nyu-Yorku sevirəm. Düzdür, onu dərhal sevmədim, bu, tədricən baş verdi.

Kimsə qapını döyür. Bu onun otaq yoldaşıdır. Boz siçan kimi sakitcə içəri girir, dodağının altında nəsə deyir, öz dolabından "t-shirt"[1] götürüb gedir. Mən onu yalnız ötəri görürəm.

İçimdə nəsə bir ucalıq hiss edirdim. Yox, bu, dindən danışdığımıza görə deyildi. Xloe ən adi məişət məsələlərindən danışanda belə, sözlər mənə bir udum həqiqət kimi görünürdü. Qəribə idi, axı mən əvvəllər heç vaxt belə bir şey hiss etməmişdim, bu vəhdət duyğusu mənə həmişə yad olmuşdu. Axı mən həmişə tək olurdum, onlar isə çox. Axı mən həmişə seçim edən tərəf olmuşdum, seçilən tərəf olmamışdım. Mən içimi

[1] İdman üslubunda köynək

dolduran bütün duyğuların kimyəvi tərkibini bilirdim. Səhnədə olduğum illər ərzində endorfindən necə qoxu gəldiyini, adrenalinin necə yüksəldiyini, eyforiyanın hansı məqamda başlandığını, nəyin orqazmla başa çata biləcəyini dəqiq bilirdim. Mən öz bədənimin dilini bilirdim. Amma indi mənim bədənim və ağlım yeni bir sözlə tanış olurdu, mənim ferment ehtiyatımda o sözün tərcüməsi yox idi. Bu söz "Xloe" idi. Yoxsa mən yavaş-yavaş... Yoxsa mən... Bu sözü dilimə gətirməkdən də qorxurdum. Sevgi!

Biz həmin gün dayanmadan danışdıq. Bir mövzudan başqa mövzuya keçir, bir-birimizin həqiqətinin möhkəmliyini yoxlayır, qorxularımızın dadına baxırdıq. Bir-birini dərk meşəsinin sıx dərinliklərinə girməyə çalışırdıq. Bu, söhbət deyildi, mən bunu qarşılıqlı müsahibə kimi hiss edirdim. Biz, sadəcə, danışmırdıq, biz gözəl danışırdıq, ya da ən azı gözəl danışmağa çalışırdıq. Əgər dialoqlar düşüncələrin görüşüdürsə, onda bizim düşüncələrimiz rəqs gecəsində görüşmüşdülər və yüngül valsın qanadlarında fırlanırdılar. Xloe "post-dini sindrom"un nə olduğunu mənə izah etməyə çalışırdı. Bu onun ilk kəşfi idi, təcrübə altında olan da onun özü idi.

Post-dini sindrom

Xloenin xəyali doktorluq
dissertasiyasından parçalar
Xəyali qoca dosent –
iri eynəkli Eyden



– Bilirsinizmi, doktor Eyden, kiçik yaşlarından uşaqların ağlına yeridilən din onu inkişaf etdirir. Sən dünyanı daha parlaq, daha geniş, daha dərin görməyə başlayırsan. Dünya sənin üçün təkcə insanlardan və heyvanlardan ibarət olmur, o, mələklər və baş mələklərlə doludur. "Post-dini sindrom" isə dindar dinsizə çevrildikdən bir neçə il sonra başlayır. Dindarın təxəyyülü o qədər genişlənib ki, dünyəvi qayğılar ona vakuum okeanındakı zərrəciklər kimi görünür. Bütün bahalı maşınlar, pal-paltar, filmlər və siyasət intəhasız zaman boşluğunda bircə andır. "Post-dini sindrom" dindarlıqdan sonra yaranan boşluqdur və onu heç nə ilə doldurmaq mümkün deyil. Adətən, bu cür insanlarda zaman keçdikcə yüngül şizofreniya, yaxud autizm başlayır. Çünki onlar, sözün həqiqi mənasında, bu dünyanın adamı deyillər.

Doktor Eyden başını bulayıb deyir:

– Əziz Xloe, siz Sartrın ekzistensial böhranını təkrarlayırsınız, elə deyilmi?

– Xeyr, doktor, Sartrın mövcudluq böhranını həm dindarlar, həm də dinsizlər yaşaya bilər. Hər bir elmlər doktoru, Nobel mükafatı laureatı, alim

ekzistensial problemlə üzləşə bilər. Amma onlar bunu öz rasional, yəni şişirdilməmiş düşüncələri, təxəyülləri ilə hiss edirlər.

– Hə, siz haqlısınız, əziz Xloe. Düşünürəm ki, bu mövzunu elmi, həmçinin də dini dairələrdə müzakirə etmək maraqlı olardı. Lakin unutmayın ki, bütün bu söhbətlər sizin təxəyyülünüzün yalnız bir hissəsidir.

Xloe deyirdi ki, onda "D.S.B" var, yəni dindarlıqdan sonrakı boşluq. Dinə inamını itirdikdən sonra onu irəli getməyə heç nə sövq etmirmiş. Axı bu nəyə lazım idi?

– Eyden, əbədi həyatın olmadığını, ömrün cəmi 70 il olduğunu öyrəndiyin zaman səni bürüyən hisslər cəmi bir-iki aylıq ömrünün qaldığını eşidən 15 yaşlı xərçəng xəstəsinin keçirdiyi hisslərlə təxminən eynidir. Nə olsun? Sən bu iki ay ərzində nə edə bilərsən? Uzun və soyuq bir apatiya başlayır. Əbədiyyətdən qoparılmış hansısa əhəmiyyətsiz 70 il...

Həyətə baxıram. Sisəklər susub. Aydın səma ulduzlarla doludur. Xloeyə qulaq asdıqca fikirləşirəm ki, heç vaxt heç kimlə bu barədə danışmamışam...

– Öz mahnılarını oxumaq sənin xoşuna gəlirmi?

– Hmm... Necə deyim... Mən mahnı yazmağı xoşlayıram, amma onları səhnədə ifa etməkdən heç vaxt xoşum gəlməyib. Bu ona bənzəyər ki, Leonardo da Vinçi Italiyanı gəzib konsert versin, bilet satsın və hər dəfə də səhnədə Mona Lizanın surətini çəksin. Bu, ağılsız

bir şey olardı, elə deyilmi? Mahnılarda da elədir. Sən yazdın, bitdi. Mahnı artıq orada qaldı. Həmin anda həkk olundu. Ondan sonra, istəyirsən, milyon dəfə oxu, yenə də birincinin surəti, surəti, surəti olacaq. Məndən olsaydı, rahat kresloları, divanları olan bir yer icarəyə götürərdim, mahnıları maqnitofonda səsləndirərdim, özüm də dinləyicilərimlə birlikdə oturub qulaq asardım. Nümayiş etdirmədən...

Beləcə səmanın qara rəngi tünd-göy rəngə çevrilənə qədər danışdıq. Maraqlıdır ki, Xloenin qonşusu otağa qayıtmamışdı, yəqin ki, başqa yerdə gecələmişdi. Mənim zərrə qədər də yuxum gəlmirdi, vaxtın necə keçdiyini hiss etməmiş və yorulmağa macal tapmamışdım. Ağlım daha çox şey istəyərdi, amma qarnım artıq geriçəkilmə siqnalları göndərirdi.

Biz aşağı düşdük. Böyük mətbəx masasının üstündə, sininin içində soyuq burgerlər qalmışdı. Bizim yüksək mənəvi söhbətimizi ən adi məişət sözləri əvəzləməyə başladı: "Zəhmət olmasa, ketçupu ver"; "Sənin üçün mikrodalğalı sobada isidimmi?"; "Mmm, çox dadlıdır"; "Orada barbekü sousu da var"; "Kola istəyirsən, ya pivə?"

Lakin hətta bu məişət söhbətində belə mənimçün yeni olan nəsə vardı. Xloe o qədər fərqli idi ki, bunu mənim şəxsi həyatıma yadplanetlinin müdaxiləsi də adlandırmaq olardı.

Bəs, görəsən, mən onun üçün nə dərəcədə fərqli idim? Bunu bilmirdim. Axı flirtin özünün də çoxlu

dili və aksenti var. Hindlilər və almanlar arasındakı eşqbazlıq bir cürdür, yaponlarla meksikalılar arasında tamamilə başqa cür. Eləcə də mənimlə Xloe arasında böyük bir milli-mədəni uçurum vardı. Bu uçurumun üstündən onun üzündəki duyğuları oxumaq, təbəssümünü düzgün anlamaq, hərəkətlərinin mənasını dərk etmək çox çətin idi. Görəsən, Xloe gülümsəyəndə, həqiqətənmi, gülümsəyirdi?

– Sən indi, həqiqətən, gülümsəyirsən, ya elə-belə?

Xloe mənə təəccüblə baxır:

– What?

– Axı sən indi mənim üzümə gülümsəyirdin. Mən də soruşuram ki, bu, Amerika təbəssümüdür, yoxsa əsl gülümsəmə?

– American Smile? What do you mean?[1]

– Ok, let me explain.[2] Amerikada süni təbəssüm geniş yayılıb. Yəni bunu etməyi çox istəməsən də, nəzakət xatirinə gülümsəməli olursan. Əlbəttə, sizin bunu qəsdən etdiyinizi demirəm. Ola bilsin ki, bu sizdə mədəniyyətin, davranış qaydalarının bir hissəsinə çevrilib.

– Maraqlıdır, – Xloe gülür. – Sən, həqiqətən, belə fikirləşirsən?

– Hə. Amerikalıların çox gülümsədiyini Şərqdə hamı bilir. Bizim nəzərimizdə bu o qədər də düzgün deyil. Axı emosiyalar dildir. Bədənin dili. Sən

[1] Amerikan təbəssümü? Bununla nə demək istəyirsən?
[2] Yaxşı, icazə ver, izah edim.

qeyri-təbii gülümsəməklə, bir növ, yalan danışmış olursan.

– Yalan? Eyden, sən çox qəribəsən, – o deyir və pıçıltı ilə əlavə edir: – Axı burada bizim hamımız yalan danışırıq.

Mən onu anlamıram və başımı bulayıram:

– Bunun hamısı yorğunluqdandır. Fikir vermə.

Bir dəqiqə keçir. Biz burgerimizi yeyib qurtarırıq. Xloe deyir:

– Ey, mən, həqiqətən də, gülümsəyirdim. Sənin bir yerdə olmaq mənə xoşdur.

Jerar Monteskyö və onun gözəl xanımı Nadinlə müsahibə

"Ekzistensial böhran" –
intellektual dairələrdə dəbdə olan ifadə



Mən hosteldə, öz otağımda uzanmışam və qəlbimi dolduran sevincdən yata bilmirəm. Biz bu gün Xloe ilə o qədər çox danışmışıq ki, səhərin tez açılmasını və onu yenidən görməyi səbirsizliklə gözləyirəm. Ağlıma da gəlmir ki, tezliklə Uilyamsburqda, öz evimdə olacaq və bu lənətə gəlmiş videonu "YouTube"da axtaracağam...

Maylzın mənə atdığı linkə əsasən "YouTube"a girirəm və həmin müsahibəni tapıram. Bu dəfə yer ayağımın altından fiziki mənada qaçmır, öz ayaqlarım tutulur. Bu, insanların özlərinə verdiyi müsahibələrdən biridir. "YouTube"da ekstrasenslərin, qiymətləndirilməmiş filosofların, yeni başlayan modelyerlərin, ufoloqların yalnız özlərinə məlum olan hansısa qondarma elmi dildə danışdıqları milyonlarla bu cür video var. Bunlardan bəziləri yeniyetmələrin öz nənə və babaları haqqında çəkdiyi videolardır. Onlardan xahiş edirlər ki, harada böyüdükləri və necə tanış olduqları haqda danışsınlar. Bunlar, bir növ, gələcək nəsillər üçün nəzərdə tutulmuş rəqəmsal başdaşılardır.

Metafiziklərin, şəfavericilərin, musiqiçilərin, komiklərin müsahibələrinin gigabaytları... Bəzi hallarda suallar ekranda mətn şəklində görünür, bu da onun avtomüsahibə olduğunu bir daha sübut edir. Ekrandakı adam birbaşa kameraya deyil, xəyali jurnalistə tərəf baxır. Bu da orada ikinci bir şəxsin iştirakı illüziyasını yaradır və işə yaxşı yarayır.

Bu müsahibə də həmin formatda idi. İxtiyari sarı fonda yaşlı bir baba üzü qalın və ağ kirşan qatı ilə örtülmüş arvadı ilə yanaşı oturub. Mən belə sifətləri "duru xəmirin içindəki üz" adlandırıram. Onların ikisi də gözəl və qeyri-adi geyinib. Müsahibə götürən ya volontyordur, ya da onların oğlu. Bəlkə də, nəvəsi. Ekranda "J.M. Channel" loqosu görünür.

– Əziz müsyö Jerar, sizin kim olduğunuzu hamı çox yaxşı bilir, ona görə də mən belə bir sualla başlamaq istəyirəm: bəs siz kim deyilsiniz?

- Oğlum, çox maraqlı sualdır. Mən elmi fəaliyyətimin son 20 ilini məhz bu suala həsr etmişəm. Mənim oyanışım 35 yaşımda başlanıb. O vaxt mən hələ çox cavan idim və 40 ildən bəri həyatıma yoldaşlıq edən bu gözəl madama rast gəlmişdim.

Qadın ucadan, sərbəst və bir qədər süni şəkildə gülür. Ziyalı dairədən olan yaşlı xanımlar bu cür gülməyi xoşlayırlar.

– Biz o vaxt çox cavan idik, Jerar...

– Əzizim, biz elə indi də cavanıq... O vaxt, mən bu gözəl ledіyə rast gələndə müharibənin nəfəsi Avropanın

üzərindən hələ çəkilməmişdi. Mən Kopenhagendə, sosiologiya kafedrasının magistraturasında təhsil alırdım. Gənc və kasıb idim. Madam Nadin isə varlı ailədən idi. Mən fransız yəhudisi idim, ailəmi itirmişdim, Avropanın kiçik şəhərlərində dolaşırdım, o isə Tayder küçəsi, 16 ünvanında yerləşən ikimərtəbəli malikanədə yaşayırdı. Gecə-gündüz öz gözəl madmazel Nadinimi izlədiyim həmin ünvanı heç vaxt unutmaram.

"YouTube"da geriçəkmə düyməsini basıram və sürəti 1,5-ə dəyişirəm. Sizi lənətə gələsiniz, qoca kaftarlar! Heç vaxt bu qədər qəzəbli olmamışdım. Artıq bir həftədir ki, evdəyəm. Hostel öz qapılarını mənim üzümə bağlayıb, bu qocalar isə mənə naftalin iyi verən, özlərindən başqa heç kimi maraqlandırmayan, cəmi 2854 baxış sayı olan həyat tarixçələrini danışırlar.

Qoca sözünə daha sürətlə davam edir:

– Mən onun gözündə kim idim ki? Bir boşluq. Heç kim. Onun razılığını almaq ehtimalım sıfra bərabər idi. Onda mən elə bir hərəkətə yol verdim ki, bunu heç özüm də gözləmirdim. Mən dürüst bir oğlan idim. Yalan mənim üçün günaha bərabər idi. Amma sevgi uğrunda yalan danışmalı oldum. Mən özümü Provansdan gəlmiş və onun atasının əntiq əşyalar kolleksiyası ilə maraqlanan zəngin bir kolleksiyaçı kimi qələmə verdim. Onların ailə mühitinə daxil oldum, gözəl qızları ilə tanış oldum.

Hamısı mənim barəmdə yüksək fikirdə idi. Mən yaxşı geyinirdim, özümü ədəbli aparırdım. Provansdan gəlmiş bir adam haqqında Kopenhagendə nə öyrənmək olar? Mən sağa-sola yalan danışırdım. O vaxt indiki kimi deyildi, nə internet vardı, nə də sosial şəbəkələr.

– O, yalanı çox gözəl, incə şəkildə danışırdı, – madam Nadin gülümsəyir.

Kamera arxasındakı oğlan soruşur:

– Beləliklə, siz öz kəşfinizi etdiniz?

– Mən kəşfimi bir neçə ildən sonra etdim. Həm də mən bunu kəşf adlandırmazdım. Axı yalan həmişə və hər yerdə olub. Sadəcə, bizim ona münasibətimiz dəyişib. Oğlum, sən, yəqin ki, 10 ehkam haqqında eşitmisən. Musaya verilmiş 10 qayda haqqında. Birinci ehkam budur: "Mən tanrıyam, sənin Allahınam. Sənin məndən başqa tanrın olmayacaq". İkinci...

Videonu irəli verirəm. "Axı "Yaxın adamına qarşı yalan şəhadət vermə!" "Ümumiyyətlə, yalan danışma!" demək deyil. Deməli, yalan danışmaq Bibliyaya zidd deyil. Orada bunun düz hərəkət olmadığı haqda heç bir söz deyilmir".

Yenə videonu irəli verirəm.

– Bəs bu sistem necə işləyir?

– Biz bunu ilk dəfə Parisdə, La Mer adlı kiçik bir yerdə təcrübədən keçirmişik. Sonra Praqa, Dublin, Bryuj və Florensiyada olduq, bir şəhərdən başqa şəhərə keçdik.

Maylz, səni görüm öz lənətə gəlmiş vizit kartınla birlikdə cəhənnəmə gedəsən. Hər şeyi demisən, əsas məsələni isə yaddan çıxartmısan.

Elə bu vaxt yer ayağımın altından qaçmağa başladı, çünki Maylz haqlı çıxmışdı...

Amma hələlik hosteldə idim və cəmi bir neçə həftədən sonra həyatımın tamamilə alt-üst olacağını ağlıma da gətirmirdim.

Barmağımı ekranın yuxarı sağ küncündəki "x" işarəsinin üstünə basıram və başa düşürəm ki, onu itirmişəm.

Seks baş verir

"Zəhmət olmasa, ketçupu ver".
Məişət aforizmi. Xloe



Mən öz yatağıma qayıdanda Meqan yox idi. Elə yaxşı ki, yox idi. Çünki Xloenin dərinliyindən sonra Meqanın dayazlığına düşmək çox çətin, hətta ağrılı bir şey olardı. Buna baxmayaraq, ertəsi gün rəqqasənin birinci gün ona sataşan həmin meksikalı ilə sevişdiyini öyrənəndə özümdə yüngül bir narahatlıq hiss etdim. Mənim bütün qəhrəmanlığım, mədəniyyətim, kömək etmək istəyim, anlayış göstərməyim onların seksual rəqsinin bir hissəsi imiş.

Bu şəhərdə hər şey çox sadə idi. İnsanlar istədikləri vaxt sekslə məşğul olurdular. Hollivud filmlərindəki bəzi səhnələrin məğzi yalnız Amerikaya gəldikdən sonra mənə çatıb. Məsələn, cütlük azı 20 dəfə bir yataqda yatdıqdan sonra qız oğlana deyir: "Mən səni sevirəm".

Oğlanın da sifətində elə ifadə var ki, sanki bundan elə indicə xəbər tutub. Şərqlə Qərb arasındakı mədəniyyət fərqi budur. Qərbdə əvvəl yatıb sonra sevirlər, Şərqdə isə əvvəl sevir, sonra yatırlar. Bilmirəm, bunlardan əxlaq qaydalarına daha çox zidd olanı hansıdır. Çünki Qərb tərəddüd etmədən bədənini təklif edirsə, Şərq də düşünmədən qəlbini təklif edir. Şərqdə

"Səni sevirəm" demək çox asandır. Bunun heç bir əhəmiyyəti yoxdur. Gənc oğlan bu sözü üç qıza deyə bilər və onlardan hansının müsbət cavab verəcəyini gözləyər. Axırda mən belə bir nəticəyə gəldim: Qərbdə bir-biri ilə yatırlar ki, sevsinlər, Şərqdə isə sevirlər ki, bir-biri ilə yatsınlar. Hər necə olsa da, ikincisi mənə əxlaqdan daha çox kənar görünürdü.

Mən birinci mərtəbədəki böyük qonaq otağında oturmuşam. Burada çoxlu gənc var: Selin, Tobi, Devid, Ceremi və yenə kimsə. Amma onlar bütün salonu işıqlandıran günəşin qabağını tutan buludlar kimidirlər. Xloenin gözləri orta əsrlərin məşəlləri kimi yanır. O, Selinlə Zak arasında gedən mövzusuz söhbətin səs dalğaları aramızdan keçdiyi müddətdə otağın digər küncündən diqqətlə mənə tərəf baxır. Xloenin əynində alt paltarlarını azacıq göstərən açıq rəngli sarafan var. O, ayaqyalın gəzir. Boynunun arxasında yığdığı saçlarının bir neçə burumu şıltaqlıqla çiyinlərinə tökülür. Deyəsən, onun gözləri bədəninin temperaturuna görə rəngini dəyişir, boz bəbəkləri parlaq yaşıla çalır. Bir-iki gün bundan əvvəl mən gecəni onun otağında keçirmişdim, amma bircə dəfə də ona belə baxmamışdım. Seks heç mənim ağlımdan da keçməmişdi. Biz seksin mövcud olduğunu unutmuşduq. Biz o qədər çox danışmışdıq ki, fürsəti əldən vermişdik. İndi isə çox əhəmiyyətli bir şeyi əldən qaçırdığımızı və bu qarşılıqlı səhvi düzəltməyin zəruri olduğunu ikimiz də bilirdik. Mən onu arzulayırdım,

o da məni. Cənubi Amerika qəbilələri arasında yalnız çoxlu hərf yığını ilə izah edilə bilən belə bir anlayış var – "mamihlapinatapai". Onun hərfi mənası belədir: iki nəfər diqqətlə bir-birinin gözünün içinə baxır, ikisi də eyni şeyi istədiklərini başa düşür, amma heç biri o birinə yaxınlaşmağa və ilk addımı atmağa cürət etmir.

Mənimlə Xloenin arasında da məhz belə bir şey vardı! Mən yerimdən durub ikinci mərtəbəyə qalxıram, o isə aşağıya düşür və yanımdan keçir. Biz bir-birimizə baxıb gülümsəyirik.

– Hey...

– Hey...

Bir-birimizin yanından keçəndə az qalır ki, əllərimiz toxunsun. Mən çevrilib ona baxıram, o da dönüb baxır və bir saniyədən sonra yenə bizi həmin lənətə gəlmiş "mamihlapinatapai" bürüyür. Amma bu ehtiras, sadəcə, sevişmək istəyindən daha artıq bir şeydir. Hər halda, məndə belədir. Onda necədir, başında hansı fikirlər dolaşır – bilmirəm. Amma ikimizin də bunu istədiyimizə şübhə yoxdur. Biz bu böyük hosteldə bütün gün onunla qarşılaşırıq. Gah həyətdə, gah qonaq otağında, gah pilləkəndə, gah da başqa bir yerdə. Lakin heç kim həmin birinci addımı atmağa cürət etmir. Görünür, bizim aramızda hər şey mürəkkəb şəkildə başlanmışdı. Axı Sartrdan, həyatın və ölümün mənası haqqındakı söhbətlərdən, metafizikadan, Nyu-York və D.S.B. haqqındakı düşüncələrdən

sonra deyə bilməzsən ki, "bəlkə... şey..." Biz oyun oynayırdıq və oyunun sonuna çatmışdıq. Mələk oyunu oynayırdıq, amma özümüz primat olaraq qalmışdıq.

Yüksək musiqi səslənir, içində punş olan qırmızı rəngli birdəfəlik stəkanlar gözlərimin qarşısında görünüb yox olurdu. Kimsə tekila gətirdi. Bizim dicey dinamikləri işə salmışdı, Ceyson Derulonun mahnısı səslənirdi. Selin Zakla rəqs edirdi. Bir nəfər üstündə iri hərflərlə "Domino Pizza" sözləri yazılmış qutudan pitsa çıxarıb kəsdi. Televizorun ekranında "Knicks" basketbolçuları qaçırdı, "Barclays Center"dən translyasiya gedirdi.

Mən öz otağıma qalxdım. Qapını bağlayıb otağın içində dəli kimi o yan-bu yana getməyə başladım. Bunu etmək olmazdı. Axı mən Amerikaya yolüstü gəlmişdim. Hələ məlum deyildi ki, mən burada qalacağam, ya yox. Əgər bu gün aramızda nəsə baş versəydi, onda bu heç vaxt bitməyəcəkdi. O mənim yaşadığım yerə getməyəcəkdi axı! Bəs mən necə, onunla burada qala bilərdimmi? Buna son qoymalı idim. O, növbəti "sadəcə, gözəl qız" deyildi. Bizim aramızda hansısa qəribə bir əlaqə vardı, bu da məni qorxudurdu. Bərk qorxudurdu. Bakir bir oğlanı qorxudan kimi qorxudurdu. Çünki ona qədər həyatımda olan qızların heç biri ilə ciddi münasibətim olmamışdı. Onlar həmişə ötəri, birdəfəlik görüşlər olurdu. Əsl sevgi isə intihar kimidir. Sən öz "mən"ini öldürməyə və "biz" kimi dirilməyə razılaşırsan. Daha Eyden olmayacaq,

Xloe də yoxa çıxacaq. Nəsə üçüncü bir şey olacaq. Bu duyğu partlayışını, sinir uclarının fleşmobunu sözlə ifadə etmək, sadəcə, mümkün deyil. Mən aşağı düşüb ona deməliyəm ki, bunu dayandırmaq lazımdır.

Gücümü toplayıb otağımın qapısına baxıram. Sadəcə, qapını açmaq, aşağı düşmək, Xloeni tapmaq və demək lazımdır ki, biz bunu dayandırmalıyıq. Qoy nə istəyir fıkirləşsin, elə bilsin ki, mən geyəm, yaxud dəliyəm, anlaşılmaz bir adamam, amma mən bu duyğu selinin içinə atılmağa hazır deyiləm. Mənim rolokosterlərdən[1] zəhləm gedir, suya tullanmadan xoşum gəlmir, paraşüt istehsal edən şirkətlərə etibar etmirəm. Mənim Yerim fırlanmır, mənim planetim günəş sistemi orbitlərinin möhkəm dəmir yollarından düzəldildiyi mexaniki kainatda qəti şəkildə sabitləşib. Mənim günəşim platin dayaqlar üzərində dayanıb. Mən öz taleyimin ağasıyam. İndi aşağı düşüb ona nəsə xoşagəlməz, ağır bir söz deyəcəyəm, təki bu məsələ bitsin. Ehtirasımı isə Meqanla, yaxud Selinlə də söndürə bilərəm. Hə, lənət olsun, hər kəslə. Təki belə kortəbii surətdə, hər şeyi ətraflı fikirləşmədən aşiq olmayım.

Vəssalam, mən aşağı düşürəm...

Otağımın qapısını açıram... Orada isə Xloe dayanıb. Lənət olsun... İndi yox, burada olmaz. Bunu aşağıda etmək lazımdır. Mənə bir-iki saniyə vaxt, bir

[1] Hündür və çox sürətli attraksionlar

düjün də pillə lazımdır ki, hazırlaşa bilim... Burada yox...

Lənət şeytana, Xloe, mənim qapımın ağzında nə işin var?

Xloe icazə almadan otağa girir və cəld mənə yaxınlaşır. Mən onun əlindən tutub içəri çəkirəm. Taxta qapının bərkdən çırpıldığını eşidirəm, sol əlimlə onu kilidləyirəm. Dodaqlarımız bu cazibə qüvvəsinə davam gətirmir və çılğınlıqla bir-birinə yapışır. Biz dəlicəsinə, ürəkdən, öz xoşumuzla piranya balıqları ilə dolu olan bu okeanın içinə düşürük. Piranya – onun dırnaqları, mənim dişlərimdir, onun sırğaları, mənim saatımdır. Bizim dərimizi cızan nə varsa, hamısı piranyadır. Onun saçları ilə adyal dalğalardır. Azğın bir fırtına içindəyik. Mən onun bədənini çarpayıya tərəf çəkirəm, biz bir-birimizin üstünə yıxılırıq.

Birinci mərtəbədən musiqi səsi gəlir. Xloenin kəskin ahları, əynimizdən çıxan ölü parçanın xışıltısı eşidilir. Bu cazibə bizim bədənlərimiz arasında bircə santimetr də yer saxlamayacaq. Onun əlləri, incə barmaqları mənim ovcumun içindədir, sinəmin altında onun isti döşlərini hiss edirəm. Bizim öpüşümüz bir an da ara vermir, soyunduğumuz, çarpayıya yıxıldığımız, əl ilə toxunaraq bir-birimizi öyrəndiyimiz, bədənimizi gözdən keçirməyə cəhd etdiyimiz zaman da davam edir. Həzz payı uğrundakı bu mübarizədə dodaqlarımız bircə an da geri çəkilmir. Dodaqlarımız hamısına qalib gəlir, əlləri, sinəni, kürəyi, ayaqları

üstələyir... Bütün bunlar, sadəcə, uzun bir öpüşün fonunu təşkil edirdi – o vaxta qədər ki, mən onun ayaqlarını aralayıb bədəninə daxil oldum. Dodaqlarımız yalnız o zaman geri çəkildilər. Partlayışın dalğası bizim üzlərimizi bir-birindən bir neçə işıq ili qədər uzaqlaşdırdı. Xloe içini çəkdi və əlləri ilə kürəyimdən yapışdı. Mən getdikcə daha da dərinə daxil olurdum. Biz həndəsi hissimizi itirmişdik, bilmirdik, hansı bucaq altında və düzmü uzanmışıq. Biz ağrı ilə ehtirasın, həyəcanla imdad səslərinin sərhədini itirmişdik. İçimizdə ağıllı, təmkinli, insani nə vardısa, hamısını itirmişdik. Dünyanın altı üstünə çevrildi və mən onun altında qaldım. Xloe belini bükmək istəyirdi, amma mən onu o cür hündürlüyə və uzağa buraxa bilmirdim. Onun dərisi çəhrayı rəng alırdı. Biz ara vermədən öpüşürdük. Gedib-qayıdaraq, fırlanaraq və getdikcə bir-birimizə daha dərindən daxil olaraq öpüşürdük. Pozaları biz dəyişmirdik, pozalar bizi dəyişirdi. Bir-birimizə aid təəssüratımızı dəyişdirirdi, ətrafımızdakı mühiti dəyişdirirdi. Bir kaleydoskop kimi təəssüratın yeni-yeni mənzərələrini yaradırdı. Mən cütləşmədən sonra erkəkləri yeyən dişi dəvədəlləyiləri anlamağa başlayıram. Mən sperma axıdanda ölən bütün erkəkləri anlayıram. Amansız genötürmə instinktinin ölümə doğru apardığı qızılbalıqların axına qarşı fədakar sıçrayışları kimi...

Xloe işıq sürəti ilə genişlənir və heç bir kainatın malik olmadığı ölçüyə çatır. Xloe mənim şüurum

boydadır. Xloe məni bütünlüklə və bir az da artıq doldurur. Mən Xloenin dünyasında yaşayıram. Mən Xloe kainatının bir parçasıyam. O isə məndəki kiçik qum dənəsidir. Mən indi In-Yan rəmzinin bütün dahiyanəliyini dərk edirəm.

Xloeni orqazm bürüyür. Məni isə qorxu bürüyür ki, özümü saxlaya bilmərəm, onu belə mühüm anda tək qoyaram və öz orqazmıma yuvarlanaram. Amma mən hər halda özümü bir neçə saniyəliyə ələ ala bilirəm və bunu birlikdə edirik. Bizim əllərimiz birlikdədir, deməli, yaşayacaq və bütöv qalacağıq. Biz bu intəhasız partlayışa tab gətirə biləcəyik. Qadının kişidə, kişinin isə qadındakı partlayışına...

Biz bir ay bundan əvvəl bir-birimizi tanımırdıq, indi isə birlikdə ölüb, birlikdə dirilirik. İçimizdə üçüncü, nəsə pak bir şeyi əldə edirik. Onu titrətmə tutur. Əsməyə başlayır və boğulmamaq, üzdə qalmaq üçün dodaqları ilə, xilas kəməri əvəzinə, məndən yapışır. Orqazmdan sonra mən uzun müddət onda qalıram. O, uzun müddət məni buraxmır...

Elə bilirsiniz, bu, hamısıdır? Yanılırsınız. Bu, ballı ay işığının altında hələ uzun müddət davam edən ehtirasın yalnız başlanğıcıdır. Onun zərif dərisi, bədəninin bükükləri, parıldayan gözləri, saçları və inanılmaz şirin qoxusu...

Biz dayana bilmir, səhərə qədər davam edirik. Mən onun bədəninin hər santimetrini öpürəm, o məni bərk-bərk qucaqlayır, biz öpüşür, sekslə məşğul olur, bir-birimizi orqazma çatdırır və yanaşı uzanıb bir-birimizə baxırıq. Çılpaq bədənlərimiz ay işığı altında birləşir. Biz onun siqaretlərindən çəkir, mənim musiqimi dinləyirik. Otağımın açıq pəncərəsindən bədirlənmiş aya baxırıq. Incə, soyuq külək bizi əyləndirir.

O deyir:

– Damn...

– Damn...

Susur, siqaret çəkir, bir-birimizi oxşayır, bədənlərimizi öyrənirik. Onun bədəni mənim xoşuma gəlir. Onda olan hər şey mənim xoşuma gəlir. Ətrafında olan hər şeydən xoşum gəlir. Bu stolüstü lampa heç vaxt belə qəşəng olmayıb. Bu göy pərdələr isə heç vaxt belə xoş rəngdə görünməyib. Bu ən yaxşı çarpayı, bunlar ən yaxşı balışlardır. Mən onun boynunu sakitcə, incə-incə öpürəm. Bunu diqqəti ora

yönəltmədən edirəm. Sanki bu da ürək döyüntüsü, yaxud nəfəs almaq kimi, həyat prosesinin bir hissəsidir. Bu, sadəcə, var və davam etməlidir.

– Xloe...

– Yes?[1]

– I like your neck.[2]

– Oh, no[3], – o gülür. – Ay bütövlənib və çox ehtiraslı bir oğlan deyir ki, mənim boynumdan xoşu gəlir. Yaxşı, Eyden, bunu edə bilərsən. Mən hazıram.

Mən onun nədən danışdığını anlamıram.

– Do What?[4]

– Bite me. Make me a Vampire.[5]

Xloe son sözləri pıçıltı ilə deyir və dodaqlarıma tərəf dartınır...

Mən qəribə, tanış bir qoxu hiss edərək yuxudan oyanıram. Bu ki qəhvədir. Hə, elədir, Xloe bizim üçün yatağa səhər yeməyi gətirib. Dişlərini yuyub, duş qəbul edib, paltarını da dəyişdirib. Ağzımda dünənki əlaqənin dadı qalıb. Qəhvədən bir-iki qurtum içib vetçinalı "egg roll"[6] yeyirəm. Hər şey necə də gözəl, sakit, rahat, yaxşı və aydındır.

– Good Morning.[7]

---

[1] Hə?

[2] Sənin boynun xoşuma gəlir.

[3] Oh, yox.

[4] Nə edim?

[5] Dişlə məni. Məni vampirə çevir.

[6] Yumurtalı rulet

[7] Sabahın xeyir.

– Awesome Morning[1], – cavab verirəm.

Xloe uşaq kimi gülümsəyir. Yanımda uzanıb pendirli fransız tostunu xırçıldadır. Biz onunla birlikdə qəlyanaltı edirik və mən bu planetdəki bütün qalan səhərlərimin qəlyanaltısını onunla birlikdə etmək istəyirəm. Məncə, ona dəlicəsinə vurulmuşam. Dünən yox, məhz indi. Onunla birlikdə yerimin içində qəlyanaltı etdiyim zaman bunu tam mənası ilə dərk edirəm. İçimdə elə bir hiss var ki, elə bil mən həqiqəti məhz indi, məhz bu dəqiqə tapmışam. Elə bil bütün dünya hərəkətdən qalıb. Elə bil indicə bütün ölkələrin prezidentləri efirə çıxıb deyəcəklər ki, oyun bitib. Eyden və Xloe bir-birini tapıblar. Elə bil indicə İsa Məsih çarmıxdan enəcək və oradan üstündə "Close"[2] yazılmış lövhəcik asacaq. Elə bil bütün dünya pərdənin arxasından şar və konfettilərlə[3] sıçrayıb çıxaraq "Surprise!" deyə qışqıracaq. Ona görə ki, bütün həyatın, bütün müharibələrin, siyasət və elmin, dünyəvi və axirətlik olan hər şeyin mənası bunda idi. Bütün bu dünya məhz bizi görüşdürmək üçün yaradılmışdı. Indi isə bu dünya heç kimə və heç nəyə lazım deyil. Çünki tapşırıq yerinə yetirilib.

– Xloe, sən yanımda olanda özümü çox xoşbəxt hiss edirəm. Səni gördüyüm andan içimdə nəsə baş verir. Mən bundan çox qorxuram.

---

[1] Çox gözəl sabahdır.

[2] Bağlamaq

[3] Təntənəli ziyafətlərdə iştirakçıların başına səpilən əlvan və parlaq piləklər

Xloe baxışlarını yayındırıb tavana baxır və astadan deyir:

– Amma mən qorxmuram, – sonra xeyli susur. – Axı mən sənin haqqında çox az şey bilirəm. Əslində, ümumiyyətlə, heç nə bilmirəm.

– Onda sən soruş, mən də cavab verim.

Xloe gülümsəyir:

– Guya hamısına düz cavab verəcəksən? Axı bu, oyundur. Sən hər şeyi uyduracaqsan.

– Yox, nə danışırsan! – Mən sağ əlimi fransız tostunun üstünə qoyub təntənəli surətdə deyirəm: – Həqiqəti, yalnız həqiqəti deyəcəyimə and içirəm!

– Hə, bax əgər yalan danışsan, fransız tostu səni cəzalandırar.

– Hə, əgər yalan danışsam, öləndən sonra nəhəng tosterin içinə düşəcəyəm və orada əbədi olaraq yanacağam.

Xloe yenə gülümsəyir, dikəlib yerini rahatlayır.

– Yaxşı, Eyden, başlayıram.

– Başla.

– Ən çox xoşladığın rəng hansıdır?

– Hmm, yəqin ki, yaşıl.

– Bəs sənin qoruyucu heyvanın hansıdır? Mənəvi heyvan.

– İstəyərdim pələng, ya da şir deyim, amma, deyəsən, delfindir.

– Delfin? Delfinlərdən çox xoşum gəlir... Bəs sən masturbasiya ilə tez-tez məşğul olursan?

– Yox! Pas!

– Necə yəni pas? Pas cavab deyil.

– Yaxşı, onda belə deyim: getdikcə, daha az.

O, başını bulayıb gülümsəyir:

– Bu sayılmır, amma eybi yoxdur, mən səni bağışlayıram. Davam edək. Sən neçə dəfə həqiqətən aşiq olmusan?

– Yəqin ki, iki, ya da üç dəfə. Uşaq bağçasını da saysaq, üç dəfə.

– Sənin ən ekstremal seksin harada olub?

– Hmm... Bağ evinin hovuzunda. Yəqin ki... Ya da yox, bir yerli jurnalın əməkdaşlarının şənliyində.

– Sevdiyin yemək?

– Bayağı səslənsə də, steyk. Yaxşı qızardılmış, yanında barbekü sousu olan steyk.

– Bədəninin ən erogen yeri?

– Oh, ilahi, bilmirəm. Sən yaxşı bilərsən.

– Hmm, düz deyirsən, bunu tezliklə mən özüm öyrənəcəyəm. Sənin gizli yerin var?

– Gizli yerim?

– Yəni, elə bir yer ki, orada özünü tamamilə azad, bəxtiyar hiss edirsən, orada sənin ruhun dincəlir.

– Klavişlər. Musiqi alətinin klavişləri. Qulaqlıqlar və klavişlər.

– Ən çox axtardığın nədir?

– Hmm... Özüm. Istəyirəm kim olduğumu və əslində nə istədiyimi anlayım.

– Hə, maraqlıdır... Məndə ən çox xoşuna gələn nədir?

Bir anlığa donub qalıram. Onu gözdən keçirirəm. Gözləri, yoxsa boynu? Yoxsa əlləri? Bəlkə, saçları, dodaqları, ya da qaşları? Bəlkə, səsi? Xloenin çox incə səsi var. Ona tərəf dartınıb yavaşca dodaqlarından öpürəm, o da mənə öpüşlə cavab verir.

– Ən çox xoşuma gələn sənin qoxundur.

– Mənim xoşuma gələn isə sənin əllərindir. Onlar çox zərifdir, – o mənim əlimdən tutub dodaqlarına yaxınlaşdırır. – Eyden, indi axırıncı sualımı verirəm.

– Ver.

– Sənin əsl adın nədir? Səni necə çağırırlar?

Gülürəm.

– Mənim adım Eydendir. Daha doğrusu, əsl adım Aydındır, amma sizin üçün Eyden demək daha rahatdır, mən də artıq buna alışmışam.

Xloe uzun müddət gözlərimin içinə baxır. Onu dözülməz bir kədər bürüyür. Elə bil məndən mərhəmət gözləyir. Mən heç nə anlamıram və sadəcə, gülümsəyirəm. Bu zaman nəsə baş verir. O mənə bərk-bərk qısılıb pıçıldayır:

– Mən oynamıram, düz sözümdür, mənə öz adını de. Mən də öz adımı sənə deyim.

– Mən tamamilə ciddiyəm. Adım Eydendir.

Bir neçə saniyə keçir.

– Mən səni burada itirəcəyəm, eləmi?

Mən özümü bir qədər narahat hiss edirəm. Bəlkə, onun xətrinə dəymişəm? Amma necə? Mən nə dedim ki, onu bu qədər kədərləndirdi? Belə bir şey əvvəl də

olmuşdu, cəmi bir dəfə. Budur, yenə təkrarlanır. Xloe çox yaxın və sevimlidir, amma bəzən tamamilə anlaşılmaz olur.

– No, why? I don't wanna lose you, Chloe.[1]

O, başını çiynimə qoyub boynumdan öpür.

– Here is your G Spot, right here on your neck.[2]

Məni ehtiras dalğası bürüyür. O mənim boynumu böyük ehtirasla, hətta kobudluqla öpür. Sonra paltarlarımı çıxarmağa başlayır. Biz sözlərə vaxt itirmədən yenə birləşirik. Xloe... Mən... Yataq... Son bir-iki gündə bu bizim aramızda artıq 7-ci dəfə baş verir. Gecə düşür, biz isə hələ yuxudan yeni oyanırıq. Yadımda qalan yalnız yataqda yediyimiz, yataqda danışdığımız, sevişdiyimiz, yuxuya gedib oyanmağımızdır. Sonra yenə hər şey növbə ilə təkrarlanır. Mən hətta hansısa bir hosteldə olduğumuzu da unutmuşam. Masanın altındakı mikrofon kimi mühüm bir detalı da yaddan çıxarmışam. Mən özümü unutmuşam – əsl kortəbii duyğu budur. Bu keçmiş katolik gözəl məhz sevgini axtarmadığım bir vaxtda, gözlənilmədən qarşıma çıxıb. Bizim dünyalarımız arasında minlərlə kilometr məsafə, bütöv dövrlər və müxtəlif dinlər var. Bizim aramızda mənəvi dəyərlər uçurumu, yüngül dil baryeri, fərqli iqtisadi sistem, müxtəlif pasportlar və vətəndaşlıqlar mövcuddur. Bütün bunlardan əlavə, bizim özümüzün şəxsi təəssüratlarımız, düşüncə

[1] Yox, niyə ki? Mən səni itirmək istəmirəm, Xloe.

[2] Budur, sənin G nöqtən düz burada, boynundadır.

tərzimiz və obyektiv gerçəkliyi kodlaşdırma üsulumuz fərqlidir. Biz həddən artıq fərqliyik.

Lakin bu seks... Bu qoxu, bu öpüşlər və bu dialoqlar bizi başqa bir şeyə çevirir. Bu çılğın ehtiras alovu bizim qəlblərimizi parçalayır, əridir, bizi duru bir kütləyə çevirir. Həmin kütlə səhərəcən bərkiyib yeni və bütöv bir elementə dönəcək. Mən bizim telələrimizin metal simlərini hörüb birləşdirən gözəgörünməz qaynaqçının əllərini görürəm. İndi bizi nə gözləyir? Mən öz ölkəmdə qalan hər şeyi atıb burada ən adi bir oğlana çevrilməyə hazırammı? Mən pərəstişkarım olan dəstə-dəstə qızlarla vidalaşıb təkcə bir qıza aid olmağı bacararammı? Mən bizim xatirimizə özümdən imtina edə bilərəmmi?

Xloe mənim gözlərimdən, burnumdan, çənəmdən öpür, onun hər öpüşü, aldığı hər nəfəs bunun əsl məhəbbət olduğundan xəbər verir. Bəlkə də, bu, ağılsızlıqdır, bəlkə, hələ tezdir, bəlkə, mənim içimdə şərqli temperamenti özünü göstərir, amma hər dəfə orqazma çatıb bir-birimizi bərk qucaqlayanda ona deyirəm:

– Mən səni sevirəm, Xloe.

O, nəfəsini oksigenin son udumu kimi içinə çəkir və uzun müddət mənə cavab verə bilmir. Yalnız bədəni süst halda çarpayıya düşdükdən sonra mən onun yaşla dolmuş gözlərini görürəm.

– Chloe loves you too, Eyden.[1]

[1] Xloe də səni sevir, Eyden.

Sodomun[1] son günləri

"Və Allah Xloeni yaratdı və
gördü ki, bu, yaxşıdır".
Mənim xəyali "Bibliya"mdan.
Yaradılış. Ayə 2:5



Hər şey sevgimizi bir-birimizə etiraf etdikdən sonra dəyişdi. O mənim otağımda duş qəbul etdi və çıxıb getdi. Bəli, dostlarımız "Facebook"dan necə gedirsə, Xloe də eləcə getdi. Profilini bağladı, şəklini sildi, mənim səhifəmdən çıxdı. Mən yaddaşımın lentini gözdən keçirirəm: burada tanış olmuşduq, burada fəlsəfə haqqında danışırdıq, burada zarafat etmişdim. Bilirsinizmi, mən bircə dənə də layk tapmadım. Axı mən onun bir-iki gün bundan əvvəl necə güldüyünü xatırlayırdım. İndi isə elə bil xatirələri vərəqləyib və hamısını silib. Əlbəttə, bütün bunlar mənim düşüncələrim idi, amma reallıqda da buna bənzər bir şey baş verirdi.

Ertəsi gün axşam mətbəxdə baxışlarımız qarşılaşır. Xloe Ceremi və Selinlə söhbət edir. Mən yaxınlaşıb onu qucaqlamaq istəyirəm, o mənim boynumdan öpür, amma uşaqlarla söhbətinə davam edir. Mən onun otağının qapısını döyürəm.

[1] Bibliyaya əsasən, sakinlərinin pozğun həyat tərzinə görə Allah tərəfindən məhv edilmiş şəhər

Rəfiqəsi qapının arxasından Xloenin otaqda olmadığını deyir. Ikinci mərtəbənin pəncərəsindən onun arxa həyətdə Meqanla frisbi[1] oynadığını görürəm. Mən aşağı düşənə qədər Xloe yoxa çıxır. Hostel böyükdür. Sən onu hostelin bir hissəsində axtarınca, o digər hissəsinə keçə bilər.

Nəhayət, bu siçan-pişik oyunu məni bezdirir. Bəlkə, mən Xloeyə onu sevdiyimi deməklə tələsmişdim? Bəlkə, onu sıxan mənim şərqli temperamentimdir? Bəlkə, ona bir qədər vaxt vermək lazımdır, mən isə onu tez-tez narahat edib zəhləsini tökürəm? Uzun illər məşhur musiqiçi olmağım mənim flirt etmək duyğumu kütləşdirib. Dəstə-dəstə qız pərəstişkarlar, ardı-arası kəsilməyən zənglər... Mən axırıncı dəfə nə vaxt ciddi münasibət qurduğumu unutmuşdum. Ümumiyyətlə, həyatımda belə bir münasibət olmuşdumu? Bəlkə, Xloenin davranışı normaldır?

Qərara aldım ki, fasilə verim. Bu, hisslərimizdən baş çıxarmaq üçün bizə imkan yaradardı. Amma mən hələ də ürəkdən aşiq idim, xoşbəxtlik hissi məni tərk etməmişdi.

İsti bir axşam idi. Nyu-Yorkda havanın belə dəyişdiyi olur. Mayın ortasında hava birdən-birə elə istiləşir ki, elə bil yaydan xəbər verir. Mən Zakla stolüstü futbol oynayıram, bütün bu müddət ərzində bircə dəfə də hosteldə görmədiyim Barni bizim yanımızda

[1] Uçan plastik disk

vurnuxur. Barni vegetarian və bitkoin milyonçusudur. O, Zakla mənə tezliklə bütün dünyanın mərkəzsizləşəcəyindən, hər şeyin mobil tətbiqlərlə idarə ediləcəyindən, prezidentləri layklarla seçəcəyimizdən xeyli danışır. Barni bizi yeni terminlərlə yükləməkdə ikən qonaq otağında bir canlanma yarandığını görürəm. Barni tezliklə hamımızın biləklərində mikrosxemlərin olacağı, ID və bank kartlarına ehtiyac qalmayacağı haqda danışdığı zaman bütün uşaqlar qonaq otağına toplaşır və yüksək musiqi səsləndirməyə başlayırlar. Barni Ilon Maskın nə üçün dahi olduğunu izah edənədək qonaq otağı diskotekaya çevrilir. Hosteldən çığırtı, gülüş, musiqi səsləri və spirtli içkilərin qoxuları yayılır.

– Cool, let's go inside?[1]

– Sure, Dude![2]

Biz qonaq otağına keçib kütləyə qarışırıq. Deyv otağın ortasında dayanıb və şüur, aydınlaşma, həqiqət və yalan haqda nəsə danışır. "Biz bu gün özümüz seçdiyimiz kimi olmaq hüququnu əldə etdiyimiz günü qeyd edirik. Gəlin bütün gözəllikləri birləşdirən yalanın sağlığına içək!"

İçində hansısa bir maye olan kiçik stəkanı mənə verirlər. Bu nədir belə? Bəlkə, viskidir? Çox iyrənc qoxusu var. Hamı içir, mən də kütlədən geri qalmamaq üçün içirəm. Gözüm Xloeni axtarır. O buralarda olmalıdır. Birdən Deyvin səsini eşidirəm.

---

[1] Əladır, içəri keçəkmi?

[2] Əlbəttə, dostum!

– Ouu Shit[1]... Eyden!

Mən nə baş verdiyini anlamıram. Yalnız bir dəqiqədən sonra mənə çatacaq ki, bizim içdiyimiz zibil Cənubi Amerikadan gətirilmiş əsl ayahuaskadır. Ayahuaska, başqa sözlə, DMT[2] ən güclü hallüsinogenik alkaloidlərdəndir.

– Eyden, dost, sən ayahuaskanın hamısını içmisən ki! Yaman möhkəmsən!

Mən nə baş verdiyini anlamağa başlayıram. Bu başdanxarablar ən güclü psixoaktiv maddədən içməyi qərara almışdılar. Ayahuaska hərfi mənada "Ruhlar sarmaşığı" kimi tərcümə olunur. Bu, Cənubi Amerika qəbilələrinin dini içkisidir, onlar bunun köməyi ilə ruhlarla danışırlar. Ayahuaskanın təsiri insanın öz altşüuru ilə ünsiyyəti kimi bir şeydir, onu içənlər özləri üçün həqiqəti kəşf edirlər. Amma mənimlə baş verənlər heç bir həqiqətə bənzəmirdi.

Mən Deyvə baxıram. Ürəyim bulanır. Başım dumanlanır. Bu zibil mənə pis təsir edir. Mən daldalı gedib divanda oturmağa çalışıram. Deyəsən, alınır. Divan isti su ilə doludur və mənim altımda sürünür. Parket də kisel kimi yapışqan və davamsız bir şeyə çevrilir. Toxunduğum hər şey istidir və yapışır. Hamısı elə Bergen küçəsindəki "Chocolate Room" restoranında bişirilən, indicə sobadan çıxmış şokoladlı brauni kimidir. Yaddaşımda Xloenin səsi fırlanır: "Bəs əgər

[1] Ouu, zibil...

[2] Dimetiltriptamin

bizim kainat nəhəng insanın kəsilmiş əlinin bir hüceyrəsidirsə, Böyük partlayış isə zəncirli mişarın həmin ələ dəyən zərbəsidirsə?"

– Eyden, sən əslində kimsən?

Uşaqlardan biri əlində tutduğu böyük taxta xaçla otağın ortasında ora-bura qaçır. Bu nə axmaq vəziyyətdir? Burada nə baş verir? Mən yapışqanlı divanın bir hissəsini barmaqlarımdan qoparmağa cəhd edirəm, onlar isə bu zaman Selini soyundururlar. Selinin döşləri balacadır. Mən onun balaca döşlərinə baxıram və ürəyim ağrıyır. Elə bil onun son beş ildə çəkdiyi əzabları hiss edirəm. Axı Selin yalnız 19 yaşına çatanda anlamışdı ki, döşləri balacadır. 19 yaşınacan, sadəcə, arıq olduğunu fikirləşmişdi və ümid etmişdi ki, onlar böyüyəcəklər. O, bir ölçü böyük olan lifçik geyinirdi, amma nədir onun adı, eynilə bu lənətə gəlmiş divan kimi yapışan silikonlardan istifadə etmirdi. Mən Deyvin Selini sıxcalamağa başladığına, Zakın qızın əllərini xaça bağladığına göz qoyuram. Selin gülür.

Doğrudanmı, Zak? Axı Zak çox utancaq oğlandır. Amma indi çılpaq Selini xaça bağlayır. Doğrudanmı, hamı o zibildən içib, onun təsiri altındadır?

Meqan da sərxoşdur. O, xaça bağlanmış Selinə baxıb dua etməyə başlayır. Mənim kürəyim tamamilə bu yapışan divanın içinə batıb, başa düşürəm ki, bir azdan bu zəhrimar məni bütövlükdə udacaq. Selinin döşləri iki balaca nöqtəyə çevrilir. Onlar daha yoxdur.

Başa düşürəm ki, indicə tamamilə yox olacaqlar. Mən buna yol verə bilmərəm. Mən elə bu dəqiqə Selinə yaxınlaşıb döş gilələrindən yapışmalıyam ki, tamamilə dərinin altına girib yox olmasınlar. Nəsə mızıldayıram. Özümü ayağa qalxmağa məcbur etmək istəyirəm, lakin yalnız sürünə bilirəm. Mən Selinin ayaqlarına tərəf sürünürəm. Xloe haradadır? Xloe? Oradadır. Ceyin yanında. Onlar gülürlər. Birdən mühit hava batutu kimi elastik olmağa başlayır və məni ayağa qaldırır. Selinə yaxınlaşıram, onun döşləri, demək olar ki, tamamilə yox olublar. Məni qorxu bürüyür, Zaka demək istəyirəm ki, onların yox olmasına imkan verməsin.

– Zak, bu onun üçün çox ağır olacaq, nəsə etmək lazımdır, biz onları tutub saxlamalıyıq. Bir saniyədən sonra gec olacaq, Zak, onlar yox olacaq və qız döşsüz qalacaq...

Mən yalnız bunları deyə bilirəm. Deyv "Ey atamız" duasını oxuyur və xaç çəkir, Selin gülür, gülüşü qəhqəhəyə çevrilir, mən isə ağlamağa başlayıram. Lap uşaq kimi hönkürüb ağlayır və mızıldanıram:

– O, tək qalacaq, o, tək qalacaq. Zak, o, tək qalacaq. Döşü olmasa, onu heç kim sevməyəcək.

Sonra yadımda qalan budur ki, dərinin altına girib yox olmamaları üçün Selinin döşlərinin uclarından tutub özümə tərəf çəkirəm. Birdən Selinin üzü İsa Məsihin üzünə çevrilir. Mən İsanın döşlərindən tutmuşam? Hər şey qaralmağa başlayır.

– Ey, Eyden, özünə gəl!

Mənim üstümə nəsə soyuq bir şey tökürlər, deyəsən, punşdur. Hə, elədir, bu, giləmeyvə punşudur. Mən giləmeyvə punşu şəlaləsi altında yapışqanlı divana yıxılıram. Birdən gözlərimin qarşısında fişənglər partlamağa başlayır. Otağın içində rəngarəng, xırda, qəribə böcəklər uçuşur. Mən narkotikin təsiri altında olduğumu və heç nə edə bilməyəcəyimi dərk edirəm. İndi əsas məsələ ağılsız hərəkətlərə yol verməməkdir. Xloe haradadır? Mən divana yıxılır və üç, ya da beş metr dərinliyə yuvarlanıram. Divan uzun bir tunelə bənzəyir, tunelin sonunda görünən işıq isə çilçıraqdır. Mənim indim keçmişimlə qarışır. Sürəti ləngidilmiş kadrlarda olduğu kimi, Xloenin boşqaba tökdüyü qarğıdalı lopalarının geriyə, qutunun içinə süründüklərini görürəm. Onunla birlikdə etdiyimiz hər şey, danışdığımız bütün sözlər geriyə fırlanır. Bizim aramızdakı seks, gülüşlərimiz... Kosmosa üfürdüyümüz tüstü qayıdıb ciyərlərimizə dolur. Kadr dayanır və budur, Xloenin dişlədiyi alma. Bizim qonaq otağında dövrələmə hamıya alma atdığımız və özümüzü təqdim etdiyimiz gün. "Mənim adım Xloedir". O, almanı dişləyir və hər şey donur. Mən böyük sürətlə divanın qaranlığına yuvarlanıram, divan məni udub, mən bir də buradan çıxa bilməyəcəyəm.

Oyananda məni soyuq tər basdığını görürəm. Ətrafa göz gəzdirirəm. Artıq gecədir. Mən birinci mərtəbədə, mətbəxdəyəm. Adamlar hara yox olub?

Döşəmənin üstündə xaç, onun yanında isə alt tumanı var, yəqin ki, Selinindir. O biri otaqdan çığırtı, inilti səsləri eşidilir, qulaqlarımda hansısa psixodelik trans musiqi səslənir. Deyəsən, mən punşla yuyunmağa çalışırdım, əlimin altında olan o idi. Nə baş verir? Mənim şüurum qayıtmağa başlayırdı, amma tam yox. Qarabasmalar dalğa-dalğa gəlib qayıdırdı. Hər şey gah yenə yapışqan kimi, gah da normal olurdu. Mən narkotikin təsiri altında olduğumu dərk edirəm. Amma Xloeni tapmaq istəyirəm. İndi mən Xloeni tapacağam, biz mənim otağıma gedəcək, qapını bağlayıb çarpayının altında gizlənəcəyik ki, bu zəhrimar bizi öldürməsin. Meqan mətbəxə girir, o, yarıçılpaqdır, əynində yalnız qara krujevalı alt paltarı var. Bədəninin hər yeri qırmızı cızıqlarla örtülüb. O mənə yaxınlaşır.

– Ey, mən bir şey içmək istəyirəm.

Meqan lap ucuz küçə fahişələrinə oxşayır. Gözlərinin tuşu üzünə yayılıb, boynunda qançırlar var. O, soyuducuya yaxınlaşıb qapısını açır, oradan "Bud Light" içkisi götürür. Sonra mənə yaxınlaşır.

– Let's go upstairs, I want you to fuck me hard.[1]

Mən onu itələyirəm. O nəsə mızıldayır, kinayə ilə gülümsəyir, sonra yenə mızıldanır. Sərxoş danışığından yalnız "axmaq" sözünü anlayıram. Meqan mətbəxin içində o yan-bu yana gedir, elə bil çıxış qapısını

[1] Gedək yuxarıya, mənimlə yatmağını istəyirəm.

tapa bilmir. Mən çaşqınlıq içindəyəm. Gözlərim Xloeni axtarır.

– Xloe. Xloe haradadır?

Meqan mənə orta barmağını göstərib döşəmənin üstünə yıxılır. Masanın altına sürünüb qaqqıldamağa başlayır. Məni qorxu və həyəcan bürüyür. Içəridən nəsə məni boğur. Nəsə qəribə, iyrənc bir şey öz uzun caynaqlarını ruhuma ilişdirib, onu dartıb dərinliyə aparır. Çığırıram, ya da mənə elə gəlir.

– Xloe?!

Mətbəxdən çıxıb pilləkənlə yuxarı qalxıram. Mən ayaqyalınam, pillələr yapışqanlıdır. Lənət olsun, hər şey niyə belə yapışır? Pillələri çıxdıqca musiqi daha da güclənir, inilti səsləri daha da yaxınlaşır. Qadın səsi eşidirəm:

– Mən üçüncünü istəyirəm, mənə üçüncü üzvü ver!

Mən onun nəyi nəzərdə tutduğunu başa düşürəm. Pillələri qaça-qaça çıxaraq otağıma gedirəm. Qapını açıram. Amma mənim otağım boşdur.

– Xloe?!

Içimdə iki Eyden bir-biri ilə vuruşur. Xloenin otağına girirəm. Ora da boşdur. Içəridə heç kim yoxdur. İkinci mərtəbədə o yan-bu yana qaçır, yolumun üstünə çıxan bütün qapıları həyəcanla açıb baxıram. Kilidi bağlı olmayan bütün qapıları. Bağlı olanları isə bərkdən döyməli və çığırmalı oluram:

– Chloe?! Is anybody here?[1]

Amma burada heç kim və heç nə yoxdur. İkinci mərtəbə boşdur. Məni uzaq keçmişə aid bir hiss bürüyür. Mənim uşaqlığım... Çimərlik... Bütün gün qumdan saray düzəltmişdim. Öz qırmızı vedrəciyimlə dənizə qaçmış, su gətirmiş, onu qumla qarışdırmışdım. Qüllələri və dərin xəndəyi olan gözəl bir qəsr alınmışdı. Növbəti dəfə su üçün gedib qayıdanda görmüşdüm ki, qəsrimi tapdalayıb dağıdıblar. Hətta bunu kimin etdiyini də görməmişdim. Qisas da ala bilməyəcəkdim. Qəsrin artıq mövcud olmadığı ilə barışmalı idim...

– Xloe?!

Mən vurulduğumu dərk edirəm. Bəli, mən o amerikalı qıza vurulmuşam və nə qədər ki qurduğum qəsri dağıtmayıblar, onu axtarıb tapmalıyam. Var gücümlə qaçıram. Üçüncü mərtəbəyə, həmin "Terra-incognita'ya[2] qalxıram. Gördüyüm ilk şey Tobinin o yan-bu yana dartınan yekə yanbızıdır. Onun altındakı asiyalı görünüşü olan bir qızdır. Bura qaranlıq, səsli-küylü və tüstülüdür. Marixuananın, vape-in qoxusu, psixodelik musiqi, iniltilər, gülüşlər, Meqanın ritual rəqsi... Mən Allaha yox, iblisə inanmağa başlayıram. Selin döşəmənin üstündə uzanıb, Zak onunla arxadan əlaqədə olmağa çalışır. Mən onların bədənlərinin üstündən adlayıram, əllərimlə çılpaq çiyinlərimdən

[1] Xloe?! Burada kimsə varmı?

[2] "Naməlum torpaq" (lat.)

tutmuşam ki, bu bataqlıq məni özünə çəkə bilməsin. Kimsə məni özünə tərəf çəkib dodaqlarımdan öpməyə başlayır. Bu, Karolinadır – texaslı sarışın qız. O, riyaziyyatçıdır. Biz hələ Karolina ilə bir kəlmə danışmağa da macal tapmamışıq, amma indi o mənim üzümü yalayır. Mən onu itələyib Xloeni axtarıram.

– Xloe?! Xloe?!

Kimsə mənim qolumdan yapışır, onun Xloe olduğuna ümid edərək çevrilirəm, amma bu, Zakdır. O deyir:

- Ey, onu istəyirsən?

– No thanks, I'm good.[1]

Tərli, yapışqan, çılpaq bədənlərin arasından keçib gedirəm. Kiçik Babil şəhəri bütün "gözəlliyi" ilə qarşımdadır. Bu bir səxoş orgiyadır. Elə bil bütün bu müddət ərzində ünsiyyətdə olduğum uşaqların hamısı vəhşiləşib. Meqan köynəyimdən tutub dartır, onun əlindən çıxmağa nail oluram. Kimsə tüstünü düz üzümə üfürür. Tüstü dağılanda çılpaq bir qızın kürəyini görürəm, o hansısa oğlanın üstündə oturub. Bu, Xloedir! İlahi, bu mənim Xloemdir! Başım gicəllənməyə başlayır.

– Xloe, sən nə edirsən?

Onun başından yapışıram, işıq üzünə düşür – yox, bu, Xloe deyil.

Büdrəyib döşəmənin üstünə yıxılıram. Əllərim və ayaqlarım üstündə dayanır, imək̈ləyə-imək̈ləyə buradan

[1] Yox, sağ ol, mən yaxşıyam.

çıxmağa çalışıram. Qadın və kişi əlləri cəngəllikdəki sarmaşıqlar kimi mənə tərəf uzanır. Otağın qırağında işıq görürəm, bu, mətbəxə aparan pilləkənin işığıdır. Mən özümü ora çatdırmalıyam. Son qüvvəmi toplayıb cəhd edirəm, pillələri enib mətbəxə yıxılıram. Mənə təmiz hava lazımdır. Xloe ilə birlikdə ulduzlara baxdığımız arxa həyət. Mən ora getməliyəm. Şüşə qapını açıb bağçaya çıxıram. Xloe bağçada oturub öz mentol siqaretini çəkir.

Xloe mənə əvvəl təəccüblə, sonra ikrahla, yavaş-yavaş məyusluğa çevrilən bir qorxu ilə baxır. Mən də öz üst-başıma baxıram. Əynimdə cırılmış, üstünə şirin punş tökülmüş yaş mayka var. Qollarım cızıq-cızıqdır və məndən marixuana iyi gəlir. Xloenin soyuq baxışları məni gerçəkliyə qaytarır. Məntiq işləməyə başlayır və hər şey aydınlaşır. Xloe bağçada ilişib qalıb, çünki kimsə qapını çırpıb. Mən isə fikirləşirdim ki, aramızda olanlardan sonra... Mən düşünə bilmişdim ki, Xloe orada, onlarla ola bilər? O mənə istehza ilə, nifrətlə baxır. Sonra deyir:

– So you are having a good time.[1]

– No, Chloe! I was just looking for you![2]

O, siqaretinə qullab vurub şübhə və təəccüblə mənə baxır.

– Pff, why is that?[3]

---

[1] Deməli, vaxtını yaxşı keçirirsən.

[2] Yox, Xloe! Mən, sadəcə, səni axtarırdım!

[3] Nə üçün?

Xloe yerindən qalxıb sürətlə yanımdan keçir və getmək istəyir. Mən onun əlindən tuturam:

– Xloe, burada nəsə baş verir. Burada, bu hosteldə. Burada heç nə göründüyü kimi deyil. Məhz nə olduğunu deyə bilmərəm, amma nəsə həqiqi deyil.

– Eyden, burada heç nə həqiqi deyil. Sən də həqiqi deyilsən, Eyden, – o mənim adımı vurğulayır. – So what s your problem,[1] Eyden? – daha bir vurğulama. – Just relax and keep playing this fucking game,[2] Eyden. Həm də məni burada bağlı saxlamaq lazım deyildi, onlara qoşulmaq istəyirsənsə, you're free to do so.[3]

Mən vəziyyətin nə qədər xoşagəlməz olduğunu anlamağa başlayıram. Axı bu necə olub? Bütün bu müddət ərzində Xloe həyətdə, bağlı qapı arxasında qalıb və məni gözləyib. Mən onu hosteldə axtardığım müddətdə o burada təkcə oturub, orgiyanın inilti səslərinə qulaq asıb. Mən isə bədənimdəki cızıq və qançırlarla, punşa bulaşmış halda onun yanına gəlirəm. Mən iki dəfə səhvə yol vermişdim. Əgər onu qəsdən burada saxlamışdımsa, deməli, alçağam; əgər, həqiqətən, onun harada olduğunu bilməmişdimsə, amma bütün bu müddət ərzində içəridə olmuşdumsa, deməli, pozğun adamam. Xloe mənim

---

[1] Yaxşı, sənin problemin nədir, Eyden?

[2] Sadəcə, rahat ol və bu lənətə gəlmiş oyunu oynamağa davam et, Eyden.

[3] Bunu etməkdə azadsan.

alçaq, yoxsa pozğun olduğumu ayırd edənə qədər mən yavaş-yavaş, lakin qəti surətdə pozğun alçağa çevrilirəm. Onun gözləri yaşla dolur və pıçıltı ilə xahiş edir:

– Burax əlimi, dude[1]. Xahiş edirəm.

– Dude?

Mən Xloenin əlini buraxıram, o, bağçanın qapısını çırparaq yox olur. Mənim dünyam addım-addım məndən uzaqlaşır, oksigeni, hərarəti, içimdəki canlı olan hər şeyi özü ilə aparır. O mənim həyatımdan uzun müddətə çıxıb gedir, lakin mən bunu hələlik bilmirəm. O anda mənim üçün çox çətin idi, amma ertəsi günün ondan da pis olacağını təsəvvür belə edə bilməzdim.

[1] Dost

Xaosun başlanğıcı

İstənilən qapalı sistemdə entropiya tədricən artır və ən yüksək həddə çatır. Entropiya xaosun sistemə keçməsi prosesini səciyyələndirir. Entropiya dağıdıcı başlanğıcın təcəssümüdür.
Termodinamikanın II qanunu
Lap aforizm kimi səslənir, elə deyilmi?



Mən səhər tezdən oyananda arxa həyətin qazonunun üstündə uzandığımı görürəm. Məni Deyv oyadır. Yarıyuxulu halda gözlərimi açıram.

– Eyden, oyan!

Deyv məni, demək olar ki, zibil torbası kimi evdən kənara çıxarır. Mən dünən nə baş verdiyini və Xloenin harada olduğunu anlamağa çalışanadək artıq maşında oturduğumu görürəm. Çantam yanımda, oturacağın üstündədir, bütün əşyalarım onun içinə yığılıb. Maşın hosteldən uzaqlaşmağa başlayır. Mən bərk yorğunluq hiss edir və yuxuya gedirəm. Hansısa yük maşınının siqnal səsinə oyanıram.

– Stop, stop! Where are we going?[1]

– Good morning, Sir. Congratulations![2] Siz qeyriadi bir sertifikat almısınız.

Mən güzgüdə ona baxıb soruşuram:

[1] Saxlayın! Biz hara gedirik?
[2] Sabahınız xeyir, ser. Təbrik edirəm!

– Hansı sertifikat?

Mən çiyin çantamın ciblərini axtarıram. Həqiqətən, möhürü və hansısa tövsiyələri olan bir diplom tapıram. Mətni, imzaları var. Standart sertifikatdır, sadəcə, gözəl tərtib olunub.

– Dayanın, mən indi gedə bilmərəm. Siz məni hara aparırsınız? Mən Xloe ilə danışmalıyam.

– Ser, nə olub? Hər şey qaydasındadır?

– Yox, yox! Maşını saxlayın! Elə bu dəqiqə! Maşını saxlayın, yoxsa polisə zəng edəcəyəm.

Qoca mənə baxıb deyir:

– Ser, orada heç kim yoxdur. Hosteldə heç kim yoxdur. – Mənim yenə də heç nə anlamadığımı görüb davam edir: – Ser, biz artıq hamını aparmışıq, siz axırıncısınız. Siz çox yatdınız, özünüzə gəlmirdiniz.

– Biz hara gedirik?

Sürücü gülümsəyib təntənəli səslə bildirir:

– Ser, biz evə gedirik!

Əla! Yaxşı ki, hər şey bitdi. İndi Xloe ilə rahat danışa bilərik. Dayan! Necə danışa bilərik, axı məndə heç onun telefon nömrəsi də yoxdur!

Artıq uzaqdan Manhettenin üfüq xətti görünür. Ətrafdakı yaşıllıq getdikcə boz rəngli və şüşəli mənzərələrlə əvəzlənir.

Mən dəlicəsinə vurulmuşam. Görəsən, Xloe indi haradadır? İlk işim telefon nömrəsini tapmaq və ona zəng etmək olmalıdır. Bəlkə, o hələ də orada, hosteldədir?

– Xloe də gedib?

– Ser, hosteldə heç bir Xloe yoxdur. Heç vaxt da olmayıb.

Sürücü maşının güzgüsündə mənə baxıb qəribə şəkildə gülümsəyir, elə bil burada hələ mənə çatmayan nəsə gizli bir məna var.

– Nə? Necə yəni heç vaxt olmayıb?

– Ser, mənim nə demək istədiyimi başa düşürsünüz.

– Yox, başa düşmürəm. Mən heç nə başa düşmürəm.

Maşın Uilyamsburqda yaşadığım evə yaxınlaşır.

– Bu da sizin eviniz.

– Mister, mənə izah edin görüm nəyi nəzərdə tuturdunuz? Xloe haradadır? Axı siz də onu görmüsünüz. Qısa saçlı qızdır. Axı siz bu günlərdə onu mənimlə birlikdə görmüsünüz.

– Çox təəssüf edirəm, ser, amma məndə onun haqqında heç bir məlumat yoxdur. Mən, sadəcə, sürücüyəm. Budur, bu nömrəyə zəng edin, bu adam layihənin meneceridir. Mən sizə başqa heç nə ilə kömək edə bilmərəm.

O, maşından düşür, mənə qapını açmağa kömək edir və bir vizit kartı uzadır. Tez maşından düşüb vizit kartını qamarlayıram. Orada telefon nömrəsi qeyd olunub, amma qəribə nömrədir, sanki yerli deyil – 9-876-54-32. Vizit kartında "Mr. Onezero" adı qeyd olunub. Başqa heç nə yazılmayıb. Bu, yəqin ki,

nəsə bir hiylədir. Hansısa geri hesablamadır. Mən dönüb baxmağa macal tapmamış maşın yola düşür və tini burulur.

Ağır çantanı səkinin üstündən götürüb evə tərəf gedirəm. Uilyamsburq... Yaşadığım ev... Qapını açıb içəri girirəm. Hər şey qoyub getdiyim kimidir. Kompüter... Kedlər, disklər, Çin yeməyinin boş, içindən çubuqları görünən kağız qutusu... Pəncərə, pərdələr, mikrofonun şnur və məftilləri... Hər şey bir neçə həftə bundan əvvəl olduğu yerdədir. Görəsən, internet varmı?

Kompüteri işə salıb "Google"da G hərfini yığıram. "Google" "Google"ni tapır. Hər şey qaydasındadır. "Google"nin ağlı başındadır. O özünü dərk edir. Bu dəqiqə. O sayt necə adlanırdı? Aha, axı burada vizit kartı var. Domen adını yığıram. Bu saniyədən başlayaraq başımda tam bir qarışıqlıq yaranır. Adətən, müxtəlif ünvanların satıldığı "GoDaddy" saytı açılır və mənə bu domeni ayda 7 dollara almağı təklif edir. Öz-özümə pıçıldayıram: "Necə yəni? Bu nə deməkdir?"

Daha doğrusu: "What? What the Fuck?"[1]

Mən yeni mədəniyyətə o qədər tez uyğunlaşıram ki, özüm də qorxuram. Amma necə ola bilər ki, sayt tapılmasın? "Google", "Google", əziz "Google", mənə kömək et!

[1] Nə? Lənət olsun, nə?

"Art Chaos Hostel NY Number"

"Babylon Town Hostel Number"

"Art and Chaos Hostel USA, New York"

Vəssalam. Sizin sorğunuza uyğun heç nə tapılmamışdır, aşağıda isə belə bir cümlə: "Did you mean..."[1] – fransız dilində hansısa bir səhvləmə. "Google" tərcümə edir: "Hostel şəbəkəsi, 2011-ci ilin qrupu" Hansısa müsahibələr, "YouTube"da hansısa bir qocanın videosu çıxır. Bəs eləcə "Art & Chaos hostel" yazsam, necə olar? Axtarışda "artchaoshostel.fr" çıxır. Sayta daxil oluram. Ekranda hansısa fleş interfeys görünür və yenə sual çıxır: "What is Your Name?"[2] Yazıram. Ekranda ağ hərflərlə yazılmış "Error" görünür. "Üzr istəyirik, sizin ölkə iştirak üçün uyğun gəlmir" Yalnız bu zaman fikir verirəm ki, bu, fransız domenidir. Fransa? Deməli, bu, hostellər şəbəkəsidir?

– Ey, Eyden!

Maylz qapını döyür. Gedib açıram.

– Heeyyy, my man, holy shit![3] Vay, sənin salamat yerin yoxdur ki! Hər yerin qançırdır! Ha-ha-ha! Bet you had a good time![4] – O, çiynimi şappıldadır. – Lənət olsun, Eyden, səndən gələn iy mənim itimin iyinə oxşayır. Yaxşı, danış görək, hostel xoşuna gəldimi?

---

[1] Bəlkə, sizin nəzərdə tutduğunuz... (fr.)

[2] Adınız nədir?

[3] Heeyy, mənim adamım, müqəddəs zibil!

[4] Mərc gələrəm ki, vaxtını yaxşı keçirmisən!

Maylz qonaq otağına keçir, kresloda oturub ürəkdən gülümsəyir. Onun ağzı böyükdür, ağappaq və parlaq dişləri var.

– Nədir, dilin tutulub? Ouu Fuck. They fucked your ass, didn't they?[1]

– Yoox... Nə danışırsan! Heç nə olmayıb. Hər şey qaydasındadır, Maylz. Sən özün necəsən?

– Mən? Məndə same old shit[2]. Yaxşısı budur, sən danış. Nə vaxt qayıtmısan?

– Elə indicə. Bir-iki dəqiqə bundan əvvəl.

– Hə, experience[3] necə idi?

Başa düşürəm ki, həqiqəti danışsam da, Maylz heç nə anlamayacaq. Ona görə də qısa bir məlumat verirəm:

– Orada çoxlu cürbəcür uşaqlar vardı, biz tanış olurduq, söhbət edirdik. Orada bir qız vardı, Xloe. Bizim aramızda...

– Oo, görürəm, dost! Deyəsən, sənin o Xloen çox hərarətli şeydir! Gör o sənin başına nə oyun açıb!

– Yox, bunu Xloe etməyib. Bu başqa şeydir... Biz onunla bir az dalaşmışıq. Maylz, mən onunla danışmalıyam, amma hostelin saytını tapa bilmirəm.

– Eyden, cəhənnəm olsun sayt. Yaxşısı budur, danış görüm sən orada kim idin?

Mən onun sualını anlamıram.

---

[1] Lənət olsun. Onlar sənə nəsə ediblər?

[2] Köhnə zibildir.

[3] Təcrübə

– Mən orada kim idim? I was just happy man[1], deyəsən, həqiqətən, vurulmuşam. Xloe. Mən onu tapmalıyam.

– O halda ona zəng et! O sənə öz telefon nömrəsini verib?

– Yox. Mən onu "Facebook"da tapmağa çalışıram. O deyirdi ki, fotoqrafdır, Manhettendə özünün studiyası var. Mən hostelin nömrəsini tapıb Deyvlə danışmaq istəyirdim. O, hosteldə, bir növ, işlər müdiri idi. Başa düşürsən, hər şey tez bitdi, mən fikirləşmirdim ki, bu belə qəfildən baş verəcək. Biz Xloe ilə mübahisə etdik, mən onunla vidalaşa bilmədim.

– Lənət şeytana, dostum, sən, heç olmasa, öz əsl adını ona demisənmi?

Mən yenə sualı başa düşmürəm:

– Əsl adımı? Qəribədir, o da məndən əsl adımı soruşurdu. Uşaqlar, nədir, yoxsa siz "Eyden" deyə bilmirsiniz?

– Deməli, sən ona demisən ki, əsl adın Eydendir? Harada yaşadığını da demisən? Onda narahat olma, qaqaş, hər şey cool[2], onun özü səni tapacaq.

– Maylz, hansı mənada əsl adım? Bəlkə, bu hansısa söz oyunudur? Mən ingilis dilini bildiyimi düşünürdüm.

Maylz gözlərini bərəldib üzümə baxır. Onun gözləri hər saniyə bir az da böyüyür, belə davam etsə, Maylzın başı onları saxlamaqda çətinlik çəkəcək.

---

[1] Mən, sadəcə, xoşbəxt bir insan idim.

[2] Yaxşı

– Eyden, sən hosteldə kim idin? Hansı rolu oynayırdın? Aydındır ki, Xloe fotoqrafı oynayırdı. Bəs sən kimi oynayırdın?

– Oynayırdım? Lənət şeytana, bu nə deməkdir? Mən heç kimi oynamırdım! Yoxsa kimsə oynayırmış? Ümumiyyətlə, bu nə oyundur?

Maylz başını bulayıb deyir:

– Oh Shit.[1] Eyden, yoxsa sən ilk dəqiqədən onlara həqiqəti demisən? Məgər sən hara düşdüyünü bilmirdin? Lənət şeytana, Eyden!

– Mən... Məndə təkcə bu vizit kartı vardı, sənin cibindən düşmüşdü, mən, sadəcə... Mən ora təsadüfən düşmüşdüm...

– Və Xloeyə vuruldun?

– Təkcə mən ona yox, ikimiz də bir-birimizə vurulduq. Bizim aramızda nəsə qeyri-adi bir şey vardı. Dəqiq bilirəm. Mən bunu sözlə ifadə edə bilmirəm.

Maylz yerindən qalxıb hər iki əli ilə mənim çiyinlərimdən tutur və deyir:

– Yaxşısı budur, otur, Eyden, ok? Just sit down.[2] Now shut up and listen to me.[3] Qardaş, sən zibilə düşmüsən, ok? Eşidirsən? Sən lap zibilin içindəsən! Sənin qeyri-adi adlandırdığın şey də cəfəngiyyatdır, qaqaş. Sən böyük bir nəcis gölməçəsinin içindəsən! Həmin o Xloe isə heç vaxt orada olmayıb. O, ümumiyyətlə,

[1] Lənət olsun!

[2] Sadəcə, otur.

[3] İndi isə səsini kəs və məni dinlə.

mövcud deyil, anlayırsan? Mənim nə dediyimi basa düşürsən?

– Maylz, mən sənin dediklərinin bircə kəlməsini də anlamıram. Yaxşısı budur, mənə açıq de. Yoxsa məni aldadıblar?

– Yox, qardaş, səni aldatmayıblar. Sən özün özünü aldatmısan. Let me tell you about this hostel, dude.[1] Həmin hostel bir qrup insanın könüllü olaraq iştirak etdiyi xüsusi bir eksperimentdir. Orada hər cür adam ola bilər – aktyorlar, sənətkarlar, milyonerlər, uğursuzlar... Layihənin şərtlərinə görə, onlar hostelə düşən kimi özləri üçün oynayacaqları rolu seçirlər. Kimsə sahibkar rolunu seçir, kimsə rəqqasə... – bu yerdə yadıma Meqan düşür. – Kimsə proqramçını oynayır... – ağlımda Zak, Zakariya peyda olur. – Başqa biri özünü narkoman kimi göstərir. Sənin ixtiyarın var ki, istədiyin adama çevriləsən və həmin rolu hosteldə oynayasan. Maskarad kimi, anlayırsan? Hər kəsin öz maskası var. Amma bu, maskaradın təkmilləşdirilmiş variantıdır, burada özün haqda ağlına gələni danışa bilərsən. Bu, Fransada başlayıb, bir teatr truppasında. Aktyorlar icarəyə yer götürüb birlikdə yaşayır və günün 24 saatında öz rollarını oynayırdılar. Kimsə Hamlet rolunu təkmilləşdirmək istəyirdisə, burada onun üçün Hamlet kimi yaşamaq, Hamlet kimi yemək, qarnını Hamlet kimi boşaltmaq, hətta

[1] Dostum, icazə ver, sənə həmin hostel haqqında danışım.

qadınla Hamlet kimi yatmaq imkanı yaranmışdı. Qonşu otaqda Cülyetta, dəhlizin axırında isə Meri Poppins yaşayırdı. Anlayırsan? Hamı öz rolunu oynayırdı. Axırı onunla qurtardı ki, Hamlet Cülyetta ilə yatdığı zaman Romeo onlara baxıb masturbasiya ilə məşğul olurdu. Qalmaqal yarandı, truppanı dağıtdılar, teatrı isə bağlamalı oldular. Ictimaiyyət bunu dünya ədəbiyyatına hörmətsizlik hesab etmişdi. O vaxt qoca bir filosofun böyük səs-küy yaradan bir məqaləsi çıxdı. O sual verirdi ki, axı nə səbəbə insanlar yalan danışmamalıdır. O iddia edirdi ki, yalan danışmaq tamamilə təbii bir şeydir və hər bir insanın ayrılmaz hüququdur. Nə üçün valideynlərimiz kim olduğumuzu bizim boynumuza qoymalıdırlar? Məgər bunu insanın özü həll etməli deyilmi? O zaman filosof təklif etdi ki, yanaşma dəyişilsin, insanlar özləri üçün ad seçə bılsinlər və həyat tarixçələrini uydursunlar.

– Dayan, Maylz, sən demək istəyirsən ki, hosteldəki adamların hamısı aktyorlar idi və sadəcə, rol oynayırdı?

– Tam aktyor yox. Əlbəttə, onlardan hansısa biri peşəkar aktyor da ola bilərdi, amma yəqin ki, bunu bir məşq, öz şəxsiyyətini möhkəmləndirmək, özünü başqa insanın rolunda sınamaq imkanı kimi qəbul edənlər də var idi. Bu, açıq eksperimentdir. Hər kəs iştirak edə bilər. Mənim bildiyimə görə, yeganə şərt odur ki, onlar maraqlı personajları seçməyə çalışırlar.

Sən demişdin ki, musiqiçisən? Yəqin, onların xoşuna gəlmisən. Görünür, onlar fikirləşiblər ki, sən yaradıcı adamsan, özün üçün maraqlı rol uyduracaqsan, sən isə, hamı həyasızcasına sənin üzünə yalan dediyi halda, durub onlara həqiqəti danışmağa başlamısan.

– Deməli, Xloe... O, Xloe deyil?

– Hə, qardaş, elədir, çox təəssüf. İndi hər şeyi başa düşürsən? Lənət olsun, sən, üstəlik, o aktrisaya vurulmusan da.

– Yox, yox! Sən cəfəngiyyat danışırsan, Maylz, belə bir şey mümkün deyil!

– Axı mən sənə dedim ki, zibilə düşmüsən, dostum, lap zibilin içindəsən. Sənin ruhunu müalicə etmək lazımdır, dayan gedim sənə viski gətirim. Səni lənətə gələsən, Eyden. Bu qədər vaxtda illüziya içində necə yaşamısan? Bu lap uğursuzluqdur!

Maylz otaqdan çıxır. Mənim içimdə hələ də axmaq və sadəlövh bir ümid var. Bəlkə, Maylz, sadəcə, təlxəklik edir? Bəlkə, bu bir zarafatdır? Axı Xloe ilə mən... Bizim aramızda yaşananlar oyun ola bilməz, yalan ola bilməz. Onun əfsanələrinin, katolik uşaqlığının, Kaliforniyadakı həyatının, bizim saatlarla davam edən söhbətlərimizin, fikir və xatirə burulğanlarımızın yalan olması mümkün deyil. Belə bir şey mümkün deyil, belə bir şey ola bilməz! Mən buna inanmaq istəmirəm. Mən o qədər axmaq ola bilməzdim!

Maylz geri qayıdıb əlindəki butulkanı mənə uzadır:

– Sən sakitləşməlisən. Bu zibil sənə kömək edər.

Viskini alıb masanın üstünə qoyuram. Ümidsiz halda Maylza baxır, bunun baş verdiyi anı, məni doladıqları zamanı müəyyən etməyə çalışıram. Bilmək istəyirəm ki, məhz nəyi gözdən qaçırıb belə bir vəziyyətə düşmüşəm.

– Maylz, sən həmin vizit kartını haradan almısan?

– Mənim vizit kartımı?

– Sənin yox, hostelin vizit kartını.

– Onu mənə Bruklin eksperimental teatrından olan bir tanışım vermişdi. Biz birlikdə hip-hop pyes təşkil etmək istəyirdik. O mənə ilham almaq üçün həmin yeri məsləhət görmüşdü. Nədir ki?

– Heç nə. Sadəcə, həmin kart sən mənim pəncərəmdən çıxanda düşmüşdü, mən də götürmüşdüm. O sənin gündəyməzindən düşmüşdü.

Maylz viskidən bir qurtum içib gülür. Mənim sözlərim onu əyləndirir.

– Lənətə gələsən, Eyden, məgər sənə deməyiblər ki, Maylzın gündəyməzindən yaxşı bir şey gözləmək olmaz? Mən elə bilirdim ki, sadəcə, zibilin içindəsən, indi məlum olur ki, sən mənim nəcisimin içindəsən, qaqaş. Mənim murdar nəcisimin. Bəs niyə dərhal məndən soruşmadın?

– Mən heç fikirləşmədim ki, soruşmalı nəsə var. Hər şey öz-özünə baş verdi. Sayta girdim, bir-iki suala cavab verdim, bir həftədən sonra da həmin adam mənim dalımca gəldi, sən isə... Lənət olsun, Maylz, axı məni ora elə sənin özün göndərdin!

– Nə olsun? Mən haradan biləydim ki, sənin heç nədən xəbərin yoxdur? Eyden, yaxşı olar ki, sən hər şeyi olduğu kimi qəbul edəsən. O, maraqlı bir təcrübə idi və artıq başa çatıb. Əvəzində isə bəxtin yaxşıca gətirib, sən hətta aşiq olmusan. Yəni aranızda nəsə oldu, ya necə?

– Ya necə, – bu gün ilk dəfə yüngülcə gülümsəyirəm. – Demək olar ki, iki gün otaqdan çıxmadıq. Amma dəqiq xatırlamıram. Elə bil hosteldə vaxt başqa cür keçir. Axırıncı gün isə mənə nəsə bir zəhrimar içirtdilər, deyəsən, ayahuaska idi. Indi məlum olur ki, bütün bunlar həm də bir tamaşa imiş... Lənət olsun... Bu lap gülməlidir. Deməli, ona görə axırıncı gün orgiya idi.

– Holy shit! Orgiya? Əcəbdir! Eyden, bəs necə oldu?

– Heç necə. Mən şokda idim! Dünən dost olan cavanlar bu gün bir-biri ilə əlaqədə idilər. Fikirləşirdim ki, onlar sabah bir-birilərinin üzünə necə baxacaqlar? Sən demə, onlar heç bunu etməyə də hazırlaşmırdılar. Sadəcə, hosteldəki son günlərindən istifadə edirdilər. Heç bir ad, heç bir telefon nömrəsi, heç bir ünvan məlum deyil, nə istəsən, edə bilərsən! Sonuncu dəfə... Mən bunu yalnız indi anlamağa başlayıram.

– Dostum, elə hostelin mahiyyəti də budur, nə istəyirsən, elə, kim olmaq istəyirsən, ol. Adamlar da məhz bu səbəbdən ora düşmək, bunu hiss etmək istəyirlər. Yaxşısı budur, bunu qəbul et, qəbul et və əl çək,

gəl dünyamıza qayıdaq. Mən yaxşı bir menecerlə əlaqə yaratmışam, onun burada, Buşvikdə studiyası var. Gəl sənin musiqini ona göstərək.

Maylz elə hey danışırdı. Onun nəzərində hostel maraqlı bir sınaq idi. Mənim üçün isə şok vəziyyət, hər şeyin sonu demək idi. Cəmi bir həftə bundan əvvəl mən bunu dayandıra bilərdim. Əgər mən orada hər şeyi öyrənsəydim, əgər anlaya bilsəydim, əgər Xloe kiçik bir işarə vursaydı ki, bu, oyundur, onda mən... Onda, bəlkə də, mən ona bu cür vurulmazdım. Belə çıxır ki, mən onun yalanına vurulmuşam. Onun oyununa vurulmuşam. İlahi, mən ona neçə dəfə dedim ki, bunun həqiqət olduğuna, aramızda belə bir şeyin, doğrudan da, baş verdiyinə inana bilmirəm. Xloe isə yalnız üzümə gülümsəməklə kifayətlənirdi. Gülümsəyir, həm də mənə gülürdü? Yox. Axı sevişdiyimiz zaman onun mənə necə baxdığını görürdüm. Bu, oyun deyildi. Oyun ola bilməzdi.

– Maylz, o, tam oyun deyildi. Bəlkə də, qalanları üçün oyun idi, amma mənimlə Xloe üçün yox. Bu, oyun deyildi, bilirəm, mən onun gözlərini görürdüm, onların yaşla necə dolduğunu görürdüm.

– Eyden, qardaşım, bunu demək mənim üçün çətindir, amma, bəlkə də, o qız, sadəcə, yaxşı aktrisadır. Elələri üçün ağlamaq çox asandır. Eləsi orqazmı da oynayar, səni sevdiyini, sənin üçün dəli-divanə olduğunu da deyər. Hamısı yalandır, Eyden, bunu başa düş. Belə edək, get duş qəbul elə, bir şey ye, özünə gəl.

Axşam isə mən sənin dalınca gəlim, gedək Buşvikə. Mənim dostlarım ora yığışır, əyləncəli olur. Fikrin dağılar. Həm də bax burnunu sallama. Bu, şok vəziyyətdir, amma keçib gedəcək.

Mən Maylzı qucaqlayıb uşaq kimi ağlamaq istəyirəm. Hə, o, haqlıdır, mən duş qəbul etməliyəm. Yaxşı-yaxşı çimməli, bədənimi Xloenin son atomlarından təmizləməliyəm.

Xloesiz dörd gün

"Eyden, burada heç nə həqiqi deyil. Sən də həqiqi deyilsən, Eyden. So what's your problem, Eyden? Just relax and play this fucking game".
Xloe rolunu oynayan aktrisanın dilindən

İstənilən vəziyyətdə mən həmin hosteli həyatımda baş vermiş ən qəribə və qeyri-adi hadisə, əyləncəli əhvalat, ya da özümün ən böyük uğursuzluğum hesab edərdim – əgər həmin yalanın gedişində Xloeyə vurulmasaydım və onu getdikcə daha çox arzulamasaydım...

Bütün paradoks məhz bunda idi. Xloe mənim yuxuma girirdi, mən bütün səhər, günorta, axşam yeməklərində onu xatırlayır, onun siqaretlərinin qoxusunu axtarırdım. Mən onun geyiminin, saç düzümünün hər detalını xatırlayırdım. Gerçəklik düzəliş edilməmiş fotoşəkillər kimidir – boz, solğun. Xatirələr isə "Instagram"ın minlərlə filtri kimi, bəzən sənin yaddaşında keçmişin ideal mənzərələrini canlandırır.

Mən sevişmələrimizi, öpüşlərimizi, yuxusuz gecələrimizi, söhbətlərimizi, onun bədəninin qoxusunu xatırlayıram. Bəs sən kimsən, Xloe? Sən əslində kimsən? Cəmi dörd gün keçib, amma mən artıq onsuz yaşaya bilmirəm. Axı biz bir-birimizə sözümüzü deyib qurtarmadıq. Əgər biz vidalaşsaydıq, əgər

o bunun oyun olduğunu mənə desəydi, bəlkə də... Əgər... Hər şeydən çox qorxduğum bütün bunların Xloe üçün yalnız oyun olması idi. O, peşəkar fahişə kimi, bir gözü saatda ola-ola inildəyirdi. Doğrudanmı, riyakarlıq edirdi? Bütün bunlar mənim lənətə gəlmiş "karma"mdan irəli gəlir – etdiklərimin cəzasını çəkirəm. Mən çox ürək sındırmışdım, görünür, indi mənim növbəm idi.

Nyu-Yorka nə üçün gəldiyimi yadıma salıram. Bura məni riyakarlığa məcbur edən həyatdan qaçmaq üçün gəlmişdim. Mən saxtakarlıqdan, tamaşa göstərməkdən qaçmış, gəlib yalanın tam ortasına düşmüşdüm. Art və Xaos – deməli, hostelin adının mənası bu imiş. Yalan. Bizim həyatımızı çevirdiyi sənət və xaosun özü kimi bir yalan.

Pərəstişkarlarımın sevgisini səmimi hesab etmədiyim halda, özüm bir aktrisaya vurulmuşdum. Kimdir o? Onun adı nə idi? Cennifer, Delayla, Amber, Lili? O, əslində kim idi? Fikirləşirsiniz ki, mən nə üçün, sadəcə olaraq, onu tapmağa cəhd etmədim? Mən son üç gün ərzində onu axtardım. Həmin hostellərlə məşğul olan təşkilatın telefon nömrəsini tapdım, Avropaya zəng vurdum, xahiş etdim ki, mənə onun haqqındakı məlumatları versinlər. Onlarda, heç olmasa, qızın e-maili qalmalı idi. Təbii ki, mənə rədd cavabı verdilər. Əvvəl mədəni şəkildə imtina etdilər, sonra başa saldılar ki, bu, məxfi məlumatdır, onlar şəxsi məlumatları verə bilməzlər, çünki müqavilədə

hər şeyin anonim qalacağı açıq şəkildə qeyd olunub və onlar qanunla problemlərinin yaranmasını istəmirlər. Mən Xloe ilə bağlı əhvalatı onlara danışdım, necə axmaq bir vəziyyətə düşdüyümü başa salmağa çalışdım, xahiş etdim ki, kiçik bir istisna etsinlər, çünki mənim Xloeyə qarşı həqiqi hisslərim var. Etiraf etdim ki, qaydaları bilmirdim və həmişə yalnız həqiqəti danışmışam. Onda dedilər ki, onlar bütün məlumatları siliblər, hər yeni layihədə baza yenilənir, əvvəlki iştirakçılara aid məlumatları isə saxlamırlar. İnsanlar hosteldə elə davranışlara yol verirlər ki, o barədə danışılmasını və əsl adlarının haradasa çəkilməsini istəmirlər. Amma kiminsə həqiqi duyğuları yaranırsa, bir-birinə əlaqə nömrələri verməyi və gerçək həyatda görüşməyi onlara heç kim qadağan etmir.

– Axı mən sizə izah etdim ki, onun həqiqi olmadığını bilsəydim, hər şeyi özündən soruşardım.

– Ser, hələ məlum deyil ki, o sizə nömrəni düz verəcəkdi, ya yox. Başa düşün, onun ixtiyarı var ki, sizə həmin məlumatı verməsin.

Onlar, həmişəki kimi, haqlı idi. Mən bunu anlayırdım. Bu, vəkillərə etibar edilən sirr kimidir. Ora giriş qadağandır. Çox güman ki, onlar qıza aid bütün məlumatları siliblər. Mən 10 milyondan çox əhalisi olan böyük bir şəhərdə idim və heç vaxt mövcud olmayan bir qızı tapmaq istəyirdim.

"Ok, "Google", qəribə saç düzümü, parıltılı bozumtul-mavi gözləri olan, nikotinsiz mentol siqaretləri çəkən, güləndə gözlərini yuman qızı mənim üçün tap".

"Ok, "Google", o qızın atomları siqaretin tüstüsü ilə birlikdə bizim planetimizi axırıncı dəfə nə zaman tərk edib?"

"Ok, "Google", mən nə üçün bu qədər axmağam?"

"Ok, "Google", mənim Xloemi tap!"

"Ok, "Google", bütün bunlar cəfəngiyyatdır, elə deyilmi?"

"Ok, "Google", dindarlıqdan sonrakı boşluq nə deməkdir?"

Hər dəfə "Enter" düyməsini basanda, həqiqətən, inanırdım ki, indicə ekranda onun fotoşəkli peyda olacaq. Onun üzü... Mən yenə onun üzünü görəcəyəm.

"YouTube"a daxil olub uzun illər bundan əvvəl bütün bunları təşkil edən adamın müsahibəsinə baxmağa başlayıram. Jerar Monteskyö və onun məlahətli xanımı Nadin.

Gənc jurnalist növbəti sualını verir:

– Beləliklə, siz yalana əl ataraq özünüzü Nadinə bəyəndirdiniz. Bəs sonra nə etdiniz? Nadin sizin haqqınızda bütün həqiqəti öyrəndikdən sonra nə hiss etdi?

– Oo, mənim kolleksiyaçı olmadığımı öyrənəndə Nadin üçün çox çətin oldu, amma yəhudi olduğumu biləndə vəziyyət ikiqat ağırlaşdı. O, yəhudilərə nifrət edirdi, amma onlardan birinə dəlicəsinə aşiq olmuşdu. O vaxtlar Avropa iki cəbhəyə bölünmüşdü: yəhudiləri öldürmək istəyənlərə və yəhudiləri öldürmək

istəyənləri öldürmək istəyənlərə. Çətin zamanlar idi, dostum. Biz yəhudilər tez-tez pasportlarımızı, adlarımızı, milliyyətimizi dəyişməli olurduq. Bu siz gənclər üçün kədərli səslənir, amma biz bunun bəzən nə qədər əyləncəli olduğunu bilirik. Axı bizi tamamilə silirdilər, biz hər şeyi ağ vərəqdən başlaya bilirdik. Bax sən, əziz oğlum, ağ vərəqdən başlaya bilərsənmi? Özün üçün yeni ad, yeni peşə, yeni millət, yeni din, hətta uşaqlıq xatirələri uydura bilərsənmi? Amma bizim belə bir imkanımız var idi. Hər kəs faşist casusu çıxa və bizi tanıya bilərdi, ona görə də biz hər şeyi ən xırda detallarınadək düşünməli idik. Biz öz tarixçələrimizi çox yaxşı yadda saxlamalı idik ki, ikinci dəfə soruşulanda təkrarlaya bilək. Beləliklə, mən öz sosial və elmi tədqiqatlarım üzərində işlədiyim zaman hələ də möhtəşəm hesab etdiyim həmin bu ideya doğuldu.

– Hansı ideya?

Qoca əlləri əsə-əsə arvadının üzünü göstərir.

– Əziz oğlum, mənim füsunkar Nadinimin üzünə bax. Görürsən, onun necə gözəl al dodaqları, səliqəli qaşları, uzun kirpikləri var? Bəs yanağındakı xal? O necə də gözəldir, elə deyilmi?

Arvadı onun sözünü kəsir və ekrana baxır.

– Ooo, mənim Jerarım, sənin nə demək istədiyini bilirəm. O hər dəfə bunu misal çəkir!

Nadin 20 yaşlı utancaq qız uşağı kimi irişməyə başlayır.

Qoca deyir:

– Bax belə. O, gözəldir, amma biz bunun yalan olduğunu bilirik. Elə deyilmi? Al olan onun dodaqları deyil, parlaq dodaq boyasıdır, dərisi də bu cür hamar deyil, yanağındakı xalı isə hər səhər qara karandaşla çəkir. Axı biz mədəni və oxumuş insanlarıq, başa düşürük ki, qadınların təbii gözəllik kimi qələmə vermək istədikləri üz gözəlliyi və füsunkarlıq yalnız makiyaj hiyləsidir. Bunlar ağ kətan üzərinə ustalıqla çəkilmiş parlaq rənglərdir. Bu bizim mədəniyyətimizin bir parçasıdır. Biz bunu tamamilə normal hesab edirik. Amma siz belə bir görkəmdə neolit dövrünün ibtidai qəbiləsinin arasına düşsəniz, bütün bu rənglər, bu makiyaj oradakı insanları yalnız təhqir edər. Onlar bunu ağ yalan hesab edərlər. Bunu kamuflyaj və aldatma kimi qiymətləndirərlər. Məsələn, İntibah dövrünün rəssamlarını götürək. Onlar təbii gözəlliyi əks etdirir, kiçik sinəsi olan kök qadınları, öz zəmanələrinin gözəllərini çəkirdilər. Indi isə görün hər şey necə də dəyişib! Çünki biz insanlar hansısa məqamda başa düşmüşük ki, həqiqət, – o bu sözü vurğulayır, – bəzən çox qorxunc ola bilir. Və həqiqəti demək, – bunu lap ucadan tələffüz edir, – bəzən nəinki nəciblikdən uzaqdır, hətta sünilik və vəhşilikdir. Qadınlar bunu kişilərdən əvvəl anlayıblar. Mən isə yalnız müşahidə etmiş və onlardan bunu anlamağı öyrənmişəm. Mən düz 30 ilimi yalanı öyrənməyə sərf etmişəm.

– Siz hostellərlə bağlı layihəni o zaman fikirləşdiniz?

– İlk vaxtlar təkcə özümüz idik – mən və Nadin. Biz hər səhər başqa bir adam kimi oyanır, bir-birimizə özümüz və həyatımız haqqında yeni əhvalatlar danışırdıq. Sonra çox istedadlı bir adam olan yaxın dostum, mərhum Lui təklif etdi ki, bu üsulu onun teatr truppasına tətbiq edim. Beləliklə, biz yalanı birlikdə təcrübədən keçirməyə başladıq. Bunu sözlə ifadə etmək mümkün deyil. Mən insanın yalan danışanda yaşadığı hissləri nəzərdə tuturam.

Sonra o, Bibliyanın dərinliyinə dalır və sübut etməyə çalışır ki, yalan insanın şüuraltı dərinliklərində yerləşir, həm də qüsur və günahla sıx bağlıdır. Bizim mədəniyyətimiz yalanı anormal bir şey hesab edir. Amma başqa ölkə və xalqlarda çoxlu nümunələr var ki, yalan günah sayılmır, əksinə, ədəbin bir parçasıdır. Məsələn, Polineziya adalarında. Terminologiyadan çox şey asılıdır, başqa sözlə desək, yalan adı altında nəyi nəzərdə tutduğumuzdan.

Budur, artıq 10 ildir ki, "Hostel" layihəsi dünyanı dolaşır. Bir qayda olaraq, bunun üçün şəhər kənarında yerləşən böyük evləri, teatrları, qalereyaları, hostelə uyğunlaşdırmağın mümkün olduğu hər cür məkanı icarəyə götürürlər. Adamlar gəlir və gedir. Evli kişilər, lesbianlar, narkomanlar, aktyorlar, rəssamlar, qəhvəxanalarda çalışan adi ofisiant qızlar, yetimlər, introvertlər, nimfomanlar[1], qotlar[2], dini fanatiklər,

[1] Cinsi əlaqəyə ifrat meyilliliyi olan qadın

[2] Qotik musiqiyə marağı və xüsusi geyim tərzi ilə seçilən gənclərə aid submədəniyyət

biznesmenlər – bir-iki həftəliyə alışdığı qılafından çıxmaq, özü kimi olmamaq, tamamilə başqa birinə çevrilmək istəyən hər kəs.

Jerar müsahibəsində "maskarad" sözünü tez-tez işlədirdi. Deyirdi ki, bütün ibtidai qəbilələrdə maska güc, ruhlarla əlaqə və şəfa rəmzi olub. Bütün burjua Avropası əsrlər boyu bal və maskaradlar təşkil edib, ora varlı və kasıb təbəqələrin nümayəndələri, lordlar və musiqiçilər, krallar və tələxəklər gələ bilərdi. Orada şahzadə qız nökərə aşiq ola, qulluqçu qız sevgisini şahzadə oğlanda tapa bilərdi. Beləcə silklər arasındakı fərq və sərhədlər silinirdi. Maskaradlar kasıblara və varlılara arzuolunmaz yüklərindən qurtulmağa, arzuladıqları kimi olmağa kömək edirdi. Amma indi hər şey internetdədir. Sənin barəndə hamı hər şeyi bilir. Bəs sən varlı ailədən olan qızın xoşuna necə gələ bilərsən? Ya da profilində burger şəkli varsa, özünü vegetarian oğlana necə bəyəndirə bilərsən? Maskarad da təmiz vərəq kimi, öz tərcümeyi-halını düzəltmək üçün verilən ikinci fürsətdir.

– Müsyö Jerar, necə bilirsiniz, insanlar sizin ideyanızı bəyənir, yoxsa onu düzgün saymırlar?

– Əziz dostum, məgər həmin adamlar Zoluşka haqqındakı nağılı oxumayıblar? Yoxsa saat 12-ni vuranda qulluqçunun halına acımayıblar, kareti balqabağa çevriləcəyi üçün balaca yalançıya görə qorxmayıblar? Məgər o adamlar pərinin pis, nalayiq iş gördüyünü fikirləşirlər? Əlbəttə, yox. Əslində Zoluşka

haqqındakı bu nəcib əhvalat elə yalanın alleqoriyasıdır. Burada sosial ədalət naminə, sevgi və azadlıq naminə yalan danışmaq olar. O balaca pəri hər birimizin içində yaşayır. Lakin müqəddəs inkvizisiya o gözəl pərini küpəgirən qarı, gözəl yalanı isə günah elan edib. Yalan istedaddır, yalan kamuflyajdır, tovuz quşunun lələyi, kəpənəyin qanadlarıdır. Yalan həyatın estetikasıdır, musiqi, rəsm, impressionizm, dəb, kino, poeziya, baletdir. Yəni görmürsünüz ki, bizi əhatə edən bütün gözəlliklər, mədəniyyət və incəsənətimizin tərkib hissəsi olan hər şey yalandan ibarətdir? Bütün Art yalandır. Mövcudluğun Xaosuna yalnız Art – sənət müqavimət göstərə bilər. Biz pul verib bilet alır, kinoya gedir və oturub həsrətlə gözləyirik ki, bizi aldatsınlar. Bəs ədəbi qəhrəmanlar nə üçün bizim xoşumuza gəlir? Çünki onlarda yalan lap çox, həqiqət isə lap azdır, başqa sözlə, Art lap çox, Xaos isə lap azdır. Biz nə üçün Betmenin qrip olduğunu, Supermenin ayaqyoluna getdiyini, Ceyms Bondun maşının açarını itirdiyini görmürük? Yaxud ayaqqabılarının ayağını sıxdığını? Hər şey çox sadədir. Biz yalanı sevirik! Bu, Yaradanın bizə bəxş etdiyi ən qiymətli şeydir. Yalan danışa bilmək, həqiqəti gizlətməyi bacarmaq, özünü tanrılar kimi aparmaq... Bütün bu yalanlar olmasa, biz kimik? Sadəcə, ölümcül xəstə olan, bir əsrdən də tez külə çevriləcək meymunlar.

– Bu yerdə verilişimiz başa çatır. Sosioloq, fəlsəfə doktoru, heyrətamiz yalan nəzəriyyəsinin müəllifi və

bütün dünyada "Art & Chaos" hostellərinin əsasını qoymuş müsyö Jerar Monteskyö və onun füsunkar xanımı Nadin Monteskyö sizinlə idi.

Xloe ilə arxa həyətdəki ilk axşamımızı xatırlayıram – demişdi ki, mən onun əfsanəsini öldürmüşəm, indi ona yenisini borcluyam. Belə çıxır ki, daha ona heç nə borclu deyiləm, çünki o da mənim əfsanəmi öldürüb. İndi hesablaşmışıq. O mənim "Xloe" adlı əfsanəmi öldürüb. Bu əfsanəni mənə onun özü bağışlamış, sonra isə geri almışdı.

Xloesiz keçən dördüncü gündə o qızı bir də heç vaxt görməyəcəyimi qəti surətdə dərk edirəm. Adı hər necə olsa da, özü harada yaşasa da, biz daha görüşməyəcəkdik. Ondan mənə qalan yalnız xatirələrdir, mən onları hər gecə yatmazdan əvvəl xəyalımda canlandıracağam. Yox, sevişmələrimizi deyil, öpüşlərimizi deyil, sadəcə, həyat, özümüz, dünya, insanlar, ideyalar haqqında, hər şey haqqında uzun dialoqlarımızı xatırlayacağam.

Xloe, harada olursansa ol, mən səni sevirəm... Mən səni sevirəm.

Xloe parçalar halında

"Ürəyim necə də pitsa istəyir! Leonardo,
lənətə gələsən, tez ol. İlahi, tez qurtar".
Mona Lizanın təbəssümü arxasından



Heç olmasa, bir ipucu tapmaq ümidi ilə yaddaşımda Xloe ilə söhbətlərimizi canlandırıram.

– Eyden, danış görüm sənin musiqin nə haqdadır?

Mən onun saçlarını oynadıram. Günəş çiyinlərimi isidir. Xatirələr məni çəkib aparır.

– Kaş onun nə haqda olduğunu izah edə biləydim. Lakin çətinlik də elə burasındadır. Musiqi mənim içimdə böyüməyə və inkişaf etməyə başlayır. Mənim 18 yaşım olanda musiqim ölkəmlə ayaqlaşırdı. Xalqla aramda çox gözəl dialoq vardı. Axı mahnılar da, bir növ, ünsiyyətdir. Sən öz təcrübəni dinləyicilərə ötürürsən, onlar da sənin sözlərində özlərinə doğma, yaxın olan nəsə tapırlar. Yaradıcılıq da belədir. Mənim musiqim əvvəllər elə bir səviyyədə idi ki, xalq onu anlayır və özünə yaxın hiss edirdi. Onlar sadə və anlaşılan mətnlər idi, əlçatan şəkildə təqdim olunurdu, ən sadə "soft-rok" idi. Lakin tədricən böyüməyə başlayırsan və əlaqə yaratmaq getdikcə çətinləşir. Sənin musiqin çoxhüceyrəli orqanizmə çevrilir, dünyanı, sevgini, qorxunu duymaq hissin ən müxtəlif çalar-

lar əldə etməyə başlayır. Bilirsənmi, Xloe, əslində belə də olmalıdır. Axı biz bu planetdə sadədən mürəkkəbə doğru inkişaf edirik. Bu təbii seçmə bizi olduğumuzdan daha yaxşı, daha uca edir. Elə bir məqam gəlir ki, musiqiçinin tənqidə ehtiyacı yaranır. "Bu həddən artıq sadədir, bizə bundan daha yaxşı bir şey lazımdır" söyləyən dinləyicilər ona çox lazımdır. Kütlə musiqiçini irəli itələməlidir. Onu inkişafa məcbur etməlidir. Amma hər şey tamamilə tərsinə gedir. Əsər nə qədər sadədirsə, sevilmək ehtimalı da o qədər çoxdur; sözlər nə qədər mənasızdırsa, onların yadda qalacağı və kütlə tərəfindən qəbul ediləcəyi daha inandırıcıdır. Sən öz musiqinə nə qədər az əmək sərf edirsənsə, haqqını o qədər çox ödəyəcəklər.

– Ona görə buradasan? Həmişəlik qalmaq istəyirsən?

– Hələ bilmirəm. Burada inkişaf etmək imkanı var. Həm də məsələ pulda deyil, öz bacarığını inkişaf etdirməkdə, əməyinin insanlar tərəfindən anlaşılmasında və qəbul olunmasındadır. Bilirsən, ən çox kimə yazığım gəlir?

– Kimə?

– İnsanlar inkişaf edir, elə deyilmi? Milyon il bundan əvvəl, hələ "Homo sapiens"in[1] olmadığı bir zamanda bəsit meymunabənzər məxluqlar yaşayırdı. Onlar ağacdan-ağaca tullanır, meyvə yeyir, bir-birinin

[1] Şüurlu insan

kürəyini qaşıyırdılar. Və günlərin birində "Homo sapiens" uşaq doğulur. O digərlərindən çox fərqlənmir, başqa cür olduğu güclə hiss edilir, amma artıq düşünən insandır. "Homo erectus"lar[1] arasında ilk "Homo sapiens"dir. Bu bizə yaxşı bir şey kimi, bir addım irəliləmək kimi görünür, elə deyilmi? O, sözün həqiqi mənasında, bizim başlanğıcımızdır, ilk insandır və bəşəriyyət üçün çox müsbət haldır.

– Əlbəttə, Eyden. Əgər həmin "Homo sapiens" olmasaydı, yəqin ki, biz hələ də mağaralarda yaşayırdıq. Amma sən bununla nə demək istəyirsən?

– Sən bircə təsəvvürünə gətir ki, onun halı necə olub.

– Nə? – Xloe gülümsəyir.

– O, yəni həmin ilk insan minlərlə meymunun arasında özünü necə hiss edib? Ona nə dərəcədə çətin olub, mənəvi cəhətdən çətin? Əlbəttə, o daha ağıllı idi, daha yaxşı ovlayırdı, tez fikirləşirdi, hətta ola bilsin ki, hamıya başçılıq edirdi. "Homo erectus"ların bütün qadınlarına sahib olurdu, "Homo erectus" dostları ona pərəstiş edirdi. Amma yəqin ki, o, qəlbində özünü çox tənha və pis hiss edirmiş. Bir sürü meymunun arasında yeganə ağıllı insan olduğunu dərk etmək!

– Qəribəsən, Eyden. Nə üçün belə şeylər haqqında fikirləşirsən?

[1] Dik yeriyən insan

– Çünki mən insanam. Düşünən insan.

Xloe mənim üzümə baxıb gülümsəyir və siqaret yandırır. Onun üzünün bir tərəfinə gün düşür. Gözünün biri mavi, digəri isə Maldiv laqunlarının[1] rəngindədir. Günəş hətta ən kiçik piqmentlərə də işıq salır. Mikroskop altındakı brilyantlar kimi, onun gözləri də kraterlər, çaylar, savannalar, dağ və göllərlə doludur.

– Eyden, icazənlə sənə bir şey danışım. O da şimpanzelər haqqındadır.

– Artıq maraqlıdır.

– Deməli, bir dəfə belə bir eksperiment keçiriblər. Balaca bir şimpanzeni götürüb onun assosiativ düşüncəsi üzərində işləməyə başlayıblar. Onun məntiqini hər gün inkişaf etdiriblər. Məsələn, içinə oyuncaqlar qarışdırılmış bir yığın meyvəni qarşısına qoya bilərdilər, şimpanze meyvələri oyuncaqlardan fərqləndirib iki ayrı səbətə yığmalı idi. Bizim balaca bunun öhdəsindən çox yaxşı gəlirdi.

– Soo?[2] – uzun bir "so" alınır.

– Soo, hansısa bir məqamda alimlər müəyyən etmək istəyirlər ki, şimpanze insanı meymundan ayıra bilir, ya yox. Onun qabağına bir dəstə fotoşəkil qoyurlar, onların bir qismi insan, digər qismi meymun şəkli olur. Şimpanze şəkilləri növbə ilə seçməyə başlayır, insan şəkillərini sağ, meymun şəkillərini sol tərəfə

[1] Laqun – dənizdən ayrılmış kiçik göl
[2] Beləliklə

yığır. Beləliklə, o heç bir səhvə yol vermədən insanların və meymunların nümayəndələrini müəyyən edir.

– Hmm...

– Axıra onun özünün təsvir olunduğu fotoşəkil qalır. O özünü tanıyır və çox fikirləşmədən həmin şəkli sağ tərəfə, insan şəkillərinin üstünə qoyur. – Xloe gülümsəyir, siqaretinə qullab vurub davam edir: – İşə bax, Eyden, balaca şimpanze özünü meymun yox, insan hesab edir. O öz fotoşəklini insan şəkillərinin yanına qoyur. Bəlkə də, meymun olduğunu dərk edir, axı bütün meymun ailəsini çətinlik çəkmədən ayıra bilib. Üstəlik, məncə, o, meymun olduğunu çox yaxşı başa düşür, amma bununla razılaşmaq istəmir. O, insan olduğuna inanmaq istəyir.

Dünya həqiqətə sürüklənib



Hosteldə kamera yox idi, yalnız mikrofonlar vardı. Onlar, bir növ, "qara qutu" idi, hər ehtimala qarşı – birdən kimsə kimisə öldürər. Qarşılıqlı yalanın hara aparıb çıxaracağını bilmək olmaz. Amma müqavilənin şərtlərinə əsasən, hətta mikrofon yazıları da layihənin sonunda məhv edilirdi. Çünki şəxsi olan heç nə üzə çıxmamalı idi. Xüsusilə də adamların özgə ad altında orgiya təşkil etdikləri yerdən.

Mən Jeraın özünü tapmağa çalışdım ki, birbaşa ona müraciət edim. Mən ona öz əhvalatımı danışardım. Axı bu dünyada hələ də fərdi yanaşma qalırdı. Ona müxtəlif vasitələrlə yol tapmaq olardı. Bu mənə yaxşı tanış idi. Mənim özümə də minlərlə məktub gəlirdi, adətən, onlara saytın menecerləri, yaxud autoreply[1] cavab verirdi. Lakin elə pərəstişkarlar da vardı ki, hansı yollarlasa sənin şəxsi telefonunun nömrəsini, yaxud şəxsi e-mailini axtarıb tapırdılar, o halda, özün cavab verməli olurdun. Mən Jeraın əlaqə məlumatlarını axtara-axtara internetdə xeyli qurdalanmış və onun müsahibəsini tapmışdım. Jeraın qeyri-standart fikirləri mənə qəribə təsir göstərirdi. Axı mən onun layihəsi ilə şəxsən tanış idim.

[1] Avtocavab xidməti

– Məndən tez-tez soruşurlar: "Yalan əxlaqa ziddirmi?" Onda mən onlara sual verirəm: "Bəs masturbasiya əxlaqa ziddirmi?" Hamısı bir nəfər kimi deyir: "Əlbəttə!" Mən də onlara tarixdən nümunə çəkirəm. Qədim babillilər görürlər ki, xalq artıb çoxalmır, dövlətdə hərbçilər və fəhlələr çatışmır. Yəni təxminən hazırda Avropada olduğu kimi. İnsanlar it saxlayır, böyük evlərdə yaşayır, sekslə məşğul olmağı xoşlayır, amma doğub-törəmirlər. Belə bir hal təxminən 4000 il bundan əvvəl Babildə də mövcud olub. Onda kahinlər Aşşurbanapala məsləhət görürlər ki, masturbasiyanın günah olduğunu dini təlimlərə əlavə etsin. Təkcə masturbasiyanın yox, uşaqlıq yolundan kənarda istənilən boşalmanın. Onlar bunun itaət etməyənlərin tanrılar tərəfindən cəzalandırılacağı bir cinayət kimi qəbul olunmasını təklif edirdilər. Beləliklə, ilk illərdə bu yenilik ümumi bir zarafat idi, sonra yavaş-yavaş qaydaya çevrildi, axırda isə tabuya. Babillilərin əsiri olan yəhudi xalqı da bu təlimi götürdü və Tövrata daxil etdi. Axı identifikasiyanı itirməmək və bir millət kimi yox olmamaq üçün artıb çoxalmaq yəhudi xalqına hamıdan çox lazım idi. Bax beləcə Roma Papası prezervativlərdən istifadə etməyin günah olduğunu indiyədək təkrarlayır və bilmir ki, bu, sadəcə, Aşşurbanapalın növbəti sosial islahatlarından biri idi. İnsan hərdən, 1 dollar da xərc çəkmədən, özünə xoş olan bir hərəkətə yol verirsə, bunun nəyi pisdir? Masturbasiya da seksdir, yalnız organic, home

raised and handmade[1]. Mən bilirdim ki, qoca avropalılar xərifləməyə meyillidir. Biz qocaları xərifləmiş hesab edirik, amma unuduruq ki, dünyanı məhz bu cür xərifləmiş qocalar idarə edir. Biz onları daha ciddi qəbul etməli idik. Bəzən məhz bu cür qocaların xərifləməsi nəticəsində qarşısında heç bir quruluşun davam gətirə bilməyəcəyi ideologiyalar yaranır.

Müsyö Jerar sözünə davam edirdi:

– Məni düz başa düşün, mən yalanı təbliğ etmirəm. Lakin belə hesab edirəm ki, yalan da bir uyğunlaşma, təbii seçmədir. Məsələn, milçəklərin bir növünün erkəkləri cütləşmədən əvvəl öz dişilərinə nəsə dadlı bir şey verir. Amma dişilər dadlı tikəni çox tez yeyirlər və erkəklər onları mayalandırmağa macal tapmırlar. Bu hal erkəkləri dayandırmır. Onların növbəti nəsli muma bənzər xüsusi bir maddə hazırlayır və onu dadlı tikənin üstünə sürtür. Indi dişinin ağzının tikəyə çatması üçün daha çox vaxt lazımdır. Dişi öz "kinder sürpriz"ini tapmaq üçün mumu dişləyib qoparanadək erkək onu mayalandırır. Elə bilirsiniz, erkək milçəklər bununla kifayətlənir? Əlbəttə, yox. Mum təbii surətdə daha çox yaranmağa başlayır. Onda milçəklər daha içəridə dadlı tikə gizlətmir, sadəcə, yalnız mumdan ibarət olan və hədiyyə bağlamalarına bənzəyən böyük kürəciklər düzəldirlər. Axı dişilər qablaşdırılmış böyük hədiyyələri xoşlayırlar,

[1] Orqanik, evdə olan, əl işi

çünki onların içindən milçək "Rafaello"su, yaxud milçək "Labuten"i çıxa bilər. Dişi həmin böyük hədiyyə qutusunu açmağa cəhd edənədək erkək onu mayalandırır. Dişi axırda qutunun boş olduğunu və orada heç bir dadlı tikənin olmadığını görür. Deməli, onu əməlli-başlı dolayıblar.

– Sizə elə gəlmir ki, kişilərin qadınları bu şəkildə aldatması o qədər də nəcib hərəkət deyil?

– Ha, ha! Məni güldürməyin. Qadınları aldatmaq? Kişilər yalanla silahlanma yarışında qadınlara çoxdan uduzublar. Mən sizin üçün çox sadə bir misal çəkəcəyəm. Bilirsinizmi, kişilər qadınlarda böyük döşləri nə üçün xoşlayırlar? Məsələ estetikada deyil. Bu, instinktdir. Kişi böyük döşləri görəndə şüuraltı olaraq dərk edir ki, qadının döşü nə qədər böyük olsa, balasına o qədər çox süd verə bilər, nəticədə uşaq da o qədər sağlam və möhkəm olar. Süd qidadır, kalsiumdur, vitamindir. Beləliklə, qadınlar silikon vasitəsilə döşlərini böyütməyə başladılar. Orada artıq bir damcı da süd yoxdur. Bu bir aldanışdır, mum kürəcik kimi bir aldanış. Bəs bu, kişilərə necə təsir göstərir? Məntiqə uyğun olaraq, kişi qarşısındakının silikon sinə olduğunu başa düşür. Amma həmin anda onun beynində milyonlarla biokimyəvi proses gedir, neyronlar həmin qadında südün çox olduğunu bildirən siqnallar alır. Kişinin beyni həmin məlumatı araşdırıb təhlil etməyə imkan tapmamış şüur artıq dofamin və adrenalinin yüksək dozasını qəbul edir. Vəssalam,

şükürlər olsun! Yalan öz işini gördü. Qadının boynu uca göstərən hündürdaban ayaqqabılar, saçlarının sağlamlığını nümayiş etdirən saç düzümləri, erkəyi kalsium və yodun normada olduğuna inandıran manikür... Yaxşı, indi kim kimi aldadır?

Jerar dayanmadan danışırdı. Mən həyatda bu cür dəlisov insanlar görmüşdüm. Belə adamlar öz ideyalarına o qədər çox inanırlar ki, onlara istər-istəməz hörmətlə yanaşırsan. Həmin ideyalar sənə nə qədər fantastik görünsə də.

– Dünya yalana sürüklənib? Siz elə hesab edirsiniz? Mən isə əksini düşünürəm. Dünya həqiqətə sürüklənib. Məgər Yaxın Şərqdə insanların bir-birini öldürdüyü yalandır? Məgər qadınların qarnını doydura bilmədikləri üçün öz uşaqlarını öldürməsi, ataların öz qızlarını zorlaması yalandır? Məgər yalandır ki, bizim bədənimizi milyonlarla bakteriya və viruslar yeyir, elm isə onlar barəsində heç bir təsəvvürə malik deyil? Məgər elə özümüzün uydurduğumuz Allah bizi tərk etməyib? Dünya həqiqətə sürüklənib, oğlum, yalana yox. Əgər həyatımızda hər hansı bir sevinc payı varsa, o məhz həqiqəti buraxıb özümüzü yalana təslim etdiyimiz anlardadır. Sevgililərin bir-birinə verdiyi sədaqət andı... Məgər biz onların yalan danışdıqlarını, ya da hələ yalan danışdıqlarını bilmədiklərini anlamırıq? Statistika göstərir ki, onların 90 faizində tərəflərdən, heç olmasa, biri xəyanət edir. Yəni hər 10 nikahdan 9-u yalanla başlanıb yalanla da bitir. Bəs nə etməliyik? Həqiqəti qəbul edib

yaşamalıyıq? Axı o həqiqət kimə lazımdır? Yaxşısı budur, məni aldadın, mənə inana biləcəyim gözəl bir yalan verin və məni xoşbəxt bir rahatlıq içində tərk edin... Bizim hostellər dünyaya başqa cəhətdən baxmaq imkanı yaradır, onlar acı həqiqət dünyasında bir içim şirin yalandır.

– Bəs bu, insanı bir şəxsiyyət kimi dəyişdirməyəcək? Onu süni, saxta etməyəcək?

– Oğlum, yalnız bir həqiqi "mən" var, o buradadır, həm də məhz indi. Dünən mən başqası idim, sabah dəyişib ayrı bir adam ola bilərəm. Hər kəsin belə bir hüququ var. Biz hər gün dəyişirik: hirslənəndə əsəbi, qəddar oluruq, yaxşı günümüzdə isə az qala övliyaya çevrilirik. Biz aşiq olur, vəfalı köpəklər kimi sədaqətimizi qoruyuruq, bir il keçəndən sonra isə dalaşır və verdiyimiz vədləri unuduruq. Söhbət hansı şəxsiyyətdən gedir? Bugünkü məndən, dünənkindən, yoxsa sabahkından? Sən evdə tənha anasan, işdə peşəkar mühasib, kilsənin tövbə hücrəsində paxıl ləçər, kitab mağazasında ziyalı, cinsi həyatında isə əli qamçılı dominant. Həqiqi "sən", yaxud həqiqi "o" bunlardan hansıdır? Şəxsiyyət – özümüzü necə adlandırırıqsa, bu gün, bu dəqiqə necə təqdim ediriksə, odur. Mən indi sizə müsahibə verir və professor ədası ilə danışıram, amma bu o demək deyil ki, mən öz dostumla, yaxud nəvəmlə də eynilə bu tərzdə ünsiyyət qururam. Riyakarlıq günahdır, bəs yeni mühitə uyğunlaşan buqələmun necə, riyakardırmı? Bu onun mənfi keyfiyyətidir, yoxsa hər halda müsbət?

"Müsyö Jerar, salam. Mənim adım Eydendir. Mən Orta Şərqdən olan məşhur bir musiqiçiyəm. Hazırda Nyu-Yorkda yaşayıram. Bir neçə ay bundan əvvəl təsadüfən sizin Babil şəhərində yerləşən hostellərdən birinə düşmüşdüm. Sizin yalan haqqındakı nəzəriyyəniz mənə çox maraqlı görünür, düşünürəm ki, bu cür hostellərin yaşamaq hüququ var. Lakin iş elə gətirib ki, mən bütün bunlardan yalnız evə qayıtdıqdan sonra xəbər tutmuşam. Hosteldə yaşadığım zaman isə həqiqəti, yalnız həqiqəti danışmışam, başa düşməmişəm ki, ətrafımdakı insanlar öz rollarını oynayırlar. Mən Xloe adlı qıza vurulmuşam. İndi bilirəm ki, bu onun əsl adı deyil. Amma bu heç vacib də deyil. Müsyö Jerar, mən ondan qətiyyən incimirəm. Fikirləşirəm ki, o yalan bizim yaxınlaşmağımıza səbəb olub. Axı o da mənə vurulub. Bunu dəqiq bilirəm. İş elə alındı ki, layihə başa çatdı, mən isə heç onun əsl adını da öyrənə bilmədim. Əziz müsyö Jerar, çox xahiş edirəm, məni başa düşün və əgər mümkündürsə, onu tapmaqda mənə kömək edin. Mən sizdən çox şey istəmirəm. Əgər siz həmin qızın hansısa əlaqə nömrəsini, yaxud heç olmasa, e-mailini mənə versəydiniz, yazıb onu sevdiyimi deyə bilərdim. Axı siz də arvadınızın razılığını yalan vasitəsilə ala bilmisiniz. Mənə də belə bir fürsət verin. Başa düşürəm ki, sizin qaydalarınız bu cür şeyləri qadağan edir, lakin yalnız bircə dəfə istisnaya yol versəniz, bu sizin ideyanıza heç bir xələl gətirməz. And içirəm ki, bu barədə heç vaxt heç yerdə danışmayacağam. Heç olmasa, onun Nyu-Yorkun

hansı rayonunda yaşadığını mənə deyə bilərdiniz. And içirəm ki, hər gün orada onu axtaracaq və gözləyəcəyəm. Bəlkə, o halda, nə vaxtsa onu tapmaq xoşbəxtliyi mənə nəsib olar. Əlbəttə, Nyu-Yorkun nə qədər böyük bir şəhər olduğunu bilirsiniz, siz mənə kömək etməsəniz, onu yenidən görmək ehtimalım olduqca azdır. Mən sizə hədsiz dərəcədə minnətdar olaram. Onun məhz həyatda axtardığım qız olduğunu dəqiq bilirəm – mən xoşbəxtliyimi onda tapacağam və bu sizin layihəniz sayəsində baş verəcək.

Hörmətlə: Eyden".

Məktubuma bir neçə gündən sonra cavab aldım.

"Əziz Eyden, o cür narahat bir vəziyyətə düşdüyünüzə görə çox təəssüf edirəm. Mən sizə kömək etməyi çox istərdim, amma iştirakçıların bütün şəxsi məlumatları məxfi saxlanılır və layihə bitdikdən sonra silinir. Eyden, mən sizin vəziyyətinizi anlayıram, lakin işin xüsusiyyətləri şirkətimizin siyasətinin sərt olmasını tələb edir. Məni anladığınızı düşünürəm. Əgər hosteldə olduğunuz müddətdə mənə müraciət etsəydiniz, bəlkə də, sizə kömək edə bilərdim. Amma indi bütün fayllar məhv edilib. Həqiqətən, çox təəssüf edirəm, çünki sevginin nə olduğunu bilirəm. Sizə uğurlar, Eyden".

Onun cavabı yaxın adamın öldüyünü xəbər verən məktuba bənzəyirdi. Axı ölüm mahiyyət etibarilə insanı bir daha görmək imkanını itirməkdən başqa bir şey deyil. Xloe hər dəfə onu tapmaq cəhdimdən sonra mənim həyatımdan çəkilib gedirdi. Beləliklə, son ümidimi də itirdim.

Üçqat vəfalı



Bu, 90-cı illərin köhnə videokaseti idi. "Videoprokat"lar yadınızdadırmı? Oradan 2 dollara, ya da daha aşağı qiymətə istənilən videokaseti birsutkalığa götürmək mümkün idi. Həmin kasetlərdə həmişə iki film olurdu. Onların xüsusi üzlüyü, yaxud holoqramı olmurdu, yalnız üstünə yapışdırılmış kiçik ağ kağızın üstündə markerlə filmin adı yazılırdı: "Nəhs ay – dəhşət", "Məğlubedilməz – döyüş".

Həm də, adətən, yeni filmlər köhnə filmlərin üstünə yazılırdı. Yadımdadır, üstündə "Kral Şir" yazılmış belə videokasetlərdən birinə baxırdım. 7 yaşım olardı. Cizgi filmi bitdi, ekranda qara, fışıldayan fon peyda oldu. Sonra isə həmin şeyi gördüm. Şoka düşmüşdüm. Lüt kişi ilə lüt qadın bir-birini o yan-bu yana itələyir və ağrıdırlar. Bu, iyrənc porno filmlərdən biri idi. Məni, cinsi əlaqə haqqında heç bir təsəvvürü olmayan uşağı güclü ikrah hissi bürümüşdü. Mən bilirdim ki, adamlar öpüşə bilər, bilirdim ki, qucaqlaşmaq nədir. Amma lüt bədənlə bir-birini itələmək və ucadan çığırmağa məcbur edəcək qədər ağrıtmaq nə demək idi? Mən yalnız təsadüfən çəkici barmağıma vuranda, ya da arı sancanda belə qışqırırdım. Yəqin ki, onları, o əmini və o xalanı bərk ağrıdırdı.

Mən videonun yalnız bir neçə saniyəsini gördüm, kaset bitdi və avtomatik olaraq əvvələ fırlanmağa

başladı. Mən valideynlərin yalanı, aldatma və gizlətmələri ilə dolu olan bu dünyada təsadüfən 10 saniyəlik bir həqiqət görmüşdüm. Dəhşətli həqiqət. Həmin 10 saniyə ərzində ekranda yaxşı bir şeyin baş verdiyini bildirən öpüş, nəvaziş, ya da təbəssüm görmədim. Zövqə, yaxud sevgiyə, heç olmasa, kiçik bir işarə belə yox idi. Yalnız ağrı və əzab vardı. Doğrudanmı, böyüklər əzab çəkir və bunu bizdən gizlədirdilər? Doğrudanmı, böyüyəndə mən də əzab çəkəcəkdim? Mən böyümək istəmirdim, valideynlərimdən bunun nə olduğunu soruşmaq da. Yalnız yaddan çıxarmaq istəyirdim. Bu həqiqəti yaddan çıxarmaq və o barədə fikirləşməmək.

Bütün dünya bizə yalan danışırdı və o yalan mənim gördüyüm həqiqətin dəhşətindən daha xoş idi. Qolları və ayaqları bir-birinə dolaşmış çılpaq və tərli kişi ilə qadın mənə iki yerə bölünmək istəyən, amma buna nail ola bilməyən böyük bir hörümçəyi xatırladırdı. Mənim dünyam Hiçkok və Stiven Kinq dünyasına çevrilmişdi. Hər dəfə evdə tək qalanda həmin kaseti dönə-dönə işə salır və orada gördüyümün nə olduğunu anlamaq istəyirdim. Məndən nəyi gizlədirdilər? Hər dəfə də, nədənsə, işəmək, ayaqyoluna getmək istəyirdim. Hə, mən öz ilk ereksiyamı bu cür hiss etmişdim. Fikirləşirdim ki, həmin filmə baxanda işəmək istəyirəm.

Qəribədir, mənim altşüurum artıq cinsi əlaqənin nə olduğunu anlayırdı. Həm də məni bərk qorxudan

şeydən həyəcanlanırdım. Mən özüm də anlamadan ilk həyəcanı yaşamışdım. Yalnız illər keçdikdən sonra məsələnin nə yerdə olduğunu anladım. Üstəlik, həqiqət qorxusuna binada elektrik enerjisinin kəsilməsi qorxusu da əlavə olunurdu. Sovet İttifaqında belə hallar çox tez-tez olurdu. Elektrik qurğuları qırılır, siçovullar işıq xətlərini gəmirir, tıxaclar yerindən çıxırdı. Məhz həmin məqamlarda kaset videomaqnitofonun içində, ən lazımsız yerdə ilişib qalırdı. Bir neçə saatdan sonra işıq bərpa olunanda inilti səsləri bütün mənzilə dolurdu. Bəs birdən valideynlərim işıq yanmazdan əvvəl evə gəlsəydilər və mənim nəyə baxdığımı görsəydilər, onda necə olardı? Bundan əlavə, pornonun cinayət hesab edildiyi Sovet İttifaqında milis işçiləri məhz bu üsuldan tez-tez istifadə edirdilər. Onlar işıqları qəfildən söndürür və kimi isə pornoya baxdığı yerdə tutmaq üçün mənzilləri yoxlayırdılar.

İkinci dəfə bir kommersiya layihəsinə razılıq verdiyim zaman xəyanətlə üzləşdim və aldadıldım. Mən ticari layihələri heç vaxt xoşlamırdım, xüsusilə də layihənin mahiyyəti sənə yaddırsa, xoşuna gəlmirsə... O vaxt ikinci musiqi albomumu yazdırmışdım və şöhrətin zirvəsində idim. Məhz həmin vaxt mənə bir layihədə iştirak etməyim üçün müraciət etdilər. Layihənin məqsədi pul qazanmaq idi. Adətən, musiqiçilər bu cür layihələri xoşlayırlar, çünki onlar asan qazanc mənbəyidir. Bu, risksiz gəlirdir. Məşhursan,

səni yalnız bir mahnını ifa etməyə görə satın alırlar ki, ora öz reklamlarını, yaxud məhsullarını dürtüşdürsünlər. Adətən, belə mahnıları musiqiçilər, sənət adamları yox, tipik marketinq menecerləri yazır. "Biz sizin bədəninizə əqrəb döyməsi çəkəcəyik, Sponge Bob[1] şəkilli bu sarı idman köynəyini geyinəcək və bizim şirəni içəcəksiniz. O model sizə yaxınlaşacaq (qız qorxunc görünür, amma o, PR direktorunun qızıdır, ona görə də bu məsələ müzakirə olunmur), bu zaman əlində saksofon olan oğlan gələcək və çalmağa başlayacaq. Sonra siz o şam ağacının yanındakı gitaranı götürüb bənövşəyi kabrioletə[2] minəcəksiniz. Axırda sabun köpükləri uçacaq". Hə, necədir?

Biz menecerlərlə və reklamçılarla xeyli mübahisə etdik, dalaşdıq, söyüşdük. Onlar çox yaxşı məbləğ təklif edirdilər, imtina etmək ağılsızlıq olardı, amma razılaşmaq da xatalı idi, çünki bu cür zir-zibildən sonra bircə fanatım da konsertimə gəlməzdi. Həmin reklam məni məhv edərdi. Çox axmaq bir mahnı idi. Sözləri də çox axmaq idi. O rəngarəng geyimdə özümü fahişə kimi hiss edirdim – mən, adətən, saya, simple-black[3] geyinirəm. Həm də sifariş yeni janr axtarışında olduğum bir vaxta təsadüf etmişdi, həmin kommersiya cəfəngiyyatı məni qətiyyən maraqlandırmırdı. Belə bir vaxtda prodüser yanıma gəlib

[1] Cizgi filmi qəhrəmanı
[2] Üstü açılan avtomobil
[3] Sadə qara

xəbər verir ki, biz indicə müqaviləni bağlamışıq. Mən boyun qaçırmağa, etiraz etməyə başlayıram, o isə pul məbləğinin çekini göstərir. Prodüser bu səhər məbləği ikiqat artırmışdı. İndi ayaqlarımı açıb rahat uzanmaqdan və reklam sənayesinin mənim qəlbimi, sadiq dinləyicilərimin isə ləyaqət hissini zorlamasına imkan yaratmaqdan başqa yolum qalmırdı.

Bəli, mənə həmin paltarları geyindirdilər. Kadr arxasındakı maşın sabun qovuqcuqları buraxır, məndən iki dəfə hündür, üç dəfə kök olan model isə meyitimin yanında rəqs edirdi. Mənim üçün çəhrayı bir mikrofon gətirdilər, musiqi səsləndi, dərindən nəfəs alıb sevgi haqqında mahnı oxumağa başladım.

Çəkiliş bitdikdən sonra üstümdən satqınlığın qoxusunu yuyub təmizləmək üçün uzun müddət duşun altında qalmalı oldum. Sadəcə, özünəhörmət hissini unudub həyatımın həmin məqamına dözməli idim.

Bəs əvəzində nə baş verir? Ən yaxın adamlarım məni satır. Yox, mənim pulumu oğurlamırlar, komandam məndən imtina etmir, dinləyicilərim də məni söymür. Əksinə, bu cəfəngiyyat dolu mahnı sürətlə yayılmağa başlayır və bütün klublarda, maşınlarda, radioda səsləndirilən qeyri-adi bir hitə çevrilir, ən sadiq fanatlarım mənə təbrik məktubları yazır və deyirlər ki, indiyədək bundan gözəl mahnı eşitməyiblər. Mənim videom klip onluğunda ikinci yeri tutur. Ən yaxşı jurnalistlər məndən müsahibə almaq istəyir.

Mən bu zibili öz son albomuma daxil etməli oluram, çünki onun satılmasına xeyli kömək edir. Hər konsertdə, hər çıxışımda həmin mahnını oxumalı oluram. Yalan və pul ticarəti ilə dolu olan mahnını.

Sonra da mənə dinləyicilərin müqəddəs olduğunu deyəcəksiniz? Dinləyicilər bir sürüdür, dünyanın ən əhəmiyyətsiz insanlarıdır. Onlara nifrət etməyə başlayıram. Mən, heç olmasa, pul almışam, heç olmasa, iş prosesində əzab çəkmişəm. Bəs siz? Siz bu zibili rahat şəkildə qəbul etdiniz. Deməli, bütün o dərin, həqiqi, səmimi mahnılar sizin üçün, sadəcə, bir səs gurultusu, bir fon idi, onları qulaqardına vururdunuz ki, mən hər dəfə konsertdə sizə yeni bir yalan payı yedirim. Mənim düşüncəmdə dinləyicilərə münasibət tamamilə dəyişdi.

Bu barədə xeyli məqalə oxumuşam. Sən demə, "Cinayət və cəza" Dostoyevskinin özünün ən çox nifrət etdiyi əsəri imiş, çünki onu süjet xəttini tamamilə dəyişdirməyə məcbur etmişdilər. Orijinalda əsərin adı "Cəza və cinayət" olub. Əsərin məzmununa görə, belə bir qanun qəbul olunur ki, hər kəs heç bir cinayət törətmədən könüllü olaraq həbsə girə, orada illərlə, yaxud on illərlə yata bilər. Həmin adam cəzasını çəkdikdən sonra istədiyi cinayəti törədə bilər, buna görə isə ona cəmi 10 il iş veriləcək. Əsərin qəhrəmanı həbsxanadan çıxandan sonra hansı cinayəti törədəcəyini xeyli götür-qoy edir və əsərin sonunda nənəni öldürür. Ədəbiyyatın şah əsəri əslində bu

şəkildə olmalı imiş. Lakin naşirlər bu fikri mənəviyyata zidd hesab etmişdilər.

Yaxud Ford Koppolanın "Xaç atası"nı götürək. İtalyan mafiyası məcbur etməyincə, o həmin filmi çəkmək istəmirdi.

Mən əslində yaxşı ört-basdır edilmiş kommersiya layihələri olan və əksər hallarda onları yaradanların iradəsi ziddinə tamamlanan və bütün dünyada məşhur olan şah əsərlərin bütün müəlliflərinin mənəvi əzablarını hiss edirdim. Bunu sizə ona görə danışıram ki, qəlbimi dolduran qarışıq duyğuları tam anlaya biləsiniz.

Düz bir il bundan əvvəl öz səhnə maskamı çıxarıb, milyonlarla pərəstişkardan imtina edib qaçdım ki, nəhayət, fotokameralardan və alqışlardan uzaqda özümü görüm, özümü anlayım və öz yolumu tapım. Mən saxta, kirli, süni nələrisə buraxıb gəldim ki, Bruklində, kiçik bir otaqda sırf özümün xoşuma gələn musiqini yazım. Elə bir iş görüm ki, mənim qəlbimi sakitləşdirsin. Dövrəni başa vurub çərçivədən çıxım. Səhnədəki adam olmayım, daim pərdə arxasında dayanan məni tapım. Həqiqi, doğru və saf olanın axtarışında ikən onu – Xloeni tapdım. Yad, başqa, anlaşılmaz və uzaq birini. Xloe mənim mahnılarımı yox, özümü sevmişdi. O mənimlə danışırdı, müsahibə almırdı, onun üçün mənim özüm maraqlı idim, şəxsi həyatım yox. Mənim üçün isə o, maraqlı idi, ona görə də bu yalan məni tamamilə ruhdan salmışdı.

Saxta gerçəklikdən qaçıb başqa bir kölgə oyununa düşürsənsə, səmti itirirsən. Daha fərdi şəxsiyyətlər, azad amerikalılar dünyasının, Xloe adlı möcüzənin olduğu aləmin bir parçasına çevrilib-çevrilmədiyini bilmirsən. Qızların sənin daxili aləminə baş vurduğu aləmin. Elə bir aləmin ki, sən orada sutkalıq kirayəyə verilən otaq olmaqdan çıxıb, başqa bir qəlb üçün mənzilə çevrilə bilərsən.

Bəlkə, bu əhvalat kiməsə əyləncəli oyun və gənclik romantizmi kimi görünə bilər, ancaq özü kimi olmaqdan ötrü minlərlə kilometr uzağa gedən adam üçün pis bir zarafata çevrilmişdi. Mən özümü axtarmaqda ikən Xloeni tapmışdım. Xloeni tapanda özümlə vidalaşmışdım. Mən özümdən xilas olan kimi Xloe də yoxa çıxdı. Indi məndə nə mən varam, nə də Xloe. Nə də bir zərrə həqiqət. İçimdə keçmişdən bircə saniyə də yoxdur ki, onu indi hesab edə bilim. Yaddaşımda Xloenin elə bir sözü yoxdur ki, onda sevginin əks-sədasını eşidə bilim.

Xloe parçalar halında

"O, yəqin ki, meymun olduğunu başa düşür, amma bununla razılaşmaq istəmir. O, insan olduğuna inanmaq istəyir".
Xloe



– Xloe...

–

– Yatırsan?

– Demək olar ki...

– Necə yəni demək olar ki?

– Yəni suallara cavab verəcək halda deyiləm.

– Onda cavab vermə, eləcə qulaq as. Mən bir söz demək istəyirəm.

– Eyden, lütfən, mən yaxşı bir yuxu görürdüm...

– Nə görürdün?

– Görürdüm ki, sən yatmısan, – gülümsəyir.

– Onda təsəvvür elə ki, bu, yuxudur. Gözlərini yum, mən də yumum, sonra da mənimlə danış.

– Yaxşı. Saat neçədir?

– Gecə 3.

– Sən nə üçün gecələr yata bilmirsən?

– Mənim bioloji saatım fərqlidir. Həm də mən gecə işıqlarını xoşlayıram.

– Eyden, you're like little puppy. Please let's get some sleep.[1]

[1] Eyden, sən lap balaca köpəklər kimisən. Lütfən, bir az yataq.

– Tutaq ki, yatdıq və səhər oyandıq, axı nə olsun?

– Nə? – Xloe astadan, güclə eşidilən səslə soruşur.

– Hər yer işıqlı, çoxlu səs-küy, zərərli ultrabənövşəyi şüalar... Günəş bizi məhv edir.

– ..

– Planetimiz günəşə tərəf dönəndə onun radiasiyası, qravitasiyası, qazları, şüaları, fotonları, radiodalğaları bizə təsir göstərir, amma indi günəşin inhisarından azadıq. Indi bizə müxtəlif göy cisimlərinin dalğaları, başqa ulduz və qalaktikaların kvantları gəlib çatır. Haradasa yadplanetli bir qız siqaret çəkir. Yeri gəlmişkən, oralarda atmosfer bizim Yerdəki qədər güclü deyil. O qızın atomları gecələr tüstü ilə birlikdə bizim planetə uçub gəlir. Onun siqaretinin kiçik zərrəcikləri...

–

– Bilirsən, deyirlər insanın bioloji günü təxminən 36 saat çəkir. Həm də planetimizin 24 saatlıq dövrü ilə üst-üstə düşmür. Elə bil biz bura tamamilə başqa saat dövrü olan ayrı bir planetdən gəlmişik. Tap görüm hansı planetdə bir sutka 36 saat çəkir? Marsda! Bizim hüceyrələrimizin saatları Yer yox, Mars rejimi ilə işləyir. Qəribədir, elə deyilmi?

– ...

– Bir də ki, bizim saçlarımız ömrümüz boyu uzanır, hətta lap uzun olanda da. Heyvanların heç birində belə bir problem yoxdur. Onların tükü müəyyən yerəcən uzanır, sonra dayanır. Bizim saçlarımız isə

iki-üç metrəcən uzana bilir. Mənim üçün çox maraqlıdır, görəsən, milyon illər bundan əvvəl yaşayan mağara adamları, əllərinə hələ daş da götürmədikləri bir zamanda, hər hansı bir alət olmadan saçlarını necə kəsirdilər? Ümumiyyətlə, o cür ikimetrlik saçlarla necə ov edirdilər? Bəs bığ, ya da saqqal? Axı onlar bir metrədək uzana bilir. Üz qırxmaq elə indi də çətindir. Bəs onlar o vaxt bunu necə edirdilər? Yoxsa daşlar vasitəsilə? Yox, axı onda hələ heç bir alət yox idi. Yəqin, meymunlar bir-birini birələrdən təmizlədikləri kimi, onlar da dişləri ilə bir-birinin saçlarını dişləyib gəmirirdilər...

– ...

– Xloe...

– ...

– Xloe?..

Xloenin axtarışında və metamorfozun başlanğıcı



Keçən həftə Babildə idim. Ora getdim, amma ev boş idi, yer icarəyə verilirdi. Bu hosteldə nəyinsə qaydasında olmadığını dediyim zaman uşaqların mənə necə dəm tutduqlarını xatırlayıram. Onlar özlərinin sui-qəsd ehtimallarını irəli sürür, elə hesab edirdilər ki, mən də onlar kimi oyun oynayıram. Yadımdadır, Zak mənə yaxınlaşıb dedi: "Dost, mən səninlə fəxr edirəm, axı sən bu oyunu oynamırsan, sən həqiqisən".

Yəqin, məni yoxlamaq istəyirmiş. Sonra düz danışdığımı başa düşəndə bu ona əyləncəli görünmüşdü. Mən isə fikirləşmişdim ki, o mənimlə dilxoşluq etmək istəyir... Tobi isə deyirdi ki, hazırlaşmadan maraqlı faktlar uydurur. Sən demə, bunlar elə uydurmanın içindəki uydurma imiş. Bu, ikili oyun, ikiqat aktyorluq imiş. Mən isə onun sifarişlə əsər yazmasına böyük heyranlıqla qulaq asırdım. Meqanın meksikalı ilə dalaşması, mənimlə yatması – hamısı oyun imiş. Birinci gün tanış olduqları zaman bir-birilərini ilk dəfə gördüklərinə görə yox, yalan danışdıqlarına görə hamı üçün maraqlı və əyləncəli idi.

Bəs Xloe? Axı onun dindar katolikliyi, valideynlərinin ölümü, Kaliforniyadakı həyatı – hamısı uydurma idi. Dediklərinin hamısı yalan idi. Hətta Portlend

sahilləri yaxınlığında balinaların miqrasiyası da onun təxəyyülünün məhsulu idi.

Mən Xloedən inciyirdimmi? Düşünürəm ki, yox. Bu, inciklik deyildi. Axı kənardan baxanda o, pis bir iş tutmamışdı. Xloe, sadəcə, adamların şəhər kənarındakı hansısa hosteldə yığışdığı, özləri üçün yeni həyat tarixçəsi uydurduqları, öz şəxsiyyətlərini isə qış paltosu kimi şkafdakı qarmaqdan asdıqları haqda elanı oxumuşdu. Gənc, sərbəst qızdır, fikirləşib ki, niyə də iştirak etməsin. Bəlkə də, elə aktrisadır, bəlkə, sadəcə, qeyri-adi həyat təcrübəsi keçmək onun üçün maraqlıdır. Bəlkə də, sadəcə, tanımadığı biri ilə cinsi əlaqədə olmaq istəyib...

Hətta bu müsyö Jerar da nədəsə haqlıdır. Jerarın hər hansı bir nəticəsi olmayan nəcib yalan haqqındakı nəzəriyyəsi ilə razılaşmasam da, onun fəlsəfəsinin yaşamaq hüququ vardı. Əgər dinlərin, ideyaların, təriqətlərin əksəriyyəti, onsuz da, yalan üzərində qurulubsa, nə üçün də daha birini yaratmayasan? Üstəlik, girişdə hamıya xəbərdarlıq edib deyirlər ki, uşaqlar, burada sizin üçün əyləncəli olacağını vəd edirik, amma bütün bunların yalan olduğunu nəzərə alın.

"Adlar və yerlər müəllif tərəfindən uydurulmuşdur, istənilən uyğunluqlar təsadüfidir". Buna bənzər xatırlatması olan neçə kitabı əlinizdə saxlamısınız? Belə çıxır ki, müəyyən miqdarda yalan bizim təbii insani tələbatımızdır?

Müsyö Jerarın "Bizim dünyamız bu cür hostellərə möhtacdır – onlar saf həqiqəti tapa biləcəyimiz

yeganə yer olacaq" sözləri ilə nəyi nəzərdə tutduğunu yalnız bir ildən sonra başa düşəcəkdim. Hələlik isə başımda yalnız söz oyunu var – eyni akkordlar və Xloe, Xloe, Xloe! Mənim başımda "caps lock" – böyük hərflərlə XLOE var. Görəsən, o mənimlə oynayırdı, ya həqiqətən, mənə vurulmuşdu? Doğrudanmı, mən bunu heç vaxt bilməyəcəyəm? Bəlkə, mən onu axtardığım kimi, o da məni axtarır?

Mən onun oynamadığını başa düşəndə artıq gec idi. Bunu dünən, hosteldəki son günümüzü fikrimdə canlandıranda anladım. Xloe məndən əsl adımı soruşdu, mən isə heç nədən şübhələnmədən "Eyden" dedim. Bu onun mənə verdiyi ən vacib sual idi, mən isə cavabımla hər şeyi korlamışdım. Xloe mənə qarşı bir addım atmışdı, hər şeyi açıb demək istəmişdi, buna hazırlaşırdı, amma mən onu anlamamışdım. Ola bilsin ki, cavabım onu yalnız mənim laqeydliyimə inandırıb. "Ümumiyyətlə, Aydın. Amma siz amerikalılar Eyden kimi tələffüz edirsiniz". Necə də təmtəraqlı, süni səslənir!

Özüm də bilmədən yeganə sevgimi itələmiş, uzaqlaşdırmışdım. Halbuki hər şey başqa cür qurtara bilərdi. Bir-birimizə əlaqə nömrələrimizi, ünvanlarımızı verərdik və hostelin sonu bizim başlanğıcımız olardı. Amma nəsə lazım olduğu kimi getmədi. Görəsən, onun ağlına gəlməyəcək ki, mənim adımı axtarışa versin? Sadəcə, "Eyden" yazacaq və "Google" ona mənim özüm, keçmişim haqda bütün məlumatları

verəcək. O zaman Xloe hər şeyi başa düşəcək, inanacaq ki, mən daim düz danışmışam. O bunu bilməyə borcludur! Xloenin məni sevdiyini bilirəm. Sadəcə, onu tapıb bütün həqiqəti danışmalıyam.

– Maylz, o məni sevir!

– Xoş gördük, dostum. Kim sevir?

– Xloe. O məni sevir.

– Dostum, axı biz belə qərara gəldik ki, o məsələni yaddan çıxarmaq lazımdır. O, sadəcə, bir oyun idi.

– Yox, Maylz, heç də oyun deyildi. Xloe məni sevir. O məndən əsl adımı soruşmuşdu, məni tanımaq istəyir, məndən diqqət gözləyirdi. Mən onu tapmalıyam.

Bunu deyib sürətlə evdən çıxdım və metroya tərəf yüyürdüm. Maylz ardımca çağırdı:

– Eyden, hara? Ey, Eyden!

– Onu axtarmağa.

– You're beating a dead horse, man![1]

O demək istəyirdi ki, mən gücümü ümidsiz bir işə sərf edirəm. Amma mən Xloeni axtarmaq qərarına gəldiyim anda qəlbimin xoşbəxtliklə necə dolduğunu hiss etdim. Bu da məni məqsədə doğru itələyirdi...

[1] Ay adam, sən ölü atı döyürsən!



Metronun "Bedford" stansiyasına düşüb hər yerə göz gəzdirdim, burada yox idi. Nə etməli, ən azı, metronun 468 stansiyasından birini siyahıdan çıxarmaq olardı. Bir-iki dəqiqədən sonra qatar gəldi. Ona minib yenə gözlərimlə axtarmağa başladım. İçəridə, demək olar ki, adam yox idi. Mən vaqondan-vaqona keçərək bütün qatarı axtardım. "Times Square" stansiyasına çatanda düşdüm. 100 000-lərlə turist, maşın, reklam lövhələri... Dünyanın mərkəzində idim və içimi qüssə bürümüşdü. "Times Square" arı pətəyi kimi qaynayırdı. Xloeyə bənzəyən yüzlərlə qız yanımdan keçib gedirdi.

İzdihamı yarıb keçirəm. Betmen kostyumu geyinmiş bir nəfər məni itələyir, hindlilərin elə küçənin ortasında bişirdiyi kababın tüstüsü bütün bədənimə hopur, yüzlərlə sarı taksinin şütüdüyü yolu keçməyə çalışıram. "Hamlet"in reklam lampaları üzümü işıqlandırır: "Həyat bir teatrdır, biz isə onun aktyorları". Polis maşınlarının sirenası, fotoaparatların çıqqıltısı... "Times Square" böyük bir insanüyüdən maşın, şəxsiyyət şirəçəkənidir.

Mən 10 milyondan artıq əhalisi olan şəhərdə tanımadığım bir qızı axtarıb tapmağa çalışıram. Bildiyim yeganə şey onun qondarma adı və dəqiq olmayan üz cizgiləridir.

Nyu-Yorkun nə qədər böyük olduğunu sözlə təsvir etmək çətindir. Onun miqyasını və əzəmətini ifadə etmək üçün xüsusi olaraq yeni sözlər yaratmaq lazım gələrdi. Roma, Barselona, Paris və Dublin şəhərlərinin hamısı birlikdə Nyu-Yorka sığa bilər. Xloe isə çox balacadır, cəmi bir-iki min kvadrat santimetrlik.

Sevən insanların hərəsi bir cür dəlidir. Bəli, məhz sevən. Mən indi bunu özümə etiraf etməkdən çəkinmirəm. Bu – sevgidir.

Sol tərəfimdə buddist rahiblər mantra[1] oxuyur, sağ tərəfimdə qızlar Amerikanın bayrağı qarşısında toples[2] şəkil çəkdirir. "Hard Rock Cafe"dən gələn uğultu ikimərtəbəli turist avtobuslarının motorlarının gurultusuna qarışıb. Yüzlərlə insan öz telefonu ilə "Times Square"nin bir parçasını oğurlamağa çalışır.

Bəs mən öz sevgilimi necə tapım? Səkidə bir bomj oturub, əlində böyük karton parçası və marker var, nəsə yazmağa hazırlaşır. Ona yaxınlaşıb bir neçə dollar verir və kartonla markeri alıram. Bir qız əlindəki "Gucci"dən olan çantası ilə məni itələyir. Müvazinətimi saxlamaq üçün çantadan yapışıram. Nyu-Yorkun mahiyyəti budur: bir əlində evsiz-eşiksiz adamın kartonu, o birində "Gucci"nin son modeli. Bir kənara çəkilib "Bubba Gump" restoranının qarşısında otururam və qara markerlə kartonun üstünə yazıram: Has anybody seen CHLOE?[3]

---

[1] Sanskrit dilində oxunan söz, heca, yaxud səs birləşmələrindən ibarət dualar

[2] Bədənin yuxarı hissəsi çılpaq halda

[3] Xloeni görən varmı?

Düz "Times Square'nin mərkəzində dayanıb həmin yazını başımın üstündə tutmuşam. Bir dəqiqənin içində yüzlərlə insan yanımdan keçir, heç biri də mənə əhəmiyyət vermir. Kimsə mənimlə şəkil çəkdirmək üçün ayaq saxlayır, kimsə barmağı ilə göstərir. Bu mənə Xloeni tapmaqda kömək edəcəkmi? Hər soyuq baxışdan, tanımadığım adamla növbəti selfidən sonra başa düşürəm ki, Xloe insan okeanında batıb, mən də onunla birlikdə batmışam. Bir də onu görə bilməyəcəyəm. Bu lənətə gəlmiş şəhərdə isə heç vaxt görməyəcəyəm.

Əllərimi başımın altına qoyub isti asfaltın üstünə uzanıram. "Hare Krişna" sədası altında qeyri-müəyyən bir aləmə düşürəm. I am a big big boy in a big big world.[1] Yenə 18 yaşımdayam. Mən o qızı yenə görmək istəyirəm. Heç olmasa, bircə dəfə. Əgər icazə versə, mən onu bir də heç vaxt yanımdan buraxmaram. Əllərimizi yapışdırıcı lentlə bağlayaram. Biz eyni yerdə işləyər, eyni universitetə gedərik, mən onu yanımdan bircə addım da uzağa qoymaram...

Lənət olsun, Xloe, sən məni nə hala salmısan?!

İsti asfaltın üstündə uzanmışdım, bədənimdən mənə tanış olmayan, qəribə, qaranlıq bir enerji axırdı. Sevgi içimdə yurd salmış həmin daxili reaksiya üçün katalizator rolunu oynamışdı. Metamorfoz... Mən başqa bir şeyə çevrilirdim. Bilmirəm, bunda

[1] Mən böyük böyük dünyada böyük böyük bir oğlanam.

kim daha çox günahkar idi – Xloe, ya müsyö Jerar. Ya da öz daxili axtarışlarım məni çəkib bura gətirmişdi.

Mən yolayrıcında, bu xaos meydanında, multimədəniyyət qələbəliyinin içində dayanmışdım. Bu yeni "mən" məni içəridən yeyirdi. Hərçənd o, canlı, maddi bir şeyə oxşamırdı. Daha çox şüurumda olan, içimdəki pak, təmiz duyğuları öz daxilinə soran tünd materiyaya, yaxud qara dəliyə bənzəyirdi. Əvvəl məni cəmiyyətlə bağlayan sinir ucları keyləşdi. Ətrafımdakı adamların hamısı mənə robot, bioloji tullantı, hərəyə 20 dollar ödəməklə nyu-yorkerlər kimi geyinmələri və sadəcə, iştirak görüntüsü yaratmaları tələb olunan hansısa kütlə kimi görünürdü.

Hər söz, hər təbəssüm, təsadüfən tutulan hər baxış – bunların hamısı oyunun bir hissəsi idi. Mən şəhərin çıxardığı səslərin ondan necə lay-lay qoparıldığını hiss edirdim. Keyfiyyətsiz film dublyajlarında, pis quraşdırılmış mahnılarda olduğu kimi, sanki bütün hərəkətlər, bütün səslər bir saniyəliyə ləngiyirdi.

İlk duyduğum şey tam qoparılma, özünü cəmiyyətin xaricində hiss etmə idi. İkinci duyduğum şey – mən gələcəyin illüziyasını itirməyə başlamışdım. Əvvəl dünya nizamlı idi. Keçmiş və indiki zaman vardı, gözəgörünməz bir cığır isə məni gələcəyə aparırdı. Amma indi əlaqə qırılmış, gələcək yoxa çıxmış, onunla birlikdə mənim daxili "to do" vərəqim – görülməli işlər siyahım da itmişdi. Hər şey bu dəqiqədə idi və indiki zamanda bitirdi. Xloe

var, eyni zamanda da yoxdur. Çox güman ki, daha heç vaxt olmayacaq.

Mənim neyronlarım qarşı yollara çıxır və saatda 200 kilometr sürətlə bir-birinə çırpılırlar. Neyronlar bir-birinin ön şüşələrini sındırır, onların təhlükəsizlik kəmərləri qırılır, özləri isə parçalara ayrılırlar. Bu, əsrin qəzası idi. Əks ideyalarla yüklənmiş milyonlarla idrak maşını bir-biri ilə toqquşur və bu sinapsların[1] partlayışı mənim şüurumun bütün dünyasını doldururdu. Mənim Xloeyə olan sevgim itki haqqında adi hekayəyə çevrildi. Başa düşürdüm ki, bu məhz bir daha yaşaya bilməyəcəyim həmin yeganə sevgidir. Mən bunu intizar anından, Xloe mətbəxə girib özü üçün qarğıdalı lopaları tökdüyü andan anlamışdım, buna əmin idim. Onda hələ onun adı Xloe deyildi, o hələ Portlenddən olan katolik qız da deyildi, mən onun dilindən bircə yalan da eşitməmişdim, lakin artıq ona vurulmuşdum. Lap azca, amma qəti şəkildə və həmişəlik. O vaxt yaşadığım duyğu nə rəğbət idi, nə ehtiras, nə də maraq... O, sevgi idi, lap balaca, zərrə boyda, embrion şəklində olsa da, sevgi idi. O, sevgi intizarı idi.

Gənc bir oğlan mənə yaxınlaşdı. Arıq, üzü sızanaqlı bir oğlan idi, uzun sarı saçlarını boynunun arxasında quyruq şəklində yığmışdı.

– Are you ok?[2]

---

[1] Sinaps – iki neyron, yaxud neyronla hüceyrə arasındakı təmas yeri

[2] Yaxşısan?

Gözümü zilləyib bir neçə saniyə ona baxır, bədəninin sərhədini, onun harada bitdiyini, şəhərin harada başladığını təyin etməyə çalışıram.

– Dost, deyəsən, onurğamı sındırmışam. Yıxıldım və... Sonrası yadımda deyil. Hərəkət etmək çətindir. Ayağa qalxmaq istəyən kimi belim ağrıyır.

Ətrafdakı adamlar mərhəmət dolu baxışlarını mənə zilləyir. Kömək etməyə hazır olan xeyirxah amerikalılar... "Times Square"nin işıqları sönüb, telefonların kameraları mənə tərəf çevrilib. Hamı məni, yerdə uzanmış adamı çəkməyə başlayır. Bir insanın necə ölməsi adamlar üçün maraqlıdır. Parlaq reklam lövhələri nə qədər çalışsalar da, ən böyük reytinq bədbəxt hadisələrə məxsusdur – bunu dərk etmək necə də kədərlidir.

– Bu dəqiqə. Sən uzan, tərpənmə, biz təcili yardım çağırarıq.

İKİNCİ HİSSƏ

XAOS

Damaqda qalan dad

Xaos nəzəriyyəsi – bəzi qeyri-xətti
dinamik sistemlərin davranışını təsvir edən
riyazi cihaz. Atmosfer, burulğanlı axınlar,
ürək aritmiyalarının bəzi növləri, bioloji
populyasiyalar və cəmiyyət
bu cür sistemlərdəndir.
"Wikipedia"

Bir il keçdi, Art bitdi və Xaos başlandı.
İntizar bitdi, damaqdakı dad qaldı.
Eyden



Mən "Le Pain Quotidien" adlı restoranda oturmuşam. Restoranın fransızca adında ingilis sözü "pain" var, yəni "ağrı". Bununla nəsə deməyə çalışmıram, sadəcə, yerinə düşdü.

Yanımda şabalıdı saçları olan bir qız oturub. Onun 30 yaşı olar. Mən onu tanımıram, o da məni. Bu restoranda 6-7 metr uzunluğu olan və ziyafət masalarına bənzəyən masalar var. Bu cür masaların arxasında bir-birini tanımayan adamlar oturub. Kimsə restoranın firma yeməyi olan balqabaq şorbası yeyir, kimsə, sadəcə, qəhvə içir. Bəziləri tartina yeyir – bunlar üstünə salat yaxılmış uzun çörək dilimləridir. Budur, biz oturmuşuq – müxtəlif, bir-birinə oxşamayan, şən və kədərli insanlar. Şən onlardır, kədərli isə mən.

Bir qız üzünü mənə tərəf çevirib gülümsəyir. Deyəsən, sifarişlərimizi qarışıq salıblar, biz isə buna yalnız indi fikir vermişik. Mənim qarşımda onun salatı, onun qarşısında mənim ingilis çayım var. Sözsüz keçinmək mümkün deyil. Amerikalılar nə barədəsə danışmağı xoşlayırlar.

– Hə, qarışıq salıblar. Gəlin dəyişək. Sağ olun. Yaxşı gündür, elə deyilmi?

Mən içində salat olan dərin boşqabı ona uzadıb cavab verirəm:

– Hə, yaxşıdır. Amma mən bu gün öz itimi zəhərləyib öldürmüşəm.

– Ohh... I am so sorry![1]

Amerikalı qadına xərçəng xəstəsi olduğunu de – 10 dəqiqədən sonra səni yaddan çıxaracaq. Bütün ailəni öldürdüklərini de – tez yaxasını səndən qurtarmağa çalışacaq. Amma itinin öldüyünü desən, sən onun üçün bir qəhrəmana, nəcib bir şahzadəyə çevriləcəksən. Bunun nə üçün belə olduğunu fikirləşirdim. Mən itləri nə qədər sevsəm də, belə hesab edirəm ki, insan həyatı daha dəyərlidir. Yoxsa elə deyil? Sonra mən şüuraltında nə baş verdiyini anladım. Məsələn, Yaponiyada insanlar kədərli bir şey haqqında, yaxud öz problemləri barədə danışanda belə üzlərində təbəssüm olur. Çünki sənin şəxsi problemlərin müsahibini kədərləndirməməlidir.

[1] Çox təəssüf!

Bu, mədəniyyətsizlik və ədəbsizlik sayılır. Amerikada isə "Uğurluluq" adlanan bir təriqət var və həyatdakı bütün faciələr uğursuzluğun göstəricisi hesab edilir. Əgər uğursuz adamsansa, səndən qorxur və cüzamlı xəstədən qaçan kimi qaçırlar. Halbuki uğurlu insanlar da həmişə xoşagələn deyillər. Çox vaxt məhz onlar rəhmsiz, laqeyd və təkəbbürlü olurlar. Amma şüuraltı olaraq hamımızın xoşuna uğursuzlar gəlir. Biz alçaldılmış və təhqir edilmiş insanların fonunda öz miskinliyimizi daha az hiss edirik. O halda, ev heyvanının ölümündən xoş nə ola bilər? Bu elə bir faciədir ki, sənin uğurluluğuna ləkə gətirmir, üstəlik, ehtiyatda olan şəfqət hissini üzə çıxarır.

Eləcə də iti ölmüş cavan oğlan ailə üzvünü itirmiş gəncdən qat-qat cəlbedicidir. Hollivudda olduğu kimi: çox gözəl görünüşlü qəhrəmanın çapığı üzündə yox, çiynində olacaq. O, deşici yaranı çiynindən alacaq, amma heç vaxt bir qulağını, yaxud bir barmağını itirməyəcək, burnunu sındırmayacaq, qabaq dişlərini qırmayacaq, yaddaşını itirsə belə, heç vaxt kəkələməyəcək. Biz faciələrin diqqətlə dəbə uyğun şəkildə seçildiyi bir dünyada yaşayırıq.

Ona görə də fikirləşdim ki, niyə də mənim bir itim olmasın və bədbəxtlikdən, onu bu səhər zəhərləyib öldürməyim. Mənim Bruklin məzarlığında basdırdığım qoca senbernarım[1]. İt sahibi olan kişilər çox

[1] İt cinsi

seksual görünürlər, çünki it bəsləmək qayğı göstərmək deməkdir. Sən qızın altşüurunda elə indicə kiməsə qayğı göstərməkdən məhrum olmuş qayğıkeş bir oğlana çevrilirsən.

Yəqin ki, mənim bir il əvvəl onurğamı sındırıb-sındırmadığım haqda fikirləşirsiniz. Həm də düşünürsünüz ki, doğrudanmı, bu gün mənim itim ölüb. Əlbəttə ki, yox! Məni bir-iki saatdan sonra xəstəxanadan buraxdılar, dedilər ki, görünür, sadəcə, güclü spazma imiş. Ortopedik döşək almağımı məsləhət gördülər. Düzünü desəm, məndə heç bir ağrı yox idi. Yalnız bir ağrım var idi. Bu restoranın adındakı ağrı yox, Xloe adlı ağrı... Ağrıkəsicim isə yalan oldu. Bu mənim düşüncəmdə dönüş nöqtəsi idi.

İndi həyatınızdakı ən vacib anları, ən əhəmiyyətli hadisələri yadınıza salın. Bir qədər də dərinə gedin və ilk səbəbi axtarıb tapın. Siz aşiq olmusunuz, bu həmin gün konsertə getdiyinizə görə baş verib. Konsertə isə ona görə gedə bilmisiniz ki, həmin gün işə çıxmamısınız, çünki ananızla mübahisə etdiyinizə görə saatın zəngini qurmağı unutmusunuz. Minlərlə ilk səbəb kiçik domino daşları kimi bir-birinin üstünə yıxılıb, hadisələr zəncirini çəkib ardınca aparıb, sizi hazırda olduğunuz məkana gətirib.

Bir il bundan əvvəl, "Time Square"də mən özüm olmaqdan əl çəkdim və evə yeni bir adam kimi qayıtdım. Həyatımda Xloenin olmayacağını fikirləşməyim mümkün deyildi. İki yolum vardı: ya Xloedən

imtina etməli idim, ya da özümdən. Birincisi imkan xaricində olduğu üçün ikincini seçdim. Mən Xloeni sevməyəcək bir adama çevrildim.

– Onun adı nə idi?

Tanımadığım qızın sualı məni restorana qaytarır. Ona baxıb soruşuram:

– Kimin?

– Sizin itinizin.

– Eyden. Onun adı Eyden idi.

– Eyden. Gözəl addır. Çox təəssüf edirəm.

– Sağ olun.

Mən Xloeni axtarmaqdan əl çəkdikdən sonra "Time Square"də baş vermiş hadisə haqqında xeyli fikirləşdim. Görəsən, o vaxt nə üçün belimin ağrıdığını demişdim? Axı əslində heç bir ağrı yox idi. O, kortəbii şəkildə ortaya çıxan bir yalan idi. Elə bil hosteldə qaldığım müddətdə çox böyük dozada yalan şüalanması qəbul etmişdim, indi həmin yalan məndən, sadəcə, axıb tökülürdü. Məni xəstəxanaya apardıqları zaman tibb qardaşlarının mərhəmət ifadə edən üzlərinə baxırdım. Onlar mənim əlimdən tutmuşdular və ürək-dirək verməyə çalışırdılar: "Qorxma, bir azdan xəstəxanaya çatacağıq".

Mənə kömək etmək istəyən xeyirxah insanların xeyirxah baxışları... Bəli, bütün dünya mənə yalan danışmışdı, mən də dünyadan yalanla qisas almaq qərarına gəlmişdim. Deyirlər ki, seriya qatillər çətin uşaqlığı olan insanlardır, sadəcə, onlarla qəddar davranan

dünyaya bu şəkildə qarşı çıxırlar. Məni xəstəxanaya apardıqları zaman dərk edirdim ki, bu mənim ilk yalanımdır. İlk və ən təhlükəli yalanım. Əgər bunun üstü açılmasa, patoloji yalançıya çevrilə bilmək imkanım var. Amerikalılar pişikləri depressiyaya düşəndə, evlərinə dələ girəndə, yadplanetlilər tərəfindən izləndiklərini güman edəndə 911-ə zəng edirlər. Elə fikirləşək ki, mən də qısamüddətli dəlilik hüququmdan istifadə etmişəm.

Bu gün mənim "Greenwich Village"də yerləşən bir evin sahibəsi ilə görüşüm var. O, təxminən 40 yaşlı bir qadındır. Onun üçmərtəbəli braunstounu[1] var. Ev ona əsrin əvvəlində spirtli içkilərin qanunsuz satışından varlanan irlandiyalı ulu babasından qalıb. Baba "Speak easy"lərdən[2] birinin sahibi idi. Nyu-Yorkda spirtli içkilərin qadağan olunduğu "quru qanun" zamanında içkinin satıldığı yerlər belə adlanırdı. Elə indi də belə adlanır.

Yalnız İrlandiyadan gəlmiş gənc mühacirlər belə qorxulu işə girişə bilərdi. "Jack Daniels"[3] menyuda ingilis çayı kimi, şampan şərabı isə fransız qəlyanaltısı kimi qeyd olunmuşdu, kimsə soyuq bir yemək xahiş edirdisə, deməli, Kanada likörü istəyirdi.

---

[1] XIX əsrdə və XX əsrin əvvəllərində Amerikada qəhvəyi qumdaşından tikilmiş evlər

[2] Qadağan olunmuş içkilərin satışı ilə məşğul olan müəssisə

[3] Viski markası

Bu qadına miras qalmış evin təxminən 4-5 milyon dollar qiyməti vardı. "Greenwich Village" Manhettenin tarixi və bahalı rayonlarından biridir. 100 il boyunca bu ev eyni ailəyə məxsus olmuş və ana xətti üzrə ötürülmüşdü.

Biz missis Helenlə artıq 20 dəqiqədir ki, qonaq otağında əyləşmişik və qəhvə içirik.

– Bilirsiniz, mən rəsm çəkəndə dövrün ruhunu duymalıyam, 100 ildən artıq yaşı olan əhvalatların hopduğu divarların arasında olmalıyam. Bəli, bəli, mənim əsərlərim dünyanın 60-dan çox ölkəsinin muzey və qalereyalarında sərgiyə qoyulub.

Mən bu səhər "Rooms" adı altında "Staples"də açılmış təqdimatı ona göstərirəm. Bunlar internetdən yüklədiyim böyük şəkillərdir. Onlarda hansısa rəngarəng dairələr və zolaqlar təsvir olunub. Fotoşopun köməyi ilə şəkillərin altında öz imzamı və əlbəttə ki, daha böyük hərflərlə qiyməti yerləşdirmişəm. Hər şəklin 60 000 dollar qiyməti var. Amma mən qiyməti avro ilə yazmışam. Bu, amerikalılarda bir etibarlılıq hissi yaradır.

Bütün bunların tərifi var. Bu, fırıldaq adlanır. Bəli, sən başqa cür geyinib, özünü başqası kimi qələmə verirsənsə və kiməsə nəsə satmaq istəyirsənsə, bu, fırıldaqçılıqdır. Sən hansısa bir şeyi satan kimi, yaxud hər hansı bir müqaviləni imzalayan kimi cinayətkara çevrilirsən. Lakin həmin ana qədər etdiyin hər şey, sadəcə, gözə kül üfürmək, ziyansız bir yalandır. Siz iş pulun verilməsi anına çatanadək, sadəcə, danışırsınız.

Mənə isə bundan başqa heç nə lazım deyildi. Artıq uzun müddət idi ki, bunu edirdim. Sadəcə, danışır, sadəcə, ünsiyyətdə olur, sadəcə, hər gün yeni bir həyat yaşayırdım. Özümə yeni şəxsiyyətlər geyindirmək mənim təzə hobbim idi.

– Sizin işləriniz mənim çox xoşuma gəlir, xüsusilə də bu.

– Ooo, bu, Belarus neoklassisizm məktəbinin məşhur nümayəndəsi Vasili Petrokovskinin otağıdır. Gözəl insandır.

Artıq başa düşdünüz ki, nə hansısa bir Vasili, nə də onun hansısa bir otağı mövcuddur.

– Siz beləcə, təklikdə, sadəcə, adamların evinə gedir və onların otaqlarını çəkirsiniz?

– Bəli, mən otaqları çəkirəm. Amma adi otaqları yox. Mən bilməliyəm ki, həmin otağa tarixin ruhu hopub, başa düşürsünüzmü?

Mənim fikrim nə qədər axmaq və dolaşıq olurdusa, ona o qədər hörmətlə yanaşırdılar. Nə qədər utanmazcasına danışırdınsa, o qədər səmimi görünürdün. Bəs bunun mənası nədir? Hər şey çox sadədir – məna obyektiv gerçəkliyin şərhindədir. Biz cəmiyyətdə yaşayırıq və bizi insanlar əhatə edir. Biz həmin cəmiyyətə hörmətlə yanaşır, onu qəbul edir və ona uyğun gəlməyə çalışırıq. Nyu-York kimi böyük şəhərlərə düşdüyün zaman hansısa bir məqamda dərk edirsən ki, burada cəmiyyət insandan, şəhər isə cəmiyyətdən böyükdür. 100 il bundan əvvəl kölələrin asıldığı

ağaclar indi, sadəcə, "Washington Square Park"da sincabların evidir.

– İndi siz mənim otağımı çəkmək istəyirsiniz?

– Bəli, bu otaq çox uyğun gəlir. Amma bütün əşyaları çıxarmaq lazım gələcək. Mən, adətən, gecələr işləyirəm. Bütün proses təxminən bir həftə çəkir. Bir də ki, mənə düzgün işıqlandırma üçün lampa lazım olacaq. Baxın, o divarın yanında olsa yaxşıdır.

– Hə, əlbəttə, mən başa düşürəm, başa düşürəm...

– Budur, alın, vizit kartımdır. Mən sizi tələsdirməyəcəyəm. Fikirləşin, əgər təklifim sizə maraqlı görünsə, gəlin bunu edək.

Mən "bunu edək" deyəndə qadının gözlərində bir parıltı görünür. Mən bütün əşyalarımı toplayır və onun əlini sıxıb çıxıram. Qadın səmimiyyətlə üzümə gülümsəyir. Bu, adi, nəzakət xatirinə gülümsəmək deyil, onların xüsusi hallar üçün saxladıqları əsl amerikalı təbəssümüdür. Ertəsi gün mən yoxa çıxacaq və bura heç vaxt qayıtmayacağam. Vizit kartındakı nömrəyə zəng çatmayacaq. Qadın fikirləşəcək ki, mən başqa bir otaq seçmişəm, yaxud ilhamımı itirmişəm, ya da ayrı bir şey baş verib. Amma heç vaxt ağlına gəlməyəcək ki, bu, sadəcə, bir oyun imiş.

Yalan məni dəyişdirirdi, nə pislik istəyirdim, nə də yaxşılıq. Bu, yaxşılıqdan və pislikdən yüksəkdə dayanırdı. Bu, təxminən laqeydlik səviyyəsində bir şey idi. Mən, sadəcə, dayanmadan danışır, elə danışa-danışa da özümdən uydururdum. Bu işdə əsas məsələ qorxmamaq

və riskə getmək idi. Axı qarşıma çıxanlar elə Xloe kimi insanlar idi. Ölümlü insanlar...

– Ölümlü insanlar? – "Pace University"dən[1] olan asiyalı qadın soruşur.

– Bəli, bizim dilimizdə "keçən insanlar" sözü yoxdur. Biz "halial mabtuun" deyirik, bu isə "ölümlü insanlar" kimi tərcümə olunur. Lap dəqiq ifadə etsək, "ölümdən gələn və ölümə gedən insanlar" kimi.

– Necə də maraqlıdır. Bəs niyə elə?

– Çünki "keçən insanlar" siz onlara rast gələnədək yox idilər, mövcud deyildilər. Daha doğrusu, onlar var idi, lakin sizin həyatınızda, sizin taleyinizdə yox idilər. Onlar "heç yerdən" peyda olmuşdular. "Ölümə gedənlər" dedikdə isə aydındır ki, həmin insanların bir daha sənin yanından keçəcəyi və onların sənin yadında qalacağı ehtimalı çox azdır. Statistikaya əsasən, yanımızdan keçən insanların 90 faizi ilə bir də heç vaxt qarşılaşmayacağıq.

– Bu, çox maraqlıdır. Deməli, indi yanımızdan keçən insanları bir də heç vaxt görməyəcəyik?

– Əgər statistikaya və mənim xalqıma inansaq, görməyəcəyik.

– Üzr istəyirəm, sən bunun hansı dil olduğunu dedin?

– Efiokopt dili. Bu, efiop və kopt dilləri arasında bir dialektdir. Bu dildə cəmi 200 000 adam danışır.

---

[1] Nyu-Yorkda özəl universitet

– Hmm... Amma zəngin və qeyri-adi dildir. Axı biz, həqiqətən, yanımızdan keçən adamlar haqda heç vaxt düşünmürük, onları, sadəcə "yoldan keçən" adlandırırıq.

– Hə, o, Qərb fəlsəfəsidir. Karvanların səhra ilə hərəkət etdiyi ölkələrdə isə sənin yanından ayda bir dəfə keçən insana mütləq fikir verir, onun barəsində düşünürsən. Sən dəqiq bilirsən ki, bir neçə saatdan sonra səhra həmin adamı udacaq və onunla bir də heç vaxt görüşməyəcəksən.

Xloe "halial mabtuun" idi. O, heçlikdən peyda olmuş və həmişəlik yoxa çıxmışdı.

"Pace"dən olan asiyalı qadın Dauntaundakı[1] "Chipotle"lərin[2] birində onunla nahar etməyimi istəyir. Lakin mənim artıq getmək vaxtımdır. Bilmirəm, o nə vaxtsa efiokopt dilinin olub-olmadığını yoxlayacaqmı, yaxud "halial mabtuun"u, ya da "Google"da necə gedirsə, onu axtaracaqmı, o termini və həmin dili, sadəcə, özümdən uydurduğumu başa düşəcəkdimi?! Bunun mənim üçün fərqi yox idi, çünki bir azdan yollarımız ayrılacaqdı və biz 10 milyonluq əhalisi olan bu şəhərdə bir daha rastlaşmayacaqdıq.

Mən yalanı o qədər təbii danışırdım ki, bu artıq mənimçün bir əyləncə olmaqdan çıxmış, şüurumun

[1] "Aşağı şəhər"; Şimali Amerikada şəhərlərin mərkəzi, işgüzar hissəsi belə adlanır.

[2] Meksika mətbəxindən olan yeməklərin təqdim edildiyi restoranlar şəbəkəsi

bir parçasına çevrilmişdi. "Post-dini sindrom"un nə demək olduğunu geniş şəkildə mənə izah etdiyi zaman Xloenin nə hiss etdiyini yalnız indi anlayırdım. Onun nə üçün ağlamamağa çalışdığını anlayırdım, bəzən özünü saxlaya bilmirdi və göz yaşları yanaqları boyunca aşağı süzülürdü. Biz cəmi bir neçə həftə ərzində həmin hosteldə çox şey etməyə macal tapmışdıq. Yəqin, hosteldəki hər şey kimi, mənim həqiqətim də ona uydurma kimi görünürmüş. "Mənim həqiqətim" – indi bu ifadə məni hər şeydən artıq qıcıqlandırır. Necə yəni "mənim həqiqətim"? Mənim, sənin, onların həqiqəti, bizim həqiqətimiz? Özümüzü və ətrafımızdakı aləmi dərk etməyə başladığımız gündən bəri bizi neçə həqiqət əhatə edir? Mormonların[1] həqiqəti, kommunistlərin həqiqəti, Qandinin həqiqəti, vegetarianların, narkomanların, fahişələrin həqiqətləri, "New York Times" qəzetinin həqiqəti və "WikiLeaks" həqiqəti, Erix fon Denikenin[2] həqiqəti – bütün bu həqiqətlər bizi hər tərəfdən əhatə edir. Haradasa, lap dərinlikdə təkcə bir həqiqət var, qalan hər şey yalandır. Haradan bilmək olar ki, 99 faiz yalanın 1 faiz həqiqəti məhz bizim payımıza düşüb? Statistika ürəkaçan deyil. Biz aldadılacağımızı gözləyirik. Qəlbimizin dərinliyində hər birimiz bilirik ki, inandığımız, yaxud nə vaxtsa inanacağımız hər şeyin yalan olduğu ortaya çıxacaq.

---

[1] XIX əsrin ortalarında ABŞ-da yaranmış dini təriqətin ardıcılları

[2] İsveçrə yazıçısı və kinorejissoru

– İnsanlar uzun müddət Yerin müstəvi şəklində olduğuna inanırdılar. Bunu böyük alimlər deyir, məktəblərdə uşaqlara öyrədirdilər. Onlar bunu bildiklərinə görə diplom alır və belə hesab etməyənlərdən, yaxud bu barədə heç fikirləşməyənlərdən savadlı hesab olunurdular.

– Hə, nə olsun?

Mən italyan Karlo ilə danışıram. Biz "Makduqall avenyu"da, "Olive Tree"[1] adlanan köhnə bir yəhudi restoranında oturmuşuq. Milli yəhudi mətbəxinin yeməklərinin adları menyuda burgerlər və "fri" kartofları ilə yanaşı yazılıb. Bu şəhərdə hətta menyularda da bir rəngarənglik taparsınız.

Mən, Maylz, Karlo və bir neçə başqa musiqiçi həmin restoranın zirzəmisində oturmuşuq. Burada hər axşam stendap-şou[2] olur. Karlo çıxışa hazırlaşana qədər uşaqlar mikrofonları sazlayır, məftilləri yoxlayırlar. Nyu-Yorkda ofisiantlar, kitabsatanlar, bank xidmətçiləri və pitsa daşıyanlar lap qulyabanılar kimi günəş batdıqdan sonra musiqiçilərə, filosoflara, rəssam və aktyorlara çevrilirlər. Karlonun arzusu məşhur bir stendaper olmaqdır. Düzdür, amerikalılar başqa mühacirlərin – irlandların yumorunu xoşlayırlar. Onların yumorunun canlı və daha abırsız olması amerikalıların xoşuna gəlir. Əlbəttə, onlar qaradərililərin qara yumorunu da çox bəyənirlər. Amma deyə

[1] "Zeytun ağacı"

[2] Bir ifaçının, aktyorun canlı auditoriya qarşısında çıxışı

bilərəm ki, italyanlar yumor hissi və temperamentdə heç də o birilərindən geri qalmırlar.

– Belə ki, Karlo, cəmiyyət müəyyən müddət ərzində hansısa bir həqiqətlə razılaşır: Yer yastıdır, yaxud öküzlərin üstündə qərar tutub, ya da Allahın oğlu göydən enib və insanların günahlarına görə çarmıxda ölüb. Sonra bu barədə çoxlu qalın kitablar yazırlar.

– Hə, elədir, dostum. Axı nə olsun?

– O olsun ki, bütün bunları fikirləşənlər bunun cəfəngiyyat olduğunu hamıdan yaxşı bilirlər. Amma bu onlara pul, şöhrət, cəmiyyətdə mövqe və onunla bağlı olan hər şeyi qazanmağa mane olmur. Tariximiz boyunca həmişə belə olub.

– Hə, dostum, elədir, – Karlo başını tərpədir.

Maylz öz pivəsini içib deyir:

– Eyden, qurtar bu zibili. Yaxşısı budur, musiqidən danışaq. Layihəni nə vaxt hazırlayacağıq?

Hə, mən sizə deməyi unutmuşam, axı biz indi Maylzla birlikdə musiqi qoşuruq. Bir də Naomi var, o həm gitara çalır, həm də yardımçı vokalçıdır. Mən ömrümün yarısını səhnədə, yarısını isə səhnə arxasında keçirmişdim. Budur, indi Nyu-Yorkdayam, amma heç nə dəyişməyib.

– Ey, Eyden, dostum, axı sən ardını danışmadın, – Karlo məni söhbətə qaytarır.

– Hə, mən demək istəyirdim ki, insanlar yalana görə pul ödəməyə alışıblar və bunu etməyə meyillidirlər. Şamanlardan başlamış, bax bu stendapa qədər.

Biz həqiqi işlərdə çalışır, alın tərimizlə həqiqi pullar qazanırıq və günlərin bir günündə onları yəhudi restoranının zirzəmisində bizə satılan yalana xərcləyirik. Çünki incəsənət bütünlüklə uydurmadır: musiqiçilər yaşamadıqları sevgi haqqında oxuyur, siyasətçilər özlərində olmayan vicdan haqqında danışır, modelyerlər özlərindən mövsümün rəngini uydurur, yazıçılar olmayan şeylərdən yazırlar. Bütün dünya belədir. Biz qarşılıqlı surətdə hər birimizə xoş olan yalanın içində yaşayırıq.

Karlo da sözümə qüvvət verir:

– Bizim restoranın menyusunda ən bahalı yemək "Şefdən xüsusi olaraq" yeməyidir. Onun qiyməti 27 dollardır. Bilirsinizmi, məsələ nə yerdədir? – Ortaya italyan, hətta demək olar ki, mafiya sükutu çökür. – Həmin xörək ən köhnə, sadəcə, əl altında olan ərzaqlardan hazırlanır. Axı heç kim bilmir ki, şefdən xüsusi olaraq hansı xörək təqdim edilir. Bu həmişə ən köhnə yeməkdir, onu tez satmaq lazımdır ki, tamamilə xarab olmasın. Beləliklə, restoran ən köhnə yeməyini bizə ən baha qiymətə satır. Eyden, dostum, sən haqlısan, insan bu cür yaranıb. Bizə həqiqət lazım deyil. Yaxşısı budur, mənə gözəl bir yalan satın, amma elə edin ki, mən ona inanım.

Maylz bizi gerçəkliyə qaytarır. İndi musiqini öz qonşusu ilə müzakirə edə bilməsi onun xoşuna gəlir. Maylz bizim planlarımız haqqında arasıkəsilmədən danışmağa, gecə konsertləri verməyə, kuponlu biletlər

düzəltməyə, yeni sinqlların ideyalarını irəli sürməyə və bu kimi başqa işlər görməyə hazırdır. Hansı kik və baslardan istifadə etmək, musiqini hansı janrda yazmaq, hansı studiyada yazdırmaq daha yaxşıdır... Yavaş-yavaş bir il bundan əvvəl imtina etdiyim köhnə həyat tərzimə qayıdıram. Mən keçmiş həyatımdan Nyu-Yorka qaçmışdım ki, yeni bir insana çevrilim. Əgər yenə köhnə cızma-qaraları çəkəcəkdinsə, onda ağ vərəqdən başlamaq nəyə lazım idi?

Mən öz işimi bilirəm. Bilirəm ki, cəmi bir-iki aydan sonra Maylz və Naomi ilə birlikdə öz yeni demomuzu buraxacağıq. Sonra bar və klublarda konsertlərimiz başlayacaq. Amerikada yaradıcılıq pis satılmır, yerlilər səxavətlə pul verməyə hazırdır. Müəllif hüquqları, "iTunes"[1] və başqa şeylər də öz yerində. Vəssalam, hesab elə ki, həyat öz qaydasına düşüb.

Lakin mən insanın 8 il ərzində hansı işlərə qadir olduğunu dərk etdiyimə görə öz daxili xaosumun tələsinə düşürdüm. Əgər indi 40 yaşım olsaydı, mənim üçün daha asan olardı. Mən kiməmsə oyam, dəyişmək üçün vaxtım və imkanım getdikcə daha da azalır. Əgər 50 yaşım olsaydı, əminliklə deyərdim ki, çox gözəl bir həyat yaşamışam və indi dincəlmək istəyirəm. Lakin mənim hələ 27 yaşım vardı və həyat yenicə başlamışdı. Bəli, mən ömrümün son 8 ilini şöhrətə, tez əldə edilən pula və seksə həsr etmişdim.

---

[1] "Apple" şirkəti tərəfindən işlənib hazırlanmış, musiqi və filmlərin təşkili və təkrar istehsalı ilə məşğul olan mediapleyer

8 il bundan əvvəl ilk dəfə səsyazma studiyasının kabinəsinə girdiyim zaman notları tanımır, necə oxuyacağımı bilmirdim. İndi isə musiqidən dərs deyə bilərəm. Mən başa düşürdüm ki, bu gün hər hansı bir işə başlasam, 35 yaşımda artıq həmin işin peşəkarı olacağam. 18 yaşda ikən seçim etmək daha asan idi. Mən, sadəcə, ağlıma gələni edir, sonrasını fikirləşmirdim. Amma indi Nyu-Yorkla üz-üzə dayanmışdım. Mənə "Hər şey etmək olar" deyən bu böyük şəhərlə. Mən dünyada hər şeydən çox məhz bu sözlərdən qorxurdum.

Əgər ilk görüş zamanı yeri sən təyin etməli olursansa, özünü narahat hiss edirsən. Bu səni əzir. Hətta hər hansı bir yolayrıcında belə ayaqüstü nəsə yeyə bilərsən, təki yeri özün seçməyəsən. Şaurma bir fürsətdir, taleyin təklifinə sənin razılığındır. Sənin seçimin isə sənin zövqün, sənin xarakterin, sənin münasibətindir, sən kimsənsə, odur. Insanlar ömürləri boyunca məhz bu seçimdən qaçırlar. Bir zamanlar tale mənə bir təpik vurub səhnəyə itələmişdi. Lakin mən bununla razılaşmadım, özüm müstəqil olaraq seçim etmək istədim və bura – hər şeyin satıldığı bu istəklər mağazasına düşdüm. Bunun üçün ömrün 8 ilini sərf etmək kifayətdir.

Mən bu xəyali istəklər mağazasına daxil oluram. Satıcı məni qarşılayır.

– Xoş gəlmisiniz, ser! Necə bir tale istəyirsiniz?

Çaşqın halda vitrinlərə baxıram, hamısında mənim fotoşəklim var, amma hərəsində ayrı cür görünürəm.

– Buradakılar yeni kolleksiyamızdır. Yaxına gəlin, bunlar startaplardır. Burada siz telefonlar üçün "application" fikirləşirsiniz. Burada da tale pis deyil – Uoll-Stritdən menecer. Orada molekulyar mətbəx restoranının baş aşpazıdır. Burada isə Manhettendə yerləşən qadın fitnes klubunda məşqçi. Pis tale deyil, yaxşı qazanc və daimi seks təmin olunur.

– Bəs oradakı nədir?

– Ooo, ser, bağışlayın, bu talelər artıq satılmır. Bu, kikboksinq üzrə çempiondur, bu, məşhur futbolçu, bu isə opera müğənnisi. Əgər bir 10 il bundan əvvəl gəlsəydiniz... Bu taleləri uşaqlıqdan geyinmək lazımdır.

Mən mağazada gəzir və ətrafa baxıram.

– Bəs orada nə var?

– Hə, bu? Bu, fizika sahəsində kəşflərə görə Nobel mükafatıdır.

– Ona da gecikmişəm?

– Yox, istəsəniz, əyninizdə yoxlayıb lap sabahdan başlaya bilərsiniz. Siz heç yerə gecikməmisiniz. Bu kostyumu 30 il geyinməlisiniz, nəticə təmin edilir. Zəmanət əlavə olunur. Nobel mükafatı olmasa belə, sizin üçün, ən azı, yüzlərlə elmi məqalə, elmi dərəcə və Harvard Universitetinin kafedrasında yer görünür.

– Qəribədir, mən fikirləşirdim ki, bütün bunlara məktəbdən başlamaq lazımdır.

– Yox, nə danışırsınız? Nyu-Yorkda birinci kurs tələbəsinin orta yaşı 25-dir. İstədiyiniz şəxs olmağı

öyrənə bilərsiniz. Həm də nə istədiyinizi bildiyinizə görə, cəmi 8 il ərzində ağlasığmaz uğurlar əldə etmək olar.

– Hətta bunu da? – proqramçını göstərirəm.

– Hə, əlbəttə. Bir neçə il əziyyət çəkdikdən sonra proqramlaşdırma dilini öyrənəcəksiniz.

Mən hər səhər bu istəklər mağazasına gəlirdim. Mən kim idim? Kim olsam yaxşıdır? Bu xaosda xoşuma gələn yeganə şey bu idi ki, mən Xloenin yoxluğuna alışmağa başlayırdım. Xloe Nyu-Yorkun təzyiqi altında yavaş-yavaş altşüuruma batırdı. Mənim altşüurumda isə elə bir qarışıqlıq vardı ki, Xloe bütünlüklə ora düşsəydi, bir də heç vaxt onu tapmayacaqdım. Bir yığın lazımsız zir-zibilin arasında Xloe də yoxa çıxacaqdı. Mənim Xloem. Mənim yeganə qeyri-həqiqi məhəbbətim...

– Ey, Eyden, sən hələ bizimləsən? Bu mahnının sonundakı "riqq partiya" haqqında nə fikirləşirsən? Ümumiyyətlə, səncə, buradakı "padi"lər necədir?

– Mmm... Hə, mən...

– Ooo, Naomi də gəldi. Salam, balaca, gəl yanımıza.

– Uşaqlar, çox qaranlıqdır, bura işıq salın... – boğuq bir tappıltı eşidirik. – Oh shit, fucking table.[1]

---

[1] Lənətə gəlmiş masa

Xloe parçalar halında

Nyu-Yorka gəldikdən sonra "mümkün deyil" sakitləşdiricisindən məhrum olursan.
Eyden



– Gəl oyun oynayaq, – Xloe gülümsəyir və nazla çarpayının bir tərəfindən o biri tərəfinə atılır. – Bu dünyada xoşuna gəlməyən nədir? – Mənim danışmağıma imkan vermədən dərhal izah edir: – Dəqiqləşdirim. Müharibələr, bombalar, yoxsul və ac uşaqlar. O mənada yox, onlar insanların özlərinin yaratdıqları sosial problemlərdir. Bəs əgər bu dünyanı paltar kimi əyninə geyinsən, ona bir film kimi kənardan baxsan, sırf estetik baxımdan, sənin xoşuna gəlməyən nədir?

– Hmm... Sırf estetik baxımdan? Maraqlı sualdır. Bilmirəm, heç vaxt bu barədə fikirləşməmişəm. Sırf estetik baxımdan...

Baxışlarımı onun belində, boynunda, hamar dərili qəşəng ayaqlarında gəzdirirəm. Xloedə olan hər şey məni qane edir – sırf estetik baxımdan.

– Sən çox fikirləşirsən. Ağıllı bir cavab tapmağa çalışma, sadəcə, ilk ağlına gələn nədirsə, onu de.

Onun dediyi kimi edir, ilk ağlıma gələni söyləyirəm:

– Mənim xoşuma gəlməyən odur ki, biz kişilər eyni yerdən həm sidik ifraz edir, həm də sperma axıdırıq.

– Ha-ha-ha! Bu mənim də xoşuma gəlmir, – telini düzəldir, aydın və parlaq gözləri işıqlanır. – Mənim isə yeməyi çeynəyib sonra udmaqdan xoşum gəlmir.

– Necə yəni?

– Biz yeməyi ağzımızda çeynəyirik. Hərçənd bunu görmürük, amma bir az iyrəncdir. Biz qidanı mədəmizdə yox, açıq yerdə xırdalamalı oluruq. Olmazdı ki, biz də osminoqlar, ya da balinalar kimi edək? Hər şeyi bütöv udaq, orada isə öz-özünə həzm olunsun. Dadlı-ləzzətli ət tikəsini ağzımızın içində anlaşılmaz bir sıyığa çevirmək çox çirkin bir şeydir. Həm də üzümüzə yaxın bir yerdə. Bu, qətiyyən estetik deyil.

– Mənimsə qırmızı yanbızlı meymunlardan xoşum gəlmir. Onlar hansı meymunlardır, makakalar, yoxsa babuinlər? Bu, çox iyrəncdir.

– Mənimsə, ümumiyyətlə, heç bir yanbızdan xoşum gəlmir, – gülür.

Maylzın arzusu



Üç ay bundan əvvəl, nəhayət, EB1[1] vizası aldım. Həyatımın bu hissəsi pərdə arxasında qalırdı – ayaqyoluna getməyim, "Rite Aid" vitamini qəbul etməyim, Brodvey küçəsində "Gyro"[2] almağım, 5-ci avenyuda, sonra isə "Atlantic Barclays"da vans ayaqqabılar axtarmağım kimi.

Bruklində yerləşən, müxtəlif ənənəvi yeməklər sifariş etdiyim "Old Baku" kafesində həmyerlilərimlə görüşlərim də pərdə arxasında idi. Sənədlərlə, Nyu-York ID ilə, aylıq haqqı 116 dollar olan və yeri gəlmişkən, artıq 5 dollar bahalaşan limitsiz MTA metro kartı ilə bağlı bütün əhvalatlar və bu hekayə üçün o qədər də əhəmiyyəti olmayan bir çox başqa detallar da pərdə arxasında qalırdı.

70-ci illərdə montaj icad edildikdən sonra filmlərdə su azaldı, məna isə çoxaldı. Məsələn, əgər əvvəllər qəhrəmanın evə gəlməsini, açarı çıxarıb qapını açmasını, əvvəl dəhlizə, sonra qonaq otağına daxil olmasını göstərmək üçün rejissora beş dəqiqə lazım olurdusa, indi bütün bunlar cəmi bir neçə saniyə vaxt

[1] Qeyri-adi qabiliyyət sahibi olan insanlara ABŞ-da daimi yaşamaq hüququ verən viza

[2] Yunan mətbəxinə aid, dönər, yaxud şaurmaya bənzər yemək növü

aparır. Birinci saniyədə qəhrəman qapının önündə dayanıb, ikinci saniyədə isə artıq qonaq otağındadır, öz yoğun siqarını çəkir. Bu şoğərib montaj həyatımıza elə dərindən daxil olub ki, hərdən canımız sıxılanda dolanıb ömrümüzün də növbəti kadrına keçmək istəyirik. Bilirsinizmi, "Canal Station"dakı tıxacda nə qədər vaxt itiririk? Yaxud "Starbucks"da telefonun enerji yığması üçün mənbənin olduğu, pəncərənin isə ayaqyoluna deyil, hər hansı bir mənzərəyə açıldığı yerdə rahat masa axtarmağa nə qədər vaxt sərf edirik? Düşünürəm ki, bizim 8 saat yatmağımızın səbəbi bədənimizin yorulması deyil, həyatımızda montajın olmamasıdır. Məhz bu səbəbdən günün sonunda canımız sıxılır və yatmaq istəyirik.

Beləliklə, sizi lazımsız təfərrüatlarla yormamaq üçün EB1 vizasına görə müraciət etdiyimi deməmişdim. Bu, məşhur və istedadlı adamlar üçün xüsusi vizadır. Onun köməyi ilə ABŞ-da maneəsiz olaraq yaşamaq hüququ qazanırsan. Başa düşəndə ki bunu edən təkcə mən deyiləm, kseroks qoxusu hopmuş bu uzun proses bir qədər xoşagələn olur. Paulo Koelyo, Adel, yaxud Vaçovskilər ABŞ-da bu cür viza ilə qalır. Onlar da bütün bu prosedurlardan keçməli olurlar. Onlardan ID tələb etdikləri zaman üzlərində hansı ifadənin yarandığını təsəvvür edirsiniz? ID? Hansı ID? Bəlkə, məni, sadəcə, "Google"da axtarasan?

Indi mənim EB1 qrin kartım vardı və mən geriyə qayıtmaya bilərdim. Lakin bu hal mənim daxili

xaosumu daha da artırırdı. Erix Fromm[1] deyirdi ki, insan ictimai varlıqdır, o mütləq kiməsə tabe olmalıdır. Bəli, məhz tabe olmalıdır. Axı biz milyon illərlə primat olmuşuq və alfa erkəyə itaət etmişik. O nə etmək lazım olduğunu deyirdi və bütün qəbilə onun göstərişlərinə əməl edirdi. Meymunların üstünlüyü onda idi ki, cəngəlliklərin dərinliyində yaşayır və çox nadir hallarda başqa icmalarla qarşılaşırdılar. Onlar üçün hər şey aydın idi: bir meşə, bir ölkə, bir qəhrəman, bir tarix və bir mümkün yol var.

Bəs bizdə necədir? Bizdə arxasınca getməyin mümkün olduğu minlərlə alfa erkək və alfa dişi var. Mahatma Qandidən tutmuş Teylor Sviftə qədər – hamısı insanları öz arxasınca aparır. Lakin kimin ən birinci yerdə olduğunu necə müəyyən etmək olar? Meymunlar üçün aydın idi – ən iri və ən güclü erkək başda dayanırdı. İnsan cəmiyyətində isə bu hər saniyə dəyişən bir təmayüldür. Obamanın natiqlik istedadı, yoxsa Cennifer Lourensin döşləri? Bəlkə, Riçard Dokinzin ziyalılığı, yaxud Derulonun əyləncəli mahnıları? Mənim son ümidim bütün zamanların və bütün xalqların ən böyük alfa erkəyi Cənab Bəxt, Əlahəzrət Şərait idi. Viza aldığımı mənə dedikləri zaman nəfəsim kəsilmişdi – bir uşağı iki metr hündürlükdən hovuza atdıqları zaman həyəcandan nəfəsi beləcə kəsilir.

[1] XX əsr alman sosioloqu, filosofu və psixoloqu

Vəssalam! İndi mən hər şey edə bilərəm. Mən heç nəyə bağlı deyiləm. Müstəqiləm, azadam və təkəm. Mən "Hər şey mümkündür" planetindəyəm, lakin bələdçimi əlimdən alıblar. Xloe mənim mayakım idi. Mayakım ola bilərdi. Axı hamımıza bir yol, bir məqsəd, zəhrimara qalası ipoteka, yaxud təhsil üçün kredit lazımdır. Elə bir şey lazımdır ki, ondan yapışa biləsən. Elə-belə, alaq otu kimi harada gəldi yaşamaq mümkün deyil. Ruhun tam azadlığı və sonsuz seçim imkanı qarşısında qorxu məni içəridən boğurdu.

– Bəs sən nə istəyirsən, Maylz?

– Dostum, mən çoxlu pul istəyirəm. Bunu hamı istəyir, elə deyilmi?

– Yaxşı, sən o çoxlu pulla nə edəcəksən?

– Bir şampan şərabı götürüb iki sarışın qızla birlikdə cakuzinin içində oturacağam. Bax bunu edəcəyəm, dostum. Mən özümün "Trump Tower"in[1] üzbəüzündə yerləşən penthausumda[2], vanna otağında o qızlarla yatacağam. Vanna otağının Manhettenə baxan panoramlı şüşə pəncərələri olacaq. O qızlar mənə minet etdikləri zaman öz şampanımı içəcək, günəşin batmasından, cinsiyyət üzvümün isə qalxmasından həzz alacağam.

Maylz, heç olmasa, nə istədiyini bilirdi.

– Yaxşı, bəs sən konkret bir şey istəyirsənsə?

– Dost, nə mənada?

---

[1] Tramp qülləsi

[2] Hündür binaların yuxarı mərtəbələrində dama artırması olan çoxotaqlı mənzillər

– Sənin yaxşı arzun var. Mən də belə bir şeydən imtina etməzdim. Əgər həmin sarışın qızlardan biri Cennifer Lourens, digəri isə "Uoll-Stritdən olan canavar" filmindəki qız olsaydı.

– Hə, bu, əntiqə arzudur, Eyden. Yaxşı, bəs problem nədədir?

– Sənin həyatında belə məqamlar olubmu: elə bil hər şey əla görünür, amma nəsə qaydasında deyil?

– Nə mənada deyil?

– Deyək ki, sən çoxdan pendirli və bekonlu burger istəyirdin...

– Aha...

– Budur, sən oturub öz sevimli filminə baxırsan və həmin burgeri dişləyib yeyirsən. Filmin çox maraqlı yeridir. Tom Kruz Dubayda göydələndən asılı qalıb, şəhərə isə qum qasırğası yaxınlaşır. Qəhrəman şüşəni sındıra bilməlidir ki, qasırğa onu udmamışdan əvvəl otağa girə bilsin.

– Bu ki "Missiya mümkün deyil. Kabus protokolu" filmidir.

– Hə, odur, amma mən başqa şey demək istəyirdim. Sən iki dəqiqə gərgin halda gözünü zilləyib Tom Kruzun buna necə nail olduğuna baxırsan və burgeri nə vaxt yeyib qurtardığından xəbərin olmur.

– Lənət olsun, yəni mən heç bekonun necə xırçıldadığını da hiss etməmişəm?

– Hə, lənət şeytana, sən hətta ağzında əriyən çedder pendirini və mal ətinin yağlı şirəsini də hiss etməmisən.

– O shit, – Maylz gülümsəyir.

– Sən artıq burgerin axırına çıxmısan. Məqam keçib. Orada pendir də, bekon da, çörək də olub, sənin 32 dişinin hamısı, dilinin milyonlarla reseptoru orada olub, təkcə sənin özün orada olmamısan. Burgerin dadı ketçuplu süngərdən fərqlənməyib.

– Lənət olsun, Eyden, sən məni yediyim və heç nə hiss etmədiyim bütün burgerləri xatırlamağa məcbur etdin. Acınacaqlı mənzərədir.

– Maylz, əgər o sənin arzun idisə? Bəs birdən sən cakuzidə sarışın qızlarla birlikdə olanda da eyni hal baş verərsə?

– Ooo, yox, lənət şeytana, Eyden! Dayan, dostum. Burada sənlə razılaşmıram. Sarışın qızlarla olanda mən hər şeyi hiss edəcəyəm. Düz 20 saniyəyə boşalacağam.

Həmin gün öz "mən"imə qarşı çox acıqlı idim. Axı fikirləşmək yox, əməl etmək lazım idi. Xloe yoxdur – heç olmasın. Naomi var – hər dəfə biz məşq edəndə gözlərini mənə zilləyir. Suallar vermək lazım deyildi, öz arzuma malik olmalı idim. Sözün həqiqi mənasında "malik olmaq". Fikirləşdim ki, hər hansı bir arzunu həyata keçirməyin vaxtı çatıb. Həyatımın həmin mərhələsində öz arzum olmadığı üçün, Maylzın arzusunu həyata keçirmək qərarına gəldim. Bilmirəm, bu mənim tərəfimdən nə dərəcədə ədalətsiz

bir hərəkət idi, amma həmin "Dream Plan"ı[1] qəti şəkildə həyata keçirmək istəyirdim.

Hə, bu, gerçəklikdən uzaq, əlçatmaz bir arzu idi, amma Manhettendə də hərfi mənada əlçatmaz, buludlardan yuxarı olan penthauslar var idi. Bir neçə gündən sonra Midtaunda dəbdəbəli bir penthaus tapdım, düzdür, lap "Trump Tower"in qarşısında deyildi, amma oradan da çox gözəl mənzərə görünürdü. Mən adi mənzil yox, Maylzın təsvir etdiyi kimi, panoramlı pəncərələri, mərmər döşəməsi, açıq cakuzisi olan bir studiya[2] seçmişdim. "Tutmaq" düyməsinin qarşısında "1500$ per night"[3] yazılıb. Maylzın arzusu çox da baha başa gəlmirmiş. Düzdür, bu, az qala, Uilyamsburqdakı mənzilimin bir aylıq kirayə haqqına bərabərdir, lakin insanlar hərdən ağılsız addımlar da atırlar, elə deyilmi? Xüsusilə də Nyu-York kimi bir şəhərdə olduqları zaman.

Mənzil məsələsini həll etdik. Sonra elit Nyu-York eskort saytına daxil olub cüt işləyən sarışın qızlar axtarıram. Gözəl qızlar tapmaq həmin penthausu tapmaqdan da asan imiş. Buna təxminən yarım saat vaxtım gedir. Mənzil kimi, bu məsələdə də hər şey internetlə həll edilir. Danışmaq, qiymət soruşmaq, sövdələşmək lazım deyil. Kerolun qiyməti 850 dollardır, Amberin qiyməti isə cəmi 400 dollar, hərçənd

[1] Arzu planı

[2] Burada: ara divarları olmayan geniş mənzil

[3] Hər gecəsi

o mənim daha çox xoşuma gəldi. Elit qızlar həyat çətinlikləri üzündən bədənini satan küçə fahişələri deyil. Bu qızlar sekslə peşəkarlıqla məşğul olur və öz işlərini sevirlər. Elit eskortun bütün gözəlliyi bundadır. Onların həmişə böyük seçim imkanı var, xoşlamadıqları adamlara, sadəcə, artıq bütün günlərinin tutulmuş olduğunu deyirlər. Həm də onlar hər gün yox, həftədə iki-üç dəfə işləməli olurlar. Onlar artıq fahişə deyil, frilanser[1] arvadlardır. Sayt əmin edir ki, qızlar daim tibbi müayinədən və gözəllik salonlarının prosedurlarından keçirlər.

Məni nə utandıra bilərdi? Elə bil ki heç nə. Mahiyyətcə heç nə ilə fərqlənmirdik. Mən də özümün bir hissəmi, öz yaradıcılığımı pulla satırdım. Bizim hər birimiz nəsə satırıq. Amerikalı bir psixopat tanış qızlarından birini "restoran fahişəsi" adlandırmışdı, çünki qız dərhal bütün işini-gücünü atıb onunla "Dorsey" restoranında şam etməyə razılaşmışdı. Mən də bu cür qızları çox görmüşdüm. Maşın xatirinə hər kəslə yatmağa hazır olan "restoran fahişələri", şişirdilmiş qol əzələlərinə görə hər şeyə hazır olan "bodibildinq fahişələri" və əlbəttə ki, mənim "YouTube"da baxış sayına görə asanlıqla satın alına bilən sevimli "feym" – şöhrət fahişələrim. Hamısı həmin dişi meymunlar və həmin alfa erkəklərdir. Böyük cinsiyyət üzvü var, böyük pulqabısı, maşını, yoxsa "Instagram"ı – bunun əhəmiyyəti yoxdur.

[1] "Freelancer" – azad rəssam, azad işçi

Bütün bunları düşünərək həmin iki qızı satın alıram və Müstəqillik gününə görə 10 faizlik endirim də əldə edirəm. Doğrudanmı, artıq yayın yarısı keçmişdi? Amma təşkil etməyə hazırlaşdığım hərəmxanaya görə Müstəqillik günü endirimi qazanmaq o qədər də ürəkaçan bir şey deyil.

Amberdən mənə SMS gəlir: "Hi dear, its me, Amber. Please send me your location. I am so excited to meet you tonight. Love, Amber"[1]

Əminəm ki, mənə yazan adam avtomatlaşdırılmış göndərilmə əlavəsini yaratmış eynəkli proqramçıdır. İndi məndən ünvanı öyrənir, sonra isə onu qızlara göndərəcək.

Metro kartını götürüb metroya düşürəm. Midtauna 20 dəqiqəyə çataram. 34-cü avenyuda və "Herald Square"də çıxacağam. Nyu-York metrosu, yeraltı musiqiçilər, çinlilər, qəribə geyimli cavanlar, müxtəlif tatulu insanlar, tako satanlar, tələbələr, biznesmenlər, siyasi qaçqınlar, qanunsuz mühacirlər və bələdiyyə işçiləri... Bir araya sığması mümkün olmayan saysız-hesabsız insan bir vaqona sığıb. QİÇS xəstələri və şizofreniyalılar, alkoqoliklər və pedofillər, onların arasında da mən – ortaboylu, qarasaç, yarımühacir oğlan. O, bir azdan göydələnə qalxacaq və Nyu-Yorku öz altına alacaq. Sizə əminliklə deyirəm ki, mən üstdə olacağam.

[1] Salam, əzizim, bu mənəm, Amber. Xahiş edirəm, mənə ünvanını göndər. Bu axşam səninlə görüşəcəyimə görə çox həyəcanlıyam. Sevgi, Amber.

Binanın içinə girirəm. Qapıçıya kim olduğumu, bura nə üçün gəldiyimi izah etməyə bir neçə dəqiqəm gedir. Bu, təptəzə geyinmiş və ingilis dilində gözəl danışan bir hindlidir. O mənə bir ağ kart, liftin və penthausun açarlarını uzadır. Kartı əlimə alıram, o, sürüşkən və soyuqdur. Aralandığım zaman qapıçı mənim kedlərimə baxır. Yəqin ki, onlar bura daxil olan ilk vanslardır. Ona görə yox ki, başqaları bunu bacarmır, ona görə ki bunu bacardıqlarından xəbərləri yoxdur. Bu mənə cəmi 1500, üstəgəl 1250 (10 faizlik endirimlə) dollara başa gəlib, yəni birlikdə təxminən 3000 dollara. Tezliklə mən onun arzusuna çatanda Maylz yanbızında kəskin bir ağrı hiss edəcək.

Liftin sürətindən qulaqlarım tutulur. Güzgüdə öz əksimə baxıram, başdan ayağa qara geyinmişəm. Mən dəyişirəm. Yəqin ki, belə olması yaxşıdır. Son zamanlar sadə və saya paltarlar geyinməyə başlamışam. Eyni üslubda qara idman köynəkləri, qara cins şalvar və qara kedlər. Heç bir yazı, heç bir incəsənət, heç bir artıq şey yoxdur. Dəri səviyyəsində bir geyimdir. Əgər bu üslubun hər hansı bir adı olmalıdırsa, məncə, ən yaxşı ad "antinudist" olardı. Lakin mən bir azdan antinudist paltarımı soyunub özgənin arzusunu həyata keçirəcəyəm. Bu addımda nəsə ilan xislətli bir şey var. Özgənin arzusunu oğurladığımı yox, hər dəfə seksdən əvvəl dərimizi soyunduğumuzu nəzərdə tuturam.

Mən öz nömrəmi tez tapıram, kartı qapının sağ tərəfindəki xüsusi yarığa salıram və otağın işığı yanır.

Bura qonaq və yataq otaqları, böyük vannası olan çox geniş bir penthausdur.

Manhetten heç vaxt bu qədər gözəl olmayıb. Mənzərə "Imax" kinoteatrlarındakı kimi görünür. Hər şey fotoşəkillərdəki kimidir. Saata baxıram. Qızlar 15 dəqiqədən sonra gəlməlidir. Hə, elədir. Vannanı doldurmaq lazımdır. Suyu açmaq istəyirəm, amma burada kran əvəzinə hansısa düymələr var, nəsə alınmır. Bu zibil hay-tek cakuzi məndən reg1, reg2, hid1, hid2, ya da au1 seçməyimi istəyir. Lənət olsun, vanna otağındakı telefonu götürüb 0-ı yığıram.

– I'm sorry, I am just a little bit confused about this tub.[1]

– Oh sure, no problem. If you.. regular... dispatch... so it's just... remote... control... and then...[2]

Xəttin o başında sükut yaranır. Heç nə başa düşmürəm. Anladığım yalnız budur ki, mənim başa düşmədiyim onun hindli aksentidir.

– I just want some regular hot water. You know?[3]

– Sure, ok, sir...[4]

Yenə eyni şey baş verir, amma bu dəfə daha uzun çəkir və axırda onun tələffüzündən sual verdiyini başa düşürəm.

---

[1] Üzr istəyirəm, mən bu vannadan baş çıxara bilmirəm.
[2] O, əlbəttə, problem yoxdur. Əgər siz... müntəzəm şəkildə... göndərirsinizsə... belə ki, bu, sadəcə... uzaqdan nəzarət... sonra isə...
[3] Sadəcə, müntəzəm isti su istəyirəm. Siz bilirsiniz?
[4] Əlbəttə, yaxşı, ser.

– What? I am sorry, but I don't understand you. Can you please come and fix it?[1]

– Sure. I will be in a minute.[2]

Qapıçı yuxarı çıxanadək musiqi qoymağa çalışıram. Ümid edirəm ki, bu məsələdə problem yaranmayacaq. Hər halda, musiqidən çox yaxşı başım çıxır. Telefonumu blutuz dinamiklərə qoşub "YouTube"da musiqi axtarıram. Mən, adətən, "ambient-sci fi", yaxud "dark chill" altında sekslə məşğul oluram, yalnız çox nadir hallarda bunu piano ilə ifa olunan incə romantik musiqi altında edirəm. Mənə lazım olan videoları tapıram. Bir, iki, hətta dörd saat çəkən seçmələr var. Bir qayda olaraq, mənə bir saat bəs edir. Uzun hazırlıq mərhələsi olsa, iki saat da çəkə bilər. Amma bu gün, zənnimcə, iki saat da az olacaq. Hə, budur "Love Making music – 204 minutes"[3]. Bu, əl verər. Videonu işə salmaq istəyirəm, barmağım təsadüfən bir sətir aşağıya dəyir və "Love music – open your sexual chakra therapy – 20 minutes"[4] açılır. Mən bu öyrədici seks-videolara bələdəm, arıq, başdanxarab arvadlar öz uzunsaç ərləri ilə birlikdə adamlara cinsi əlaqədə olmağı öyrədirlər. Guya həmin videoya qədər camaat bunun necə edildiyini bilmirdi.

---

[1] Hansı? Üzr istəyirəm, mən sizi anlamıram. Siz gəlib düzəldə bilərsinizmi?

[2] Əlbəttə. Bir dəqiqəyə orada olacağam.

[3] Sevgi. Musiqi yaratmaq – 204 dəqiqə

[4] Sevgi musiqisi. Cinsi çakra terapiyanızı açın – 20 dəqiqə

Yenə axtarışa verib mənə lazım olan videonu ikinci dəfə tapmalı oluram, çünki "YouTube"da "axtarışın nəticələrinə qayıtma" düyməsi yoxdur, ya da var, amma mən onu neçə ildir ki, tapa bilmirəm.

Kimsə qapını döyür. Hə, bu, qapıçı olmalıdır. Qapını açır və astanada iki gözəl sarışın qız görürəm. Elit eskort mənim ümidlərimi doğruldur – saytdakı fotoşəkillərlə 98 faiz oxşarlıq var. Bunlar Kerol və Amberdir. Açıq-mavi və yaşıl gözlər, hər ikisinin saçları çiyinlərinə tökülür, Kerolun saçları dalğalı, Amberinkilər düzdür. Elə fikirləşirdim ki, Kerolun boyu ucadır, lakin Amber daha hündürboy imiş. Onların sinələri, demək olar ki, eynidir, saytda iki dəfə yoxlamışam ki, təbii döşlər olsun. Buna hələ baxacağıq.

Mən onları içəri dəvət edirəm. Mənzil onların xoşuna gəlir. Bu qızlara hər gün belə gözəl penthauslarda işləmək qismət olmur. Amma əminəm ki, onlar bundan da yaxşı yerlər görüblər. Bəlkə, hətta kiminsə şəxsi "Boeing"ində də cinsi əlaqədə olublar. Amma bu indi vacib deyil. Mən onlara bir neçə dəqiqə gözləməyi, hələlik isə bir şey içməyi təklif edirəm.

Təfərrüata varmaq istəmirəm. Qapı yenə döyülür. Bu dəfə gələn qapıçının köməkçisi – qarabəniz hindli oğlandır. O, qızlara baxıb udqunur. Qızlar təəccüblə bir-birinə baxırlar. Yəqin, elə fikirləşiblər ki, mən pozğun biriyəm, onları sifarişlə çağırmış, üstəlik, bu oğlanı da dəvət etmişəm, onunla da əlaqədə olmaq istəyirəm. Ya da mən o pozğunlardanam ki, fahişələri

gətirib onları qapıçı ilə cinsi əlaqədə olmağa məcbur edir, özləri isə bu zaman onlara baxıb həvəsə gəlir və masturbasiya ilə məşğul olurlar. Ağıllarına daha pis şeylər gətirməmələri üçün oğlana baxıb ucadan deyirəm:

– Hə, orada, vanna otağında cakuzinin suyunu açа bilmədim...

Ona vanna otağını göstərir və özümü bir qədər narahat hiss edirəm – zavallı burada iki gözəllə əylənməyə hazırlaşan bir oğlan üçün kran düzəltməli olur. Çox axmaq işdir. Axmaq məqamdır. 15 dəqiqədən sonra o artıq aşağıda olacaq, biz isə vanna otağında – həyatın bu cür ədalətsizlikləri var.

Oğlan suyu açıb mənə akvamasaj düyməsini göstərir. Sonra izah edir ki, bu masaj ən çoxu iki nəfər üçün nəzərdə tutulub. Vannadakı bu iki deşik elə yerləşdirilib ki, orada yalnız bir, yaxud iki nəfər uzana bilər. Oğlan yenə də udqunur. Görəsən, onun mənəvi ziyanının əvəzini nə qədər çaypulu ilə ödəmək olar?

Biz qonaq otağına qayıdırıq. Qızlar artıq soyunub, təkcə krujevalı alt paltarlarında qalıblar. Onlar vanna otağına keçir və cakuzidə yerlərini rahatlayırlar. "Ayy, nə yaxşıdır!", "Amazing view!"[1] deyirlər. Kerol və Amber panoramlı pəncərədən işıqları göz qamaşdıran şəhərə baxırlar, hər dəfə hərəkət etdikcə onların möhkəm döşləri titrəyir. Mən onlara baxır və

[1] Valehedici mənzərədir.

razılaşmaya bilmirəm – həqiqətən, "amazing view". Öz-özümə fikirləşirəm ki, qapıçıya heç bir çaypulu verən deyiləm, indi o mənə borcludur. O, qapının ağzında dayanıb və o yan-bu yana qaçan gözləri ilə sanki qalmağa bəhanə axtarır.

– Ser, başqa bir şey arzu edirsiniz?

– Yox, sağ olun. Gedə bilərsiniz.

Qapını onun arxasınca bağlayıram. Su cakuziyə dolur, qızlar vannanın qırağında oturub ayaqlarını suyun içində şappıldadırlar. İsti buxardan bədənləri işıldayır, demək olar ki, parlaqlaşır.

Müstəqillik günü münasibətilə bu gün və bütün həftə "Empire State Building"[1] Amerika bayrağının rəngləri ilə işıqlanacaq. Hazırda bir neçə düjün turist həmin binanın başında dayanıb. Onlar 30 dollara bilet alıblar, oradan şəhərə baxır, selfi çəkir və fikirləşirlər ki, zirvə məhz onların dayandığı yerdir. Qonşu binalarda, məsələn, elə burada nə baş verdiyi ağıllarına da gəlmir.

– Su çox yaxşıdır, gəl yanımıza!

– Gəlirəm!

Bunu deyib əynimdən qiyməti 4 dollar 99 sent olan "Forever 21" qara idman köynəyimi, 30 dollarlıq "Old Navy" şalvarımı və endirimlə 45 dollara aldığım "Macy's" vanslarımı çıxarıram. Təkcə "Michael Kors" alt tumanında qalıram, onu "21 Century"dən almışam və üç dənəsinə 15 dollar vermişəm.

[1] Manhettendə yerləşən 103 mərtəbəli göydələn

Qızlara yaxınlaşır, onların başlarından tutub öz qırmızı çakramın mərkəzinə doğru çəkirəm. Buradan "Central Park" və Metropoliten muzeyinin qarşısındakı daş abidə görünür. Bu, Misir abidəsidir, buna bənzərini Vaşinqtonda, Istanbulda və dünyanın başqa şəhərlərində də görə bilərsiniz. Hündür daş monolit hər tərəfdən heroqliflərlə əhatə olunub. Insanların çoxu həmin simvolun mənasını bilmir. Bu, Misir tanrısı Osirisin cinsiyyət üzvüdür. Əsatirə görə, Set Osirisi öldürüb tikə-tikə doğrayır və Nil çayına atır. Osirisin arvadı ilahə İsida ərini xeyli axtarır və onu diriltmək istəyir. Lakin təkcə onun cinsiyyət üzvünü tapa bilir. İsida Osirisin nəhəng cinsiyyət üzvü ilə əlaqədə olur və Günəş tanrısı Qora hamilə qalır.

Xoş əzvay və kokos qoxusu verən köpüklü isti suyun içinə dalıram. Manhettenə baxır, qızların belini qucaqlayır, onları növbə ilə öpürəm. Kerol ilk olaraq üstümdə oturur, belini əyərək yavaş-yavaş, incəliklə hərəkət etməyə başlayır. Amber boynumdan öpür. Asta "chillstep" səslənir.

Baş verən hər şey xoşuma gəlir, mən bu burgeri şüurlu şəkildə, hər tikəsindən, hər xırda detalından həzz alaraq yeməyə çalışıram. Amberin dodaqları daha iridir, Kerolun isə döşlərinə toxunmaq daha xoşdur. Qəfildən musiqi bitir və sürətli elektrik gitara major akkordlarla çalmağa başlayır. Bu nə deməkdir? Bu haradan çıxdı? Nikbin və gümrah kişi səsi deyir: "Dostlarınızla vaxt keçirtmək sizi bezdirib və bilmirsiniz ki, necə..."

Bu, "YouTube"dakı reklamdır. Heç yerinə düşmür. Mən Amberlə hansısa mobil tətbiqin reklamı altında əlaqədə oluram. Reklam təxminən 50 saniyə davam edir. Bu, çevirməyin mümkün olmadığı sarı zolaqlı reklamlardandır. Amberin kürəyindəki döyməyə baxıram – iki elektrik xətti sütunudur, xətlərin üstündə quşlar oturub. Reklam bitir, mənsə Amberlə davam edirəm. Suyun içində təkanlar ağır və rahatdır, demək olar ki, hiss olunmur. Temperatur fərqi yoxdur. Yataqda dərinin, budların, uşaqlıq yolunun istiliyini hiss edirsən, isti suyun içində isə hər şey monotondur.

Kerol təsadüfən hansısa düyməyə toxunur və akvamasaj işə düşür. Kürəklərimizə güclü su şırnaqları dəyir. Lənət olsun, heç vaxtı deyildi. Mən təxminən üç dəqiqə buna fikir verməməyə, diqqətimi seksə cəmləşdirməyə çalışıram, lakin heç cür alınmır.

– Dayanın, qızlar, gəlin bunu söndürək...

Elə bil bir saniyənin içində seksual tərəflərdən kompüter kollecinin tələbələrinə çevrilirik. Kerol məsələni nizamsız halda bütün düymələri basmaqla həll etməyə çalışır. Amber deyir: "Baby, I think you have to keep pushing that white button"[1]. Qızlar akvamasajı necə söndürməli olduğumuz haqda mübahisə aparanadək vanna otağı buxarla dolur və Manhetten tədricən gözdən itir. Şüşələr tərləyir və

[1] Balaca, ağ rəngli düyməni basıb saxlamaq lazımdır.

getdikcə şəhərin mənzərəsi dumanlı görünür. Mən pəncərəyə tərəf üzür və əlimlə şüşədəki təri silirəm. Lənət şeytana, bu cür heç nə alınmayacaq. Bu zaman Amber deyir: "Baby, you should just turn the ventilation on"[1].

Düzdür, bu nə üçün mənim ağlıma gəlməyib? Ayağa qalxıb əlüzyuyana yaxınlaşıram, pultu götürüb havadəyişəni işə salıram və dönüb qızlara baxıram. Onlar, nəhayət, cakuzidəki problemi həll ediblər. Mən vannaya, onların yanına qayıdıram. Qızlar mənə baxıb gülümsəyirlər, biz yenə bir-birimizi oxşamağa başlayırıq. Kerol mənim cinsiyyət üzvümü "Central Park"dakı daş abidənin vəziyyətinə qaytarmağa çalışır. Qəribədir, qədim Misirdə həmin abidə öz böyüklüyü ilə Osirisin əzəmətini təcəssüm etdirirmiş. Osiris alfa erkək olub. Razılaşın ki, böyük cinsiyyət üzvünə sahib olan tanrı daha cazibədar görünür. Amma Nyu-Yorkdakı Osiris abidəsi o qədər də böyük deyil. Hətta deyərdim ki, "Trump", "Chrysler", "World Trade Center", "H&M"dəki cinsiyyət üzvləri ilə müqayisədə öz balacalığı ilə çox uğursuz alınıb. Mən Manhettendən ucalan həmin cinsiyyət üzvlərinə baxıram və belə bir nəticəyə gəlirəm ki, onların arasında ən böyüyü İlon Maskdadır. O hətta kosmosdan da görünür və bir neçə ildən sonra hansısa marslı qadına daxil olacaq.

[1] Sən ventilyasiyanı işə salmalısan.

Musiqi yenə də yarıda kəsilir və ikinci reklam başlayır. Bu, "Netflix" serialının reklamıdır. "Game of Thrones"un[1] yeni mövsümünün treyleridir. Bizdən iki metr aralıda olan telefonumda Çeçələ Barmaq və Əjdahalar Anası görünür. Mən Kerolla arxadan əlaqədəyəm, Amber mənim xayalığımdan yapışıb, amma gözləri ekrandadır. Vay, Con Snou ölməyibmiş! İndi üçümüz də bizdən iki metr aralıdakı kiçik telefonun ekranına baxır və mexaniki olaraq cinsi əlaqəmizi davam etdiririk. Reklam bitir. Mən, demək olar ki, orqazma çatmışam. Həqiqətin zamanı gəlib. Mən onların hansında qurtarmaq istəyəcəyəm?

Ikisi də eyni dərəcədə gözəl olan bu sarışın qızların birindən daha çox xoşum gəlir. Qızlar bunu hələ bilmirlər, mən hələ Kerolu buraxmamışam və Amberi qucaqlamamışam. Hə, mən indicə qurtaracağam və ofis katibələrinin bu yarışında Amber qalib gələcək.

Manhettenin işıqlarına baxıram. Pəncərədəki buxar çəkilib, şüşədə mənim barmaqlarımın izi qalıb. Hə, lənət şeytana, insanın toxuna bildiyi şeylərdən daha ideal bir şey yoxdur.

Elit fahişələr seksdən əvvəl xüsusi həblər atır və ən yeni antiseptiklərdən istifadə edirlər. Bu onlar üçün prezervativi əvəz edir. Mən orqazma çatıram, amma bu vaxt yanğınsöndürən maşının sirenası diqqətimi yayındırır, onun gurultu-vıyıltısı küçədən eşidilir və

[1] "Taxt oyunları"

fikrimi cəmləşdirməyə mane olur. Mən Maylzın arzusunun içində, Amberin daxilindəyəm.

Növbəti mahnı səslənir, amma vanna otağındakı hava və cakuzidəki su tədricən sərinləşir və tamamilə soyuyur. Yoxsa mən havatəmizləyənin əvəzinə kondisioneri qoşmuşam? Bu fikirlərlə orqazma çatıram. Güclü orqazmdır, amma o, Maylzın arzu etdiyi kimi, 20 saniyə çəkmir. Orqazmdan sonra da bir neçə dəqiqə vannada qalıram, biz akvamasajı işə salırıq, amma Amberlə yox, Kerolla – ədalət naminə. Kerolla məşğul ikən Amber başını çiynimə qoyur və masturbasiya etməyə başlayır...

– Eyden, bəs sən həyatdan nə istəyirsən?

– Bilmirəm. Yəqin ki, çox şey.

Xloe ilə üçüncü mərtəbədə döşəmənin üstündə uzanmışıq, hind mantrasını dinləyə-dinləyə göyə baxırıq. Buradan ulduzlar çox parlaq, lap büllur kimi görünür. Xloe buxur yandırıb və özünün balaca fil heykəlciyinin yanına qoyub. Bu hansısa hind tanrısıdır. Bütün bunlar Xloedə Kaliforniyadan qalıb. O, Berklidə "nyu eyc" – yeni era dinlərinin təsiri altına düşüb və indi bu heykəlcik Xloenin bütünə çevrilib.

– Bəs sən nə istəyirsən, Xloe?

– Bütün ömrüm boyu səyahət etmək istəyirəm, – o bir qədər susandan sonra davam edir: – Amma hamı kimi yox. Mən turist putyovkaları ilə səyahət etmək və "all-inclusive"[1] hotellərində qalmaq istəmirəm. Mən səyahətdə yaşamaq istəyirəm.

– Hə, bu çox gözəl olar.

– Mən Çinin hansısa bir yerinə birtərəfli gediş bileti alardım, orada bir neçə il yaşayardım, bir qəsəbədən o birinə keçərdim. Bilirsən, mən istəmirəm ki, oturub plan qurum, istirahət günlərinin, yaxud məzuniyyətin nə vaxt başlayacağını gözləyim. Istəyirəm

[1] Hər şey daxil

ki, sadəcə, Çinin hansısa bir dağ kəndində düyü toplayım, yerli nənələrə yemək bişirməkdə kömək edim. Öz dolanışıq pulumu elə orada, səyahət zamanı qazanım.

– Ciddi deyirsən?

– Tamamilə. Mən dünyanı gəzib qarşıma çıxan hər şeyin şəklini çəkmək istəmirəm. Mən öz "Instagram"ım deyiləm, mən qəlbəm, düşüncəyəm. Mən gördüklərimin şəklini çəkmək istəmirəm, onları yadda saxlamaq istəyirəm. Başqaları ilə bölüşmək yox, içimdə gizlətmək istəyirəm. Şərh etmək yox, susmaq istəyirəm. Başa düşürsən?

– Hə, çox yaxşı başa düşürəm. Sosial şəbəkələr bizim axırımıza çıxıb.

– Mən təyyarəyə bilet alıb Çinə uçacaq, telefonumu tullayacağam. Əsər yazacaq, ya da tikmə sənətini öyrənəcəyəm. Sonra bir pikap tutub Hindistana gedəcəyəm. Illərlə orada yaşayacağam. Beləliklə, gedib Avropaya da çata bilərəm.

– Beləcə hər şeyi atıb səyyahlıq edəcəksən?

– Nəyi atacağam? Atmalı nə var ki? Nyu-York? Axı bu Nyu-York kimə lazımdır? Yoxsa təhsili, pulu atacağam? Eyden, bəs sən öz həyatını necə yaşamaq istəyirsən?

– Bəlkə, sənin yanında olmaq istəyirəm? Sənin-lə birlikdə Çinə gedib məhsulu yığmağına kömək edərəm.

Xloe gülüb məni qucaqlayır:

– Gəlsənə elə də edək! Birtərəfli gediş bileti alaq, sonra nə olursa olsun.

Mən tədricən Xloenin "post-dini sindrom"unun mahiyyətini anlamağa başlayırdım. Əslində uydurma bir diaqnoz olsa da, mən onu anlayır və hiss edirdim. Ondan fərqli olaraq, mənim heç vaxt bir tanrım, tilsimli əşyam, yaxud xoşbəxt rəqəmim olmamışdı. Həyatın bu hissəsi mənim üçün boş bir sahə kimi qalırdı. Bəlkə də, bu, ateizmin dini əvəz etdiyi SSRİ zamanında doğulduğuma görə idi. Lakin mənim həmişə bir həqiqətim var idi və o, daim mənim həyatımı doldururdu. Bu, sevgi idi. Nə qədər bayağı səslənsə də, məhz həmin duyğu məni irəli getməyə məcbur edirdi. Mən yaradıcı təbiətə malik insan idim, sevmək, aşiq olmaq, münasibət qurmaq, istədiyimə çatmaq xoşuma gəlirdi. Əgər sinfə gözəl bir qız gəlirdisə, səhər tezdən oyanıb məktəbə getmək mənim üçün daha asan olurdu. Mahnılarım ilham pərimə həsr olunurdusa, onları yazmaq daha xoş idi. Fotokameraların işıqları və tüstü arxasından salonda bir cüt gözəl göz görürdümsə, konsertlərim daha da coşqunluqla keçirdi.

Əgər bütün həyatın qarma-qarışıqdırsa, təsadüfən ağlagəlməz bir yerə düşə bilərsən. Mən 8-ci avenyunun "N Train" qolunda, malayziyalıların ailə restoranında oturmuşam. Qəhvə sifariş verirəm. Ofisiant qız maraqla mənə baxır. Bu, narazı bir maraq deyil, daha çox səmimi bir heyrətdir. 8-ci avenyu

asiyalılardan başqa heç kimin görünmədiyi çinlilər məhəlləsidir. Burada hətta restoranların, ofislərin, bank filiallarının, supermarketlərin adları da Çin heroqlifləri ilə yazılıb. Adam istəyir, selfi edib altında "From China With Love"[1] yazsın. Bura Manhettendəki çoxdan amerikalılaşdırılmış "çaynataun"a[2] oxşamır. "Çaynataun" turistlər üçündür, 8-ci avenyu isə yerlilər üçün.

Mən yarım saat buranın küçələrində gəzdim, mağazalarına girdim, buradakı çinlilərin nə yediyinə baxdım və qəribə bir şeyi müşahidə etdim. Əlbəttə, onların yediklərinin çoxu qəribədir, mən hətta qurbağalar, tısbağalar, meduza və su ilanları haqqında danışmaq da istəmirəm. Məni daha çox maraqlandıran şüşə bankalar oldu. Onların bəzilərinin içinə qurudulmuş soxulcanlar tökülüb. Amma bunlar balaca yağış soxulcanları deyil, 10-15 santimetrlik böyük, qurudulmuş sürfələrdir. Digər bankalara tanımadığım ağacların quru budaqları doldurulub. Onlar bozumtul-kül rəngli quru meyvələrə, bizim ocağı alışdırdığımız zaman istifadə etdiyimiz böyük talaşalara, ya da vaxtı ötmüş makaronlara bənzəyir. Bankaların hər birinin üstündən qiyməti asılıb – bir funtu, yəni 450 qramı 4200 dollara. Ötən həftə iki gözəl sarışın qız və penthaus üçün 4000 dollara yaxın pul xərcləyən bir adam kimi mədəni bir şok yaşayıram.

---

[1] Çindən sevgi ilə

[2] İng: "chinatown" – Çin məhəlləsi

Bilirəm ki, dünya böyükdür və ən müxtəlif dəyərlərlə doludur. Amma ortabab bir çinli hansısa bir zibilin kiloqramını 8000-ə alıb heç bir şey olmamış kimi necə yeyə bilir? Axı, hər nə olursa olsun, onu yalnız bir dəfə yemək olar. Doğrudanmı, bu o qədər dadlıdır ki, insana ağlasığmaz dərəcədə böyük həzz verir və ona görə də belə baha qiymətə satılır?

Mən bütün qızlarla yatmağa, bütün yeni maşınları, villaları, yaxtaları almağa, dünyadakı bütün nadir yeməklərin dadına baxmağa macal tapmış neft maqnatlarını başa düşürdüm. Bütün bunlardan sonra onlar bahalı fransız molekulyar mətbəx restoranına gedirlər ki, 2000 dollara yemək sifariş versinlər. Amma mən ayın axırında 8-ci avenyuda yerləşən bu xaraba supermarketdə satılan qurudulmuş zibilləri almaq üçün yayın istisində, qışın soyuğunda Manhettenin küçələrində dolaşan, taxta oyuncaqlar, saxta Çin rolexləri və "Chanel" çantaları sataraq pul yığan zəhmətkeş adamı heç cür başa düşə bilmirəm.

Artıq 10 aydır ki, Xloe yoxdur. Bu artıq keçmişə aiddir, Xloe mənim bütümə çevrilir. Xloe içində qurudulmuş budaqlar olan və 8000 dollara satılan Çin bankasıdır. Xloe mənim mənasız fikrimdir. Mən həmin ötəri əlaqələrin ideal olduğuna inanmaq istəyirəm. Əslində isə onda qeyri-adi heç nəyin olmadığını anlayıram, bilirəm ki, o da başqaları kimidir.

– Sən haqlı idin, Maylz, o da hamı kimidir.

– Kimdən danışırsan, dostum?

– Xloedən...

Maylz çevrilib bərəlmiş gözləri ilə mənə baxır. Biz Raulun Buşvikdəki studiyasındayıq. Maylz hər iki əvəzini səs kartı ilə "Yamaha"nın klavişlərinin üstünə qoyub. Bir az tərpənsə, yıxılacaq.

– Lənət şeytana, hansı Xloe? Sən nə barədə danışırsan? Ağlını tamam itirmisən? Fuck Chloe, get over it, man![1]

– Yeah you're totally right, dude.[2]

– Qaqaş, sən, yaxşısı budur, Naomi ilə yat.

– Yoox, nə danışırsan, Maylz?! Axı Naomi...

– Nə olacaq, mən artıq bir-iki dəfə bunu etmişəm.

– Naomi ilə? Yoox, dostum.

– Hə, qaqaş! Necə bilirsən, o nə üçün daha mənimlə danışmır?

– Məgər siz danışmırsınız? Necə danışmaya bilərsiniz, axı biz birlikdə çalırıq.

– No man[3], mən sənlə birlikdə çalıram, o da sənlə birlikdə çalır. Amma biz bir-birimizlə birlikdə çalmırıq.

– Yaxşı, Maylz, bu öz işinizdir. Amma sənin Naomin mənə lazım deyil.

– O kimə lazımdır ki? Mənə də lazım deyil... Eyden, qaqaş, sən düz adamsan, dürüst kişisən.

– Heç də dürüst deyiləm.

---

[1] Rədd elə Xloeni, üstün gəl ona, ay adam.
[2] Bəli, tamamilə haqlısan, dostum.
[3] Yox, adam.

– Nə demək istəyirsən?

Maylz bir az da mənə tərəf dönür, onun kreslosu iki ayağı üstə zorla dayanıb – demək olar ki, havada qalıb. Fikrimdə götür-qoy edirəm ki, onun arzusunu özüm həyata keçirdiyimi deyim, ya deməyim? Amma bunu ona indi desəm, Maylz mütləq yıxılacaq.

– Sənin arzuna mən çatdım, Maylz.

– Hansı arzuma? – Maylzın qulaqları iki nəhəng lokator kimi mənə tərəf tuşlanıb.

– Sənin penthausda sarışın qızlarla olmaq arzuna...

– What the fuck man?[1]

Maylz aşağı uçur. Səs kartı ilə "Yamaha" da aşır. Bircə onun üstünə düşməyəydilər! Boğuq bir tappıltı və çatırtı səsi eşidirəm. Əvvəl Maylzın büzdümünün çatladığını fikirləşirəm, sonra anlayıram ki, bu onun həmişə arxa cibində gəzdirdiyi demo albomudur.

– Eyden! You re a foxy son of a bitch![2] Sən mənim penthausumda olmusan?

Mən özümə haqq qazandırmağa çalışıram, sanki həmin fahişələri Maylz yatdığı zaman onun yataq otağından oğurlamışam.

– Hə, Maylz, bax belə axmaq bir şey baş verib. Bağışla.

– Sən buna necə cəsarət etdin? Bu nə vaxt olub?

– Bir-iki həftə bundan əvvəl.

---

[1] Nə çərənləyirsən, adam?

[2] Sən tülküsən, fahişə balasısan.

Bir-iki həftə əvvəl? Eyden! No fucking way![1] Yəni sən, doğrudan da, penthausda mənim qızlarımla olmusan?

– Hə.

– Onların ikisi də sarışın idi?

– Hə...

– Həm də cakuzidə? Manhettenin mənzərəsi görünən cakuzidə?

– Hə, akvamasajı olan cakuzidə və "Chill Step" musiqisi altında.

– Eyden, sən lənətə gəlmiş donuzsan, sadəcə, donuzsan. Mənim anamla yatsaydın, bundan yaxşı idi. Donuzsan sən, Eyden!

Əgər o, indi məni vursa, bir neçə gün xəstəxanada yatmalı olacağam və bu dəqiqə məni narahat edən yeganə şey budur ki, "United Health Care"[2] sığortam müalicə xərclərimi ödəməyə çatacaq, ya yox. Maylz yaxına gəlir, mən üzümü örtürəm. Bu zaman, nədənsə, məni gülmək tutur. Bu, əsəbi gülüşdür və mən dayana bilmirəm.

– Alçaq, nəyə gülürsən?

Maylz özünü saxlaya bilmir. Onun iri ağ dişləri düz gözümün qabağında parıldayır.

– Nəyə gülürsən, Eyden? Zibil!

– Ha-ha-ha... Maylz, I'm sorry man, I'm really[3]... Ha-ha-ha...

---

[1] Bu mumkün deyil.

[2] Birləşmiş səhiyyə xidməti

[3] Çox təəssüf edirəm. Mən həqiqətən...

– Lənətə gələsən. Bilirsən, mən səndən necə qisas alacağam?

– Ha-ha-ha!

– Mən sənin ləçər Xloeni tapacaq və onunla yatacağam, eşidirsən, mən sənin Xloeni altıma alacağam! Bax belə! Bu ideya xoşuna gəlirmi? – O əzilib-büzülərək incə qadın səsi ilə danışır: – Hə, Maylz, gəl yat mənimlə, mənə sahib ol! Sənin cinsiyyət üzvün necə də böyükdür! Mən səni istəyirəm!

– Rədd ol, Maylz! Mən sənə penthausun nömrəsini də, qızları tutduğum saytın adını da verərəm. Əl çək məndən... Ha-ha-ha!

O isə incə səslə davam edir: "Yeah Miles. Right there, right there.. Yes baby, yes, don't stop.[1] Maylz, sənin şeyin Eydeninkindən iki dəfə böyükdür".

– Kəs səsini, Maylz. Yum ağzını! Ha-ha-ha!

Studiyanın qapısı açılır və Naomi içəri girir. Maylz yerə sərilib, "Yamaha" onun üzərində yarıasılı qalıb. Mən kresloya sıxılıb üzümü əllərimlə örtərək dayanmadan gülürəm. Naomi bizə baxıb başını bulayır. Ürəyində nə dediyini başa düşmək üçün çox fikirləşmək lazım deyil: "Axmaqlar!"

[1] Hə, Maylz, elə ora, elə bura. Hə, dayanma, hə...

Səhnə arxasında

Salonda xeyli adam vardı. Maylz səhnəyə çıxmazdan əvvəl marixuana çəkmiş, Naomi öz kombuçasını[1], mən isə bir stəkan qaynamış su içmişdim. Bizim təbilçi isə özü ilə "draft beer"[2] götürmüşdü.

Biz soft-rok üslubunda bir neçə orijinal mahnı və bir neçə də cover[3] hazırlamışdıq. Orijinal mahnılar dörd dənə idi. Sözlərini Maylz yazmışdı, o da oxuyurdu, Naomi bek-vokalda idi, mən isə bas-gitarada çalırdım. Amma vecsiz və yəqin ki, gitaranın səsinin başqa alətlərdən gur çıxması üçün bası artırmayan yeganə basçı idim. Dörd akkord, sonra bridge[4], sonra nəqərat və yenə dörd akkord. Hər şey sadə idi. Hər şeyə nə qədər laqeyd yanaşdığım da vecsiz bas-gitaraçı olmağımdan bilinirdi.

Bura Şərqi Uilyamsburqda yerləşən 50 nəfərlik bir klub idi. Bizdən əvvəl iki oğlan fank piano və eyni leptopa[5] qoşulmuş kiçik mikrofonlarla çıxış etmişdi. Nə isə, eksperimental bir fyujn musiqi idi. Bizdən sonra isə uzun ağ saçları olan 50 yaşlı pencəkli bir kişi

---

[1] Yapon göbələk çayı

[2] Çəllək pivəsi

[3] Müəllifin başqa ifaçı, yaxud musiqi kollektivi tərəfindən ifa edilən kompozisiyası

[4] Musiqi əsərlərində kəskin keçid

[5] "Diz üstü"; noutbuk, netbok və s. ümumi adı

çıxış edəcəkdi. O həm görünüşcə, həm də musiqisi ilə Villi Nelsonu təkrarlayırdı. Biz isə həm bizdən əvvəl olan, həm də bizdən sonra olacaq hər şeyi təkrarlayırdıq. Plansız, necə gəldi yazılmış bir musiqini ifa edirdik.

Səhnədə dayanmışdıq. Maylz həyəcanla hip-hop oxuyur, Naomi kütləni coşdurmağa çalışırdı, mən isə bas-gitarada öz partiyamı çalırdım. Adamlar başlarını tərpədir, musiqinin ritminə uyğun hərəkət edirdilər. Məni yenə də hamının baxışları altında olmaqdan yaranan xoşagəlməz duyğu bürümüşdü.

Xloe ilə söhbətimizi xatırlayıram.

– Bəs sən özünün introvert olduğunu necə başa düşdün? Ümumiyyətlə, bu necə baş verir?

– Mən bunu şöhrətin zirvəsində olanda anladım. Bunu dərk etmək və bununla razılaşmaq çox çətindir. Sən diqqət mərkəzindəsən, amma bunu istəmirsən.

– Axı niyə? Burada xoşagəlməz nə var? Axı bu, insanların çoxunun arzuladığı bir şeydir. Diqqət mərkəzində olmağın nəyi pisdir? Axı introvert başqa insanlardan onların xoşuna gəlməyəcəyindən qorxduğu üçün çəkinir. Amma sən artıq insanların xoşuna gəlmişdin. Artıq insanlar sənə heyran idilər. Bəs o halda, problem nədədir?

– İnsanların xoşuna gəlməməkdən qorxmaq? Yox, Xloe, introvertlər insanlardan qorxmurlar. Onlar insanları, sadəcə olaraq, görmürlər. Problem bax bundadır. Adətən, introvert insanlara, insanlar da introvertə

fikir vermir. İntrovertlər bu ilahi nirvanada ətraf mühitlə sülh və dostluq şəraitində yaşayırlar. Lakin sən insanları görmədiyin halda insanlar səni görürlərsə, onda "Trumenin şousu" kimi bir şey alınır.

– Axı necə ola bilər ki, ətrafındakı insanları görməyəsən? Həm də bunu etmək nəyə lazımdır?

– Sadəcə, insanlar daha mənim üçün maraqlı deyil. Ona görə yox ki, onlardan xoşum gəlmir, ona görə ki onların hamısı bir-birinə bənzəyir. Onlar dəstə-dəstə mənim yanıma gəlirdilər, hamısı da eyni sözləri, daim eyni sözləri deyirdi. "Starbucks"dakı kassir introvert deyil, amma bircə dəqiqədən sonra səni unudacaq. Nə qədər ki sənin ətrafında cəmi 15-20 nəfər yaxın dostun var, onların hər birinin yeganə olduğuna inanırsan. Amma gün ərzində yüzlərlə məktub alırsansa, çoxlu sayda insanlarla qarşılaşırsansa, artıq onların arasında fərq görə bilmirsən. Onlar hər sözdə, hər fikirdə bir-birini təkrarlayırlar, hətta özlərinin qeyri-adiliklərinə sadəlövh inamları da təkrarlanır. Məşhurluq şəxsiyyətin fərdiliyi illüziyasını tutub səndən alır və insanları sənin üçün "like"lara, "share"lərə çevirir. Elə bir məqam gəlir ki, yalnız introvertlərin gerçək şəkildə mövcud olduğunu anlayırsan. Onlar mahiyyət etibarilə dəlisov, qəribə, yeni, fərqli və həqiqidirlər. Onlarla ünsiyyətdə olmaq, həqiqətən, maraqlıdır. Lakin bir problem var: iki introvert heç vaxt öz aralarında ünsiyyət qurmağı bacarmır, çünki ikisinin də diqqəti yalnız özünə yönəlib. Bilirsənmi,

bizim mənəvi introvert əcdadlarımız bunun üzərində xeyli fıkirləşiblər. Əgər bizim özümüz introvertiksə və bir-birimizə yaxınlaşıb söhbətə başlaya bilmiriksə, onda özümüzünkülərlə necə ünsiyyət quraq? Axı məhz özün kimi olanlarla fıkirlərini, duyğularını bölüşməyi çox istəyirsən.

– *Hə. Bəs nə qərara gəldilər?*

– *Budur, introvertlər yalnız özlərinin danışa biləcəkləri bir dili – incəsənəti yaradırlar. Onlar sənətin şah əsərlərini yaradırlar və beləcə zaman və məkan arasından söhbət edirlər. Da Vinçi Pikasso ilə, Eynşteyn Bethovenlə, Lavkraft Stiven Kinqlə, Tesla Dostoyevski ilə ünsiyyətdə olur. Adi tamaşaçılara isə yalnız bu qalır ki, muzeylərə gedib onların söhbətlərinin şəkillərini çəksinlər və bircə söz də anlamadan, həmin şəkilləri öz "Instagram"larında bölüşsünlər.*

Nyu-York boyda barama



Mən yeni mənzilə köçürəm. Kredit tarixçəm korlanıb, ona görə də "Shared Apartment"də[1] yaşamağa məcburam. Burada bütün mənzili deyil, kiminsə mənzilində bir otağı tutursan. Bu vaxta qədər ümumi mənzil ideyasına şübhə ilə yanaşırdım. Sovet İttifaqındakı kommunal mənzillərdə dəhşətli vəziyyət hökm sürürdü. Kommunal mənzillərdən özgənin qazanında bişən borşun və arpa yarmasının iyi gəlirdi. Kommunal mənzillərdə şişman Lyuba xala saatlarla mətbəxdə oturur, qəzet oxuyur və balıq təmizləyirdi. Kommunal mənzillər elə bir yer idi ki, sən orada öz otağına keçmək üçün ümumi dəhlizə sərələnmiş sərxoş qonşunun üstündən adlamalı idin. Həmişə də kiminsə uşağı ağlamalı idi. Ağlamadığı vaxtlarda isə əyninə üç ölçü böyük olan alt tumanında dəhlizdə gəzir və bir əli ilə çölə çıxmış lülüşünü oynadırdı.

Nyu-Yorkda isə sən mənzilini özünü ümumi balkonda, təkcə çəhrayı bikinidə günə verən 22 yaşlı Ceynlə bölüşürsən. O səni yalnız kürəyinə gündən qoruyan krem çəkməyi xahiş etməklə narahat edə bilər. Ceyn "Upper West Side"da[2] HR[3] şöbəsində işləyir.

---

[1] Umumi mənzil

[2] Yuxarı Vest-Sayd; Manhettendə rayon

[3] "Human Resource" – Insan resursları

Məndən əvvəl onunla bu mənzildə yaşayan oğlan duş qəbul etdiyi zaman vanna otağının qapısını heç vaxt bağlamırmış. O, vanna otağına girdiyi zaman Ceyn hətta otaqdan çıxmağa da qorxurmuş. Qapının aralı qalması və oğlanın yarıereksiya halında olan cinsiyyət üzvü haqda fikirləşmək belə onu dəhşətə gətirirmiş. Tədricən Ceyndə cinsi-maniakal depressiya yaranmağa başlayıb.

Mən otağa baxmaq üçün gələndə Ceynin ilk soruşduğu şey bu oldu:

– Sən təsadüfən "gizli nudist" deyilsən? – o öz keçmiş mənzil yoldaşı Tomu məhz belə adlandırırdı.

– Yox, mən gizli nudist deyiləm. Ümumiyyətlə, nudist deyiləm, mən paltarda olmağı xoşlayıram.

– Cool,[1] – qız dedi.

Biz tez bir vaxtda ikinci yataq otağı üçün ayda 1200 dollara razılaşdıq. Mətbəx və balkondan, qonaq və vanna otaqlarından ikimiz istifadə edəcəkdik. Ceyn çox səliqəli və təmizkar idi, ondan sonra vanna otağından həmişə manqo ekstraktının təravətli rayihəsi duyulurdu. Qızın sevgilisi həftədə üç-dörd dəfə bizim mənzildə qalırdı. Oğlan "Ocean Avenue"da ev tutmuşdu, bəzən elə uzağa getməyə həvəsi olmurdu. Amma mən onların sekslə necə məşğul olduqlarını eşitməmişdim. Bircə dəfə də. Bu da məni sevindirirdi.

[1] Əla!

Yeni mənzildə çox tez yerbəyer oldum. Ümumiyyətlə, təzə evim xoşuma gəlirdi. Mən özüm üçün yeni "Meet Up" tətbiqini yükləmişdim. Bu, bir növ, insanları birləşdirən sosial şəbəkə idi. Deyək ki, evdə oturmusan və "Evdə tək" filminə baxmaq istəyirsən, "Meet Up"ı açırsan və belə bir elana rast gəlirsən: "Uşaqlar, mən "Evdə tək"ə baxmaq istəyirəm. Mənim 7-8 nəfərlik qonaq otağım var. Çips, nəşə, portağal şirəsi, kreker olacaq. Kim istəyirsə, gəlsin mənə qoşulsun. Giriş haqqı 10 dollar, ya da bir banka pivədir".

Hər ay minlərlə bu cür tədbir keçirilir. Velosiped turları, Şərq mətbəxi, videooyunlar, meditasiya, ədəbiyyat gecələri, "Lakers"in[1] son oyununun müzakirəsi, ekstravert[2] olmağa hazırlaşan introvertlərin klubu, rusdillilər klubu, gənc astronomlar, gey görüşləri, tanqo gecələri və anonim alkoqoliklər klubu... Nyu-Yorkda tənha olmaq vəziyyət deyil, seçimdir. Sadəcə, istək kifayətdir ki, istənilən məclisə düşəsən, istənilən mövzunu həmin mövzu ilə sənin özün qədər maraqlanan insanlarla müzakirə edə biləsən. Dost qazanmaq üçün ali məktəb, yaxud kollec bitirmək vacib deyil. Amerikalılar çox asanlıqla tanış olur və dayanmadan danışır, danışır, danışırlar.

Deyək ki, mən qəhvə istəyirəmsə, barmenə yaxınlaşıb deyəcəyəm: "One coffee, please"[3]. Yəni qısa və

[1] Los-Anceles şəhərinin basketbol komandası

[2] Ünsiyyəti sevən, ətraf aləmlə təmasda olmağa can atan insan

[3] Bir qəhvə, lütfən.

mətləbə uyğun. Ceyni evdə görsəm, belə deyəcəyəm: "Hi"[1]. Əgər məndən "Bu yemək necədir?" soruşsalar, cavab verəcəyəm: "Good"[2]. Əgər məndən "How are you"[3] deyə xəbər alsalar, onlara söyləyəcəyəm: "Thanks"[4].

Bir dəfə Ceynin sevgilisi məndən soruşdu:

– Eyden, mən sənə bir sual verə bilərəmmi?

Mən qulaqlıqları çıxarır, əlimi qarşımdakı jurnal masasının üstündə olan klavişlərdən çəkir və cavab verirəm:

– Əlbəttə. Soruş.

Ceynin sevgilisi tərbiyəli bir cənubludur, uzun şabalıdı saçları var, əyninə çəhrayı düymələri olan damalı köynək geyinib. Oğlan "Mənim həyatımda hər şey yaxşı olub, bundan sonra da belə olacaq" deyənlərdəndir. Bir də "Stenford, ailə içində Şükranlıq bayramı günləri və Hellouin maskaradları" düşüncəsində olanlardan. Bir də "Mən Analar günündə anama gül bağışlayıram, Atalar günündə isə atama siqar alıram", "Mən altı aydan bir uroloqun yanında oluram, hətta sekslə məşğul olmasam da" deyənlərdən.

– Eyden, mənim sualım bir qədər kobud səslənə bilər, ya da məqsədli görünə bilər, amma belə deyil. Həqiqətən, mənim üçün çox maraqlıdır.

---

[1] Salam.

[2] Yaxşıdır.

[3] İşlərin necə gedir?

[4] Təşəkkür edirəm.

– Hə, əlbəttə. Problem yoxdur.

– Hər dəfə mən səndən "İşlərin necə gedir?" soruşanda belə cavab verirsən: "Təşəkkür edirəm"

Onun sualı Ceynin diqqətini çəkir. Qız başını bizə tərəf çevirir, amma yenə də çəhrayı bikinidə açıq balkonda uzanmaqda davam edir.

– Hə, mən ona görə "Təşəkkür edirəm" deyirəm ki... Hmm... Məgər aydın deyil?

Ceyn də söhbətə qoşulur:

– Yox, o qədər də aydın deyil. Mənə də elə cavab verirsən, – o gülümsəyir. – "How are you? – Thanks". This sounds weird.[1]

Qəribədir, mən heç vaxt bu barədə düşünməmişdim. Indi bunu həm onlara, həm də özümə izah etməli oluram:

– Bilirsiniz, axı "Işlərin necədir" mexaniki sualdır, ona hamımız belə cavab veririk: "Sağ ol, yaxşıdır, bəs sənin işlərin necə gedir?" Sonra siz də öz növbənizdə deyirsiniz: "Təşəkkür edirəm, bizdə də hər şey yaxşıdır". Mən də bu halı sürətləndirmək üçün birbaşa "Təşəkkür edirəm" deyirəm.

– Halı? Məhz hansı halı?

– Yəni bu, tavtologiya halıdır: sən eyni şeyi təkrarlayırsan. Mətləbə dəxli olmayan boş söz yığını.

– Bəs "mətləbə dəxli olmayan" sözləri nə üçün danışmaq olmaz?

[1] Bu, qəribə səslənir.

Bir neçə saniyə onun sualı üzərində düşünürəm və birdən sanki xoşagəlməz bir həqiqəti dərk edirəm. Onlara belə deyirəm:

– Uşaqlar, zənnimcə, bunun nə üçün belə olduğunu başa düşmüşəm. Bilirsiniz, axı mən çoxdandır ki, amerikalılara göz qoyuram. Mənə elə gəlir ki, siz çox uzunçusunuz. Məsələn, sadəcə, "Bu gün istidir" söyləmək mümkün olduğu halda, belə deyirsiniz: "Bu gün necə də gözəl, isti hava var. Bütün gün belə isti olsa, külək qalxmasa, pencəyimi çıxarıb çiyin çantamın içinə qoya bilərəm. Orada məhz pencəyi qoymaq üçün xüsusi yer var. Çox yaxşı çantadır".

Uşaqlar gülüşür.

– Amma bilirsinizmi, bu, əslində uzunçuluq deyil axı. Sizi bu cür edən söz azadlığıdır.

– Nə mənada?

– Siz bunu başa düşməzsiniz, çünki azad ölkədə böyümüsünüz, hər zaman fikirləşdiyinizi deyə bilmisiniz. Mən isə uzun müddət azadlığın olmadığı keçmiş sovet imperiyasının ərazisində böyümüşəm. Yalnız bir neçə söz demək imkanının olduğu bu cür vəziyyətlərdə sən o sözləri diqqətlə seçməli, tez və mətləbə uyğun danışmalı olursan. Bizim məktəblərdə, televiziya verilişlərində belə lakonik danışırlar, bizim siyasətçilər, çörəksatanlar, polislər, həkimlər belə danışır. Bütün postsovet məkanı bu cür danışır. Biz əsərləri bu cür yazırıq. Mən də işlərimin necə getdiyi haqda sualı belə cavablandırıram. Mən Ceynin

sualına cavab verirəm, amma şüuraltı olaraq, həmişə daxilimizdəki diktaturaya cavab verirəm. O diktaturaya hər şeyi bir sözlə demək və onu məsələyə olan münasibətinə inandırmaq lazım idi. Mən əminəm ki, işlərimin əslində necə getdiyi heç kimə maraqlı deyil və hamı məndən yaxasını tez qurtarmağa çalışır. Bu səbəbdən də çalışıram ki, tez cavab verim, heç kimi bezdirməyim və vaxtını almayım.

Uşaqların kədərləndiyini görürəm. Onlar elə baxırlar ki, sanki məni övladlığa götürmək istəyirlər.

– Uşaqlar, hər şey qaydasındadır. Mənə az söz də kifayət edir, narahat olmayın.

– It sounds awful,[1] Eyden! – Ceyn deyir.

[1] Bu, dəhşətli səslənir.

Lütfən, mənə "Animal Style" nəsrini verin



Bizim bütün faciəmiz bundadır ki, müasir dünya öz simasını itirir. Bu, xüsusilə də Nyu-Yorkda hiss olunur, sən burada istənilən şəxsə çevrilə bilirsən. Sən burada təsadüfi yerlərdə nahar edəcəksən, təsadüfi işlərə gedəcəksən və bütün bunların günahı içimizdəki şəxsiyyəti öldürən postmodernistlər, siyasətçilər, yaxud televiziya şouları deyil.

Bütün günahlar MTA-dadır. MTA – Nyu-York metrosudur. Nyu-York metrosu sutkada 24 saat işlədiyi üçün onu təmizləmək və təmir etmək imkanı yoxdur. Ona görə də MTA vəziyyətdən ardı-arası kəsilməyən köçürmələrlə, qrafikdə və qatarların hərəkət cədvəlində dəyişikliklər etməklə çıxır. Məsələn, sən Midtauna getməlisən və "F Train"[1] götürürsən. Cəmi beş dayanacaqdan sonra çatmalısan. Sən qatara girir və belə bir elan eşidirsən: "Bu gün F xəttinin bütün qatarları M xətti ilə hərəkət edir".

D xətti istirahət günləri bağlı olduğuna görə əvvəl şəhərin mərkəzinə enib İst-Villicə gedən avtobusa minməlisiniz. Sizin jurnalist-müxbir mövqeyinizə

[1] Nyu-York metrosunun fasiləsiz işləyən F xətti

görə, "NBC News"la müsahibənizin təyin olunduğu heç kimi narahat etmir. Artıq saat 09:30-dur, sən müsahibəyə gecikmisən və şəhərin mərkəzi hissəsində, haradasa Uoll-Stritdəsən, hələ bundan sonra avtobus tapmalısan. Səndən müxbir çıxmayacağı fikri ilə barışmağa başlayırsan ki, ikinci, daha əzablı bir fikir peyda olur. Müsahibədən sonra "Pret Manger"də qəlyanaltı etməyi, orada hazırlanan qat-qat xəmirli və pendirli yeməyi sifariş verməyi planlaşdırırdın. Amma indi "Yelp"ə daxil olub, qəlyanaltı üçün İst-Villicdə başqa bir yer tapmalısan.

Dayanacaqlar arasında internet tutduğu zaman "Yelp"i vərəqləyirsən. Yaxşı bir yer tapırsan. Amma metrodan çıxan kimi görürsən ki, yol bağlıdır, burada Kosta-Rikanın azad edilməsi şərəfinə parad keçirilir. İzdihama qarışıb yolun o biri tərəfinə keçməyə çalışırsan. Amma belə gur insan axınının arasından necə keçmək olar? "Google Maps"ı açırsan və öyrənirsən ki, parad 23-cü avenyunun axırınadək davam edir. Orada isə sənin sevimli məkanın "Prague Cafe" yerləşir, həmin kafedə sendviç yeyə bilərsən.

Beləliklə, parad ora gedib çatmaq üçün ən optimal variant olduğuna görə, yanaşı addımladığın uşaqlardan Kosta-Rikanın bayrağını alırsan və kostarikan dilində "Sinko de mayo" deyə qışqırırsan, ya da buna bənzər bir şey. Cəmi bir saat keçib, sən isə artıq NBC kanalının müxbirindən kosta-rikalı mühacirə çevrilmisən.

Elə bilirsiniz, bu, yeganə belə haldır? Yox, bu, Nyu-Yorkun ən adi günüdür. Elə bilirsiniz, metrodakı xətlər iki həftədən bir dəyişdirilir? Heç elə şey yoxdur, metronun xətləri bir gündə üç-dörd dəfə dəyişdirilir. Xəritəni öyrənmək, cədvəllərə baxmaq, elanlara abunə olmaq mənasızdır. Sadəcə, sörfinq öyrənmək və metro sörferinə çevrilmək lazımdır. Vaqondan vaqona, peşədən peşəyə, görüşdən görüşə, kafedən kafeyə atılmaq lazımdır. Sən bu gün kosta-rikalısan, sabah vegetarian ola bilərsən, o biri gün iki saat körpünün üstündə ilişib qalacaqsan, xeyirxah bir buddist olsaydın, daha yaxşı idi, cümə günü isə "Spiderman"in[1] çəkilişlərində ola bilərsən. Lənət olsun, sən nyu-yorkersən və sənin janrın "Xaos" adlanır. Mal əti ilə hazırlanan burgerlər də var, bekon və göbələkli, ikiqat pendirli burgerlər də. Bir də "Animal Style" burgerləri var. Bu, Amerika mədəniyyətinin olimpidir. Burgerin içinə hər şey dürtürlər, nəticədə o qədər böyük olur ki, ağzınıza da girmir. Nyu-York həyatın mənasının itməsi üçün ideal şəhərdir. Burada mənəvi boşluğu ikiqat burgerlərlə doldura bilərsiniz.

"Caffe Bene" adlanan Koreya qəhvəxanalar şəbəkəsindəyəm, buranın daxili görünüşü, yaşıllıq və ağacın ideal əlaqəsi göz oxşayır.

Xloe... Xloe üçün çox darıxıram. Artıq bir ilə yaxındır və heç nə yoxdur. O, tikə kimi boğazımda ilişib

[1] "Hörümçək-adam"

qalıb, nə qədər udqunsam da, nə qədər su içsəm də, ağrısı keçmir. Başa düşürəm ki, orada ilişib qalan tikə çoxdan yoxa çıxıb, amma yeri yenə də qaşınır və göynəyir. Əlimdən heç nə gəlmir. Xloe hələ də burada idi. O bütün bu müddət ərzində həmişə mənimlə idi.

– O məni atıb.

– Kim? – "Caffe Bene"nin ofisiantı soruşur.

– Görüşdüyüm qız. O məni keçən həftə burada, sizin kafedə atıb getdi. Sadəcə, hər şeyin bitdiyini dedi. İndi mən bura elə-belə gəlirəm.

– Ayy, heyif... Çox təəssüf edirəm...

Bir neçə dəqiqədən sonra kafenin nəzarətçisi tərəfindən hədiyyə edilən şokolad maffini[1] masamın üstünə qoyulur. Insanlar başqalarının halına yanmağı xoşlayır, amma başqalarının xoşbəxtliyinə dözə bilmirlər.

Özünüz haqda bir yalan uydurmağa cəhd edin. Özünüzü ideallaşdırın. Sonra çalışın ki, buna özünüz də inanasınız. Bir neçə günlüyə özünüzü həmin yalanın içində saxlayın, yalanın canınıza hopmasını gözləyin. Mənim etdiyim kimi edin, onu əvvəlcə tanımadığınız bir adama danışın.

– Siz bilirsiniz ki, keçmişdə bu restoranın yerində rus casuslarının mənzil-qərargahı yerləşirdi? Axı mən əslən oradanam, SSRİ-dən. Mənim babam uzun illər DTK-da işləyib. Bu yer haqqında da mənə

[1] Maffin – Amerika mətbəxinə aid keks növü

o danışıb. Casuslar Amerikada Polşa yəhudiləri adı altında yaşayıblar. Polyaklarla rusların dilləri və mədəniyyətləri oxşardır, amma həmin illərdə Polşa artıq azad idi. İndi isə bura adi qəhvəxanadır. Çox qəribədir. Maraqlıdır, görəsən, buranın sahibləri bu barədə bilirlər?

– Hmm, maraqlıdır. Mən hər gün bura qəhvə içməyə gəlirəm, amma bu əhvalat haqqında bircə dəfə də eşitməmişəm.

– Burada qəribə heç nə yoxdur. Axı bütün bunlar DTK-nın və MKİ-nin[1] arxivlərində qalıb. Hə, o casuslar özlərini ər-arvad kimi qələmə verirdilər. Gündüzlər adi ailə həyatı yaşayır, gecələr Moskvaya məlumat ötürürdülər. Bir-iki ildən sonra başa düşürlər ki, Amerikada yaşamaq onların daha çox xoşuna gəlir, nəinki SSRİ-də. Amma nə edə bilərdilər? Birdən-birə durub deyə bilməzdilər ki, bütün bu vaxt ərzində sovetlər üçün casusluq ediblər. Onları dərhal həbs edərdilər. Ya da daha pis ola bilərdi, ruslar onları tapıb öldürərdilər. Geriyə, öz ölkələrinə qayıtmağı da istəmirdilər...

– Hmm...

– Onda belə bir plan qururlar. Elə təsəvvür yaradırlar ki, guya aralarında dava-dalaş olub. Qadın DTK-ya teleqram göndərib bildirir ki, əri hər iki tərəfə işləyirmiş və satqın çıxıb. Qadın başqa yol görmədiyi üçün onu öldürməli olub. O, DTK-dan soruşur ki, meyiti

[1] Mərkəzi Kəşfiyyat İdarəsi

necə yox etsin. DTK isə dərhal ona meyitdən necə yaxa qurtarmalı və izləri necə yox etməli olduğu haqda göstərişlər verir.

– Dəhşət! Nə deyirlər? Qadın meyiti necə yox etməli idi?

– Belə... – mən öz "Animal Style" burgerimi yarıya bölürəm. – Əvvəl meyiti hissələrə ayırmalı idi. Ayaqlarını, qollarını və başını kəsməli idi. Sonra hamısını vannanın içinə yığıb üstünə...

– Kimyəvi turşu?

– Yoox... O, sırf amerikalı yanaşmasıdır. Axı bu, ağılsızlıqdır. Turşu vannanı da deşib dağıda bilər.

– Bəs nə?

Ofisiant mənimçün portağal şirəsi gətirir. Mən ondan bir qurtum alıb, uydurmağa davam edirəm:

– Portağal şirəsi! Bir neçə qallon[1] portağal şirəsi.

– Portağal şirəsi? Axı o nə edə bilər?

Mən qətiyyətlə cavab verirəm:

– Portağal şirəsi əti və sümükləri yumşaldır. Üç gündən sonra meyit jele kimi yumşaq bir şeyə çevrilir.

– Oho! Bəs sonra nə olur? Oğlan ölür?

– Yoox. Axı dedim ki, onlar dalaşmamış, dava-dalaşın yalnız saxta görüntüsünü yaratmışdılar. Əslində oğlan çoxdan qaçmışdı. O artıq "ölü" idi, onu heç kim axtarmayacaqdı. Qız isə DTK-nın əmrlərini yerinə yetirməli idi.

[1] Təxminən 3,7-4,5 litrə bərabər ölçü vahidi

– Bəs sonra nə oldu?

– Sonra DTK-dan qıza deyirlər ki, Lonq-Aylendə gedib donuz alsın.

– Donuz?

– Hə, donuz. Axı donuzlar hər şeyi yeyir. Portağal şirəsində qalmış insan cəsədi isə o qədər şişib yumşalır ki, donuz onun ən iri sümüklərini də gəmirə bilir. Bir həftədən sonra adamın izi-tozu da qalmır. Donuz hamısını son damlasına qədər yalayır. Beləcə qadın bir müddət həmin donuzla bir mənzildə yaşayır. O vaxta qədər kişi ştatın şimalında, Katskilldə gizlənir və qadını gözləyir. İndi qadın özünü ölmüş kimi qələmə verməli və ona qoşulmalı idi. Noyabr ayının ortaları idi. Bir neçə həftədən sonra qız DTK-ya növbəti teleqramı göndərir: "Donuz hamısını yedi. İndi nə edim?" DTK onunla əlaqə yaradıb əmr edir ki, donuzu öldürüb yesin. Qadın əsəbiləşir, razılaşmır, deyir ki, vətən uğrunda hər şey edə bilər, amma insan əti yeməsi mümkün deyil. Təbii ki, o, yalandan əsəbiləşir və hər şeyin inandırıcı görünməsinə çalışırdı. Axırda razılaşır ki, donuzu öldürüb ətindən borş bişirsin. Bir neçə gündən sonra isə Katskillə qaçacaq, amma elə təsəvvür yaradacaqdı ki, guya ağlını itirib və özünü Hudzona ataraq intihar edib. Yəni iş ortağını yediyi üçün bu dərdlə yaşaya bilməyib və özünü Hudzona atıb. Əslində isə qaçıb Katskillə gedəcəkdi.

– Əla fikirdir! Donuz meyiti yeyir, qatil də donuzu... Matryoşkanın içində başqa bir matryoşka...

Belə şeyləri yalnız ruslar fikirləşə bilər. Bəs necə oldu, alındımı?

– Yox, alınmadı. Amerikalılar elə həmin gün onu tutub, bax həmin divarın yanında güllələdilər, – mən əlimlə qəhvəxananın ayaqyolusu olan yeri göstərirəm.

– Lənət şeytana, bəs onun casus olduğunu haradan bildilər, onu necə aşkar etdilər?

– Qadın çox sevinirdi ki, tezliklə hər şey bitəcək, o da sevgilisinin yanına gedəcək. Ona görə də həyəcan içində supermarketə girib borş üçün lazım olan bütün ərzaqları sifariş vermişdi.

– Hə, nə olsun?

– Borş üçün, rus borşu üçün lazım olan ərzaqlar! Polyaklar isə borş bişirmir! SSRİ qaçqını olan satıcı MKİ-yə gedir və xəbər verir ki, bir qadın gəlib, rus borşu üçün lazım olan ərzaqlar sifariş verib.

– Lənət olsun, taleyin işinə bax!

– Hə, onu elə həmin divarın yanında öldürüblər. Belə bir təsadüf nəticəsində.

– Bəs sən bütün bunları haradan bilirsən?

– Axı dedim ki, mənim babam DTK-da işləyib. O mənə Amerikada işləmiş rus casusları haqqında danışıb. Pis şeylərdir bunlar, "soyuq müharibə"dir...

Yerimdən qalxır, yarımçıq portağal şirəsini götürüb kafedən çıxıram. Təxminən iki aydan sonra yolum yenə ora düşür. Kafenin divarlarından "soyuq müharibə" və rus casusları haqqında məqalələr

dərc olunmuş qəzetlər asılıb. Müştərilərə də yeni şah yemək təqdim olunur – portağal şirəsində donuz əti. Menyunun birinci səhifəsində isə restoranın və onun ilk sahiblərinin tarixçəsi verilib. Mənim adi yalanım Manhettenin İst-Villic rayonunda yerləşən bir restoranı tamamilə dəyişmişdi. Bu qayda ilə 10 il ərzində nələrə nail olmaq mümkündür!

Bizi əhatə edən hər şey yalan ola bilər. Bəşər tarixi iki tanış olmayan insanın bir-birinə danışdığı, üçüncüsünün isə qələmə aldığı yalanlardan ibarətdir.

Yalan rəngli karandaşlara bənzəyir. Nyu-York isə başdan-başa əlvan rənglərə boyanmış kimi görünür. Kim deyir ki, içində yaşamaq istədiyin həqiqəti uydurmaq olmaz? "Marvel" dünyası, "Harri Potter" dünyası, "Üzüklər hökmdarı" dünyası, "Ulduz müharibələri" dünyası... Nə üçün də "Eyden" dünyasını yaratmayım?

Mən metroya düşüb evə gedirəm. Ceyn öz otağında, sevgilisi ilə birlikdədir. Leptopumu götürüb "Garageband" proqramını işə salıram, yeni fayl açıram və onu "Xloe 1" adlandırıram. Midi klavişləri qoşub ilk akkorda basıram. Hə, o, mətbəxə ilk dəfə daxil olanda məhz belə bir səs gəlmişdi. Mən onu məhz bu cür görmüşdüm. Burada isə o, qarğıdalı lopalarını tökür. Saniyələr keçir və baxışlarımız qarşılaşır...

Səhər tezdən balkonda yuxudan oyanıram. Lənətə gəlmiş ağcaqanadlar hər yerimi sancıb. Mən dünən, nəhayət, doğdum və salamat qaldım. İndi

yoxlamalıyam görüm sağ qalan təkcə mənəm, yoxsa doğulan körpə də salamatdır? Qulaqlıqları taxıb pley düyməsini basıram. Tüklərim ürpəşir. Yəni bu musiqini mən yazmışam? Axı bu mənim işimə qətiyyən oxşamır. Bu nədir belə? Başımı bulayıb öz-özümə deyirəm: bu, bir bədheybətin işidir. Bu nəsə daxili bir bədheybətin işidir. Qətiyyən mənim musiqimə oxşamır. Amma bu, Xloedir. Birmənalı olaraq Xloedir. Bu onun içində olandır, onun mənə ötürdüyüdür. Bütünlüklə Xloedir.

– Ey, dost, yoxsa sən bütün gecə yatmamısan?

– Yox, yatmışam, amma balkonda. Sadəcə, uzun müddətdir ki, janr axtarışında idim, deyəsən, indi onu tapmışam.

O, söhbəti davam etdirməyə çalışır:

– Hə, o necə janrdır?

– Kim bilir. Nəsə təzə bir şeydir, amma heç nəyə bənzəmir. Instrumental musiqidir, bir də sözlər. Nəsə "dark hill"[1] kimi bir şey.

– Dinləmək olarmı?

– Hə, əlbəttə.

Oğlan mənim qulaqlıqlarımı götürür. Əgər bunlar telefon qulaqlıqları olsaydı, heç vaxt imkan verməzdim ki, öz qulaqlarının içinə salsın. Amma böyük studiya qulaqlıqları olduğuna görə, düşünürəm ki, qorxulu bir şey yoxdur. Bir saniyə gözləyib pleyi

[1] Musiqi janrı, hərfi mənası "qaranlıq təpə" deməkdir.

basıram. Oğlan başını tərpədir, sonra yenə tərpədir, amma bunun ritmə uyğun olmadığını başa düşürəm. Deməli, əlaqəni itirib, melodiyanı tuta bilməyib.

– Oy, bu heç də pis deyil, dost. Mənim tərzimə o qədər də uyğun deyil, amma gitara xoşuma gəldi.

Yeri gəlmişkən, orada gitara yoxdur. Brass[1] var, mən ona "Glass reverb" effekti əlavə etmişəm.

– Hə, gitara mənim də xoşuma gəlir, – xeyirxahlıq naminə yalan danışıram.

Bu əvvəllər də belə idi, indi də eyni şey baş verir. Mən musiqi yazır və bütün incikliklərimi onun içində basdırırdım. Albomlarım mənim altşüurumun zibil qutuları idi. Ora yalnız qurtulmaq istədiyim şeyləri atırdım və bu mənə həmişə kömək edirdi. Indi də kömək edir. Mən yavaş-yavaş Xloedən qurtulmağa başlayıram.

– Oh vou, "Chloe" – albom belə adlanır? Bəs bu Xloe kimdir? – o soruşur.

– Elə-belə, təsadüfi addır. Sonra dəyişəcəyəm.

Nyu-Yorkda insanlar sabun köpüyü kimi peyda olur və yoxa çıxırlar. Elə təsəvvür yarana bilər ki, ətraf sabun köpüyü ilə doludur və sən insanların içində çimirsən. Əslində isə onların hamısı çox davamsız, ötəri, cəld hərəkətlidir. Bir anda bitirlər. Növbəti nəfəsdə yeni köpüklər və yeni-yeni insanlar peyda olur. Bu qədər insanın içində lap boğulmaq olar. Mən sizə bu

[1] Misdən hazırlanmış nəfəsli musiqi alətləri

əhvalatı danışınca başlanğıcda haqqında danışdığım insanların adlarını unutdum. Sabun köpükləri... Milyonlarla sabun qovuqcuğu... Mən isə az qala 30 yaşı olan və bu qovuqcuqlardan birinə vurulmuş axmaq. Piqmalion[1], heç olmasa, daim yanında olacaq bir heykəli sevirdi. Bəs Xloe harada idi? Onun surəti, onun sözləri, onun qoxusu, onun həyat tarixçəsi harada idi? Doğrudanmı, mənim albomum təkcə bir qovuqcuğun ömrünü uzatmaq xatirinə suyun içinə sabun tökən sirk oyunbazının ümidsiz cəhdləridir? Doğrudanmı, mənim albomum Xloeni birdəfəlik silməkdənsə, yaddaşımda həmişəlik saxlamaq cəhdidir?

[1] Yunan əsatirində fil sümüyündən gözəl qadın heykəli yonan və ona vurulan heykəltəraş

Doğum günün mübarək, "Xloe" albomu



Hər birimizin içində kiçik bir diktator yaşayır. Balaca, yekəbığ, xudbin, böyük komplekslərə malik olan bir diktator... Əslində bizim hər birimiz dünyada tayı-bərabəri olmayan tiranlarıq. Hamımız öz mikro Romalarımızda yanğın törədə biləcək Neronlarıq. Biz inkvizisiya elan etməyə hazırıq, insanı hətta sözünü deməyə imkan vermədən öldürməyə hazırıq.

Bilirsiniz, mən bunu nə vaxt anlamışam? Bütün insanların həyatında ilk dəfə özünün şəxsi dövləti və mütləq hakimiyyəti peyda olduğu zaman. Bu bizim "Instagram"larımız və "Facebook"larımızdır. İlk dəfə yalnız şəklimi bəyənmədiyi üçün tanımadığım bir insanı blokladığım zaman anlamışam ki, mən də elə o cür diktatoram. Mən söz azadlığına görə həmin insanı iyrənc bir üsulla cəzalandırmışdım. Onun virtual şəxsiyyətini edam etmişdim. Axı blok da elə edam cəzası, yaxud senzura kimi bir şeydir. Kimsə, nə vaxtsa, bircə dəfə də kimisə bloklayıbsa, deməli, virtual diktatora çevrilib. Baramanın içindəki Hitler, bələkdəki Stalin... Mən elə indicə bir insan öldürdüm. Onu Nyu-Yorkun mərkəzində, İst-Villicin düz ortasında ona görə öldürdüm ki, səhifəmdə bu sözləri yazmışdı: "Sən doğma dilimizi satmısan!"

Artıq iki ildir ki, Nyu-Yorkda yaşayıram. Mənim "Instagram" hesabımda müxtəlif ölkələrdən olan, müxtəlif millətə mənsub saysız-hesabsız insan var. Onların hamısı, şərti olaraq, dünyanın vahid dili hesab edilən ingilis dilini başa düşür. Mən bütün tanışlarımın anlaya biləcəyi dildə yazmalı oluram. Günlərin birində isə hansısa bir fanat yazır ki, mən öz dilimi satmışam, çünki lənətə gələsi selfilərimi ingilis dilində imzalayıram. "Doğma dilini satmısan". Əlbəttə, mən onunla mübahisəyə girər, müzakirəyə başlayar və and içirəm ki, haqsız olduğunu sübut edərdim. Əgər "Sən doğma dilini atmısan" desəydi, o adamı səhifəmdən silməzdim. "Satmısan" yazanda isə belə çıxır ki, mən dili satmışam və kimsə onu satın alıb. Axı hansısa xalqın dilini almaq kimin nəyinə lazımdır? İnanın ki, heç kimin dili heç kimə lazım deyil. Bu itoğlu isə deyir ki, mən onu satmışam. Kimə satmışam, ay əclaf? Bir də ki, dili alıb-satmaq mümkün olsaydı, böyük sərvətə malik milyarder müştəri tapıb elə özümün uydurduğum efiokopt dilini ona satardım. Elə bu səbəbdən də o adamı bütün iradları ilə birlikdə səhifəmdən sildim.

Mən bu gün diktatoram, həm də öz albomumun üzərində işimi bitirməkdəyəm. Ona görə də belə əsəbiyəm. Axı mən tezliklə Xloedən tamamilə əl çəkməli olacağam. Unutmağına unutmuşam. Sifətini güclə xatırlayıram, üz cizgiləri piksellərdəki fotoşəkillər kimi yayılır. Xloe yaddaşımdan silinib,

yalnız "cookie"[1] fayllar qalıb. Onun səsi, paltarı, saç düzümü. Hər şey silinir, yalnız dialoqlarımız, hələ də xatırladığım uzun dialoqlarımız qalır. Mahiyyət qalır. Mən mahnılara müxtəlif adlar vermişəm. "Myth killer", "Scent of Chloe", "Portland girl", "Dawn house", "Under your skin", "Post-Religious Emptiness", "Whales can fly"[2] – hamısı Xloenin parçalarıdır.

Albom nə romantik alınıb, nə də kədərli, amma çox dərindir. Mən bunun hansı janr olduğunu bilmirəm. İlk dəfədir ki, məhsulumun nə olduğunu anlaya bilmirəm. Roka qətiyyən bənzəmir. Elə bil içinə hansısa hind ədviyyatları qatılıb, amma nə məxməridir, nə də ipək kimi kəskin və qaranlıqdır. Dadına görə buz, naşatır spirti, parlaq kağız kimidir. Musiqini sözlə ifadə etmək həmişə çətindir, amma "Xloe", ümumiyyətlə, məndən kənarda olan bir albom idi, mənimki deyildi. Mən belə musiqiyə qulaq asmazdım, yəqin ki, heç kim qulaq asmazdı. Bu, baxış sayı 300-ə çatmamış ölən, bir növ, "YouTube"un "düşük döllər"i sırasında olan albomlardan biri idi. Bu albomu öz rəsmi kanalımda yerləşdirə bilərdim, amma onda dinləyicilərim mənim barəmdə nə fikirləşərdi? Axı onlar məndən belə bir şey gözləmirdi.

Düzünü desəm, mən onların bunu dinləməsini istəmirdim. Bu, intim bir albom idi, şəxsi hisslər idi,

[1] İstifadəçinin kompüterində saxlanılan kiçik məlumatlar

[2] "Əfsanələr qatili", "Xloenin qoxusu", "Portlendli qız", "Şəfəq evi", "Sənin dərinin altında", "Dindarlıqdan sonrakı boşluq", "Balinalar uça bilir"

insanın şəxsi həyatı isə ekranlarda görünməməlidir. Bunlar çox dərin şəxsi yaşantılar idi, kənar adamlarla bölüşmək olmazdı. Sonra da "Mən bəyənmədim", yaxud "Gitara çox yaxşıdır" deyən hansısa miskin bir hərifin iradlarını dinləyəcəksən. Gitara? Axı o, gitara səsini harada eşitdi? Albom gərək nəzərə çarpmasın, öz həyatını yaşasın, özü inkişaf etsin, bu virtual döyüşdə özü salamat qala bilsin. Mən "Xloe"ni götürüb bu rəqəmsal okeana tullayacağam və ona ümid edəcəyəm ki, uşaqlar anadan olan gündən instinktiv olaraq üzməyi bacarırlar.

Hə, son zamanlar mənasızlıqlar çox oldu. Albom şəbəkədə yayılırdı, mən isə təzə işimlə məşğul idim. Həmin yerə nə üçün işə girdiyimi heç özüm də bilmirəm. Sənədli filmlər çəkən video istehsalı şirkətində işləyirdim. Özümdən böyük olan bir şeyin tərkib hissəsi olmaq istəyirdim. Rahat tənhalığı bütövlük illüziyasına dəyişirdim.

Bu vaxt ərzində alboma 23 000 baxış olmuşdu. Mənim musiqimi dinləyirdilər. Mən gündəlikdəki qeydlər kimi, hər mahnıya onun Xloeyə aid xatirələrin hansı hissəsinə həsr olunduğunu bildirən kiçik esse də əlavə etmişdim. Amma onlar çox dolaşıq, yalnız özümün başa düşə biləcəyim mətnlər idi. Heç mən özüm də onları tam anlaya bilmirdim. Məndə heç bir sevgi, yaxud duyğu qalmamışdı, onlar çoxdan sənətə çevrilmişdi. "Beatles" qrupunun "Yesterday"ində olduğu kimi. Axı o da kiməsə həsr olunmuşdu. Amma

səhnədə min dəfədən artıq çıxış etdikdən sonra hətta mahnının kimə həsr olunduğunu və nə vaxt yazıldığını da xatırlamırsan, o sənin konsert proqramında növbəti bir hitə çevrilir. Sən hansısa sevgi haqqında deyil, daha çox səhnədə mikrofonun şnuruna ilişib yıxılmamaq haqqında fikirləşirsən. İnsanlar telepatiya ilə ünsiyyət saxlamağı öyrənəndən sonra konsertlər sənayedən birdəfəlik yox olacaq. Səhnədə olduğu zaman artistin ağlında baş verənlərə ən sadiq fanat belə tab gətirə bilməz.

23 000 baxış, 1000 yükləmə...

"Çox maraqlı musiqidir, uğurlar!" – KennyG_fan

"Bu nədir, ambient dub[1]? Hansı janrdadır? Mənim balinalardan danışan üçüncü mahnıdan xoşum gəldi". – Annie22

"İfrazatdır". – Suicideboy

"Cinsiyyət üzvünüzü böyütmək istəyirsinizsə, bu linkə basın: http://www.sexgallery.vo/bigdick/promo". – Jared

"Məhz belə bir musiqini çoxdan axtarırdım, pleylistə əlavə edəcəyəm". – Liz_Au

Əlbəttə, şəxsi müraciətlər də vardı. Bunlar, bir qayda olaraq, müxtəlif səsyazma və marketinq şirkətlərinin bildirişləri idi. Onlar, adətən, promo və kanalda yer təklif edirlər, məqsədləri isə səndən ayda bir neçə dollar qoparmaqdır. Təcrübəli bir musiqiçi kimi

[1] Elektron musiqi üslubu

bilirdim ki, həqiqi fayda yalnız özləri pul ödəməyə hazır olan şirkətlərdən gəlir. Məhz onlar sənə kömək edəcəklər. Səndən azı 1 dollar istəyənlər isə fırıldaqçılar, asan qazanc axtaranlardır.

Bu spam axını içində yeni bir məktub alıram. Mən "Google Maps"da "Grounded" qəhvəxanasını tapmaq istədiyim zaman məktub xəbərdarlıq kimi telefonumda görünür. Bir az ürəyim bulanır. Xloe? Doğrudanmı, bu, Xloedir?

Öz inboksumu açıb məktubun üstünə basıram. Kiçik dairəvi avatarda Xloeyə bənzəyən üz və sarı saçlar görünür. Gözlərim sürətlə yazının üstündə gəzir, acgözlüklə oxuyuram:

– Salam. Sən kimsən? Məni haradan tanıyırsan?

Məktubun sol tərəfində yaşıl işıq yanır. Deməli, onlayndır.

– Mən? Xloe, bu sənsən?

– Hə.

– Bu mümkün deyil!

– Sən mənə albom həsr etmisən. Bu musiqi... Sənin bütün mahnıların mənim barəmdədir. Heç bilmirəm, nə deyim. Bəlkə, cümə günü axşam görüşək? Mən səni burada gözləyəcəyəm, – o, "Google Maps"da mənə ünvanı göndərir.

Iki gündən sonra izə düşən it kimi "Google Maps"ın mavi xətti istiqamətində gedirəm. Budur, görüşmək üçün razılaşdığımız həmin yer buradır. Yəni o qız, həqiqətən, Xloedir? O mənim mahnılarımı eşidib və

hər şeyi başa düşüb. Mən onu musiqinin köməyi ilə tapa bilmişdim. Maraqlıdır, görəsən, o mənim albomumu necə tapıb? Bəlkə, "Google"da "Xloe" yazaraq axtarıb və təsadüfən alboma rast gəlib?

Kafedə oturub dərindən nəfəs almağa başlayıram. Indicə Xloe burada olacaq və mən onu yenidən görəcəyəm.

Külək onun qoxusunu mənə tərəf gətirir. Dönüb baxıram və onun mənə necə yaxınlaşdığını görürəm. Onun boyu mənim xatırladığımdan bir az ucadır, yox, hər halda, çox ucadır. Saçları dalğalıdır, əynində açıq-bej rəngli idman köynəyi, uzun və qolsuz toxunma kardiqan var. Gözləri bozumtul-yaşıl, dodaqları əvvəlkindən koppuş, qaşları isə daha tünddür. Bir də çilləri var, güclə hiss olunur, amma hər halda var.

Qız salam verir və mənimlə üz-üzə əyləşir. Qolunda saat və bir neçə sallanan qolbaq, bəzək-düzək var, bəlkə, bahalıdırlar, bəlkə də, yox, anlamaq çətindir. O, Xloedən bir neçə kilo ağır olar, sinəsi də daha böyükdür. Dərisi isə... Dərisi daha canlıdır, onda şaftalı rənginin isti çalarları var.

Qız danışmağa başlayır:

– Salam. Mənim adım Xloedir. Sən isə Eydensən, zənnimcə, mən artıq sənin barəndə hər şeyi bilirəm. Lənət şeytana, bu, yəqin ki, axmaqlıqdır... Amma mən bütün gecə alboma qulaq asmışam...

– Mən... Təşəkkür edirəm...

Bu, hələlik deyə bildiyim yeganə sözlərdir. Mən onun gözlərinə baxıram. Onlarda yaşıllıq daha çoxdur. Səsi isə... Səsi tamamilə fərqlidir. Əvvəlkindən

pis deyil, əksinə... Daha möhkəmdir və bir ton aşağıdır. Amma bu səs də mehriban və elastikdir.

– Bir də mən sənin qeydlərini, mahnılara aid esselərini oxudum, heç cür anlaya bilmirəm ki, sən onları haradan öyrənmisən. Bu elə bir... – o gülür, amma gülüşündə bir təəccüb, daxili bir gərginlik var. – Eyden, sən məni haradan tanıyırsan? Mən səni tapmaq istədim, amma biz heç vaxt rastlaşmamışıq... Sən hətta amerikalı da deyilsən.

– Artıq amerikalıyam. Mən...

Nə deyəcəyimi bilmirdim. Bu qız həm Xloe idi, həm də Xloe deyildi. Elə bil ki Xloenin oxşarı idi. Bəlkə, mən Xloenin sifətini tamamilə unutmuşam, axı bir ildən artıq vaxt keçib, elə onda da onu cəmi bir neçə həftə görmüşdüm. Məndə nə onun şəkilləri qalıb, nə də "Instagram"ı. Indi isə qarşımda Xloe Elizabet əyləşib və mən onu ilk dəfədir ki, görürəm.

– Eyden, həmin albom elə bil mənim haqqımdadır. Balinalar, Portlend, Kaliforniya... Hətta mənim sevimli, üstündə aslan şəkli olan qarğıdalı lopalarım... Yoxsa sən məni izləmisən? Axı bu necə ola bilər?

– Mən heç nə anlamıram. Dayan, demək istəyirsən ki, Portlenddənsən?

Mən bu qızın hosteldəki Xloe olmadığına qəti əmin idim. Yeni Xloe daha qəşəng idi, həm də elə bil onda daha çox həyat eşqi vardı.

– Hə, mən Portlenddənəm və mənim, həqiqətən, Manhettendə, buradan iki kvartal aralıda fotostudiyam var.

Qıza, sonra onun minib mənimlə görüşə gəldiyi sitibayka[1] baxıram.

– Mən bir il ərzində Bostonda volontyor olmuşam, biz balinaları öyrənirdik. Bir də Berklidə təhsil almışam... – bir saniyəliyə dili dolaşır, başında dolaşan bütün sualları bir yerə toplayıb mənə ünvanlamağa çalışır. – Sadəcə, istəyirəm ki, sən mənə izah edəsən, bunun bir təsadüf, ya da zarafat olmadığını deyəsən.

– Yox, bu, zarafat deyil. Mən, sadəcə... – bilmirəm, tamamilə onun həyatına bənzər həyat tarixçəsi olan bir qızı tanıdığımı ona deməyə dəyərmi. – Bəs sən mənim musiqimi necə tapmısan?

– Musiqini necə tapmışam? Bir neçə gün bundan əvvəl onu öz fotostudiyamda eşitdim. Onu studiyada çılpaq fotosessiya hazırlayan fotoqraf oxudurdu. Dedi ki, albomun adı "Xloe"dir. Mən də yükləyib dinlədim, gördüm ki, orada hər şey mənim haqqımdadır. This is so weird.[2]

Mən onu düz bir il axtarmışdım. İndi o mənim qarşımda idi. Bu, Xloe idi. Həm mənim Xloem idi, həm də mənim Xloem deyildi. Həm yalançı Xloe idi, həm də əsl Xloe. Lənət şeytana, bəlkə, onu mən uydurmuşdum? Elədir, bu, vizuallaşdırmanın nəticəsidir. Mən Xloe haqqında o qədər fikirləşmişəm ki, onu, sadəcə olaraq, maddiləşdirmişəm. Bu hansısa

[1] Şəhər velosipedi

[2] Bu, çox qəribədir.

kvant zibilidir. Onu mən yaratmışam, indi o təkcə mənim gerçəkliyimdə mövcuddur. Lənət olsun...

– Sənin musiqin elə bil sehrlidir. Səhərəcən yata bilməmişəm. Sadəcə, şokda idim, – o, ətrafa baxır və əlini qaldırır. Ofisiant bizim masaya yaxınlaşır. – Burada siqaret çəkmək olarmı?

– Bağışlayın, bizdə siqaret çəkmirlər...

– Bunlar əsl siqaret deyil...

Əgər indi o, çantasından Xloenin bitki siqaretlərindən çıxarsa, mən "Sirr" filminə ilk inananlardan olacağam. Qız elektron siqareti ofisianta göstərir, bu, mentol rayihəli nazik metal siqaretdir. O biri Xloedə eyni qoxusu olan bürmələnmiş kağız siqaretlər idi, bu Xloedə isə elektron siqaretlər. Amma nə fərqi? Axı bu qız Xloeyə 90 faiz oxşayır, aralarında cəmi 10 faizlik fərq var. Xloe Elizabet... And içə bilərəm ki, əgər hosteldəki Xloedən ikinci adını soruşsaydım, o da "Elizabet" deyə cavab verərdi.

– Bu, təsadüf kimi görünür, amma bu cür təsadüf olmur! Mən sənin musiqiçi olduğunu bilirəm, səni e-mailin vasitəsilə tapmış, sonra isə "Wikipedia"da axtarmışam.

– Mən heç nə deyəcəyimi də bilmirəm. Bu, bir oyun deyil ki?

– Nə mənada?

– Sən təsadüfən oyun oynamırsan? Həqiqisən?

Qız gülür, qızarır, bir əli ilə tutduğu başını bulayır:

– No, I'm real, I m Chloe.[1]

Bu sözlərdən içimdə hər şey alt-üst olur. "Həqiqi Xloe". Mən düz bir il Xloenin uydurma, yalan olmasına görə əzab çəkmişdim, amma indi o mənim qarşımda oturub, həm də daha gözəldir, ondan təkcə mentollu siqaretlərin deyil, həm də taleyin qoxusu gəlir. Ayağa qalxıb küçəyə çıxmaq, göyə baxaraq bu cür dönüşlər yaratdığına görə Allahı alqışlamaq istəyirəm.

– Deməli, sən Xloesən? Bunu sübut elə.

O, yerindən qalxıb mənə yaxın oturur. Öz ayfonunu açır və mənə "Instagram" səhifəsini göstərir. Xloe Elizabet. 730 izləyici. Şəkillərini vərəqləyir və onlara aid məlumat verir:

– Bu, Portlenddə çəkilib, bu bizim kilsədir... Kilsə idi. Burada mən qayıqdayam, uzaqda isə balina suya baş vurur. Bu isə Berklidə çəkilib, tarix fakültəsində... – Fotoşəkillərin birinin üzərində dayanır və içini çəkərək deyir: – Bunlar isə mənim valideynlərimdir. Avtomobil qəzasında həlak olublar.

O, "Instagram"dan çıxıb öz "Google Drive"sini açır. Ilk görünən faylın adı "Post-dini sindrom"dur.

– Belə şey ola bilməz!

Qız gülür:

– Mən də onu deyirəm. Kimsə mənim barəmdə sənə danışıb?

[1] Yox. Mən həqiqiyəm. Mən Xloeyəm.

Möcüzələr ölkəsində



Xloe həyatımda peyda olandan sonra birdən-birə anladım ki, mənim mövcud olub-olmamağımın heç bir əhəmiyyəti yoxdur. Çünki mən "Xloe" adlanan ilahi layihədə, sadəcə, bir epizod idim. Bu nə idi? Təsadüf, yoxsa tale? Gerçəklik, yoxsa dəlilik?

Biz vidalaşdıq, amma uzun müddət üçün yox. Mən ona zəng edəcəyimi dedim. Bu dəfə bir-birimizə "Instagram" və "Facebook" ünvanlarımızı verə bildik. Hətta mən hər ehtimala qarşı, onun studiyasının dəqiq ünvanını da öyrəndim – birdən bütün internet yoxa çıxardı və mən onu yenə itirərdim. "Onu" yenə itirərdim? Bu barədə düşünmək mənim özümə də gülməli görünürdü. Lənətə gəlmiş Amerika... Lənətə gəlmiş Nyu-York... Hələ bir deyirlər ki, hətta qum dənələrinin də biri digərinə bənzəmir. Hər biri yeganədir, hamısı fərqlidir. Tell me about it.[1] Sonra deməyəsiniz ki, bu əhvalatı sizə nə üçün danışıram. Bu mənim başıma gələn ən ağlasığmaz əhvalatdır.

Ertəsi gün evdən çıxmadım. Özümə qapıldım. Heç nə etmək istəmirdim. Otaqda uzanıb tavana baxırdım. Baxışlarım pəncərə pərdələrinin üzərində dayanır, sonra döşəməyə çatanadək onların üzəri ilə

[1] Bu haqda mənə danış.

aşağı sürüşürdü. Qəribədir, xeyli vaxtdır ki, burada yaşayıram, amma bu pərdələri ilk dəfə görürəm. Onlar nazik, şaquli, yaşıl zolaqları olan ağ materialdandır. Karniz dəmirdəndir, böyük metal halqaları var. Pəncərələr plastikdir, şəbəkəsi yoxdur. Bir də, sən demə, mənim otağımın bir küncündə xokkey ağacı varmış. Maraqlıdır, görəsən, onu neçə il əvvəl ora qoyublar?

Xloe Elizabet, yoxsa bu bir zarafatdır?

Bizim təbilçidən mənə SMS gəlir: "Eyden, səndən heç bir xəbər yoxdur, nə vaxt studiyaya gələcəksən?" Ona cavab yazıram: "Joe, yadındadırmı, sənə demişdim ki, Xloe adlı bir qız vardı, mən onu itirdim?! Deyəsən, onu tapmışam".

– Wow, that is so cool man, take your time![1]

Həmin axşam Xloedən SMS gəlir:

– Hey.

Cavab verirəm:

– Hey.

O yazır:

– Sooo?

Mən fikrimi toplamağa cəhd edir, nəsə yazmağa çalışıram. Xloe mənim nəsə yazıb sonra pozduğumu görür. Onun ayfonunda boz hərflərlə "Eyden is typing..."[2] yazılıb. Mən ona yazıram: "Eyden is typing". O cavab verir:

[1] Oo, bu çox yaxşıdır, onda tələsmə.

[2] Eyden yazır.

– Lol[1], – sonra əlavə edir: – Gəl görüşək.

– Görüşək.

– Mən bir yer tanıyıram.

O mənə ünvanı göndərir. Bu, Yuxarı Uest-Saydda yerləşən "Alisa möcüzələr ölkəsində" kafesidir. Linkoln mərkəzinin yanındadır.

– Sounds good.[2]

– Mən sənlə tanış olmaq istəyirəm.

– Saat neçədə? – Bunu soruşur və dərhal əlavə edirəm: – Mən də sənlə tanış olmaq istəyirəm.

– 7:30.

– Great![3]

– Can't wait to see you![4]

Otağımın küncündəki xokkey ağacına baxıram. Baş verənləri anlamağa çalışıram. Görünür, hosteldəki Xloe əsl Xloe ilə tanış imiş. O, yeni bir həyat tarixçəsi uydurmaqdansa, özünü Xloe kimi qələmə verməyi qərara alıbmış. Bəlkə də, bir yerdə təhsil alıblar, ya da "Instagram"da Xloeni izləyirmiş. Kim bilir?! Bir şey aydın idi: mən Xloeni arzulayırdım – budur, Xloe gəlib. Həm də bu dəfə yalançı deyil, əsl Xloedir. O, çox gözəldir. Eşitmişəm ki, bəzi qızlar hansısa gözəl aktyora olan sevgilərinə görə eyni adı daşıyan oğlanlara vururlar. Bilirəm ki, it sahibləri bəzən

[1] Gülüşü ifadə edən söz

[2] Yaxşı səslənir.

[3] Lap yaxşı.

[4] Səbirsizliklə gözləyəcəyəm.

öz itlərinə bənzəyirlər. Şüuraltı bir hiss bizi seçməyə sövq edir. Oğlanlar analarına bənzəyən qızları seçirlər. Maşın alanda sevimli blokbasterimizdə gördüyümüz avtomobillərə üstünlük veririk.

Lənət şeytana, Xloe əvvəl xəyallarımda yaşatdığım qıza çevrildi, yalnız ondan sonra həyatımda peyda oldu. Hə, mən onun obrazını sevmişdim, çünki məni aldadan Xloe yaddaşımdan silinmişdi. Onun üzünü xatırlamırdım, amma onların bənzədiklərinə əminəm. Mən obraza vurulmuşdum, yoxsa, hər halda, özünü Xloe kimi qələmə verən qıza? Ümumiyyətlə, bunu sevgi adlandırmaq olarmı? Bu cür məsələlərdə özümü nə qədər təcrübəli hesab edə bilərdim? Saxta ciddi əlaqələr quran və onları heç vaxt iki aydan artıq davam etdirməyən bir musiqiçi... Məgər mənim sevgi haqqında hər hansı bir təsəvvürüm vardı? Bəlkə, sadəcə, həyəcanım həddini aşmış və mənim duyğu orqanlarımı sıradan çıxarmışdı?

Mən vaxtından bir saat tez gəlmişdim və axmaqcasına ətrafda dolaşır, ona zəng edib-etməmək barədə fikirləşirdim. Sonra hansısa yerli dizaynerin əl işindən ibarət olan geyim mağazasına girdim. Dizayner gənc bir qız idi, keçmiş dövrlərin dəbinə uyğun hind geyimləri hazırlayırdı. Mən vitrinə xeyli göz gəzdirdim və axırda sol böyründə iri düymələri olan çəhrayı maykanı götürmək qərarına gəldim.

– Xoşunuza gəlir? Geyinib baxmaq istəyirsiniz?

– Hmm... Hələ bilmirəm. Neçəyədir?

– 70 faiz endirimlə 120 dollara.

– Oo, bahadır.

Qız mədəni şəkildə izah edir:

– Sadəcə, bunların hamısı əl işidir və hər şey nadirdir.

– Nadir?

– Bəli, hər geyimdən bircə dənədir. Mən hər geyim üçün nadir dizayn fikirləşirəm, eyni şeydən ikincisi mövcud deyil.

Onun bütün brendi bu illüziya əsasında qurulub.

– Siz əminsiniz ki, haradasa, məsələn, Portlenddə məhz bu cür paltar hazırlayan sizin kimi bir dizayner yoxdur? Siz necə əmin ola bilərsiniz ki, bu maykadan bircə dənədir?

Xloenin zəngi bizim söhbətimizi yarımçıq qoyur, küçəyə çıxıb cavab verirəm:

– Mən buradayam, yaxında.

– Mən isə artıq kafedəyəm.

Onun telefonda gülümsədiyini hiss edirəm.

Xloenin yanına yollandığım zaman hər şeyi danışmaq qərarına gəlmişdim. Təsadüfən bir hostelə düşdüyümü, orada ona bənzəyən bir qıza rast gəldiyimi, onun həyat tarixçəsini mənə həmin qızın danışdığını Xloeyə demək istəyirdim. Mən onu görənə qədər bunu etməyə hazır idim. Xloe çox gözəl görünürdü. Çoxdan idi ki, belə gözəl üz görmürdüm. Onun məsum üz cizgiləri vardı, oturub gülümsəyirdi, baxışlarında alov şölələnirdi. Xloe Xloedən yaxşı idi və mən

buna hazır deyildim. Sakitcə onun qarşısında oturdum. Xloe danışmağa başladı:

– "Alisa möcüzələr ölkəsində" adlanan bu yeri xüsusi olaraq seçmişəm, axı mən indi özümü məhz bu cür hiss edirəm.

– Hə, elədir.

Mən isə Çeşir pişiyi kimi gülümsəməyimi saxlaya bilmirdim. Onun əynində kiçik düymələri olan qırmızı kofta vardı, bir qədər irəli əyiləndə sinəsi azacıq açılırdı. Məni həsrət qarışıq qəribə bir istək bürümüşdü, halbuki onunla belə bir duyğunu yaşamamışdım. Elə bil kimsə mənim keçmiş Xloe idealımı götürmüş və onda dəyişikliklər etmişdi. Yəqin ki, insan dəyişilmiş və çox cazibədar bir qıza çevrilmiş keçmiş sinif yoldaşı ilə rastlaşanda belə olur. Eyden, özünü ələ al, sənin həyatında bundan da maraqlı məqamlar olub. Nə üçün özünü belə itirmisən?

Kişilər axmaq kimi görünməməyə çalışdıqları zaman necə də axmaq görünürlər. Mən ətrafa boylanır, gözümü kafenin daxilindəki ayrı-ayrı detallara zilləyirəm. Hər şey "Alisa möcüzələr ölkəsində" nağılında olduğu kimi düzəldilib: çay masaları, süfrə dəstləri, pirojnalar, nağıl personajları...

– Əla yerdir, heç vaxt burada olmamışam.

– Hə, mən də. Amma həmişə bura gəlmək istəmişəm.

Xloe başını aşağı salaraq, cizgi filmində olduğu kimi, hər iki əli ilə fincanı qaldırır. Mən nağılvarı

naxışları olan bu cür fincanı xatırlayıram. Xloe çaydan bir qurtum alır və gözlərini qaldırıb mənə baxır.

– Bəs sən nə üçün bura köçdün?

Eyden, nəfəs al, heç kim səni birnəfəsə danışmağa məcbur eləmir.

– Sadəcə, mən... Mən həddən artıq məşhur idim və bu məni narahat edirdi. Ona görə də bura köçdüm. Bəs sən? Sən necə oldu ki, Nyu-Yorka gəldin?

– Məgər bilmirsən? – o zarafat edir və gülür.

Ürəyimdən keçir ki, ofisiantı çağırıb tort bıçağı gətirməsini xahiş edim və Xloedən bir parça kəsib onun dadına baxım. Əminəm ki, o, Nyu-York çizkeyki[1] kimi yumşaq olacaq. Bu cür qızlar dəri, ət və sümükdən ibarət ola bilməzlər. Onların içində yalnız qaymaqlı krem, vanil tozu və qəhvəyi qənd ola bilər.

– Mən bura bir neçə il bundan əvvəl gəlmişəm. Ona görə də Nyu-York mənim üçün hələ təzədir. Fotostudiyanı isə ona görə icarəyə götürmüşəm ki, özüm də model idim.

İndi onun nə üçün belə bədən quruluşuna malik olması aydındır.

– Model?

– Hə, amma həmişə yox, lazım gəldikdə. Əgər fotoşəkillərə görə sənə yaxşı pul verirlərsə, nə üçün də razılaşmayasan? Hərçənd bu mənim əyləncələrimdən yalnız biridir. Əslində mən çəkilməkdənsə,

[1] Pendir, yaxud kəsmiklə yağlı südün və ya qaymağın qarışığından hazırlanan biskvitsiz desert növü

çəkməyi xoşlayıram. Obyektivin o biri tərəfi daha çox xoşuma gəlir.

– Hmm... Maraqlıdır.

– Hə, mən bu barədə öz bloqumda yazıram.

– Bloqunda?

– Mən şəkil çəkirəm, həmin şəkillər məndə elə güclü təəssürat oyadır ki, onları təsvir etmək istəyirəm... Hələlik onlar yalnız mətnlərdir, kiçik mətnlər. Amma əminəm ki, bu nə vaxtsa kitaba çevriləcək.

– Kitabı nə edəcəksən?

– Sonra ondan ssenari hazırlayıb Hollivuda göndərəcəyəm. Onlar film çəkəcək və kitab mənim barəmdə olduğu üçün məcbur olacaqlar ki, məni aktrisa kimi baş rola götürsünlər.

Mən özümdə bir narahatlıq hiss edirəm, sanki iyrənirəm, amma məhz nədən iyrəndiyimi anlamıram.

– Aktrisa?

– Aktrisalıq, sadəcə, bir pillə olacaq, Ancelina Coli kimi. Mən özüm film çəkmək istəyirəm. Dedim axı, mən obyektivin bu biri tərəfindəyəm.

Yəqin ki, mənim bu şeylərdən başım çıxmır, axı bu nə sayıqlamadır? Bu balaca, zərif bədəndə nə çox şey yerləşib? Orada daha nələr var?

– Hə, bir də mən rəsm çəkirəm, mahnı oxuyuram, həm də rəqslə məşğul oluram. Bir də istəyirəm ki, Afrikada səfir olum, yetim uşaqları aclıqdan xilas edim.

– Bu, yəqin ki, sən film çəkib pul qazandıqdan sonra olacaq?

– Yoox, mən pulu şampun sataraq qazanacağam.

Artıq məni gülmək tutur. Yoxsa o mənimlə oyun oynayır?

– Sən zarafat edirsən?

– Əlbəttə, zarafat edirəm, Eyden, – o gülür. – Məgər indi ətrafdakıların hamısı belə deyilmi?

– Həə, elədir! Xüsusilə də Nyu-Yorkda. Həyatında baş vermiş ən nadir qeyri-adi hadisəni kiməsə danış, müsahibin bircə dəqiqənin içində xatırlayacaq ki, o da nə vaxtsa belə bir şey edib.

– Hamı belə edir. Bütün musiqiçilər, bütün ofisiantlar, bütün siyasətçilər, rəssamlar, dizaynerlər, montajçılar... Amma Portlenddə belə deyildi. Mənim atam nəzarətçi idi və bütün ömrü boyu nəzarətçi işləmişdi, başqa bir işi arzulamırdı da...

Biz danışır, danışırdıq... Nəhayət, ofisiant üçüncü dəfə bizə yaxınlaşaraq üzr istədi və bildirdi ki, artıq kafeni bağlayırlar. Xloe çox səmimi bir qız idi, dərin yumor hissi vardı. Onun bu qədər şən olacağını qətiyyən gözləmirdim. Bunda insanı özünə çəkən nəsə vardı.

Küçəyə çıxdığımız zaman ona Linkoln mərkəzinə tərəf getməyi təklif etdim. Biz meydana çatanda böyük insan izdihamı gördük. Gənc Astronavtlar Cəmiyyəti meydana böyük teleskoplar qoymuşdu, onlardan pulsuz olaraq Saturna baxmaq olardı. Bu gün səma aydın olduğu üçün arzu edənlər çox idi. Xloe ilə birlikdə növbədə dayanıb bir-birimizə baxır-

dıq. Mən bir il əvvəl hosteldəki Xloeyə danışdığım hər şeyi indi ona danışırdım. Mən özümü təkrarlayırdım, amma onun üçün sözlərim tamamilə yeni və çox maraqlı idi. Dejavü... Mən paralel Xloe kainatlarında yaşayıram.

Nəhayət, bizim növbəmiz çatdı. Xloe teleskopda Saturna baxıb dedi:

– Qəribədir. Orada həyatın olmadığını fikirləşmək istəmirsən. İnanmaq istəyirsən ki, oranın da öz Linkoln mərkəzi var, oradakılar da teleskopda mavi planetə baxmaq üçün yığışırlar.

– Elədir, buna inanmaq istəyirsən.

Xloe teleskopu mənə ötürəndə barmaqlarımız bir-birinə toxunur. O dönüb mənə baxaraq deyir:

– Bilirsənmi, belə bir nəzəriyyə var – "Super kainatlar". Orada yeni "Big Bang"[1] hər saniyə saysız-hesabsız kainatlar yaradır, aralarında bizim planetə oxşayanlar da var və intəhasız bir axında onların hamısının surəti çıxarılır. Eynilə bu cür Linkoln mərkəzi, haradasa belə bir Xloe var. O mənə oxşayır, amma bir az başqa cürdür. Bizim surətimiz olan bu cür kainatlar isə milyardlarladır.

– Hə, mən buna əminəm.

Mən hələ də ona Xloe haqqında danışmamışam.

– Doğrudan? Əminsən? Nə üçün?

– Heç. Unut bunu...

[1] Böyük partlayış

Unut, Eyden, unut



Maylz xırçıldayan takonu dişləyib başını bulayır:

– Eyden, dostum, sən elə bil hansısa blokbasterdə yaşayırsan. Bax mən lap uşaqlıqdan Nyu-Yorkda yaşayıram, amma heç vaxt belə qeyri-adi əhvalat eşitməmişəm. Deməli, sən Xloeyə vurulmusan, sonra isə məlum olub ki, o heç Xloe deyilmiş. Amma bir il keçir, sən albom çıxarıb adını "Xloe" qoyursan və birdən lənətə gəlmiş əsl Xloe peyda olur. Özü də deyir ki, Xloe odur? Ha-ha-ha!

Tako qırıntıları konfetti kimi hər yerə səpələnir və "Court Street"dəki "Tex-Mex" restoranında oturduğumuz masanın üstünə tökülür.

– Hə, Maylz. Bax belə bir zibilə düşmüşəm və bilmirəm ki, nə edim.

– Bəs o nə təklif edir?

– Heç nə, elə hey multikainatlardan, hansısa təəssüratlardan danışır...

– Bu, birincidir, hə?

– Yoox, bu, ikincidir.

Maylz yumruğunu masanın üstünə çırpır:

– Lənət şeytana. Eyden, mənim yaxşı yadımdadır ki, sən Xloenin hostelda multikainatlardan, buna bənzər hansısa başqa şeylərdən danışdığını deyirdin. Lap dəqiq yadımdadır, çünki mən o sözü ilk dəfə səndən

eşitmişdim. Deməli, indi ikincisi də eyni sözləri deyir? Ha-ha-ha! Sən bir işə bax! Bu çox əyləncəlidir.

– Lağ eləmə, Maylz. Bu gülməli deyil.

– Sən mənə bundan gülməli əhvalat danışa bilərsən? Hə, danış görüm! – o yenə uğunub gedir.

– Sənlə ciddi danışmaq mümkün deyil. Amma burada Xloe haqqında bilən təkcə sənsən.

Tako onun boğazında qalıb, özü də alma kimi qızarıb oturub. Amma yenə gülməyinə ara vermir, yeməyi ağzında güclə saxlayıb barmaqları ilə "iki" göstərir.

– Hə, hə, iki Xloe var.

Vəziyyət mənim özümə də gülməli görünməyə başlayır.

– Dostum, birdən məlum olsa ki, bu qız da həmin əhvalatı özündən uydurub? Eyden, birdən sənin bütün axmaq həyatın boyunca eyni Xloelər peyda olar? Bəlkə, bu sənin lənətindir? Ha-ha-ha!

Elə bu vaxt Xloe zəng edir.

– Lənət şeytana, bu odur.

– Onda aç danış!

Telefon zəngi davam edir. Maylz Meksika masasının üstündə rəqs edən ayfona baxır.

– Dostum, sən, heç olmasa, ikincini əldən buraxma. Allah sənə ikinci dəfə belə bir fursət verir.

Düşünürəm ki, bəlkə, o, haqlıdır. Bəlkə, bu, həqiqətən, səmimi sevgimə görə mənə verilən ikinci fursətdir? Axı mən üzləşdiyim yalana görə çox əzab

çəkmişdim. Bəlkə, bu, sadəcə, hər şeyə dözdüyümə, yolumdan dönmədiyimə görə taleyin mənə hədiyyəsidir? Amma hansı yolumdan? Axı mən daha onu axtarmırdım, inamımı itirmişdim...

– Maylz, bəlkə də, sən haqlısan. Amma mən bilmirəm ki, buna necə yanaşım.

Maylz üçüncü takonun axırına çıxaraq deyir:

– Heç necə. Sadəcə, unut! Sən birinci Xloeni unutmalısan, onda hər şey öz-özünə yoluna düşəcək. Artıq bir ildən çox keçib!

– Bilirsənmi, bütün çətinlik də elə bundadır, mən birincini, demək olar ki, xatırlamıram.

Doğrudan da, bu biri Xloeni dərindən tanıdıqca xatirələrimdə birincinin sifəti ikincinin üz cizgiləri ilə əvəzlənirdi. Elə bil hostelin üçüncü mərtəbəsində yanaşı uzandığım, sekslə məşğul olduğum qız bu biri – ikinci Xloe idi, elə bil məhz onun qarğıdalı lopalarını boşqaba necə tökdüyünə göz qoymuşdum, Portlend haqqında, katolik ailəsi və balinalar haqqında ilk dəfə məhz ondan eşitmişdim.

– Mən nə edəcəyimi bilmirəm, Maylz, ona görə də mənə sənin köməyin, sənin məsləhətin lazımdır.

Maylz başını bulayır və bu dəfə ciddi şəkildə deyir:

– Eyden, sənə başqalarının məsləhəti lazım deyil, axı səndən başqa heç kimin belə bir təcrübəsi yoxdur. Bu həddən artıq qeyri-adi bir vəziyyətdir, başa düşürsən? Əgər birdən ikinci bir Naomi peyda olsa, mən də birinci ilə nə edəcəyimi bilməyəcəyəm.

– Aha, deməli, Naomi? – mən başımı bulayıb qımışıram.

– Hə, oğlum, Naomi.

– Mən ki sənə demişdim, Maylz, demişdim!

– Sən mənə heç nə deməmişdin, Eyden.

– Necə yəni deməmişdim? Yadındadır, mənə təklif edirdin ki, onunla yatım? Amma mən bunu etmədim. Yadındadır?

– İtil cəhənnəmə, Eyden! O səni dərhal başından rədd edərdi.

– Amma hər halda mən bunu etmədim, Maylz.

– Eyden, onsuz da sən artıq mənim arzumu ələ keçirmisən. Yoxsa yadından çıxıb?

– Yox, çıxmayıb... Amma son bir ili yadımdan çıxarmağın və hər şeyi əvvəldən başlamağın əleyhinə deyiləm.

– Onda başla, dostum. Sənin özündən başqa heç kim heç nə bilmir. Sadəcə, unut, Eyden, unut.

Mərkəzi park bütün gözəlliyi ilə



Xloe ilə Mərkəzi parkda gəzirik. Münasibətimizin təşəbbüskarı mən olmadığıma görə özümü çox rahat hiss edirəm. Elə alındı ki, birinci dəfə məhz o yazdı, bu bir vərdiş halını aldı və adətə çevrildi.

Mən həmişə cavab verən tərəf olurdum – biz hiss olunmadan yerlərimizi dəyişmişdik. Hərçənd, yəqin ki, məhz onunla birlikdə ikən öz yerimdə və öz rolumda olurdum. Axı mən ömrüm boyu münasibət qurmağa çalışmamışam, sadəcə, kiməsə məni sevməyə imkan vermişəm. Mən musiqi yazırdım, musiqi mənim daxili aləmimi açırdı, qızlar o aləmi görüb bəyənirdi, sonra özləri mənə yazırdı. Bu, təbiidir, belə də olmalıdır.

Mərkəzi parkda erkək quşlar oxuyur, onlar öz nəğmələrini qoşur və "Mərkəzi park" adlı sosial şəbəkəyə buraxırlar. Tezliklə dişi quşlar onları layk edəcəklər, öz qısa "çik-çirik"ləri ilə şərhlər yazacaqlar, onlardan hansısa uçub erkəyə yaxınlaşacaq və onun üçün "ümumi paylaşım"ını açacaq. Sonra dişi quş uçacaq, erkək də onun ardınca qanadlanacaq, yəni izləyəcək. Hansısa bir məqamda dişi quş öz birmənalı "çik"i ilə erkəyə ilk mesajını yazacaq. Beləcə hər şey dövr etməyə başlayacaq.

– Nə barədə fikirləşirsən? – Xloe soruşur.

– Hər şey barədə. Bəs sən nə haqda fikirləşirsən?

– Mən heç nə fikirləşmirəm. Sadəcə, özümü çox yaxşı hiss edirəm. Mən səhərlər burada çox qaçmışam, amma bircə dəfə də ətrafa göz gəzdirməmiş, buranın necə gözəl olduğunu fikirləşməmişəm. Bu gözəllik mənim üçün yalnız piyi əridən fon yerində olub. Belə bir cənnəti A məntəqəsindən B məntəqəsinə qədər olan qaçış yoluna çevirmək dəhşətli bir şeydir.

– Hə, düzdür.

Xloe üzümə gülümsəyib sözünə davam edir:

– Mən Mərkəzi parka meditasiya seanslarına görə də gəlirdim. Sadhqurunun[1] özü gəlib bizə levitasiyanı[2] öyrədirdi. Gərək dərindən nəfəs alasan, diqqətini toplayasan və təsəvvür edəsən ki, indicə havaya qalxacaqsan.

Ona demək istədim ki, hətta bunun mümkün olduğunu bir anlığa təsəvvür etsən belə, axı nə olsun? Tutaq ki, yerdən yarım metr yuxarı qalxdın, bəs sonra? Bunu bacarıb nə edəcəksən? Divan satacaqsan? Fokus göstərəcəksən? Sirkdə işləyəcəksən? Sən bu yeni bacarığınla nə edəcəksən? Axı nə üçün bütün normal insanlar kimi liftdən, yaxud təyyarədən istifadə etməyəsən? Amma düşündüklərimi dilə gətirməyib soruşdum:

– Nə oldu, uça bildinmi?

---

[1] Sadhquru (Jaqqi Vasudev); məşhur hind yoqu və mistiki, xeyriyyəçi

[2] Havada dayanma

– Düzünü desəm, bədənimin necə yüngülləşdiyini hiss etdim, – o mənə baxıb gözləyir.

Demək istəyirəm ki, axı bu, insanların nəyinə lazımdır? Hətta biz uça bilsək, özümüzdə belə bir gücü kəşf etsək belə, deyək ki, Texasa özümüz uçmaq istəyəcəyikmi? Qızmar günəşin altında və belə küləyin qabağında dörd saat uçmaq? Düşünürəm ki, yalnız motosikletçilər və sörfinqlə məşğul olanlar uçacaqlar. Qalanları isə təyyarəyə bilet alacaq.

Amma başqa söz deyirəm:

– Maraqlıdır, hələ də elmin izah edə bilmədiyi çox şey var.

Ürəyimdə isə fikirləşirəm ki, sən axı nə üçün hər məsələdə onunla razılaşırsan.

Xloe sakitcə gülümsəyir:

– Mən indi uçmaq istərdim. Sənin lə birlikdə Manhettenin üzərindən qüruba qarşı uçardım.

O elə danışır, danışırdı. Mən isə heç cür anlaya bilmirdim ki, bu qız nə üçün mənim onu haradan tanıdığımı soruşmur. Bəlkə, o bunu heç bilmək də istəmir? Axı o, keçmiş dindar katolikdir, həyatında çox möcüzələrdən məhrum olub. Bəlkə, o, sadəcə, xoş təsadüfə inanmaq istəyir? Ona yalan danışmağa dəyərdimi? Bəlkə, bizimlə baş verənləri möcüzə adlandırmalı, deməli idim ki, onu xəyallarımda yaratmışam, o isə mənim çağırışlarıma cavab verərək həyatımda peyda olub? Hostel haqqında susmalı idimmi? Axı mən indi yalan danışmağı çox yaxşı bacarırdım.

Xloe, təşəkkür edirəm, sən məni peşəkar yalançıya çevirmisən.

– Chloe, I wanna tell you something.[1]

– Sure, what s that?[2]

– It s about how I know everything about you.[3]

Xloe donub qalır. Maraq və qorxu qarışıq baxışlarını üzümə zilləyir. Mən bunun hər şeyi korlaya biləcəyini anlayıram. Amma ona bu barədə danışmalıyam. Biz Mərkəzi parkın ortasında yerləşən gölə çatmışıq, göydələnlər ağacların arxasında qalıb, bizi hər tərəfdən meşə əhatə edir. Mən ona Babil və Xloe haqqında, həyatımın yalan və dəyişilmələrlə dolu olan son bir ili haqqında danışmağa başlayıram. Mən ona hər şeyi xırdalıqlarınadək danışmalıyam. Onun bütün bunları bilməsini istəyirəm.

– Hmm... – Xloe susur.

– Düşünürəm ki, sənin gizli bir pərəstişkarın, izləyicin, rəfiqən ola bilərdi, sənin barəndə hər şeyi öyrənər, özünü sənə bənzətmək istəyərdi.

– Portlend balaca şəhərdir, orada hamı bir-biri haqqında bilir. Üstəlik, mən öz həyatımı "Instagram"da bölüşürəm. Təkcə həştəqləri oxumaq kifayətdir ki, mənim barəmdə hər şeyi öyrənsinlər.

– Özünü sənə oxşatmaq istəyən elə bir qız tanıyırsanmı?

---

[1] Xloe, sənə bir söz demək istəyirəm.

[2] Əlbəttə, nə haqda?

[3] Sənin barəndə hər şeyi haradan bildiyim haqda.

– No Eyden, I don't know. Do you want me to help you find her?[1]

Onun gözlərində əsəbilik və kədər görünür. Başa düşürəm ki, elə bu dəqiqə dayanmalıyam. Dayanmasam, ikinci Xloe də yoxa çıxacaq.

– Yox, nə danışırsan? Sadəcə olaraq, mənim üçün maraqlıdır ki, bir insanın həyatı kənar adamları belə addım atmağa necə ruhlandıra bilər...

Mən ona Xloe ilə aramızda nəsə olduğunu deyə bilmədim. Bizim söhbətlərimiz, əlaqəmiz, aramızdakı seks haqqında susdum. Böyük sevgimin ünvanı olan Xloe, sadəcə, ilham pərimə çevrildi.

Məhz nəyin təbəssümü onun üzünə qaytardığını xatırlamıram. Bəlkə, mənim axmaq zarafatlarım, bəlkə də, Mərkəzi parkın kolluqları arasında gördüyümüz yenot. Hər halda, axşam, demək olar ki, əl-ələ tutmuşduq. Soruşacaqsınız ki, "demək olar ki, əl-ələ tutmaq" necə olur. Yəni təpəyə qalxdığımız zaman əlimi ona uzatmağım, onun uzaqdakı bülbülü mənə göstərərkən əlini çiynimə qoyması, şəkil çəkdirəndə əlimlə onun üzündən saçını götürməyim – bütün bunlar əl-ələ tutmaq kimi bir şey idi, hər fürsətdə bir-birimizə toxunmaq idi. Günün sonunda isə metroda ikən, demək olar ki, qucaqlaşmışdıq. Qəribə adamlarla dolu olan metro vaqonunda yan-yana dayanıb bir-birimizə sıxılmışdıq.

---

[1] Yox, Eyden, bilmirəm. İstəyirsən ki, onu tapmaqda sənə kömək edim?

Axşam ondan SMS aldım:

– Hey Eyden, I almost believed in your "second Chloe trick". Ha-ha. Do you want to see my photo studio sometime next week?[1]

Hə, elədir, o, həqiqəti bilmək istəmirdi. Xloe düşünürdü ki, mən özüm onun "Instagram"ını tapmış, həyat tarixçəsini öyrənmiş, ondan ilhamlanmış və öz albomumu ona həsr etmişəm. Çünki belə düşünmək Xloe üçün daha rahat idi. Hostel və oradakı Xloe adlı qız haqqında danışdıqlarımı isə zarafat kimi qəbul edirdi. Guya mənim utancaqlığım həqiqəti – gecə-gündüz onun akkauntunu izlədiyimi üzünə deməyimə mane olur, ona görə də uydurma əhvalatlarla özümü təmizə çıxartmağa çalışıram. Xloe istəyirdi ki, mən ona yalan danışım.

– I'll be happy to[2], – cavab verdim.

Druid əsatirinə görə, mən bununla öz taleyimi yazmaq istəmişəm: "Mən xoşbəxt olaram".

O biri həftə biz "Mr. Donahue's" restoranında şam edirdik. Bu, Nolitanın ortasında yerləşən cəmi 9 nəfərlik kiçik restorandır. Baş aşpazlar Mişlen ulduzuna[3] layiq görülmüş ər-arvad idi. Bundan əlavə,

[1] Hey, Eyden, az qala sənin "Ikinci Xloe oyunu"na inanmışdım. Ha-ha. Gələn həftə gəlib mənim fotostudiyamı görmək istəyirsənmi?

[2] Xoşbəxt olaram.

[3] Müxtəlif ölkələrdə tətbiq olunan, restorana və xidmətə görə deyil, daha çox baş aşpazın bacarıq və peşəkarlığına görə təqdim edilən ulduz

...üçün yeməyi bir-birini sevən cütlüyün hazırladığını bilmək də xoşdur. Bu, insanlarda romantik ovqat yaradır. Mən "swedish american meatballs"[1] və ədviyyatlı avokado sousu sifariş verdim. Xloe isə "rotisserie chicken"[2]. Hər yeməyin yanında iki cür qarnir verilirdi. Mən göyərtili, püstəli, reyhanlı keçi pendiri sifariş verdim, Xloe isə soğan və əncirlə göbələk. Bu restoranda əvvəlcədən yer tutmaq mümkün deyildi, müştərilərə növbə ilə xidmət göstərirdilər. Bəxtimiz gətirmiş, boş masa tapa bilmişdik.

– Xloe, sən çox gözəlsən.

Qız utanaraq gülümsəyir.

– Mən neçə gündür fikirləşirəm ki, bayağı alınmaması üçün bunu sənə nə şəkildə deyim. Budur, ən bayağı bir məqamı seçdim.

Xloe mənə baxıb deyir:

– Mənə xoşdur, təşəkkür edirəm, – o qızarır, stulda yırğalanır və gülür.

– Səndə ən çox xoşuma gələn budur.

O soruşur:

– Nə?

– Mən "gözəlsən" deyəndə sən o qədər hərəkət etdin, üzündə o qədər müxtəlif ifadə yarandı ki! Sən bu dəqiqələrdə burada olmağı, hər anı bütövlükdə yaşamağı bacarırsan. Hər sözə, hər fikrə, hər davranışa qarşı bütöv bir reaksiya palitran var.

---

[1] İsveç-amerikan küftəsi

[2] Şişdə qızardılmış toyuq

Xloe bu sözlərdən sonra daha çox qızarır və daha ucadan gülür:

– Mən gülməli görünürəm?

– Yox. Sən seksual görünürsən.

– Hmm... Yaxşı, əla... – sürətli və iti nəzərlə mənə, sonra isə öz qabına baxır. – Sənin də seksual səsin var. Mahnıların mənim xoşuma gəlir.

– Yox, o mənim səsim deyil, reverbdir, bir də düzgün ekvalayzer. Inan, mən bunu bilirəm.

Şam yeməyindən sonra uber[1] götürüb onun evinə gedirik. Mən ona bu sualı verəndə biz artıq ikinci şərab qədəhini sifariş verirdik: yaxşı, sənin evinə gedirik, yoxsa mənim evimə? Xloe bu suala hazır deyildi, dərhal "Mənim evimə, burada, yaxındadır" deyə cavab verdi və özünü itirdi. Adətən, amerikalılar görüş zamanı həyəcanlanmamaq üçün bu sualı lap axıra saxlayırlar. Amma indi o da, mən də bilirdik ki, tezliklə aramızda seks olacaq. Biz hətta özümüzü belə bir şey baş verməyəcəkmiş kimi aparmağa da çalışmırdıq. Ofisiant bizə desert təklif edəndə bir səslə dedik: "No, thanks!"

Bu, siqnal idi. Hətta mən hesabı "keş"lə[2] ödədim ki, kartı bizə qaytarmalarını gözləməli olmayaq. İkimiz də bir-birimizi dadmaq istəyirdik və bunu bircə dəqiqə də uzada bilməzdik.

Biz İst-Villicdə onun yaşadığı binanın qaranlıq blokuna daxil olur və pilləkənlə yuxarı qalxırıq. Xloe

[1] Sifarişli taksi xidməti

[2] Burada: nağd pul

qabaqda gedir və mənim əlim arxadan onun belinə tərəf uzanır. O, arxaya çevrilir, mən yuxarı qalxıb onun dodaqlarından öpürəm. Xloenin incə və isti dodaqları var, amma mən onları tam hiss etməyə macal tapmıram. Xloe üzünü çevirib yuxarı qalxır. Mənim əllərim onun arxasınca dartınır, qolları ilə yuxarı sürüşür, çiyinlərinə qalxır. Ikinci mərtəbədə onu özümə tərəf döndərirəm və bərk sıxıram. Biz qonşunun qapısına çırpılırıq, bu, qanımızda axan adrenalini daha da artırır. Mən onu öpür, belini möhkəm qucaqlayır və onu bir qədər yuxarı qaldırıram. Xloe mənim əlimdən çıxaraq pilləkənlə yuxarı qaçır. Budur, onun mənzilinin qapısı. Xloe brelokdan asılmış açarları çıxarıb əlində fırladır və uyğun olanı axtarır, mən isə arxadan ona sıxılıb qoxusunu içimə çəkirəm. Mən Xloenin molekullarını içimə çəkirəm. Bu kiçik zərrələr burnumdan bədənimə keçir, beyin reseptorlarına daxil olur və bu enerjini toqquşma zonasına ötürürlər, orada endorfin bombaları partlayır. Lənət şeytana, mən bu qızı çox arzulayıram.

Xloe qapını açır və işığı yandırır. Mən onu özümə tərəf döndərib divara sıxıram və bu dəfə bərk-bərk öpürəm. Bir əlimlə qapını bağlayıram. Dejavü. Manhetten tərzində kiçik qonaq otağı ilə bir neçə addım irəliləyib onun gizli və qaranlıq yataq otağına keçirik. Dəhlizin tutqun işığı bizi təqib edir, lakin yataq otağının qapısına çatanda sınıb yoxa çıxır. Belə daha gözəl görünür. Adətən, romantik səhnələri bu

cür işıqlandırma ilə çəkirlər. Porno ilə erotika arasındakı bütün fərq yalnız həmin işıqlandırmadadır.

Xloe əynimdən maykamı çıxarıb sinəmə toxunur. Mən də onun maykasını çıxarıram. Indi bizim bədənlərimiz bir-birini hiss edir. Onun boynundan tutaraq yavaşca dodaqlarından öpür və cins şalvarımın kəmərini açmağa çalışıram. Xloe mənə kömək edir. Biz ləngidilmiş kadrlardakı kimi yavaşca yatağa yıxılırıq. Onun çarpayısı çox yumşaqdır, adam özünü qamakda uzanıbmış kimi hiss edir.

Seks döşəyin yumşaqlığından asılı olaraq dəyişir. Belə yumşaq döşəyin üstündə bunu zərif şəkildə etmək lazımdır. Xloe "Victoria's Secret"dən olan alt paltarını çıxarıb arxası üstə uzanır. Onun bədəni isti və hamardır. "Loreal" nəmləndirici kremlərinin, "Estee Lauder" duş gellərinin, saç üçün kondisionerlərin, intim yerlər üçün yağların bütöv bir sənayesi, minlərlə işçisi olan bütöv şirkətlər mənim indi bunu hiss edə bilməyimdən ötrü illərlə çalışırlar. Xloe, sadəcə, Xloe deyil. Xloe bütöv bir istehsaldır.

"Pacific Coast" məhsulu olan balışı götürüb Xloenin kürəyindən sağrısına doğru çəkir və onu azca qaldırıram. Ona daxil olmağa tələsmirəm. İstəyirəm ki, qız buna tam hazır olsun. Dərinin bu qədər həssas reseptorları olduğuna görə təbiətə minnətdar olmaq lazımdır. Xloe bircə nəvazişdən qızların çoxunun yarım saatlıq seksdən sonra yaşadığından daha artıq həyəcanlanır. O, gözəl bir musiqi aləti kimidir – onda musiqini qüsursuz ifa etmək olar.

Xloe incə əlləri ilə başımdan tutub dodaqlarıma doğru dartınır. Mən onun dilinin dadına baxıram. Xloe dərindən, yavaş-yavaş, ahəngdar nəfəs alır və oksigeni böyük hissələrlə içinə çəkir. Bu, yaxşıdır, o bunu qəsdən etməsə də, oksigen onda bir məstlik yaradır. Bu həm də holotropik nəfəsalmadır. Lap tezliklə onun ayaqları və əl barmaqları oksigen çoxluğundan keyləşəcək. Zərif seks aramızdakı həyəcanlı bir şeyə çevriləcək. Bəli, məhz həyəcanlı. Vəhşi, aqressiv yox, güclü həyəcan və dərin hisslərlə dolu olan bir şeyə...

Biz sekslə məşğul olmaqdan başlamışdıq, amma indi sevişirik. Xloe dikəlir, biz bir-birimizin qucağında oturmuş vəziyyətdə xeyli öpüşürük. Mən Xloenin kürəyindən yapışmışam, barmaqlarımı onun qarnı, yaxud sinəsinin üstü ilə sürüşdürəndə zərif dərisi titrəyir. Hərdən bir-birimizin gözlərinə baxmaq üçün dodaqlarımızı ayırırıq. Yerimizi dəyişirik – indi o mənim üstümdədir. Yataqda üzüyuxarı uzanmışıq. Otağın görünüşü 180 dərəcə dəyişir. Xloe mənim üstümdə yavaş hərəkətlərlə sürüşür. Elə bil rəqs edir, elə bil xüsusi bir rəqs ifa edir.

Xloe seksdən və bu həyəcanlardan məst olur. Mən isə onun qüsursuzluğundan sərxoşam. Bir qız bu qədər gözəl ola bilərmi? Xloenin üzü mələk üzü kimidir. Mən bunu bayağılıqdan uzaq bənzətmə tapmadığım üçün demirəm. Həqiqətən, düşünürəm ki, onun fotoşəklini "Google Images"ə atsan, oxşar şəkillərdə

məhz mələklər çıxacaq. "YouTube", "Google"... Nə ilə məşğulsan, Eyden? Bəsdir, kənar şeylər fikirləşdin! Axı sən sekslə məşğulsan, məqamı əldən buraxma. Hər şeyi yaddan çıxart, sadəcə, unut. Bu sənin uğurlu çağındır. Bu sənin həyatının ən yaxşı seksidir... Ən yaxşı...

Xloeni arxası üstə çevirib ayaqlarını çiyinlərimə qoyuram. Başlanğıcdakı zərif hərəkətlər yavaş-yavaş inada, sonra isə cəzaya çevrilir. Xloe gözlərimin içinə baxaraq bərk-bərk çiyinlərimdən yapışır. Həyatımın son bir ili gözlərimin qarşısından keçir. Mən həmin bir ilə görə, hostelə, yalanlara görə Xloedən qisas almaq istəyirəm, baxmayaraq ki, bütün bunlarda onun heç bir günahı yoxdur. Xloe mənim güclü təkanlarım qarşısında dodaqlarını dişləyir. O, ilk gecəmizdə belə vəhşi bir seksin olacağını gözləmirdi. Haradan biləydi ki, bu heç də bizim ilk gecəmiz deyil?!

Bu gecə aramızda olanları unutmaq istəsək belə, bədənimizdə yüzlərlə izi qalacaqdı...

Xloe Sartrı oxuyur. Mən bunu səhər, pəncərənin qabağındakı ağ cildli kitabı görəndə bildim. Maraqlıdır, görəsən, Nyu-Yorkda onun kitablarını oxuyan başqa qızlar da varmı?

Mətbəxdən eşidilən xırçıltı səsini tutub gedirəm. Aslan şəkilli qarğıdalı lopaları masanın üstündədir. Xloe məxsus olduğu mədəniyyətin övladıdır, qarğıdalı lopalarını südlə yeyir.

O məni görəndə tutulur. Biz ya dünən baş verənləri müzakirə etməli, ya da susmalıyıq. İkincisini

seçirik. Xloe boş nimçəni mənə tərəf itələyir, lopaları onun içinə tökür, onlardan biri sıçrayıb konfet qabına düşür. Xloe gülür. Mən isə "Sabahın xeyir" əvəzinə deyirəm:

– Bəzən öz qabında olmamaq daha yaxşıdır. Onda sən dərhal şəxsiyyət, fərdilik qazanırsan. – Həmin kürəciyi götürüb lopa ilə dolu olan qabıma atır və davam edirəm: – Öz qabında olduğun zaman isə heç kimə çevrilirsən. Sən, sadəcə, qəhvəyi rəngli bir kütləsən. Sənin ümumi bir adın var – qəlyanaltı.

Dərhal gərginlik yoxa çıxır. O gülümsəyir və özü üçün qəhvə süzür:

– Sən özünü burada, Nyu-Yorkda öz qabında hiss etmirsən?

Mən qabıma süd tökürəm:

– Yoox, Nyu-York çoxlu kürəciklərdən ibarət olan bu qəlyanaltıya bənzəmir. Nyu-York böyük, nəhəng bir masadır, onun üstündə milyonlarla boşqab var, hər boşqabın içində isə bircə dənə kürəcik. Mənim Nyu-Yorkum var, sənin Nyu-Yorkun var...

Xloe gülür.

– Hə, Nyu-York bir masanın arxasına toplaşmış milyonlarla tənha insan deməkdir. Onların hər biri masanın başında oturduğunu fikirləşir. Əgər sən dünyanın ən yaxşı şəhərindəsənsə, bu cür düşünməmək çətindir. Planetin mərkəzindəsən və hər şey burada baş verir. Bu da səndə belə bir fikir yaradır ki, seçilmiş insansan. Bütün bu film də sənin haqqındadır. Əgər

Dublində, yaxud Kişinyovda yaşayırsansa, sənin ağlından bu cür fikirlərin keçməsi mümkün deyil.

Onun dişləri ağdır, mənimkilərdən də ağ...

– Hə, yəqin ki, bura dünyanın ən yaxşı şəhəridir. Özündən gizlənmək üçün ideal yerdir...

Deyəsən, bunu artıq demişəm. Hə, elədir, demişəm.

Xloenin gözlərində nəsə yeni bir şey görürəm. Hər halda, seks insanı "Instagram"dan, yaxud ilk görüşdən daha artıq tanıdır. Seksdən əvvəl nə danışmısansa, hamısı yalnız "promouşn", treylerdir. Seks isə filmin özüdür. Pis filmdən sonra vəziyyəti heç bir treyler xilas edə bilməz. Bəs yaxşı filmlərdən sonra necə? Biz hətta onların treylerlərinin necə olduğunu da xatırlamırıq.

Mən özümü ədəbiyyat müəllimi ilə yatmış, indi isə onun ev tapşırığı verməsinə əyləncə kimi baxan şagird kimi hiss edirdim. Seksdən sonra bizim aramızda nə Şərq qalmışdı, nə Qərb, nə də hər hansı bir mədəni uçurum...

Qeyri-iradi sevgi



Xloe ilə nə qədər çox görüşürdüksə, bir-birimizi o qədər çox tanıyırdıq. O bir az feminist idi, bir az perfeksionist[1]. Allahdan mövcud olmadığı üçün narazı idi. Ehtiraslı və seksual idi. Şirniyyatı sevir, mənim musiqimi dinləyirdi. Ciddi münasibətlərdən ehtiyat edir, heç bir vəziyyətdə məsuliyyəti üzərinə götürmək istəmirdi.

Mən özüm üçün Xloeni kəşf etməkdə ikən, dinləyicilərim mənim albomumu kəşf edirdi. "Xloe" albomu hər gün, hər həftə daha çox dinləyici toplayırdı. Mən bunu məşhurluq adlandırmazdım, amma albomun həyata vəsiqə aldığı aydın idi. Hər gün yeni-yeni şərhlər yazılırdı. Mənə özüm kimi qəribə insanlar, daha çox musiqiçilər yazırdı, çünki mənim musiqim onlara yaxın və aydın idi. Belə bir ifadə var – "yazıçıların yazıçısı", yəni başqa yazıçıların oxuduğu yazıçı. Eləcə də mənim albomum adi dinləyici üçün anlaşılan deyildi, o, musiqiçilər üçün musiqiyə çevrilmişdi.

Bilmirəm, Xloenin xoşuna daha çox gələn nə idi – bizim cinsi əlaqəmiz, yoxsa bizim əhvalatımız, amma hər halda, o mənimlə görüşməkdə davam edirdi. O məni öz boyfrendi[2] adlandırırdı, mən onu

[1] Hər şeydə ideallığa nail olmaq istəyən adam
[2] Oğlan dost; sevgili

öz görlfrendim[1]. Xloe mənim məşqlərimə gəlir, Naomi ilə sudoku oynayırdı, hamımız Maylzın damına yığışıb nəşə çəkirdik. Mən onun fotostudiyada təşkil etdiyi təqdimatlara gedir, menecment işində ona kömək edirdim. Xloe mənim üçün "Patreon"da[2] akkaunt açmışdı. Bu, yeni bir xidmət növü idi, insanlar ona yazılıb ayda 1 dollar ödəməklə musiqiçinin layihəsinə yardım edə bilərdilər. Mən isə ona "Credit Karma" əlavəsini məsləhət görmüşdüm, onun köməyi ilə öz kredit tarixçənə daha asan nəzarət edə bilirdin. Xloe məni trenajor salonuna yazdırmışdı, mən ona Şərq və sufizm haqqında danışırdım. Biz Brodveydə teatra, Qrinpointdə isə damda keçirilən yoqa məşqlərinə gedirdik. Nyu-York belə bir şəhər idi. O sənə istədiyin hər şeyi təklif edə bilərdi. Biz birlikdə oxatma dərslərinə gedir, axşamlar onun moda sənayesindən olan dostları ilə şam edirdik. Əgər bu, "xoşbəxt sonluq" deyildisə, bəs nə idi? Xoşbəxt sonluq daha necə olur?

Biz artıq üç ay idi ki, birlikdə idik.

– Eyden, mən bir neçə günlüyə Portlendə getmək istəyirəm. Mənimlə getmək istərdin?

Xloe bunu deyəndə yayın sonları idi, Nyu-Yorkda dözülməz istilər vardı.

– Hə, əlbəttə.

---

[1] Qız dost; sevgili

[2] Yaradıcı insanlara öz pərəstişkarları sayəsində qazanc əldə etməyə imkan yaradan xidmət

Portlend, Men



Biz kiçik "Delta Airlines" təyyarəsi ilə JFK[1]-dan Men ştatının Portlend şəhərinə uçuruq. Təyyarə o qədər kiçikdir ki, mən özümü narahat hiss edirəm. Lakin ümid edirəm ki, biz 400 millik bu məsafəni tez və maneəsiz olaraq qət edəcəyik. Bəs birdən elə olmasa? Bəs əgər bu mənim sonumdursa? Son illərdə yaşayıb-yaşamamağın mənim üçün elə bir fərqi yox idi. Hər dəfə təyyarə səmaya qalxanda, sadəcə olaraq, sevdiyim və son dəfə eşitmək istəyəcəyim bir fonoqramı qoyub qulaq asırdım.

Təyyarə qəzalarının 90 faizi buludların üstündə yox, məhz təyyarə havaya qalxanda baş verir. Sağ qalıb-qalmayacağım mənim vecimə də deyildi. Belə hesab edirdim ki, istədiyim hər şeyi həyata keçirmişəm. Mən məşhur musiqiçi olmaq, insan talelərini dəyişdirmək istəyirdim. Artıq buna nail olmuşdum. Bəs sonra? Mənim başqa arzum yox idi. Sanki həyat ofisiant idi və məndən sifariş qəbul edirdi:

– Sizə nə gətirim?

– Zəhmət olmasa, mənə pərəstiş sousunda rok ulduz gətirin, fanat qızlardan da bir-ikisini qızardın.

– Çox yaxşı. Nəsə içəcəksiniz?

[1] Con Kennedi adına beynəlxalq aeroport

– Hə, bir neçə yüz min izləyicidən ibarət smuzi[1].

– Yaxşı. Əla seçimdir. Başqa nəsə arzu edirsiniz?

– Yox, hələlik bu qədər.

– Bu gün bizdə baş aşpazdan desert təklif olunur: ailə və iki uşaq. Bir də şəkərsiz qocalıq.

– Şəkərsiz qocalıq?

– Yəni diabetsiz.

– Yox, sağ olun, desert lazım deyil.

– Necə istəyirsiniz. Onda yalnız rok ulduz, bir də izləyicilərdən hazırlanmış smuzi, eləmi?

– Hə, zəhmət olmasa..."

Amma bu dəfə hər şey başqa cür idi. Bu dəfə mən desert də istəyirdim – üstünə Atlantik okeanının sahil küləyi və tozağacı qatranı çəkilmiş kərpic evlə və uşaqlarla birlikdə Xloe.

Mən bu dəfə heç kim olmağı arzulamır, yalnız bu qızın yanında olmaq istəyirdim. Mənim təkəbbürüm Xloenin incə səsi altında uyuyurdu. Bu, ölüm deyildi, reinkarnasiya[2] idi. Mənim ikinci – təyyarədə öz sevgilisi ilə birlikdə onun yaşadığı şəhərə uçan adi bir oğlana məxsus həyatım idi. Xloenin leptopu mənim portfelimdə idi, mənim şortum onun çantasında. Biz hələ nişanlanmasaq da, bir-birimizə bağlı idik. Xloenin məni daim sevəcəyinə inanırdımmı? Hə,

[1] Meyvə, tərəvəz, süd, şirə, dondurma, buz və sairədən hazırlanan şirin və qatı içki

[2] Bəzi təriqətlərə görə, insan öldükdə ruhunun başqa bədənə keçməsi

şübhəsiz. Axı Xloe ona 20 il əhəmiyyət verməyən İsanı sevmişdi. Mən isə ona bu qədər sevgi bəxş edir və SMS-lərinə həmişə cavab verirəm. Ona görə də əgər o məndən bundan sonra bir 50 il də bezməsə, bu mənə bəs edər...

Biz Portlendə axşam çatdıq. Şəhərdə xoş bir dəniz havası vardı. Bura liman şəhəri idi, sahil körpüsünün yanında çoxlu kiçik gəmi, yaxta və yelkənli qayıqlar dayanmışdı. Sahil xəttindən 100 metr aralıda Stiven Kinqin Men ştatından satın aldığı Mayak yanırdı.

Hava limanında taksi tutduq. Sürücü bir-iki həftə əvvəl burada keçirilmiş qida festivalı haqqında danışırdı. Mənim mədəm sıyrılmağa başlamışdı. Portlend öz lobsterləri[1] və pivəsi ilə məşhurdur. Pivə həvəskarı olmasam da, dəniz məhsullarından imtina etməzdim.

Açıq səmaya baxırdım. Qəribədir, Nyu-Yorkda göy çox az görünür. Göydələnlər bütün göyü tutub, səmanın hər tərəfi icarəyə verilib, hər tərəfi reklam lövhələri ilə doludur. Bura isə sakit və rahatdır. Əgər Nyu-Yorku "frenç frayz"[2] hesab etsək, Portlend evdə qızardılan kartofdur.

Biz Xloenin doğulub böyüdüyü evə yaxınlaşırıq. Bu, açıq-zeytun rəngli böyük bir evdir, Portlendin cənubunda, Lovitt stritdə yerləşir. Okean bizdən beş addımlıqdadır, körfəzində ağ yaxtalar yırğalanır. Taxtadan tikilmiş ev yaşıllığın içində itib-batır, hər

[1] Dəniz xərçəngi
[2] "French fries" – "fri" kartofu

iki tərəfində parlaq-çəhrayı və yasəmən rəngli güllər, tozağacından küknaradək hər növdən olan hündür ağaclar bitib. Lakin Portlend, əsasən, şimal landşaftına malikdir, çünki Amerikanın şərq sahillərinin lap şimalında yerləşən şəhərlərindən biridir, ondan o yana artıq Kanada ərazisidir.

Axı mənim buralarda nə işim var? Mən bura necə gəlib düşmüşəm? Cənublu olduğum halda, belə uzaqlara necə gəlib çıxmışam? Məni doğma vətənimdən 13 min kilometr məsafə ayırır...

Xloenin ardınca evə tərəf gedirəm. O əyilib gül dibçəyinin altında gizlədilmiş açarı götürür. Qapını açır və məni içəri dəvət edir. Bura onun ailəsinin evidir, Xloe burada böyüyüb. Xloeni istehsal edən fabrik buradır.

– Yeah, so.. This is it. Home sweet home.[1]

O lap büzüşüb, sanki hətta balacalaşıb da. Birlikdə olduğumuz üç ay ərzində onu bircə dəfə də belə kövrək görməmişdim. Elə bil Xloe yenə 7 yaşında idi.

– Çox rahat evdir, – ona ürək-dirək verməyə çalışıram. – İşıqlıdır, böyükdür. Bura mənim xoşuma gəlir.

– Hə, köhnə evdir, amma çox rahatdır.

Qonaq otağının divarından böyük ağ-qara-sarı rəsm əsəri – qağayı eskizi asılıb. Divan və kreslolar süd rəngindədir, pəncərə altlıqları enlidir. Amma

[1] Hə, budur o. Mənim doğma evim.

biz aşağıda çox ləngiməyib yuxarı, Xloenin otağına qalxırıq.

– Bu isə mənim otağımdır, bunlar mənim rəsmlərimdir. Bunu isə məktəbdə ən yaxşı teatr oyununa görə almışam, – əli ilə hansısa kiçik bir heykəlciyi göstərir.

– Sən hansı tamaşada oynayırdın?

– Şekspirin "Hamlet"ində.

– Hə, eləmi...

Xloe məni çıxışı olmayan bir yerə buraxır. İndi ora daxil olsan, yolunun üstündə olan hər şeyi dağıtmadan çıxa bilməzsən. Pəncərənin qabağına onun valideynləri ilə çəkilmiş fotoşəkli qoyulub. Üzlərində təbəssüm olan xeyirxah insanlardır. Xloe anasından çox atasına bənzəyir. Maraqlıdır, mənim tanımadığım bu adamlar Xloeni necə yaradıblar? Onların genləri hansı şəkildə birləşməli idi ki, belə gözəl bir varlıq yaransın? Amma qəlbimin dərinliyində, içimdə qaynayan endorfinlərin və digər hormonların qatları altında başa düşürəm ki, Xloe adi bir qız, tipik amerikalıdır. Kollecdə oxuyan, beysbol komandasına dəstək qrupunun üzvü olan adi bir qız. Xloe öz şkafını açıb köhnə paltarlarını gözdən keçirir, mən isə güzgüyə baxıram.

Bəs mən kiməm? Mən tipik deyiləmmi? Hamı kimi deyiləmmi? Nəyə görə fikirləşirəm ki, mən fərqliyəm, mənim seçmək, qiymətləndirmək, hətta təsvir etmək hüququm var? Mən keçmişdə bir qədər bəxti

gətirən gənc oğlan idim, indi isə adi biriyəm. Xloenin kövrəkliyi mənə də keçir. Bilmirəm, mənə təsir edən onun xatirələridir, yoxsa katolikliyin ruhu hopmuş bu ev. Amma bədənim çox kövrəkləşib.

– Xloe...

– Hə...

– Heç...

– Yox, sən nəsə demək istəyirdin.

– Yox, yox... Heç bilmirəm...

– Eyden, sən nəsə demək istəyirdin, amma demədin.

Sahilə çırpılan dalğaların səsi məni yuxudan oyadır. Duzlu suyun və tozağacı yarpaqlarının qoxusunu hiss edirəm. Xloe elə indicə duşun altından çıxıb, yaş saçları həmişəkindən tünd və bir qədər dalğalı görünür. Ondan çay yarpaqları rayihəli duş gelinin qoxusu gəlir.

Dünən, demək olar ki, bütün gecə söhbət etmişik. Fikirləşirdik ki, nə üçün də Portlenddə yaşamayaq, nə üçün də bura köçməyək. Birinci və ikinci mərtəbəni "AirBnb"[1] icarəsinə verərdik, özümüz üçün isə üçüncü mərtəbəni artırardıq. Orada bizim yataq otağımız, mətbəx və kiçik bir qonaq otağı yerləşərdi. Ümumiyyətlə, axı Nyu-York bizim nəyimizə lazım idi? 8 milyon siçovulun yaşadığı bir şəhərə qayıtmağı necə arzulamaq olar? Bu, demək olar ki, bütün Avstriyanın

[1] Dünya üzrə fərdi mənzillərin yerləşdirilməsi, axtarışı və qısamüddətli kirayəsi ilə məşğul olan onlayn xidmət

əhalisinə bərabərdir. Küçələrində 100 000-dən çox evsizin, narkomanın, dəlinin yaşadığı, hər tinində çoxlu zir-zibilin yığıldığı bir şəhərə necə qayıtmaq olar? Amma yenə də bu nəticəyə gəldik ki, Nyu-Yorkdan sonra bütün şəhərlər kəndə bənzəyir. Bunu dəyişdirmək mümkün deyil. Kimsə heroinin altındadır, kimsə kokainin, kimsə Manhettenin, sözün həqiqi mənasında, Manhettenin. L train, Union Square...[1] Metronun bir qolundan o biri qoluna nəhayətsiz keçidlər. Nyu-York ən bahalı narkotikdir. Bir dozası bir ömür bahasınadır.

Xloe əyninə qısa, çəhrayı sarafanını geyinib məni yataqdan qaldırdı. Mən, deyəsən, üç gün idi ki, üzümü qırxmırdım. Amma yenə qırxmaq istəmirdim, yaxşı olardı ki, bir gün də "sleep mode"[2] tərzində gəzim.

Biz sabah Nyu-Yorka qayıdırıq. Hələlik isə rahat yerli kafelərin birində sakitlikdən və ləzzətli qəlyanaltıdan həzz almaq üçün bir neçə saat vaxtımız var. Onun evindən qəlyanaltı edəcəyimiz yerə qədər piyada 10 dəqiqəlik yoldur. Ora "Omi s" adlanır. Əsrin əvvəllərində tikilmiş mavi rəngli ikimərtəbəli evdən kofeşop[3] düzəldiblər. Xloe xeyli vaxtdır ki, orada olmayıb, ona görə də "Yelp"də bu yer haqdakı fikirləri oxuyur.

---

[1] L qatarı, Union meydanı

[2] "Gözləmə rejimi"

[3] Qəhvə və qəlyanaltılardan əlavə, yüngül narkotiklərin satışına da icazə verilən kafelər

– Bax orada göbələkli və ispanaqlı blinlər var. Bir də bekonlu qayğanaq. Sən bekon yeyirsən də?

– Hə, mən hər şey yeyirəm.

– Bəs indi nə yemək istərdin?

– İndi? Bilmirəm. İlk növbədə, qəhvə içərdim, bu, dəqiqdir. Qəlyanaltını isə bilmirəm. Bəs onlarda daha nə var?

- They have muffins, salad, fresh goat cheese sandwich and...[1]

– Do they have orange juice?[2]

– Yes, they do, but you have just said you wanted coffee right?[3]

– Actually I want both.. Yeah, definitely. I'll take coffee and orange juice. That's all.. Nothing to eat just coffee and orange juice.[4]

Xloe gülür:

– Zarafat edirsən? Sən qəhvə və portağal şirəsi ilə qəlyanaltı edəcəksən?

– Hə. Bu, çox gözəl bir səhər olar.

– Nə mənada?

– Əgər mən qəhvə götürsəm, fikrim portağal şirəsində qalacaq, şirəni götürsəm, qəhvə istəyəcəyəm. Ona görə də həm onu, həm bunu götürsəm yaxşıdır.

---

[1] Onlarda kekslər, salat, təzə sendviçlər var, içində keçi pendiri və...

[2] Onlarda portağal şirəsi olurmu?

[3] Hə, hazırlayırlar, amma sən indicə qəhvə istədiyini demişdin, elə deyil?

[4] Əslində ikisini də istəyirəm. Hə, mütləq. Mən qəhvə və portağal şirəsi götürəcəyəm. Yalnız bunları. Yalnız qəhvə və portağal şirəsi. Yeməyə isə heç nə.

– Hey man, it doesn't work like that. You should make your choice,[1] – qız bunu eyhamla deyir.

Biz "Omi s" kafesinə daxil oluruq. Divardan asılmış lövhədə bunlar yazılıb: "Bu ev 1920-ci ildə tikilib. 1998-ci ildə bərpa olunub. Divarlardan asılmış bütün eksponatlar təmir zamanı evin içindən tapılıb".

Həqiqətən də, kafenin bütün divarlarından içinə köhnə qəzet parçaları və ağ-qara fotoşəkillər yapışdırılmış şüşə çərçivələr asılıb. Budur, 1960-cı ilin qəzetindən kəsilmiş bu parçada köhnə "Ford" modeli reklam olunur. Bu isə 1910-cu ilə aid olan 17 dollar məbləğində faktura qəbzidir. Bu, skripkada çalmağı öyrənən oğlanın şəklidir, o biri isə göyərtə jurnalının qeydləridir. Xətti oxumaq çətindir, amma sərnişinlərin siyahısına oxşayır. Yeni sahiblər köhnə evin yerində qəhvəxana tikmiş və həmin evə ehtiramlarını bu cür yaradıcı şəkildə bildirmiş, ölü divarlara yeni həyat bəxş etmişdilər. Bu da başqa bir maraqlı lövhə: "Portlendin mərkəzi küçəsində otaq kirayəyə verilir. Ayı 2 dollara".

Biz iki ədəd menyu götürüb qıraqdakı masaların birində əyləşirik. Digər masaların arxasında yerli gənclər oturub. Qarşılarında noutbuklar, qəhvə və kruasanlar var.

– Milyon ildir burada olmamışam, – Xloe ətrafa göz gəzdirir.

Mən menyunu oxuyuram və birdən içimi dələn, elektrik cərəyanı kimi bütün düşüncəmdən keçən bir

[1] Ey, oğlan, belə olmur. Gərək bir şey seçəsən.

səs eşidirəm. Bu, dənəvər bir şeyin saxsı əşyaya toxunmasından alınan cingiltili səsdir. Yox, bu, qəhvəüyüdəndə atılıb-düşən qəhvə dənələri deyil. Daha incə və bir qədər xırçıldayan səsdir. Bu, Xloedir, qarğıdalı lopalarını qabın içinə tökür.

Piano alçaq səslə çalınır. Bu dərin, kədərli musiqi mənə tanışdır. Bu, baş rolda Dev Patelin oynadığı "Lion" filminin saundtrekidir. Azıb itən və öz evini tapa bilməyən oğlan haqda filmin. Mənim yenə də 5 yaşım var. Mən iki yolayrıcında, dəmiryol relslərinin üstündə dayanmışam və hansı tərəfə gedəcəyimi bilmirəm. Donub qalmışam. Dilim tutulub. Həm də nə deyəcəyimi bilmirəm.

Xloe üzümə baxıb soruşur:

– Eyden, nə olub, hər şey qaydasındadır?

Mən gülümsəyib demək istəyirəm ki, hə, Xloe, hər şey qaydasındadır. Axı il yarım bundan əvvəl mən özünü sənin kimi qələmə verən bir qıza vurulmuşdum. Amma sonra onu itirdim. O, adının Xloe olduğunu deyirdi, amma sonra məlum oldu ki, bu, sadəcə, bir oyun imiş. Mən düz bir il onu axtardım. Mən əzab çəkir, az qala dəli olurdum. Fikirləşirdim ki, onu bir daha görməyəcəyəm. İndi budur, mənim əzizim, biz burada qəlyanaltı seçməklə məşğul ikən, həmin Xloe orada, bizdən cəmi 15 metr aralıda, barın piştaxtası arxasında dayanıb və kiminsə boşqabına qarğıdalı lopaları tökür. Qalan hər şey, əlbəttə ki, qaydasındadır.

Dad

Hə, mən indi sevginin dadını bilirəm. O nə şirindir, nə də acı. O, yerfındığı yağı kimidir, adamın dilinə yapışır, boğazında ilişir və ağzında acı dadı qalır. Sevgi dadına görə yanğın kimi, barıt kimidir. Mənim ürəyim elə şiddətlə döyünür ki, elə bil eyni vaxtda yüzlərlə at cıdır meydanında çapır. Yox, mənim ürəyimi sinəmdən çıxarıb cıdır meydanına atıblar. Yüzlərlə atın dırnaqları altına. Hə, elədir, o döyünmür, sadəcə, atların dırnaqları altında titrəyir.

"Omi s" kafesində üç qız çalışır. Biri sifarişləri qəbul edir, digəri qəlyanaltıları hazırlayır, üçüncü qız isə onların ikisinə də kömək edir. O biri qızlar işi çatdırmayanda sifarişləri qəbul edə, içəri otağa gedib bir qallon süd gətirə bilər, bəzi hallarda isə qutunu açıb qarğıdalı lopalarını boşqaba tökürlər. Bu mənim Xloemdir. Bozumtul gözlər, yüngül, demək olar ki, laqeyd təbəssüm. O hələ məni görmür, amma mən artıq bütün mənzərəni görürəm. Əvvəl intizar – dadmaq istəyi vardı, sonra təəssürat – ağızda qalan dad.

Lakin mən başıma gələn bu ağlasığmaz əhvalatın bütün dadını yalnız indi anlamağa başlayıram. Saatlarla fikirləşməyə ehtiyac yoxdur, bir neçə saniyə kifayətdir ki, bütün mənzərə aydın olsun. Ehtimal ki, əsl, gözəl Xloe daim bu qəhvəxanaya gəlirmiş

və burada çalışan həmin qız ona heyranlıqla tamaşa edirmiş. Bunun, həqiqətən, belə olub-olmadığı vacib deyil. Onlar eyni məktəbdə bir yerdə oxuya, hətta Şekspir teatrında birlikdə oynaya bilərdilər. Cənubi Portlend çox kiçik şəhərdir. Mən isə bu şəhərdə iki od arasındayam. Qarşımda əsl Xloe əyləşib. Mən onun yaşıl gözlərinə, sarı saçlarına, həyat dolu koppuş dodaqlarına baxıram. O, dodaqlarını aralayıb nəsə deyir, amma mən onu eşitmirəm. Qulaqlarımda nəsə bir küy var, görünür, atlar dırnaqları ilə mənim ürəyimin axırına çıxmaqdadır. Bir az da keçsə, ürəyim davam gətirməyəcək. Mən Xloenin nə dediyini anlaya bilmir və dodaqlarından oxumağa çalışıram.

– Coffee or Orange Juice. Make your choice.[1]

"Make your choice". Druid deyimlərinə inansaq, insanın seçmək hüququ yoxdur, o nə edirsə, taleyin hökmü ilə edir. Mənim portağal şirəsi, yaxud qəhvə seçəcəyim əvvəlcədən müəyyənləşdirilib. Mən bu qəhvəxanada min dəfə olmuşam və min dəfə qəhvə ilə portağal şirəsinin arasında seçim etmişəm. Xloe ilə Xloe arasında. Yalanla Həqiqət arasında...

Nəhayət ki, mən onun üz cizgilərini görə bilirəm. Heç bir şübhə yoxdur, əsl Xloe yalançı Xloedən qat-qat gözəldir. Onun özünü Xloe kimi qələmə vermək istəməsi heç də təəccüblü deyil.

[1] Qəhvə, yoxsa portağal şirəsi. Öz seçimini et.

Mən stula mıxlanıb qalmışam. Bu, elektrik stuludur. Hə, elədir, "Omi s" kafesindəki bu lənətə gəlmiş stul mənim elektrik stulumdur, çünki Eydenlərdən biri onun üstündə ölməlidir. Ya həqiqəti seçən Eyden, ya da yalanı seçən Eyden... Mən onu çox axtarmışdım. Hər yerdə axtarmışdım. Mən onu tapmaq üçün hər şeydən istifadə etmişdim. "Times Square"də flayerlər[1] paylamışdım: "Açıq-şabalıdı saçları, bozumtul gözləri olan, zərərsiz bitki siqaretləri çəkən bir qızı axtarıram. Adını bilmirəm, amma Xloe olmadığı dəqiqdir".

Indi o burada idi. Nəhayət, biləyinə tatu döydürmüşdü. Mən orada nə yazıldığını aydın görə bilmirdim. Bu anlarda ömrümün ən uzun 10 saniyəsini yaşayırdım. Hər şey sürəti ləngidilmiş kadrlarda olduğu kimi idi. Görəsən, o, nəticədə hansı tatunu döydürmüşdü? Hansısa bir söz idi. Təkcə bir söz...

Həqiqi Xloeyə baxıram. Mənalı, həyat dolu, sevgi dolu gözlər... Mən onu sevirəmmi? Bəli, mən Xloeni sevirəm. Əgər bu, sevgi deyilsə, bəs nədir? Bəs o necə, məni sevirmi? Hə, sevir. Bizim Mərkəzi parkdakı gəzintilərimiz, onun studiyasında keçirdiyimiz yuxusuz gecələr, Bruklin körpüsündəki öpüşmələrimiz... Bu, sevgi deyilsə, nədir? Mənim yeni albomumdan onun sevdiyi mahnını çalmaq...

Bəs o birini, adı və həyat tarixçəsi olmayan digər qızı sevirəmmi? Siqaretini çəkəndə atomları kosmosa

[1] Reklam vərəqələri

uçan qızı. Mənim çiyinlərimdən yapışıb gözlərimin içinə baxan və əsl adımın necə olduğunu soruşan qızı. Axı o qız o vaxt hosteldə çox istəyirdi ki, biz maskalarımızı çıxaraq. Çünki mənim də yalan danışdığımı fikirləşirdi.

Amma indi bütün bunların heç bir əhəmiyyəti yoxdur. İndi mənim həyatımda Xloe var, əsl Xloe. Həyat mənimlə çox pis zarafat etdi, sonra dözümümə, yaxud inadkarlığıma görə, ya da dünyaya dayanmadan yalan danışdığım zaman dünyanı məndən qorumaq üçün Xloeni mənə bağışladı. Bəs indi necə seçməli? Həqiqət, yoxsa yalan? İdeal qız, yoxsa əzab verən qız? Əsl Xloe, yoxsa onun kölgəsi? İlk, yoxsa son sevgi?

– Nə oldu, qəhvə, yoxsa portağal şirəsi? Eyden!

Xloe mənim diqqətimi cəlb etmək üçün adımı daha ucadan çəkir. Və bu sürəti ləngidilmiş kadrda, ləngidilmiş Günəş sistemində, kafelərin birində bir ofisiant qız başını döndərib baxır, sanki keçmişə aid, tanış, tam aydın olmayan nəsə eşidib...

"Omi's" kafesinin divarlarından keçmişə aid lövhələr asılıb. Onlar evi sökəndə divarların və özülün içindən köhnə qəzetlər, zirzəmidən sevgi məktubları, parketin altından isə köhnə banknotlar, uşaq oyuncaqları və poçt markaları tapıblar. Bütün bunlar divarlardan asılıb. Köhnə evin astarını üzünə çeviriblər. Ev sanki belə deyir: "Baxın, bu mənim keçmişimdir və mən keçmişimi etiraf etməkdən qorxmuram.

Məni necə bəzəsələr də, necə gözəl mebel alıb içimə yığsalar da, mən öz sevinc və kədərlərimlə elə həmin köhnə evəm..."

Xloe gözlərini salonda dolandırıb həmin sözləri deyən adamı axtarır. Bəlkə, ona elə gəlib, bəlkə, heç kim "Eyden" deməyib? Mən əsl Xloenin arxasında gizlənmişəm. Həyatın istehzasına bax! Son bir ilin əvvəlindən axırınadək yalanın arxasında gizlənmişdim. Indi isə həqiqətin arxasında gizlənirəm. Əgər o, yalan idisə, mən nə üçün gizlənim? Axı mənim bu qədər qorxduğum nədir?

Sizə demişdim ki, məsələ heç də məndə deyil. Mənim bütün əhvalatım Xloenin qarğıdalı lopalarını boşqaba necə tökməsi haqqındadır. Bəs əslində nə baş vermişdi? Cəmi bircə an... Yenə orada, hostelin mətbəxindəyəm. Tanımadığım bir qız boşqaba qarğıdalı lopaları tökür. Mən başladığım yerə qayıtmışam. Və hələ də heç nə anlamıram.

Qulaqlarımda Jerar Monteskyönün "YouTube"dakı müsahibəsindən sözlər səslənir: "Həqiqət və yalan əkiz bacılardır. Biri o birindən nə yaxşıdır, nə də pis. Bunlar üzərində bütün dəyərlərimizin dayandığı iki monolitdir. Həqiqətsiz ailə nəyə lazımdır? Onlar bir-birini necə sevdiklərini heç vaxt dillərinə gətirməyən yad adamlardır. Bəs yalansız ailə nə deməkdir? Məgər onlar hərdən bir-birilərinə xəyanət edən, nifrət bəsləyən, bir-birilərini aldadan adamlar deyil? Həqiqətsiz həyatın mənası nədir? Bu, illüziyalar,

təriqətlər, ideologiyalar, siyasətçilərin yalanları üzündən baş verən müharibələr, yalançı peyğəmbərlər və insanların aldadılmasıdır. Bəs yalansız həyatın mənası nədir? Bu hər hansı bir mənası, nağılı, əfsanəsi, incəsənəti olmayan bir həyatdır. Bəs sevgi nədir? Məgər o, yalanla həqiqətin ideal nisbəti deyilmi? Çin fəlsəfəsində "İn-Yan" hərfi olaraq şər və xeyir kimi, kişi və qadın kimi yox, həqiqət və yalan kimi tərcümə olunur. Hər həqiqətdə bir parça yalan, hər yalanda bir həqiqət payı var. Bəs sevgi nədir? Sevgi yalan danışmaq və aldana bilmək bacarığıdır".

Epiloq

– "Bəs sənin əsl adın nədir?
– Eyden, mənim adım Eydendir".



Sən hansını seçəcəksən, Eyden? Sən Xloeni daha onu axtarmadığın bir vaxtda tapdın. İndi nə edəcəksən? Görəsən, Xloenin maskası arxasında gizlənən qızın özü necədir? O, Cənubi Portlenddən olan ofisiantdır. Bəlkə, Xloe ilə bir yerdə təhsil alıb, bəlkə də, bu kafedə çoxdan işləyir və Xloeni, sadəcə, kənardan müşahidə edib?

İndi bunun heç bir fərqi yoxdur. Onun özünü Xloeyə bənzətməsinin milyonlarla səbəbi ola bilərdi. Hansı daha mühüm idi: əsl Xloe olmaq, ya Xloe olmağı bu qədər çox arzulamaq? Və bu məni hansı vəziyyətdə qoyur? Hansı variantı seçsəm, alçaqlıq etmiş olmaram? Əgər mən indi qəhvəmi içib yanımdakı qızla birlikdə kafedən çıxsam, bizim hələ başlanmamış sevgimizə heç bir imkan verməyəcək, hosteldə bizimlə əslində nə baş verdiyini heç vaxt öyrənməyəcəyəm. Əgər əsl Xloeni burada, onun doğma şəhərində tərk etsəm, ona desəm ki, özünü sənin kimi qələmə verən qızı tapmışam, bu onun qəlbini qıracaq.

Buddanı, Jerar Monteskyönü, bütün sevdiyim qəhrəmanları, valideynlərimi, bütün film sənayesini,

kitabları, psixoloqların mühazirələrini yadıma salıram. Onların hamısı eyni sözü təkrarlayır: "Qəlbinin səsini dinlə".

Eyden, qəlbinin səsini dinlə!

Qaçıb özümü cıdır meydanına çatdırır, artıq güclə döyünən ürəyimin qarşısında diz üstə çökürəm.

– Əclaf, mənə cavab ver! De görüm mən nə etməliyəm?

Ürəyim zorla bircə söz deyə bilir:

– Xloe.

– Bunu mən də bilirəm, bəs sonra? Hansı Xloe? Çox xahiş edirəm, cavab ver, mən lap çaşıb qalmışam...

...Xloe əlimdən tutub məni "Omi's" kafesinə qaytarmağa çalışır:

– Eyden, mən ispanaqlı və pendirli qayğanaq istəyirəm, sənin üçün isə qızardılmış bekonla qayğanaq sifariş verək. Bir də iki portağal şirəsi və bir qəhvə götürərik.

Eyden ona cavab verir:

– Yaxşı...

Mən isə masanın yanında dayanmışam və gözümü ofisiant qızdan çəkə bilmirəm.

Xloe barmaqları ilə Eydenin əlini oxşayır, Eyden də ona eyni nəvazişlə cavab verir. Mən isə burada həyəcan içində başımı tutub dodaqlarımı dişləyirəm. Bar piştaxtasının arxasında bir qız dayanıb, onun zərif biləyində hansısa bir söz həkk olunub. Qısa bir söz, baş hərfi böyük yazılmış bir döymədir.

– Eyden, mən gedib sifariş verimmi?

Eyden mənə baxır. Biz danışa bilmirik, amma görürəm ki, o məndən kömək, məsləhət istəyir, heç olmasa, başımı tərpətməyimi, ya hansısa bir işarə verməyimi gözləyir. Mən isə dinməz-söyləməz dayanıb açıq-qəhvəyi rəngli saçları olan mentol rayihəli qıza baxıram. Eyden yaxamdan yapışaraq bərk silkələyir, ağlımı başıma qaytarmağa çalışır. Mən onu eşitmir, amma nə demək istədiyini başa düşürəm: özünü ələ al, kişi ol, bu lənətə gəlmiş seçimini et.

Elə bu vaxt ən çox qorxduğum bir şey baş verir. "Eye contact" zəhrimar. Ofisiant qız başını yavaş-yavaş qaldırır və bizim masaya tərəf baxır. Düz mənim üzümə. Bizim baxışlarımız qarşılaşır və masanın arxasında oturmuş Xloe cansız, solğun, bulanıq, hava kimi şəffaf bir şeyə çevrilir. Mən onun içindən uzağa, adını bilmədiyim, Cənubi Portlenddən olan qızın tutqun, bozumtul, cansız, soyuq, yorğun gözlərinə baxıram. Eyden başa düşür ki, bu, sondur. Artıq geriyə yol yoxdur. O, Xloenin incə barmaqlarını bərk-bərk sıxır və köks ötürüb deyir:

– Xloe, yaxşısı budur, mən özüm gedib sifariş verim.

Eydenin səsini kənardan eşitmək çox qəribədir. O mənə baxır və başının işarəsi ilə ofisiant qızı göstərir. Demək istəyir ki, ay adam, mən səni qoruyaram, get, nə etməli idinsə, onu da elə.

Cənubi Portlenddən olan ofisiant qız mənə baxır. O donub qalıb, tərpənmir. Gözlərinin içində bir yanğın var. Sol əli ilə sağ biləyinin üstünü örtüb.

Ağır addımlarla "Omi's" kafesinin barına yaxınlaşıram. Eyden isə hələ də masanın arxasında oturub. O, Xloenin əlini bərk sıxır, mən onun dediklərini eşidirəm: "Xloe, mən sənə bəzi şeyləri danışmalıyam".

Mən masadan addım-addım uzaqlaşıram, Eydenin səsi kafedəki səs-küyün içində itib-batır. Indi bir mən qalmışam, bir də o... Artıq nə Eyden var, nə də Xloe... Bu, son il yarım ərzində aramızda olan ən kiçik məsafədir. Mən son addımı atır, boğuq və qətiyyətsiz səslə deyirəm:

– Salam...

– Salam...